**Bakı Mühəndislik Universitetinin**
**İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

**Mündəricat**


**Giriş ........................................................................................................................ 4**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar ................................................ 4**

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri ............................. 5**

**Qiymətləndirmənin icmalı ........................................................................................ 5**

**1. STRATEJİ İNKİŞAF ........................................................................................ 5**

**2. KEYFİYYƏT TƏMİNATI ................................................................................... 14**

**3. TƏLİM VƏ TƏDRİS ........................................................................................ 25**

**4. ELMİ TƏDQİQAT ............................................................................................ 81**

**5. İDARƏETMƏ SİSTEMİ ................................................................................... 104**

**6. İNFRASTRUKTUR .......................................................................................... 124**

**7. BEYNƏLMİLƏLLƏŞMƏ ................................................................................... 130**

**Komissiyanın istiqamətlər üzrə təhlili ...................................................................... 149**

**Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi ............. 162**

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ...................... 164**

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi .... 164**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Qasımov Vaqif Əlicavad oğlu - Azərbaycan Texniki Univeristeti, Kompüter texnologiyaları kafedrasının müdiri, texnika elmləri doktoru, professor

**Üzvlər:**

2. Məmmədov Ceyhun İsa oğlu - Xəzər Univeristeti, İqtisadiyyat və Menecment fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru;
3. Kərimova Sevil Əlifəttah qızı - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Təsviri sənətin tarixi və nəzəriyyəsi kafedrasının tam ştat dosenti, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent;
4. Kərimov Fərid Zülfi oğlu - Azərbaycan Memarlıq və İnşaat Universiteti, Landşaft memarlığı kafedrasının baş müəllimi, Memarlıq üzrə fəlsəfə doktoru, dosent əvəzi;
5. Hidayətli Güldənə Şahin qızı - Bakı Ali Neft Məktəbi, Keyfiyyət təminatı şöbəsinin rəisi;
6. İmanova Əliyeva Bağçagül İman qızı - Bakı Ali Neft Məktəbi, Davamlı təhsil fakültəsinin dekan müavini;
7. Samer El Zant - Azərbaycan Fransız Universiteti, Data science və süni intellekt ixtisası üzrə magistr proqramının koordinatoru, dosent (beynəlxalq ekspert);
8. Nəcəfova Samirə Akifovna - ALSTOM şirkəti, insan resursları üzrə menecer (işəgötürən);
9. Fətullayev Vaqif Tahir oğlu - Azərbaycan Dövlət Pedaqoji Universiteti, Strateji İnkişaf Mərkəzinin mütəxəssisi, ADPU SABAH magistratura proqramının Təlim və tədrisin təşkili və metodikası ixtisaslaşması üzrə II kurs magistr tələbəsi.

**Giriş**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Mühəndislik Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | - |
| Təhsil müəssisəsinin rəhbəri | Yaqub Maksim oğlu Piriyev |
| Fakültələrin sayı | 4 |
| Kafedraların sayı | 21 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 37 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 18+1 MBA (27+6 MBA) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 10 (6 elm sahəsi üzrə) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Bakalavriat: 4486<br>Magistratura: 405<br>Doktorantura: 21<br>Elmlər doktorluğu proqramı üzrə: yoxdur |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 261 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 176 (54/122) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@beu.edu.az<br>Telefon : +994 (12) 349 99 66/67 |
| Müəssisənin hüquqi ünvanı | Xırdalan, H. Əliyev küç., 120, AZ0101, Abşeron, Azərbaycan |
| Müəssisənin faktiki ünvanı | Xırdalan, H. Əliyev küç., 120, AZ0101, Abşeron, Azərbaycan |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri
## Qiymətləndirmənin icmalı

# 1. STRATEJİ İNKİŞAF

## *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Bakı Mühəndislik Universitetinin (BMU) 2020/2023-cü illəri əhatə edən qısa və ortamüddətli dövr üçün Strateji İnkişaf Proqramı Bakı Mühəndislik Universitetinin Himayəçilər Şurasının 11 fevral 2020-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. Himayəçilər Şurasının SİP üzrə fəaliyyət istiqamətlərinə ali təhsil müəssisəsinin strateji inkişaf istiqamətlərini müəyyən etmək (Əsasnamə, bənd 2.1.1), strateji inkişaf proqramını təsdiq etmək və onun icrasına nəzarət etmək (Əsasnamə, bənd 3.1.1) daxildir. Qeyd etmək lazımdır ki, SİP Himayəçilər Şurasının 11 fevral 2020-ci il tarixli iclasının qərarı ilə təsdiq edilsə də Akkreditasiya Komissiyasına təqdim edilən SİP imzasız və möhürsüzdür.

SİP-in ATM-in internet səhifəsində hər kəs üçün əlçatanlığı təmin edilmişdir.

https://beu.edu.az/root_panel/upload/files/beu_edu_az/documents/BMU_SiP_2020-2023%20NM%2011.02.2020.pdf

ATM-in növbəti SİP-i hazırlanan zaman hüquqi və normativ tələblər çərçivəsində SİP-in təsdiqlənməsi tövsiyə edilir.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ATM-in SİP sənədində universitetin missiyası, dünya standartlarına cavab verən təhsil və innovasiyada fundamental biliklərlə, yerli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli yüksək ixtisaslı mütəxəssislər yetişdirmək olaraq qeyd olunmuşdur. Bu missiyanı reallaşdırmaq üçün BMU-nun strateji inkişaf siyasəti, tədris prosesinin səmərəliliyini artırmağı, universitetin maliyyə-iqtisadi stabilliyini təmin etməyi, infrastrukturun inkişafını dəstəkləməyi, kadr potensialını gücləndirməyi, elmi-pedaqoji və tədris-köməkçi işçilərinin motivasiyasını təkmilləşdirməyi və məzunların işlə təminatını artırmağı hədəfləyir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Universitetdə infrastrukturun inkişaf tempinin aşağı olması, tələb olunan sayda auditoriyanın olmaması, tədris prosesində innovativ texnologiyaların məhdud olması,

dövlət və özəl sektordan elmi tədqiqatlara yönələn sifarişlərin olmaması, işəgötürənlərlə nəticəyə əsaslanan əməkdaşlıq əlaqələrinin tələb olunan səviyyədə qurulmaması Himayəçilər Şurasının 11 fevral 2020-ci il tarixli iclasında vurğulanmış və universitetin 2020/2023-cü illər üzrə strateji baxışında infrastrukturun təkmilləşdirilməsi, əmək bazarında rəqabətədavamlı yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, elmi-tədqiqat və innovasiya fəaliyyətinin gücləndirilməsi, universitet və iş dünyası əlaqələrinin genişləndirilməsi planlaşdırılmışdır.

İşəgötürənlərin nümayəndələri olaraq Himayəçilər Şurasının üzvü “Azərkimya İstehsalat Birliyi”nin sədri İmran Arzumanzadənin kimya sənayesində baş verən yeniliklər və inkişaf istiqamətləri barədə məruzəsini, Beynəlxalq SAP şirkətinin Azərbaycan üzrə rəhbəri və Himayəçilər Şurasının üzvü Rüfət Hacıəlibəyovun universitetin SİP-ində innovasiya və informasiya texnologiyaları üzrə hədəflərinin reallaşdırılması üçün “SAP Azerbaycan” şirkəti ilə əməkdaşlıq çərçivəsində proseslərin avtomatlaşdırılması və informasiya texnologiyaları sahələri üzrə müxtəlif mövzularda tələbələr və müəllimlər üçün seminarların zəruriliyi barədə məruzələrini nümunə gətirmək olar.

Eyni zamanda SİP-in 2020/2023-cü illər üzrə hədəfləri olaraq ISO 9001 idarəetmə sisteminin qurulması, Universitetin Texnoparkının nəzdində Texnoloji Transfer və Patent ofisinin qurulması, elmi-tədqiqat işlərinin sənaye müəssisələri ilə birgə işinin təşkili, iş dünyası ilə kafedraların koordinasiya sisteminin qurulması, işəgötürənlər-universitet-təhsilalanlar arasında işlək mexanizmin qurulması planlaşdırılmışdır.

Əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinin daha optimal müəyyən edilməsi üçün müxtəlif ixtisaslar üzrə mütəxəssislərdən ibarət işçi qrupunun yaradılması, işəgötürənlər arasında sorğunun keçirilməsi və müvafiq sənədləşmələrin aparılması məqsədəuyğun hesab olunur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

Universitetin Strateji İnkişaf Proqramının prioritet istiqamətləri Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının tələbləri əsasında tərtib edilmiş, BMU-nun qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu təmin edilmişdir:

1. Universitet infrastrukturunun təkmilləşdirilməsi (18 hədəf);
2. Tədris prosesinin təkmilləşdirilməsi (13 hədəf);
3. Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi (13 hədəf);
4. Beynəlxalq əlaqələrin inkişafı (12 hədəf);
5. Müəssisələrlə əlaqələr və karyeranın inkişafı (9 hədəf);
6. Sosial və ictimati fəaliyyətlərin təkmilləşdirilməsi (10 hədəf);
7. Maliyyə-iqtisadi fəaliyyətlərin təkmilləşdirilməsi (8 hədəf).

Müəyyən edilən prioritet istiqamətlər universitetin qarşısında qoyulan məqsəd və hədəflərlə uyğunluq təşkil edir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

Elmi nailiyyətlərdən və innovativ təlim-tədris texnologiyalarından istifadə edərək əmək bazarının tələblərinə cavab verən mütəxəssislərin hazırlanması, tədris prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması, akademik potensialın gücləndirilməsi, elmi-tədqiqat və innovasiya fəaliyyətinin artırılması, universitet-iş dünyası əlaqələrinin genişləndirilməsi, sosial və ictimai fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədilə 83 hədəf müəyyən edilmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Bu sənədin 1.1.4-cü bəndində qeyd olunan hər istiqamət üzrə qısa və ortamüddətli dövrü əhatə edən tədbirlər, onlara aid icra müddətləri, icraya cavabdeh olan struktur bölmələri və tədbirlərin gözlənilən nəticələri SİP-də yer almışdır.

Eyni zamanda SİP-də öz əksini tapan tədbirlərin əksər hissəsi müvafiq struktur bölmələrin illik fəaliyyət planlarına daxil edilmişdir.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

Meyar üzrə qiymətləndirmə üçün Akkreditasiya Komisiyasına təqdim edilən aşağıdakı 2 sənəd əsas olaraq götürülmüşdür:

1. Bakı Mühəndislik Universitetinin Strateji İnkişaf Proqramı;
2. “SİP-in hazırlanması və icrası”nı təsdiq edən sənəd.

SİP-də öz əksini tapan tədbirlər planında əksər fəaliyyətlər üzrə ölçüləbilən meyarlar və gözlənilən nəticələr qoyulmuşdur. Lakin kəmiyyət göstəricilərinin müəyyən edilməsini əsaslandıran, əvvəlki illər ilə müqayisəli təhlili əks etdirən müvafiq sənəd mövcud deyil.

“SİP-in hazırlanması və icrası” sənədində SİP-də nəzərdə tutulan tədbirlərin bir hissəsi öz əksini tapmamışdır. Buna misal olaraq SİP-də Tədris prosesinin təkmilləşdirilməsi üzrə tədbirləri misal gətirmək olar. Eyni zamanda həmin sənəddə bir sıra tədbirlər üzrə ölçüləbilən göstəricilər qeyd edilməmişdir. Bu səbəbdən SİP-in Universitetin qarşısına qoyduğu bir sıra tədbirlərin icra vəziyyətinin obyektiv qiymətləndirilməsini çətinləşdirir.

Universitetdə SİP üzrə fəaliyyətə nəzarət edən və bu fəaliyyətin nəticələrini qiymətləndirən struktur bölməsi müəyyən edilməmişdir. Sahə baxışı zamanı bu

məsələlərə nəzarətin universtitetin Himayəçilər Şurasının katibinə həvalə edildiyi bildirilmişdir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

SİP-in 2020/2023-cü illər üzrə fəaliyyət planında tədbirlər üzrə icraçılar qeyd edilmişdir. Eynilə, SİP-də nəzərdə tutulan fəaliyyət və tədbirlərin icrasına ayrılan resurslarla bağlı məlumatın Özünütəhlil Hesabatı ilə birlikdə təqdim edilən "SİP-in hazırlanması və icrası" sənədində müvafiq bölmələr üzrə əks olunması gözlənilmişdir. Bu sənəddə SİP-in əsas tutduğu 7 istiqamət üzrə resursların ayrılması barədə məlumat tam təqdim olunmamışdır. Təqdim olunmuş məlumat Cədvəl 1.1-də göstərildiyi kimidir:

**Cədvəl 1.1.**

**SİP-in əsas istiqamətləri üzrə resursların ayrılma vəziyyəti**

| No | Strateji inkişaf proqramında qeyd olunmuş əsas fəaliyyət istiqamətləri | Tədbirin icrası üçün nəzərdə tutulan maliyyə vəsaiti | Tədbirin icrası üçün nəzərdə tutulan insan resursu | Tədbirin icrası üçün nəzərdə tutulan infrastruktur resursu |
|---|---|---|---|---|
| 1 | Universitet infrastrukturun təkmilləşdirilməsi | - | - | - |
| 2 | Tədris prosesinin təkmilləşdirilməsi | - | - | - |
| 3 | Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi | - | + | - |
| 4 | Beynəlxalq əlaqələrin inkişafı | - | + | + |
| 5 | Müəssisələrlə Əlaqələr və Karyera departamentinin inkişafı | - | - | - |
| 6 | Sosial və ictimai fəaliyyətlərin təkmilləşdirilməsi | - | - | - |
| 7 | Maliyyə-iqtisadi fəaliyyətlərin təkmilləşdirilməsi | - | - | - |

"SİP-in hazırlanması və icrası" sənədinin natamam doldurulmasının izahı ATM tərəfindən verilməmişdir. Bütün bu hissələrin ATM tərəfindən doldurulması fəaliyyətlərin izlənilməsi üçün böyük əhəmiyyət kəsb edir.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında və SİP sənədində maliyyə təminatına dair ətraflı məlumat öz əksini tapmamışdır. Akkreditasiya Komissiyasına təqdim edilən “Maliyyə Təminatı” sənədində SİP-in maliyyə təminatına dair müvafiq büdcə qeyd edilməmişdir, ancaq universitetin qarşısına qoyduğu bir sıra hədəflərə aid maliyyə məlumatlar öz əksini tapmışdır və SİP-in “Beynəlxaql əlaqələrin inkişafı” üzrə 4-cü istiqamətinin icrasına sərf edilmiş maliyyə vəsaitində artım müşahidə olunmuşdur.

**Cədvəl 1.2.**

**ATM-in maliyyə vəsaitlərinin planlaşdırılması vəziyyəti**

| № | **Təhsil müəssisəsinin maliyyə təminatı (ümumi xərclərə nisbəti, % ilə)** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|
| 1 | ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım dinamikası (əvvəlki il ilə müqayisə %-lə) | | -38 | -50 | 1156 | -20 |
| 2 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayrılan vəsait | 0.253 | 0.137 | 0.065 | 0.559 | 0.427 |
| 3 | Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait | 0.015 | 0.002 | 0.006 | 0.001 | 0.006 |
| 4 | Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait | 0.003 | 0 | 0 | 0 | 0.071 |
| 5 | Beynəlmilləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 0 | 0 | 3.912 | 15.318 | 37.268 |
| | **Ümumi xərclər, manatla** | 9419193.03 | 10823108.82 | 11533567.91 | 16722158.19 | 17525106.38 |

Buna görə də növbəti dövr üçün SİP hazırlanarkən maliyyə təminatına dair təfsilatlı məlumatların əvvəlcədən öz əksini tapması məqsədəuyğundur.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

Qeyd olunan məqamlar Universitetin SİP-ində əhatəli şəkildə öz əksini tapmışdır. SİP-də qeyd olunan Universitetin missiyası, İnkişaf siyasəti, SİP icrasında istifadə olunan prinsiplər özlərində həmin məqamları ehtiva edir. Eyni zamanda, bir sıra strateji məqsədlər də həmin məqamların təmin olunmasına töhfə verir, onlardan bəziləri aşağıda nümunə olaraq göstərilmişdir:

1.3 Gənc alimlər və mütəxəssislər üçün xidməti yaşayış evlərinin inşası;

3.1 Universitetin Texnoparkının nəzdində Texnoloji Transfer və Patent Ofisinin qurulması;

3.7 İnnovasiya və ixtiraların patentləşdirilməsi;

3.13 Elmi Tədqiqat İşlərinin (ETİ) AMEA-nın instutları, layihə təşkilatları, sənaye və digər müəssisələr ilə birgə təşkili;

5.4 İş dünyası ilə kafedralar arasında koordinasiya sisteminin qurulması;

5.5 Dissertasiya mövzularının müəyyənləşdirilməsində iş dünyasından sifarişlərin qəbulu;

6.2 və 6.3 BMU əməkdaşları və tələbələri üçün sosial-mədəni tədbirlərin təşkili.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Sahə baxışı zamanı ATM-in əvvəlki dövr üçün SİP-nin mövcudluğu barədə məlumat əldə edilməmişdir. Himayəçilər Şurasının 11.02.2020-ci il tarixli iclasının protokolunda BMU-nun 2017/2019-cu illər üzrə fəaliyyəti haqqında hesabatının xülasəsi və eyni zamanda 2020/2023-cü il üçün SİP-in müzakirəsi və təsdiqi öz əksini tapmışdır. Lakin, həmin tarixə qədər SİP-in əvvəlki illərdə icra vəziyyətinin müzakirəsini və 2020/2023-cü il üçün SİP-in hazırlanma mərhələlərini əks etdirən iclasların protokollarını əldə etmək mümkün olmamışdır.

Növbəti dövr üçün SİP hazırlanarkən hesabatlılığı təmin etmək məqsədilə keçirilən görüşlərin, iclasların və s. sənədləşdirilməsi tövsiyə olunur.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

Həm Özünütəhlil Hesabatının təhlili zamanı, həm də sahə baxışı zamanı ATM tərəfindən GZİT (SWOT) təhlili aparılaraq ATM-in güclü və zəif tərəflərinin, imkanlarının və təhdidlərin SİP-də öz əksini tapması aşkar edilmişdir. Həmçinin onu da qeyd etmək lazımdır ki, SİP hazırlanarkən müvafiq istiqamətlər üzrə təhlilin nəticələri nəzərə alınmışdır.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında maraqlı tərəflər olaraq müxtəlif hədəf qruplarının (rektor, prorektorlar, struktur bölmələrinin rəhbərləri, tələbələr və əməkdaşlar) tövsiyələri əsasında SİP-in işlənib hazırlanması qeyd olunsa da sahə baxışı zamanı məlum olmuşdur ki, maraqlı tərəflərin, xüsusilə, işəgötürənlərin, valideynlərin, tələbələrin (xarici və yerli), müəllimlərin SİP-in hazırlanmasında birbaşa iştirakı təmin edilməmişdir.

SİP Himayəçilər Şurası tərəfindən hazırlanmış və onun əlçatanlığı bir müddət müəyyən struktur bölmələri üzrə təmin edilməmişdir. Eyni zamanda qeyd edilən maraqlı tərəflərin SİP-in hazırlanmasında iştirakını və tövsiyələrini əks etdirən heç bir rəsmi sənəd yaxud protokol mövcud deyildir.

Nümunə kimi SİP-in “Beynəlxalq əlaqələrin inkişafı” üzrə 4-cü strateji istiqamətinin əsasında “Xarici əlaqələr və layihələrin idarə olunması” şöbəsinin hazırladığı Beynəlmilləşmə Strategiyasının 3 il sonra 16.05.2023-cü ildə təsdiqlənməsini və 08.02.2021-ci ildə yaradılmış lakin 16.05.2023-cü ildə əsasnaməsi təsdiq edilən “Elm və innovasiya” şöbəsi tərəfindən SİP-in “Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi” üzrə 3-cü strateji istiqamətinin əsasında hazırlanan elmi tədqiqat üzrə genişləndirilmiş və təsdiq edilməmiş strategiyanı qeyd etmək olar.

ATM tərəfindən növbəti SİP hazırlanarkən bütün mümkün maraqlı tərəflərin iştirakının təmin olunması və bununla bağlı müvafiq təsdiqləyici sənədləşmənin aparılması məqsədəuyğundur.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

SİP-in icrası üzrə tədbirlər planında bütün tədbirlər üzrə icraçılar (struktur bölmələr) qeyd edilmişdir.

## *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

Bu sənədin 1.1.13-cü bəndində qeyd edildiyi kimi SİP-in struktur bölmələrinə əlçatanlığı müəyyən müddət sonra təmin edilmişdir. Sahə baxışı zamanı ATM-in bir neçə struktur bölməsinin fəaliyyət planlarının mövcud olmadığı (Məsələn: “Elmi tədqiqat və innovasiya şöbəsi”), kafedralardan nümunə olaraq götürülmüş iş planlarının isə SİP-in strateji istiqamətləri və hədəfləri ilə müəyyən səviyyədə uyğunsuzluğu aşkarlanmışdır. Kafedraların iş planlarında kafedranın strukturunun və müəllim heyətinin təsvirinə geniş yer verilmiş, fakültənin iş planı isə cari işlərdən ibarət olmuşdur. Bu əsasda kafedralar

və fakültənin tərtib etdiyi illik hesabatlar təsviri xarakter daşımış, növbəti tədris ili üçün iş planlarının hazırlanması üçün GZİT təhlilinin aparılması müəyyən edilməmişdir.

SİP-in icrası üzrə struktur bölmələrinin fəaliyyət planlarının SİP-in strateji istiqamətlərinə və hədəflərinə uyğunlaşdırılması və bu əsasda dövri hesabatlarının tərtib edilməsi tövsiyə edilir.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

ATM-nin Özünütəhlil Hesabatında SİP-in icrası üzrə səlahiyyətlərin müvafiq istiqamətlər üzrə prorektorlara və universitetin müvafiq struktur bölmələrinə verildiyi qeyd olunsa da, Akkreditasiya Komissiyasının sahə baxışı zamanı SİP-in icrası ilə bağlı konkret məsul şəxs və ya struktur bölməsi olmadığı və SİP-in icra vəziyyəti ilə bağlı mütəmadi hesabatlılığın olmaması müəyyən olunmuşdur. ATM-in Elmi Şurasının əsasnaməsinin 4-cü maddəsinin 4.1.5 bəndinə əsasən hər il ali məktəbin fəaliyyəti barəsində rektorun hesabatı və 4.1.8-ci bəndinə əsasən vaxtaşırı fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesabatları dinlənilir. Sahə baxışı zamanı fakültələrin və Elmi işlər üzrə prorektorluğun hesabatlarının yalnız MS PowerPoint təqdimat formasında olduğu və Elmi Şurada məruzə olunduğu müəyyən edilmişdir. Belə hesabatlar, bir qayda olaraq, Elmi Şuranın protokoluna məruzəçinin çıxışı kimi daxil edilmiş, hesabatlar isə protokola əlavə olunmamışdır.

Maraqlı tərəflər üçün asanlıqla əldə edilə bilən, ətraflı təhlil və uzunmüddətli istinadlar üçün istifadə oluna bilən, SİP-in strateji istiqamətlərini nəzərə alan, hüquqi və normativ tələblərə uyğun rəsmi hesabat formasının və aydın hesabatılıq mexanizminin olması məqsədəuyğundur.

### 1.2.3 SİP-in icrasının dövri (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in fəaliyyət planının icrası üzrə ATM-in struktur bölmələrinin illik monitorinqi Himayəçilər Şurası tərəfindən aparılır (Əsasnamə, bənd 3.1.1). Lakin sahə baxışı zamanı monitorinq mexanizmini və qiymətləndirmə meyarlarını əks etdirən sənəd aşkarlanmamışdır.

SİP-in icrası üzrə müvafiq monitorinqlərin aparılması ilə bağlı işlərin sənədləşdirilməsi və qiymətləndirmə meyarlarının müəyyən edilməsi tövsiyə olunur.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında struktur bölmələrinin illik monitorinqinin nəticələrinin müzakirəsinin universitetin rektoru tərəfindən təşkil edildiyi qeyd edilmişdir. Himayəçilər Şurasının müvafiq iclaslarının protokollarında rektorun və Himayəçilər Şurasının sədrinin ötən il üzrə universitetin tədris, elm, beynəlxlaq əlaqələr və sosial-ictimai fəaliyyətini əhatə edən hesabatlarının qısa xülasəsi öz əksini tapmışdır.

Müvafiq sənədləşmələr aşağıdakı kimidir:

Protokol N4 – 11.02.2020

- 2017/2019-cu illər üzrə fəaliyyətin hesabatının xülasəsi və eyni zamanda 2020/2023-cü il üçün strateji inkişaf proqramının müzakirəsi və təsdiqi.

Protokol N5 – 12.02.2021

- Himayəçilər Şurasının sədri tərəfindən SİP-in icrasının 2020-ci il üzrə hesabatının qısa xülasəsi;
- SİP-in hər istiqaməti üzrə 2020-ci il tədbirlər planının icra vəziyyətini əks etdirən sənəd (təsdiq olunmamış variantda).

Protokol N6 – 15.07.2022

- ATM-in rektoru tərəfindən SİP-in icrasının 2021-ci il üzrə hesabatının qısa xülasəsi;
- SİP-in hər istiqaməti üzrə 2021-ci il tədbirlər planının icra vəziyyətini əks etdirən sənəd (təsdiq olunmamış variantda);
- 2022-ci il üçün iş planının təsdiqi (Akkreditasiya Komissiyasına tədqim edilməmişdir).

Himayəçilər Şurasının 2023-cü ildə keçirilən iclasının protokolu və SİP-in icrasının 2022-ci il üzrə hesabatı Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

SİP-in icrası üzrə hesabatların tədris illəri üzrə aparılması məqsədəuyğun hesab edilir.

### 1.2.5 SİP-in icrasının dövri (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

Monitorinqin nəticələrinə görə tədbirlərin görülməsi və nəticələrin maraqlı tərəflər üçün əlçatanlığı sahə baxışı zamanı hər hansı rəsmi sənəd ilə təsdiqlənməmişdir. ATM-in 2020/2023-cü illər üzrə SİP-nin hazırlanması və icrasını əks etdirən Akkreditasiya Komissiyasına təqdim edilmiş natamam Excel sənədində tədbirlərin icrası üçün nəzərdə tutulan insan resursunun, infrastruktur resursunun veirlməməsi, nəticə indikatorlarının isə fəaliyyət planı üzrə icra vəziyyəti sütününa əlavə edilməsi monitorinqin nəticələrinin əlçatanlığının necə təmin edildiyi barədə aydın fikir formalaşdırmadığı aşkar edilmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Excel sənədində SİP-in 6 strateji istiqaməti üzrə nəzərdə tutulan tədbirlərinin son icra müddətinin 2021 olduğu, yalnız beynəlxalq əlaqələrin inkişafı üzrə tədbirlərin son icra müddəti 2022-2023 olduğu qeyd edilmişdir. ATM-in SİP üzrə 2022 və 2023-cü illəri əhatə edən yeni fəaliyyət planları mövcud deyildir.

1.2.4 və 1.2.5-ci meyarlardakı qeydləri nəzərə alaraq SİP-in icrasına nəzarət və hesabatlılığın tam təmin olunması üçün strateji inkişaf üzrə struktur bölmənin olması və SİP-lə bağlı məsələləri koordinasiya etməsi məqsədəuyğundur.

# 2. KEYFİYYƏT TƏMİNATI

## *2.1 Keyfiyyət təminatı siyasəti*

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

Universitetin keyfiyyət təminatı siyasəti Akkreditasiya Komissiyasına təqdim edilən "Keyfiyyət Əl Kitabı" sənədində öz əksini tapmışdır. Həmin sənəd BMU Elmi Şurasının 16.05.2023-ci il tarixli "05/2023" nömrəli qərarı ilə təsdiq edilmişdir. Sənədin daxilində ATM-in Keyfiyyət siyasətinə dair ümumi məlumat və siyasətin əsas strateji prinsipləri sadalanmışdır.

"Keyfiyyət əl kitabı" ATM-in Keyfiyyət təminatı komissiyası tərəfindən hazırlanmışdır. Komissiyanın tərkibində Universitetin rəhbərliyi və digər nümayəndələri yer alır, lakin digər maraqlı tərəflər bu Komissiyanın tərkibində tam təmsil olunmamışdır.

"Keyfiyyət əl kitabı"nın məzmununa gəldikdə isə, sənəddə əhatə edilən sahələrdə tələbə mərkəzli yanaşma əsas götürülmüşdür və eyni zamanda da keyfiyyət təminatı proseslərində maraqlı tərəflərin iştirakı nəzərdə tutulmuşdur.

Həmçinin "Keyfiyyət əl kitabının" 5.3-cü bəndində qeyd edilmişdir ki, "Keyfiyyət sahəsində Siyasət, ali rəhbərlik tərəfindən BMU-nun ümumi məqsədlərinə uyğun olaraq işlənib hazırlanmış, sənədli şəkildə rəsmiləşdirilmiş və Universitetin rektoru tərəfindən təsdiq olunmuşdur." Ancaq "Keyfiyyət siyasəti" sənədi Akkreditasiya Komissiyasına ayrıca siyasət sənədi kimi təqdim olunmamışdır.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Universitetin keyfiyyət siyasətini özündə əks etdirən "Keyfiyyət əl kitabı" sənədində müvafiq bölmədə (bənd 5.3) qeyd olunan əsas strateji prinsiplər aşağıdakılardır:

1. Təhsil fəaliyyətinin idarə olunması proseslərinə diqqət yetirərək təkmilləşdirilməyə davamlı inkişafı təmin etmək;
2. Tələbələrin, valideynlərin, müəllimlərin, digər təhsil işçilərinin, işəgötürənlərin, peşə təşkilatlarının və ictimaiyyətin razılığını təmin edən təhsil – idarəetmə və idarəetmə yanaşmasını həyata keçirmək;
3. Təhsildə insan dəyərlərini prioritetləşdirməklə milli və etik dəyərlərə sahib insan yetişdirmək;
4. Universitet – İş dünyası əməkdaşlığını yaxşılaşdırmaq və iş dünyasında ixtisaslı işçi qüvvəsi yetişdirmək;

5. İqtisadi, mədəni və sosial problemləri həll etmək üçün araşdırma aparmaq;
6. Uzaqdan təhsil və həyatboyu öyrənmə sistemini geniş şəkildə inkişaf etdirmək;
7. Beynəlxalq mübadilə və tələbə mübadiləsi layihələrində fəal iştirak etmək;
8. Bolonya prosesinə adaptasiya olunmasını sürətləndirərək Avropa Təhsil Sahəsinə inteqrasiya etmək.

Qeyd edilən prinsiplər ATM-in SİP-ində qoyulan əsas strateji istiqamətlərlə uzlaşır, eyni zamanda sadə və anlaşılan formatda tərtib olunmuşdur. Sənədin hazırlanması zamanı aşağıdakı istinadlar əsas olaraq qəbul edilmişdir:

1. TS-EN-ISO 9001:2015 Keyfiyyət İdaəetmə Sistemləri- Şərtlər;
2. TS-EN-ISO 9000:2015 Keyfiyyət İdarəetmə Sistemləri - Əsas Anlayışlar,Terminlər və Təriflər Bakı Mühəndislik Universitetinin Nizamnaməsi;
3. Bakı Mühəndislik Universitetinin Strateji İnkişaf Planı;
4. Azərbaycan Respublikasının Təhsil Qanunvericiliyi.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

Keyfiyyət siyasətini əks etdirən “Keyfiyyət əl kitabı” sənədi ATM-in Elektron Məlumat Sistemində (EMS) yerləşdirilmişdir və beləliklə, bütün kollektiv üçün əlçatan olmuşdur. Lakin bu sənəd universitetin internet saytında yerləşdirilməmişdir. Təbii ki, bu da “Keyfiyyət əl kitabı”nın universitetdən kənarda əlçatanlığını məhdudlaşdırır. Akkreditasiya Komissiyasının ATM-ə sahə baxışı müddətində Keyfiyyət təminatı şöbəsi tərəfindən komissiya üzvləri üçün EMS və onun funksionallığı haqqında təqdimat edilmişdir. “Keyfiyyət əl kitabı” daxil olmaqla bir çox sənədlərin həmin sistemdə əlçatan olması müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, EMS sistemində həm ATM əməkdaşları, həm də tələbələrin hesabları mövcuddur. Keyfiyyət əl kitabının tələbələr və digər maraqlı tərəflər üçün də əlçatanlığını təmin etmək məqsədilə, sənədin ATM-in veb-saytında da yerləşdirilməsi məqsədəuyğun olardı.

Keyfiyyət siyasətinin ATM daxilində hər kəsə çatdırılması üçün müvafiq şöbə tərəfindən mütəmadi təlimlər və məlumat sessiyaları keçirilir. Sahə baxışı zamanı bunu təsdiq edən sənədlər Akkreditasiya Komisiyasına təqdim olunmuşdur. Eyni zamanda sahə baxışı zamanı struktur bölmələri ilə aparılan müzakirələr nəticəsində də ATM kollektivinin keyfiyyət siyasəti haqqında məlumatlılığının qənaətbəxş səviyyədə olduğu müşahidə olunmuşdur.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Universitetin "Keyfiyyət əl kitabı" sənədində qeyd edilən təlimatlar və universitetin keyfiyyət siyasəti aşağıdakı sahələri əhatə edir:

- Universitetn idarəetmə bölmələri;
- Resursların idarə edilməsi (insan resursları, infrastruktur, iş mühiti);
- Tədris fəaliyyəti;
- Ölçmə, təhlil, təkmilləşdirmə mexanizmləri.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasına keyfiyyət siyasətini dəstəkləyən tədbirlər haqqında məlumat verilmişdir. Bu tədbirlərə Keyfiyyətin təminatı şöbəsinin tələbələr və müəllimlər üçün təşkil etdiyi təlim və seminarları göstərmək olar. Sahə baxışı zamanı Akkreditasiya Komissiyasının üzvləri tələbələr üçün təşkil edilən Orientasiya proqramı ilə tanış olmuşdur. Eyni zamanda ATM əməkdaşları və professor-müəllim heyəti üçün keçirilən bir sıra tədbirləri göstərmək mümkündür. Sözügedən təlimlərin bir qismi ilə aşağıdakı linklərdə öz əksini tapır:

- https://beu.edu.az/az/announcement/muellim-telebe-munasibetlerinde-pedaqoji-ve-psixoloji-meqamlar-movzusunda-telim-155;
- https://beu.edu.az/az/article/ikt-bacariqlarinin-tekmillesdirilmesi-meqsedile-telim-teskil-olunub-906;
- https://beu.edu.az/az/article/training-on-quot-organization-of-education-with-credit-system-quot-organized-for-tutors-and-laboratory-assistants-1131;
- https://beu.edu.az/az/article/beu-hosts-training-for-invigilators-1161;
- https://beu.edu.az/az/article/bmu-da-tehsil-muessiselerinin-akkreditasiyasi-qaydalari-movzusunda-telim-teskil-olunub-1362.

## *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

ATM-in struktur bölməsi olmaqla "Keyfiyyətin təminatı" şöbəsi (öncəki adı Dİstant təhsil və keyfiyyətin təminatı mərkəzi olmuşdur, 26 aprel 2022-ci ildə Elmi Şuranın 05/2022 qərarı ilə adı dəyişdirilmişdir) 7 oktyabr 2020-ci il tarixində yaradılmışdır. Sahə baxışı zamanı şöbənin əsasnaməsi, son üç tədris ilinin fəaliyyət planları və hesabatı əldə edilmişdir.

Eyni zamanda ATM-də 20 aprel 2021-ci il tarixli 2984 nömrəli Əmrlə Keyfiyyət təminatı (KT) komissiyası yaradılmışdır. Komissiyanın sədri rəhbərliyi təmsil edən Tədris işləri üzrə prorektor təyin olunmuşdur. Komissiyanın üzvləri isə Universitetin müxtəlif struktur bölmələrinin nümayəndələrindən ibarətdir, komissiya cəmi 14 nəfərdən ibarətdir. KT komissiyasının vəzifələri, fəaliyyəti, vəzifə və səlahiyyətləri KT şöbəsinin əsasnaməsində yer almışdır. Sahə baxışı zamanı keçirilən görüşlər zamanı Akkreditasiya Komissiyasına KT komissiyasının iclas protokolları təqdim edilmişdir.

KT şöbəsinin və KT komissiyasının fəaliyyəti, vəzifə və səlahiyyətləri üzrə bölgü aparılması, komissiyaya aid əsasnamə tərtib olunması tövsiyə olunur.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

ATM-də fəaliyyət göstərən Keyfiyyətin təminatı komissiyasının üzvləri Universitetin əməkdaşlarından (rəhbərlik, professor-müəllim heyəti, inzibati struktur bölmə nümayəndələri) ibarətdir. Hal-hazırda komissiyada sədr və 14 üzv təmsil olunur.

KT şöbəsinin fəaliyyət planları və hesabatları ilə tanış olduqda Universitet tələbələrinin müxtəlif sorğular vasitəsilə keyfiyyət təminatı sisteminə cəlb edilməsi görünsə də, KT komissiyasının tərkibinə, komissiyanın iclas və müzakirələrinə bütün maraqlı tərəf nümayəndələrinin cəlb edilməsi tövsiyə olunur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

ATM-in SİP sənədində qoyulan məqsədlərə çatmaq üçün tərtib etdiyi tədbirlər planında KT şöbəsi və ya KT Komissiyası qarşısında müəyyən tapşırıqlar qoyulmasa da, SİP-in icrasında istifadə olunan prinsiplərin qorunması üçün keyfiyyət təminatı sisteminin bu işdə dəstəyi vacibdir.

SİP-də qeyd edilən keyfiyyətlilik prinsipi (təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu) KT şöbəsinin əsasnaməsində və fəaliyyət planlarında öz əksini tapmışdır. Bu fəaliyyətlərə misal olaraq ATM-də keçirilən sorğuları, məmnuniyyət anketlərini, tələbə və professor-müəllim heyəti üçün təşkil edilən təlim sessiyalarını göstərmək olar.

Eyni zamanda SİP-də GZİT təhlili çərçivəsində zəif tərəf olaraq idarəetmədə Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi (ISO) sertifikatının olmaması qeyd edilmiş və Universitet infrastrukturunun təkmilləşdirilməsi istiqamətində ISO 9001 sertifikatının alınması məqsəd olaraq qoyulmuşdur. Sertifikat hazırda alınmasa da KT şöbəsinin fəaliyyət planında bu prosesə dair tədbirlər planlaşdırılmış və şöbənin hesabatlarında sertifikatın alınması üçün zəruri olan işlərin görüldüyü göstərilmişdir. Burada vahid sənəd standartlarının tərtibatı, məlumat sisteminin təkmilləşdirilməsi və müəyyən sorğuların keçirilməsini misal olaraq göstərmək mümkündür.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Keyfiyyət əl kitabı sənədinə əsasən ATM-in keyfiyyət təminatı sistemi universitetin fəaliyyətinin səmərəliliyinin təkmilləşdirilməsinə xidmət edən "ölçmə, təhlil, təkmilləşdirmə" prosesi üzərində qurulmuşdur.

Ölçmə və təhlil mərhələsində aşağıdakı üsullar istifadə olunur:

1. KT şöbəsi tərəfindən keçirilən sorğular;
2. Tələbələrlə fərdi və qrup şəklində keçirilən görüşlər (tyutorlar, kafedra rəhbərləri, dekanlar və digər inzibati nəzarətçilər);
3. Tələbə və valideynlər tərəfindən ünvanlanan müraciətlər (ərizələr, şikayətlər);
4. Məzunların çalışdığı müəssisələrlə keçirilən görüşlərdən alınan rəylər.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasının üzvləri keçirilən sorğular və müvafiq hesabatlarla tanış olmuşlar. Sorğu anketləri KT şöbəsi tərəfindən EMS üzərindən hazırlanır. Hər bir struktur bölməyə aid nəticələr həmin bölmə üçün EMS üzərindən əlçatandır. Struktur bölmələri həmin məlumatları təhlil edərək öz hesabatlarına daxil edir, ümumi nəticələr isə KT Komissiyası tərəfindən təhlil olunur və rəhbərliyə təqdim edilir.

Sahə baxışı zamanı bir çox struktur bölmələri ilə müzakirələr aparılmış, hesabatlılıq prosesi təhlil edilmişdir.  Müzakirələr zamanı aydın olmuşdur ki, hesabatlar Elmi Şura iclaslarında təqdim edilir. Elmi Şura protokollarında bu öz əksini tapmışdır. Lakin struktur bölmələrinin hazırladığı hesabatlar əsasən Elmi Şurada çıxış üçün hazırlanmış təqdimatlardan ibarətdir (MS PowerPoint sənədi). ATM-də keyfiyyət təminatı sistemini dəstəkləyən hesabatlılığı təkmilləşdirmək üçün standart hesabat formasının tərtibatı, həmin hesabatların rəhbərlik tərəfindən təsdiq olunması və bütün struktur bölmələrinin bu prosesə cəlb edilməsi tövsiyə olunur.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

ATM-də keyfiyyət təminatı sisteminə əsas məsul strukturlar Keyfiyyətin təminatı şöbəsi və Keyfiyyət təminatı komissiyasıdır. ATM-də təşkil edilən sahə baxışı zamanı Akkreditasiya Komissiyasına şöbənin 07.10.2020-ci il tarixli Elmi Şura qərarı ilə təsdiq edilmiş əsasnaməsi təqdim olunmuşdur. Əsasnamədə şöbənin fəaliyyət istiqamətləri, məqsədi, hüquqları, səlahiyyətləri və ətraflı şəkildə yazılmış 52 bənddən ibarət vəzifələri öz əksini tapmışdır.

Şöbənin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

*2.1.1 Universitetdə tədrisin və idarəetmənin elektronlaşdırılması və informasiya texnologiyalarının istifadəsinin intensivləşdirilməsini təşkil etmək;*

*2.1.2 Universitetdə təhsilin təşkili və keyfiyyətinin yüksəldilməsi üçün praktiki tədbirlər planlaşdırmaq, təşkil etmək və onların nəticələrinə nəzarəti həyata keçirmək;*

*2.1.3 Universitetdə təhsilin və təhsilə dəstək verən bütün xidmət sahələrinin keyfiyyətinin yüksəldilməsini digər struktur bölmələrlə əlaqələndirilmiş formada təşkil və təmin etmək.*

Şöbə əməkdaşlarının vəzifə təlimatlarında şöbənin vəzifələri üzrə bölgü aparılmışdır. Qeyd edilməlidir ki, sahə baxışı zamanı keçirilən görüşlərdə bildirilmişdir ki, SİP-in icrasına nəzarət KT şöbəsinə tapşırılmışdır. Lakin şöbənin vəzifələrində bu məqam öz əksini tapmamışdır.

ATM-in Keyfiyyət təminatı komissiyasının yaradılması haqqında 20 aprel 2021-ci il tarixli 2984 nömrəli əmrdə Komissiyanın hüquq və vəzifələri müəyyən edilməmişdir.

Tövsiyə edilir ki, KT komissiyası və KT şöbəsinin vəzifələrində aydın şəkildə hazırlanmış bölgü aparılsın. Belə ki, bölgünün aparılması yerinə yetirilən fəaliyyətlərin daha dəqiq qiymətləndirilməsinə dəstək olacaqdır.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Akkreditasiya Komissiyasının sahə baxışı zamanı KT şöbəsi tərəfindən son üç tədris ilinə aid təsdiqlənmiş fəaliyyət planları və 2023/2024-cü tədris ili üçün fəaliyyət planı komissiyaya təqdim edilmişdir.

Fəaliyyət planında qeyd edilən istiqamətlər əhatəli şəkildə hazırlanmışdır. Planda öz əksini tapan əsas fəaliyyət istiqamətləri aşağıda verilmişdir:

1. Mərkəzin quruculuq işləri: şöbənin fəaliyyətinin effektivliyinin artırılmasına xidmət edən addımlar;
2. Elektron Universitetin formalaşdırılması: EMS sisteminin təkmilləşdirilməsi üçün atılan addımlar, “Google” hesablarının alınması, virtual dəstək xidmətlərinin/çağrı mərkəzinin formalaşdırılması və s.;
3. Keyfiyyət təminatı - Akkreditasiya: keyfiyyət idarəetmə sisteminin inkişaf etdirilməsi, struktur bölmələrlə yeni strateji planın hazırlanması istiqamətində görüşlərin keçirilməsi, KT komissiyasının tərkibinin yenilənməsi, Akkreditasiya nəticələrinin analizi və s.;
4. Təlimlərin təşkili: akademik, administrativ heyətin peşəkar inkişafı və tələbələrin maarifləndirilməsi;

5. Metodiki fəaliyyətlər: tədris proqramlarının monitorinqi, sillabusların monitorinqi, yeni vizual təlimlərin hazırlanması;
6. Monitorinq və nəzarət: sorğuların təşkili, komissiya və işçi qruplarının işinə nəzarət, təhsilin təşkilinə nəzarət;
7. PR (ictimaiyyətlə əlaqələr): KT şöbəsinin fəaliyyətinə dair məlumatların veb səhifədə də paylaşılması, mütəmadi təqdimatların təşkili;
8. Elmi tədqiqat: sorğuların keçirilməsi, Ömürboyu Təhsil Təlimləri və s.

Göründüyü kimi, KT şöbəsinin fəaliyyət planı tam əhatəli şəkildə tərtib edilmişdir.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

ATM-də keyfiyyət təminatı sistemi ISO 9001:2015 Beynəlxalq Standartına əsasən proses yanaşma məfhumu üzərində qurulmuşdur. ATM-tin keyfiyyət təminatı sistemi, keyfiyyət siyasəti və KT üzrə müvafiq təlimatlar “Keyfiyyət əl kitabı” sənədində öz əksini tapmışdır.

Qeyd olunan sənəd ATM daxilində əməkdaşlar və tələbələr tərəfindən istifadə edilən EMS-də yerləşdirilmişdir. ATM-in keyfiyyət təminatı sisteminin universitetdən kənarda əlçatanlığını təmin etmək üçün “Keyfiyyət əl kitabı” sənədinin rəsmi veb-səhifəsində yerləşdirilməsi tövsiyə olunur.

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

ATM-də keyfiyyət təminatı sistemi üzrə qiymətləndirmə bir neçə istiqamət üzrə müxtəlif sorğular və iclaslar vasitəsilə aparılır.

Tədris keyfiyyətinin ölçülməsi məqsədilə açıq dərslər keçirilir. Açıq dərslərin obyektiv qiymətləndirilməsi və bu prosesin səmərəliliyini artırmaq məqsədilə mövcud olan ölçüləbilən kriteriyalı qiymətləndirmə nəticələrinin kafedralar tərəfindən istifadəsi və emalı üçün əlçatalığın təmin edilməsi tövsiyə olunur.

Tədrisin keyfiyyətinin ölçülməsi məqsədilə hər semestr ərzində tələbələr arasında anonim sorğu keçirilir. Sorğu KT şöbəsi tərəfindən EMS sistemi üzərindən onlayn şəkildə keçirilir. Hər kafedraya aid olan sorğu nəticələri sistem üzərindən kafedra rəhbəri üçün əlçatan olur. Məlumatların təhlili kafedralar tərəfindən keçirilir, Elmi Şurada təqdim edilir və müzakirə olunur. Sahə baxışı zamanı tələbələr arasında keçirilən sorğu nəticələri Akkreditasiya Komissiyasına təqdim edilmişdir.

Tələbələrə göstərilən inzibati və sosial xidmətləri qiymətləndirmək məqsədilə tələbə məmnuniyyət anketi vasitəsilə sorğu keçirilir. Tələbə məmnuniyyət anketinin sualları KT Komissiyasının üzvləri arasında müzakirə olunmuşdur (KT Komissiyasının 20.06.2021-ci il tarixli İclas Protokolu).  Sorğu nəticələri KT şöbəsi tərəfindən təhlil edilərək rəhbərliyə təqdim olunur.

Tələbələrin iştirak etdiyi təcrübə proqramlarının keyfiyyətinin ölçülməsi məqsədilə KT şöbəsi EMS üzərindən sorğu təşkil edir. Sahə baxışı zamanı KT şöbəsi sözügedən sorğunu sistemdə Akkreditasiya Komissiyasına təqdim etmişdir. Lakin Təcrübə şöbəsi tərəfindən sözügedən sorğu nəticələrinin emalı ilə bağlı məlumat təqdim edilməmişdir. Hesabatlılığın təkmilləşdirilməsi və sorğu effektivliyinin artırılması məqsədilə müvafiq təhlilin aparılması tövsiyə olunur.

İşəgötürənlərin keyfiyyət təminatı sisteminə cəlb edilməsi məqsədilə  Müəssisələrlə əlaqələr və karyera departamenti bir sıra şirkətlərlə görüşlər keçirir. Bu sahədə qiymətləndirmə və təhlil prosesinin və monitorinqin effektivliyinin artırılması məqsədilə görüş və iclasların protokollaşdırılması, işəgötürənlər arasında ölçüləbilən kriteriyalardan ibarət sorğuların keçirilməsi tövsiyə olunur.

Eyni zamanda KT şöbəsi ATM-in kollektivi arasında da anket sorğuları keçirir. Bu sorğuların nəticələri ATM rəhbərliyinə təqdim olunur. Sorğu kollektiv arasında keçirildiyi üçün bu prosesə İnsan resursları şöbəsinin cəlb edilməsi tövsiyə olunur.

ATM-də təşkil olunan sahə baxışı zamanı AK tələbələr arasında anonim sorğu təşkil etmişdir. Sorğuda bakalavr səviyyəsində təhsil alan 1, 2, 3 və 4-cü kursda tələbələri iştirak etmişdir. Ümumilikdə sorğuda 181 tələbə sorğu anketini doldurmuşdur. Sorğu nəticələri aşağıda təqdim edilmişdir.

**Diaqram 2.1.**
**Tələbələr arasında keçirilən sorğunun nəticəsi**









Qeyd etmək lazımdır ki, AK tərəfindən keçirilən sorğu nəticələri ATM-in təqdim etdiyi sorğu nəticələri ilə uyğunluq təşkil edir.

Ümumilikdə keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmə ATM-in əsas fəaliyyət istiqamətlərini əhatə etmişdir. Lakin aparılan təhlil nəticələri əsasında görülən önləyici və düzəldici fəaliyyətlər üzrə hesabatların hazırlanması tövsiyə olunur.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

ATM-in keyfiyyət təminatı sistemi üzrə fəaliyyətə cəlb olunan struktur bölmələri illik hesabatlarını Elmi Şurada təqdim edir. Eyni zamanda bir sıra təhlil nəticələri KT Komissiyasının iclaslarında müzakirə olunur.

Qeyd etmək lazımdır ki, ATM-də vahid formatlı və bütün struktur bölmələri tərəfindən birgə hazırlanan illik özünütəhlil hesabatı sənədi mövcud deyildir. Hesabatlılığın və KT sisteminə cəlb olunan struktur bölmələri arasında kommunikasiyanın effektivliyinin artırılması məqsədilə, sözügedən hesabat formasının hazırlanması tövsiyə olunur.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

ATM-də əvvəllər akkreditasiya keçirilmədiyi, hazırda isə ilk Akkreditasiya keçirildiyi üçün bu meyar üzrə qiymətləndirmə aparmaq mümkün olmamışdır.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

ATM-in keyfiyyət təminatı sistemi üzrə bir sıra fəaliyyətlərin təhlili və qiymətləndirilməsi aparılır. Maraqlı tərəflərin rəyləri və məmnunluq səviyyəsini ölçmək üçün müxtəlif sorğu

və görüşlər keçirilir. ATM-də keçirilən sorğular və onların təhlili ilə bağlı ətraflı məlumat Hesabatın 2.2.8-ci bəndində öz əksini tapmışdır.

Həmin bənddə qeyd edilən təhlil alətlərindən əlavə ATM-də tələbələrin anonim rəylərini toplamaq məqsədilə xüsusi qutular yerləşdirilmişdir. Sahə baxışı zamanı bu qutuların effektivliyi haqqında müzakirədə aydın olmuşdur ki, rəylər anonim toplansa da, dəhlizlərdə quraşdırılmış kameralar səbəbindən tələbələr məxfiliyin qorunmamasına görə bu qutulardan az istifadə edirlər. Müzakirə zamanı KT şöbəsinin nümayəndəsi həmin qutuların yerlərinin dəyişdirilməsinin planlaşdırıldığı haqqında məlumat vermişdir.

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

#### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

ATM-də daxili keyfiyyət təminatı sisteminin qurulması, kommunikasiyası və icrası üzrə fəaliyyəti Keyfiyyətin təminatı şöbəsi və Keyfiyyət təminatı komissiyası təşkil edir. KT şöbəsi birbaşa ATM-in rektoruna tabedir.

Sahə baxışı çərçivəsində həm KT sisteminə rəhbərliyi həyata keçirən, həm də bu prosesə cəlb edilən digər struktur bölmə nümayəndələrinin ATM-in KT sistemi haqqında məlumatlı olması müşahidə edilmişdir.

ATM-də qurulan Keyfiyyət idarəetmə sistemi istiqamətində KT şöbəsi ATM-in heyəti üçün bir sıra təlimlər keçirmişdir. Təlimlərlə bağlı məlumat KT şöbəsinin fəaliyyət planlarında və illik hesabatlarında mövcuddur. Əlavə olaraq sahə baxışı müddətində keçirilmiş görüşlər zamanı Akkreditasiya Komissiyasına təqdim edilən KT komissiyasının protokollarında da bu məlumat öz əksini tapmışdır.

KT sisteminə rəhbərliyi keçirən məsul şəxslər və akademik/inzibati heyət arasında kommunikasiya ATM-in korporativ elektron poçtu vasitəsilə keçirilir. Qeyd etmək lazımdır ki, KT şöbəsinin illik fəaliyyət planlarında kommunikasiyanın yaxşılaşdırılması məqsədilə kənardan cəlb edilən müəllimlər üçün də ATM-in korporativ elektron poçt ünvanlarının açılması bəndi öz əksini tapmışdır.

Eyni zamanda bir sıra məlumatlar və sənədlər ATM-in EMS sistemi üzərindən həyata keçirilir. Buna misal olaraq sistemdə yerləşdirilən və aidiyyəti şəxslər üçün açıq olan sorğu nəticələri, universitetə aid sənəd şablonları, hüquqi-normativ sənədlərin həmin sistemdə əlçatan olmasını göstərmək olar.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

BMU-da keyfiyyət təminatı sistemi müvafiq şöbənin qurulması ilə 2020-ci ildən yaradılmışdır. 2021-ci ildə isə KT Komissiyası yaradılaraq bu prosesə ATM-in rəhbərliyi və müxtəlif struktur bölmələrin nümayəndələri cəlb edilmişdir.

ATM-də keyfiyyət təminatı sahəsində bir sıra fərqli tədbirlər görülür. Bura tələbələr, akademik və inzibati heyət arasında keçirilən müxtəlif sorğular, digər maraqlı tərəflərlə (məzun, işəgötürən) təşkil edilən görüşlər aiddir.

ATM-in keyfiyyət təminatı üzrə bələdçi olaraq təsdiq edilən "Keyfiyyət əl kitabı" adlı sənəd mövcuddur. Sənəddə hər bir istiqamət üzrə keyfiyyət təminatının təşkil olunmasına dair məlumat mövcuddur. Universitetin ölçmə, təhlil və monitorinq fəaliyyəti üzrə təlimatlar da bu sənəddə öz əksini tapmışdır.

Akkreditasiya Komissiyasına təqdim edilən sənədlər və sahə baxışı çərçivəsində keçirilmiş müzakirələrə əsasən qeyd etmək olar ki, ATM-in KT şöbəsi "Keyfiyyət əl kitabı" sənədinin hazırlanmasında yaxından iştirak edib və orada qeyd edilmiş təlimatlar üzərində öz işini qurmuşdur. Təsdiq olunan prosedurlar əsasında şöbə müvafiq sorğular keçirir və nəticələr aidiyyəti struktur bölmələrə (fakültə, kafedra) yönəldilir. Müvafiq məsul şəxslərin bu nəticələri emal edərək rəhbərliyə təqdim etməsi nəzərdə tutulur.

Sahə baxışı müddətində akademik məmnuniyyət istiqamətində aparılan sorğu hesabatların fakültə tərəfindən ildə bir dəfə Elmi Şurada təqdimat (Power Point slaydları) şəklində nümayiş etdikləri aydın olmuşdur. Ancaq bu prosesin izlənməsi və hesabatlılığın təmin olunması üçün müəyyən bir struktur və ya məsul şəxs təyin olunmamışdır. Tövsiyə olunur ki, hər bir təhlil üzrə hesabat standartları müəyyən edilsin, hesabatların vaxtında və standarta uyğun şəkildə təqqim olunmasına nəzarət edən məsul şəxs/bölmə təyin edilsin.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

ATM-də KT bələdçisi olan "Keyfiyyətin əl kitabı" sənədinin 5-ci hissəsində (5.1-ci bənd) aşağıdakı məlumat öz əksini tapmışdır.

Universitet rəhbərliyi, Keyfiyyət idarəetmə sisteminin inkişaf etdirilməsi, tətbiq olunması və effektivliyini daim təkmilləşdirilməsi məqsədi ilə:

- Hüquqi çərçivədə müştəri gzləntilərinin və tələblərinin yerinə yetirilməsinin vacibliyini işçilərə universitetdaxili təlimlərlə çatdırır;
- Davamlı olaraq universitet idarəetməsinin nəzərdən keçirilməsi ilə bağlı toplantılar keçirir;
- Resursları təmin edir.

ATM-də KT şöbəsinin və KT Komissiyasının yaradılması, Keyfiyyət idarəetmə sisteminin qurulması, bu istiqamət üzrə təlimlərin, maarifləndirmənin keçirilməsi BMU rəhbərliyinin institusional dayanıqlılığın təmin olunması üzrə maraqlı olmasının göstəriciləridir.

#### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

ATM-in Keyfiyyət təminatı şöbəsi tərəfindən ATM-də çalışan akademik və inzibati heyət üçün keyfiyyət təminatı istiqamətində təlimlər təşkil edilir. Təlimlər haqqında məlumat şöbənin fəaliyyət planlarında, hesabatlarında əks olunmuşdur. Təlimlərin keçirilməsini sübut edən linklər, yazışmalar, hesabatlar Akkreditasiya Komissiyasına sahə baxışı çərçivəsində təqdim edilmişdir.

Sahə baxışı zamanı struktur bölmələrlə keçirilən görüşlər müddətində, universitet heyətinin KT sistemi haqqında məlumatlı olması müşahidə edilmişdir. Eyni zamanda KT şöbəsi tərəfindən Keyfiyyət idarəetmə sistemi çərçivəsində hazırladığı təlimatları, sənəd standartları ilə bağlı məlumatlılıq səviyyəsi yüksək olaraq qiymətləndirilmişdir.

Qeyd etmək lazımdır ki, Akkreditasiya Komissiyasının müşahidələrinə əsasən kommunikasiya və koordinasiya cəhətindən yuxarıdan aşağı istiqamətində (yəni KT sistemi üzrə rəhbərlik edən bölmədən digər bölmələrə) yaxşı qurulsa da, əks əlaqə üzrə koordinasiyada təkmilləşdirmə işləri aparılması tövsiyə olunur. Buna səbəb struktur bölmələr qarşısında qoyulan məqsədlər üzrə monitorinqin aparılmamasıdır. Fakültələr və struktur bölmələr hesabatları birbaşa rəhbər qarşısında Elmi Şura müddətində təqdim etdikləri üçün izləmə prosesi çətinləşir. Universitetin hər bir fəaliyyət istiqaməti üzrə təhlil və monitorinq aparılmasına nəzarət edən məsul şəxs/struktur bölmə/komissiya təyin olunması tövsiyə olunur.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ATM-də tələbə qəbulu sifarişləri ənənəvi olaraq universitet rəhbərliyinin müəyyən etdiyi qaydada hazırlanır. Bu zaman təhsil proqramlarının və təhsil standartlarının tələblərinin nəzərə alınması məsələsinə önəm verilmir. Universitetə sahə baxışı zamanı qeyd olunmuşdur ki, qəbul planları fakültə elmi şuralarında müzakirə olunur və rəhbərliyə təqdim edilir. Lakin bunu təsdiq edən protokollar ATM tərəfindən təqdim olunmamışdır. Eləcə də qəbul proqnozlarının şifahi müzakirələr yolu ilə müəyyən edildiyi və bu zaman

kafedraların, professor-müəllim heyətinin fikirlərinin nəzərə alındığını aydınlaşdırmaq mümkün olmamışdır. Sahə baxışı zamanı müəyyən edilmişdir ki, qəbul sifarişləri hazırlanarkən universitetin imkanları (universitetdə olan auditoriyaların, laboratoriyaların imkanları, tələbə yerlərinin, professor-müəllim heyətinin sayı və s.) diqqət mərkəzində saxlanılmır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na və "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı" uyğun olaraq, BMU-da təhsilin bakalavr səviyyəsində 25 müxtəlif ixtisas üzrə, magistratura səviyyəsində isə 19 ixtisas (o cümlədən MBA – 1) və 33 ixtisaslaşma (o cümlədən MBA – 6) üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Bakalavr səviyyəsində 25 ixtisasdan 10-u üzrə əlavə olaraq ingilis dilində qəbul keçirilir, eləcə də 4 ixtisas ("İnformasiya texnologiyaları", "Elektronika mühəndisliyi", "İnşaat mhəndisliyi" və "Elektrik mühəndisliyi") üzrə Dövlət proqramı çərçivəsində maliyyələşdirilən ingilis dilində ikili diplom üzrə təhsil həyata keçirilir. 2022/2023-cü tədris ili üçün bakalavr və magistr (o cümlədən MBA) səviyyələrində ixtisasların siyahısı və qəbul 3.1 və 3.2 saylı cədvəllərdə verilmişdir.

**Cədvəl.3.1.**

**Bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısı**

| Sıra №-si | İxtisasın adı | Qəbul planı | Faktiki qəbul |
|---|---|---|---|
| 1. | Biznesin idarə edilməsi (tədris Azərbaycan dilində) | 30 | 29 |
| 2. | Dizayn (tədris Azərbaycan dilində) | 15 | 15 |
| 3. | Dizayn (tədris ingilis dilində) | 15 | 15 |
| 4. | Dövlət və bələdiyyə idarəetməsi (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 5. | Ekologiya mühəndisliyi (tədris Azərbaycan dilində) | 20 | 20 |
| 6. | Ekologiya mühəndisliyi (tədris ingilis dilində) | 15 | 14 |
| 7. | Elektrik və elektronika mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 8. | Elektrik və elektronika mühəndisliyi (tədris ingilis dilində - İkili diplom proqramı) | 64 | 60 |
| 9. | Energetika mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 10. | İqtisadiyyat (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 11. | İnformasiya texnologiyaları (tədris Azərbaycan dilində) | 50 | 50 |
| 12. | İnformasiya texnologiyaları (tədris ingilis dilində - ikili diplom proqramı) | 32 | 32 |
| 13. | İnformasiya texnologiyaları (tədris ingilis dilində) | 25 | 25 |
| 14. | İnformasiya təhlükəsizliyi (tədris Azərbaycan dilində) | 25 | 25 |

| | | | |
|---|---|---|---|
| 15. | İnşaat mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 25 |
| 16. | İnşaat mühəndisliyi (tədris ingilis dilində - ikili diplom proqramı) | 32 | 24 |
| 17. | İnşaat mühəndisliyi (tədris ingilis dilində) | 25 | 25 |
| 18. | Kimya mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 19. | Kimya mühəndisliyi (tədris ingilis dilində) | 30 | 30 |
| 20. | Kompüter elmləri (tədris Azərbaycan dilində) | 25 | 25 |
| 21. | Kompüter elmləri (tədris ingilis dilində) | 25 | 25 |
| 22. | Kompüter mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 25 |
| 23. | Kompüter mühəndisliyi (tədris ingilis dilində) | 25 | 25 |
| 24. | Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 29 |
| 25. | Maliyyə (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 26. | Maşın mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 22 |
| 27. | Mexanika mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 23 |
| 28. | Mexanika mühəndisliyi (tədris angilis dilində) | 25 | 9 |
| 29. | Memarlıq (tədris Azərbaycan dilində) | 15 | 15 |
| 30. | Memarlıq (tədris ingilis dilində) | 15 | 12 |
| 31. | Mühasibat (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 32. | Nəqliyyat tikintisi mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 20 |
| 33. | Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 34. | Proseslərin avtomatlaşdırılması mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 30 |
| 35. | Radiotexnika və telekommunikasiya mühəndisliyi (tədris Azərbaycan dilində) | 30 | 26 |
| 36. | Sənaye mühəndisliyi (tədris Azərbaycan dilində) | 25 | 25 |
| 37. | Sənaye mühəndisliyi (tədris ingilis dilində) | 20 | 20 |
| 38. | Şəhərsalma (tədris Azərbaycan dilində) | 20 | 20 |

**Cədvəl 3.2.**

**Magistratura səviyyəsi üzrə ixtisasların siyahısı**

| Sıra №-si | İxtisasın adı | Qəbul planı | Faktiki qəbul |
|---|---|---|---|
| 1. | Beynəlxalq iqtisadi münasibətlər | 5 | 4 |
| 2. | Beynəlxalq münasibətlər və diplomatiya | 5 | 5 |

| | | | |
|---|---|---|---|
| 3. | Biznesin təşkili və idarə edilməsi | 5 | 5 |
| 4. | Dövlət strukturlarında menecment | 5 | 5 |
| 5. | Dünya Siyasəti | 5 | 2 |
| 6. | İstehsal sferasında mühasibat uçotu və audit | 10 | 9 |
| 7. | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (sənaye üzrə) | 10 | 9 |
| 8. | Makroiqtisadi siyasət | 10 | 10 |
| 9. | Maliyyə menecmenti | 5 | 5 |
| 10. | Əsas üzvi sintezin kimyası və texnologiyası | 10 | 10 |
| 11. | Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması | 5 | 5 |
| 12. | Metal konstruksiyası | 5 | 5 |
| 13. | Qurğular nəzəriyyəsi | 5 | 5 |
| 14. | Şəhərsalma | 5 | 2 |
| 15. | Elektroenergetika | 5 | 5 |
| 16. | İdarəetmədə informasiya sistemləri | 15 | 15 |
| 17. | Kibertəhlükəsizlik | 100 | 25 |
| 18. | Kompüter mühəndisliyi | 10 | 10 |
| 19. | Maşın və mexanizmlər nəzəriyyəsi | 10 | 9 |
| 20. | Nəqliyyat xidmətləri üçün böhran və risklərin idarə edilməsi | 5 | 5 |
| 21. | Texniki sistemlərdə informatika və idarəetmə | 5 | 5 |
| 22. | Texnoloji proseslərin və istehsalatın avtomatlaşdırılması | 5 | 5 |
| 23. | Tribotexnika | 5 | 4 |
| **Biznesin idarə edilməsi (MBA)** | | | |
| 24. | İnsan resurslarının idarə edilməsi | 10 | 10 |
| 25. | Maliyyə | 30 | 28 |
| 26. | Marketinq | 10 | 10 |
| 27. | Menecment | 10 | 10 |
| 28. | Mühasibat uçotu və audit | 15 | 15 |
| 29. | Biznesin təşkili və idarə edilməsi | 40 | 38 |

2022/2023-cü tədris ilində tələbə qəbulunun nəticələri universitetin veb saytında yerləşdirilmişdir (Cədvəl 3.3).

**Cədvəl 3.3.**

**2022/2023-cü tədris ilində ATM-in bakalavriat səviyyəsinə qəbul balları**

| № | Fakültə | İxtisas | Keçid balı |
|---|---|---|---|
| 1 | Mühəndislik | Elektrik və elektronika mühəndisliyi - AZ | 278 |
| 2 | Mühəndislik | Elektrik və elektronika mühəndisliyi (İDP) - EN | 418 |
| 3 | Mühəndislik | Energetika mühəndisliyi - AZ | 289 |
| 4 | Mühəndislik | İnformasiya texnologiyaları - AZ | 535 |
| 5 | Mühəndislik | İnformasiya texnologiyaları - EN | 624 |
| 6 | Mühəndislik | İnformasiya texnologiyaları (İDP) - EN | 575 |
| 7 | Mühəndislik | İnformasiya təhlükəsizliyi - AZ | 538 |
| 8 | Mühəndislik | Kompüter elmləri - AZ | 517 |
| 9 | Mühəndislik | Kompüter elmləri - EN | 590 |
| 10 | Mühəndislik | Kompüter mühəndisliyi - AZ | 513 |
| 11 | Mühəndislik | Kompüter mühəndisliyi - EN | 584 |
| 12 | Mühəndislik | Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi - AZ | 217 |
| 13 | Mühəndislik | Maşın mühəndisliyi - AZ | 204 |
| 14 | Mühəndislik | Mexanika mühəndisliyi - AZ | 221 |
| 15 | Mühəndislik | Mexanika mühəndisliyi - EN | 292 |
| 16 | Mühəndislik | Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) - AZ | 214 |
| 17 | Mühəndislik | Proseslərin avtomatlaşdırılması mühəndisliyi - AZ | 459 |
| 18 | Mühəndislik | Radiotexnika və telekommunikasiya mühəndisliyi - AZ | 201 |
| 19 | Memarlıq və inşaat | Dizayn - AZ | 170 |
| 20 | Memarlıq və inşaat | Dizayn - EN | 184 |
| 21 | Memarlıq və inşaat | Ekologiya mühəndisliyi - AZ | 244 |
| 22 | Memarlıq və inşaat | Ekologiya mühəndisliyi - EN | 256 |
| 23 | Memarlıq və inşaat | İnşaat mühəndisliyi - AZ | 227 |
| 24 | Memarlıq və inşaat | İnşaat mühəndisliyi - EN | 288 |
| 25 | Memarlıq və inşaat | İnşaat mühəndisliyi (İDP) - EN | 400 |
| 26 | Memarlıq və inşaat | Kimya mühəndisliyi - AZ | 252 |
| 27 | Memarlıq və inşaat | Kimya mühəndisliyi - EN | 398 |
| 28 | Memarlıq və inşaat | Memarlıq - AZ | 320 |
| 29 | Memarlıq və inşaat | Memarlıq - EN | 231 |
| 30 | Memarlıq və inşaat | Nəqliyyat tikintisi mühəndisliyi - AZ | 224 |
| 31 | Memarlıq və inşaat | Sənaye mühəndisliyi - AZ | 243 |
| 32 | Memarlıq və inşaat | Sənaye mühəndisliyi - EN | 314 |
| 33 | Memarlıq və inşaat | Şəhərsalma - AZ | 255 |
| 34 | İqtisadiyyat və idarəetmə | Biznesin idarə edilməsi - AZ | 237 |
| 35 | İqtisadiyyat və idarəetmə | Dövlət və bələdiyyə idarəetməsi - AZ | 232 |
| 36 | İqtisadiyyat və idarəetmə | İqtisadiyyat - AZ | 226 |
| 37 | İqtisadiyyat və idarəetmə | Maliyyə - AZ | 245 |
| 38 | İqtisadiyyat və idarəetmə | Mühasibat - AZ | 336 |

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ATM-ə sahə baxışı zamanı bildirildi ki, respublikada və beynəlxalq aləmdə yeni inkişaf tendensiyaları, əmək bazarının müasir tələbələri nəzərə alınır. Bu baxımdan

universitetdə bir sıra istiqamətlər üzrə həm bakalavriat, həm də magistratura səviyyələrində yeni ixtisaslar və ixtisaslaşmalar ("İnformasiya təhlükəsizliyi", "Kompüter elmləri", "Elektron idarəetmə", "Elektrik və elektronika mühəndisliyi", "Memarlıq mühitinin dizaynı", "Nəqliyyatda servis (nəqliyyat növləri üzrə)" və s.) açılmışdır. Eyni zamanda sənayenin bəzi sahələrində aktuallığını itirmiş və tələbat olmayan, eləcə də ixtisasların siyahısından (nomenklaturasından) çıxarılmış bəzi ixtisaslara qəbul dayandırılmışdır. Belə ki, BMU-da "Maşın və mexanizmlər nəzəriyyəsi", "Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi", "Elektroenergetika mühəndisliyi", "Elektrik mühəndisliyi", "Sistem mühəndisliyi" ixtisaslarına qəbul həyata keçirilməmiş, bəzi ixtisaslara qəbul planında dəyişikliklər edilmişdir (azaldılmış və ya artırılmışdır).

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında tələbə qəbulu sifarişlərinin formalaşması prosesində işəgötürənlərlə (Dövlət İmtahan Mərkəzi, Maliyyə Nazirliyinin yanında Maliyyə Elm-Tədris Mərkəzi, Cahan Holding, Bizcon Consulting Azerbaijan, PMD Projects MMC, Veysəloğlu MMC, Norm ASC, BP, SOCAR, Azərtexnoline, Abşeron Logistika Mərkəzi, PAŞA Holding, UNİCO QSC, Azərsun Holdinq və s.) görüşlərin keçirildiyi və onların fikirlərinin nəzərə alındığı qeyd olunsa da, sahə baxışı zamanı bununla bağlı hər hansı görüşün və ya müzakirələrin keçirilməsi, eləcə də işəğötürənlərin rəy və təkliflərinin daxil olması barədə rəsmi sənəd təqdim edilməmiş və  belə görüşlərin rəsmiləşdirilmədiyi bildirilmişdir. Eyni zamanda qeyd edilməlidir ki, universitetə səfər zamanı işəgötürənlərin nümayəndələri ilə keçirilmiş görüşlərdə onlarla bu istiqamətdə hər hansı müzakirələrin aparılmadığı bildirilmişdir.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

ATM-ə sahə baxışı zamanı kafedralarda keçirilmiş görüşlərdə bildirilmişdir ki, universitetə subbakalavr səviyyəsindən qəbul olunan, hər hansı səbəbdən xaric olunmuş və sonradan bərpa olunan, eləcə də başqa universitetlərdən BMU-ya köçürülən tələbələrin əvvəlki təhsilinin və qazandıqları kreditlərin tanınması haqqında rəy kafedralarda müzakirə olunaraq formalaşdırılır. Belə ki, kafedralarda həmin tələbələrin əvvəlki təhsil zamanı keçdikləri fənlərin adları, kreditləri, tədris saatları və məzmunları (sillabusları) araşdırılaraq, universitetdə tədris olunan müvafiq fənlərlə müqayisə edilir. Kreditləri, tədris saatları və məzmunları uyğunluq təşkil etdikdə, tələbələrin həmin fənlər üzrə əvvəki təhsili dövründə qazandıqları kreditlər universitet tərəfindən tanınır. Özünütəhlil Hesabatında kafedra tərəfindən müvafiq formaya uyğun Tədris işləri üzrə prorektora müraciət etmələri qeyd edilsə də, belə rəsmi sənəd Komissiyaya təqdim olunmamışdır. Başqa sözlə, kreditlərin tanınması məsələsi universitet səviyyəsində sənədləşdirilsə də, bəzi kafedralarda belə sənədlərə rast gəlinməmişdir. Kreditlərin

tanınması prosesi Tədris hissəsi tərəfindən universitetin EMS-ində müvafiq qeydlər aparılmaqla yekunlaşdırılır.

## *3.2 Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ATM-də ali təhsilin bütün səviyyələrində (bakalavriat, magistratura və doktorantura səviyyələrində) kadr hazırlığı həyata keçirilir. Universitetdə 4 fakültə və 21 kafedra fəaliyyət göstərir. Bu fakültələrdə bakalavriat səviyyəsində 25, magistratura səviyyəsində isə 19 ixtisas, o cümədən 33 ixtisaslaşma üzrə kadr hazırlığı aparılır. Bakalavriat səviyyəsində daha 4 ixtisas ("İnformasiya texnologiyaları", "Elektrik mühəndisliyi", "Elektronika mühəndisliyi" və "İnşaat mühəndisiliyi") mütəxəssis hazırlığı Koreyanın İNHA Universiteti ilə birgə Dövlət proqramı çərçivəsində maliyyələşdirilən ikili diplom proqramı vasitəsilə həyata keçirilir. Bundan əlavə, universitetdə MBA təhsil proqramında 6 biznesin idarə edilməsi ixtisasları üzrə, doktorantura ali təhsil səviyyəsində isə 10 elmi ixtisas üzrə kadrlar hazırlanır.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Sahə baxışı zamanı ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının tələblərinə uyğun həyata keçirildiyi müşahidə olunmuşdur. Belə ki, Dövlət proqramı çərçivəsində maliyyələşdirilən ikili diplom proqramı çərçivəsində kadr hazırlığı Koreyanın nüfuzlu ali təhsil müəssisəsi olan İNHA Universiteti ilə birlikdə həyata keçirilən "İnformasiya texnologiyaları", "Elektrik mühəndisliyi", "Elektronika mühəndisliyi" və "İnşaat mühəndisiliyi" ixtisasları üzrə təhsil proqramları həmin universitetin mütəxəssisləri ilə birgə hazırlanaraq həyata keçirilir. Bu prosesə İNHA universiteti tərəfindən tam nəzarət olunur. ATM isə bu proqramda tədrisin təşkili və müəllimlərin cəlb olunması məsələləri ilə məşğul olur. Tədris prosesinə cəlb olunan yerli müəllimlərin seçimi də İNHA tərəfindən aparılır.

Özünütəhlil Hesabatında və sahə baxışı zamanı kafedralar tərəfindən ixtisaslar üzrə tədris planlarında seçmə fənlərin formalaşmasında əmək bazaının tələblərinin gözlənilməsi qeyd olunsa da, bunun kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə olunması protokollarda əksini tapmamış və bununla bağlı hər hansı rəsmi sənəd təqdim olunmamışdır. Eyni zamanda işəgötürənlərin nümayəndələri ilə görüş zamanı təhsil proqramları ilə bağlı onlarla hər hansı müzakirənin aparılmadığı bildirilmişdir.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

ATM-də kadr hazırlığı həyata keçirilən ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli Qərarı ilə təsdiq edilmiş peşə və kvalifikasiya standartlarına qoyulan tələblərə uyğun olaraq, iqtisadiyyatın müvafiq fəaliyyət (peşə) sahələrini əhatə edir. Belə ki, universitetdə bütün təhsil səviyyələri üzrə ixtisasların tədris planları müvafiq dövlət standartlarına uyğun olaraq tərtib edilmiş, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmrləri ilə təsdiq edilmiş ali təhsilin dövlət standartlarının əsas tələbləri nəzərə alınaraq aidiyyəti ixtisas fənləri bu planlarda öz əksini tapmışdır.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

ATM-də kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə təhsil Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 311 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Azərbaycan Respulikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun olaraq, kvalifikasiyaların 6-cı (bakalavriat səviyyəsi), 7-ci (magistratura səviyyəsi) və 8-ci (fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura) səviyyələri həyata keçirilir. Bütün təhsil səviyyələri üzrə təhsil alanlar tərəfindən müvafiq bacarıqların əldə olunması təmin edilir və yekunda təhsilalanlara müvafiq dövlət sənədləri – diplomlar verilir. Təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluq təşkil etsə də, bu, illərlə formalaşmış ənənəvi təcrübəyə əsasən təmin olunur. Hazırda universitetdə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız formal təhsil forması təmin edilmişdir, qeyri-formal və informal təhsil formaları isə hələ ki həyata keçirilmir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Sahə baxışı zamanı müəyyən edilmişdir ki, ATM-də həyata keçirilən təhsil proqramları, bir qayda olaraq, ayrı-ayrı ixisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluq təşkil edir. Belə ki, müvafiq ixtisaslar üzrə məzunların bilik və bacarıqlarına, tədrisin məzmununa, kompetensiyalara, təhsilin sonunda əldə olunması nəzərdə tutulan nəticələrə qoyulan tələblərin təmin edilməsi bir vəzifə kimi qarşıya qoyulur və yerinə yetirilir. Bu baxımdan Kompüter mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi, Memarlıq və inşaat mühəndisliyi, Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi ixtisaslarını xüsusilə qeyd etmək lazımdır. Bütün ixtisaslar üzrə tədris planları müvafiq təhsil proqramlarının tələbləri nəzərə alınmaqla, təlim nəticələrinə və məzmun standartlarına uyğun olaraq hazırlanır. Tədris planları əvvəlcə fakültə Elmi Şuralarında müzakirə olunur, sonra universitetin Elmi Şurasında müzakirə olunaraq təsdiq edilir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

ATM-də kadr hazırlığı həyata keçirilən təhsil proqramları üztə tədris planları hazırlanarkan Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə, əsasən, riayət olunur. Belə ki, universitetdə təhsilin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı" və "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq, müvafiq ixtisaslar üzrə tədris planları hazırlanmış və təsdiq edilmişdir. Bakalavriat səviyyəsində bütün ixtisasları üzrə tərtib edilmiş tədris planlarında 4 il üçün tədrisin ümumi həcmi 240 kredit təşkil edir, onlardan 210 kredit nəzəri təlim üçün, 21 kredit istehsalat təcrübəsi üçün və 9 kredit Yekun Dövlət Attestasiyası üçün ayrılır. Hazırda yeni təhsil proqramlarına əsasən kreditlər (240 kredit) ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə 120 kredit, universitet tərəfindən müəyyən edilən seçmə fənlərə 60 kredit və təcrübəyə 30 kredit olmaqla müəyyən edilmişdir.

Magistr təhsil proqramları üzrə tədris planlarında cəmi 120 kredit olmaqla humanitar fənlərə 14, ixtisas (ixtisaslaşma) fənlərinə 52 kredit, seçmə fənlərə 24 kredit, elmi-tədqiqat və pedaqoji təcrübələrə 12 kredit, magistr dissertasiyasının hazırlanmasına 18 kredit nəzərdə tutulmuşdur. İqtisadiyyat və idarəetmə ixtisaslarında 120 kredit aşağıdakı kimi bölünmüşdür: humanitar fənlər - 14 kredit, ixtisas (ixtisaslaşma) fənlər - 60 kredit (o cümlədən, seçmə fənlər - 12 kredit), elmi-tədqiqat işləri bölümünə 60 kredit (o cümlədən təcrübəyə - 12 kredit, tədqiqat işinin aparılması - 12 kredit və magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi - 36 kredit). MBA proqramı üzrə magistr təhsili proqramlarında isə ixtisas (ixtisaslaşma) fənlər bölümünə 90 kredit nəzərdə tutulmuşdur.

Sahə baxışı zamanı fakültələrdə tədris planları ilə tanışlıq zamanı müəyyən edilmişdir ki, əksər fənlər üzrə auditoriya və auditoriyadankənar saatlar müvafiq şəkildə, təcrübədə rast gəlinən prinsiplərə uyğun planlaşdırılmışdır. Lakin İqtisadiyyat fakültəsinin tədris planlarında (məsələn, "İqtisadiyyat", "Maliyyə", "Mühasibat" və "Dövlət və bələdiyyə idarəetməsi" ixtisaslarında) fənlər üzrə kreditlərə görə dərs saatının ayrılması fərqli yanaşmalarla, hətta məntiqi başa düşülməyən şəkildə aparıldığı müəyyən edilmişdir. Belə ki, həmin fakültənin ixitsaslarının tədris planlarında 10 kreditə malik "Makriiqtisadiyyat", "Mikroiqtisadiyyat", "Statistika" və "Ekonometrika" fənlər üçün 60 saat auditoriya dərsləri və 240 saat auditoriyadan kənar dərslər ayrılmış, eləcə də 1 semestr ərzində tədris olunması planlaşdırılmışdır.

Eyni zamanda, həmin tədris planlarında 4 kreditə malik "İqtisadi fikir tarixi", "Əməyin iqtisadiyyatı", "Beynəlxalq iqtisadiyyat", "İnkişaf iqtisadiyyatı" fənləri üçün də 60 saat auditoriya dərsləri planlaşdırılmışdır. 6 kreditə malik fənlərin bir çoxu üçün 60 auditoriya saatı nəzərdə tutulmuşdur. Bu şəkildə planlaşdırılmanın hansı səbəbdən aparıldığı kafedra və fakültə rəhbərliyi tərəfindən dəqiq izah edilməmişdir. Qeyd olunmuşdur ki,

kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə olunaraq qərara alınmışdır. Lakin nə kafedra iclaslarının, nə də fakültə elmi şurasının iclaslarının müvafiq protokolları təqdim olunmamış və müzakirələrin şifahi aparıldığı bildirilmişdir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

ATM-də bütün fənlərin proqramları, əsasən, müvafiq ixtisasların təhsil proqramlarının və tədris planlarının tələblərinə uyğun hazırlanmışdır. Fənn proqramları kafedralarda həmin fənni tədris edən aidiyyəti müəllimlər tərəfindən hazırlanır, kafedranın iclasında müzakirə olunduqdan sonra fakültə Elmi Şurasına təqdim olunur. Fakültə Elmi Şurasında müzakirədə müsbət qiymətləndirilən tədris proqramları baxılmaq üçün universitetin Elmi-metodiki şurasına tövsiyə olunur. Seçmə fənlərin tədris proqramları universitetdaxili istifadə üçün universitetin Elmi-metodiki şurasında təsdiq olunur. Lakin kafedralarda mövcud olan və istifadə edilən bütün fənn proqramları müvafiq qaydada təsdiq edilməmişdir.

Kafedralarda fənlər üzrə mövcud tədris proqramalrına uğyun hazırlanmış sillabuslardan istifadə olunur. Sillabuslar kafedra iclaslarında müzakirə olunaraq təsdiq üçün tövsiyə olunur. Bundan sonra sillabuslar təsdiq edilərək tədrisdə istifadə olunur. Sillabusların məzmunu fənn proqramlarına uyğunluq təşkil edir. Sillabusların universitet üzrə vahid formada tərtib edilməsi üçün təsdiq olunmuş (sadələşdirilmiş) ümumi sillabus formasından istifadə olunur. Lakin qeyd edilməlidir ki, bəzi proqram və sillabuslarda istifadəsi tövsiyə edilən ədəbiyyatların bir çoxu nisbətən köhnədir. Belə ki, ədəbiyyat siyahısında 20-30 ilin, bəzən daha əvvəlki dövrə aid ədəbiyyatlara rast gəlinir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Sahə baxışı zamanı fakültələrdə tədris planları ilə tanışlıq zamanı müəyyən edilmişdir ki, əksər fənlər üzrə auditoriya və auditoriyadankənar saatlar müvafiq şəkildə, mövcud qayda və tələblərə, təcrübədə rast gəlinən prinsiplərə uyğun planlaşdırılmışdır. Belə ki, universitetdə tədris planlarında fənlərin və dərs saatlarının semestrlər üzrə bölgüsü hər bir ixtisasın xüsusiyyəti nəzərə alınmaqla aparılmışdır. Tədris planlarında planlaşdırılan dərs saatlarının semestrlər üzrə bölgüsü, əsasən, 330-360 saat müəyyən edilmiş, həftəlik dərs yükü, demək olar ki, əksər hallarda 22-23 saat təşkil etsə də, bəzi tədris planlarında 24-25 saat göstərilmişdir. Magistratura səviyyəsində orta həftəlik yük 16 auditoriya saatı təşkil edir.

Qeyd edilməlidir ki, İqtisadiyyat fakültəsinin tədris planlarında bəzi fənlər üzrə kreditlərə görə dərs saatlarının ayrılmasında uyğunsuzluqlar müşahidə olunur. Belə ki, həmin ixitsasların tədris planlarında 10, 6 və 4 kreditə malik fənlərin hər biri üçün də 60 saat auditoriya dərsləri planlaşdırılmışdır. Belə planlaşdırmanın səbəbini və məqsədini fakültə və kafedralarda aydınlaşdırmaq mümkün olmamışdır.

## 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

BMU-da kadr hazırlığı həyata keçirilən ixtisasların təhsil proqramları (Dövlət Standartları) universitetin veb saytında yerləşdirilmiş (https://beu.edu.az/az/page/tehsil-proqramlari-357) və əlçatanlığı təmin edilmişdir. Lakin bəzi ixtisasların təhsil proqramları həmin səhifədə mövcud deyildir. Saytda yerləşdirilmiş proqramların siyahısı aşağıda verilmişdir.

**Cədvəl 3.4.**

**ATM-in veb saytında yerləşdirilmiş təhsil proqramları**

Təhsil Proqramları

| Bakalavr | Magistratura |
|---|---|
| 050615 - "İnformasiya təhlükəsizliyi" | 060631 - "Kompüter mühəndisliyi" |
| 050608 - "Energetika mühəndisliyi" | 060632 - "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" |
| 050607 - "Elektrik və elektronika mühəndisliyi" | 060628 - "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" |
| 050620 - "Kompüter mühəndisliyi" | 060641 - "Kimya mühəndisliyi" |
| 050616 - "İnformasiya texnologiyaları" | 060630 - "Mexanika mühəndisliyi" |
| 050621 - "Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi" | 060649 - "Ekologiya mühəndisliyi" |
| 050622 - "Maşın mühəndisliyi" | 060405 - "Sənayenin təşkili və idarə edilməsi" |
| 050629 - "Mexatronika və robotexnika mühəndisliyi" | 060409 - "Biznesin idarə edilməsi" |
| 050628 - "Mexanika mühəndisliyi" | 060407 - "Menecment" |
| 050634 - "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" | 060402 - "Mühasibat uçotu və audit" |
| 050806 - "Nəqliyyatda servis" | 060401 - "Dünya iqtisadiyyatı" |
| 050636 - "Radiotexnika və telekommunikasiya mühəndisliyi" | 060403 - "Maliyyə" |
| 050306 - "Dizayn(sahələr üzrə)" | 060410 - "Dövlət və bələdiyyə idarəetməsi" |
| 050617 - "İnşaat mühəndisliyi" | |
| 050509 - "Kompüter elmləri" | |
| 050618 - "Kimya mühəndisliyi" | |
| 050606 - "Ekologiya mühəndisliyi" | |
| 050619 - "Kommunikasiya sistemləri mühəndisliyi" | |
| 050626 - "Memarlıq" | |

| | |
|---|---|
| 050633 - "Nəqliyyat tikintisi mühəndisliyi" | |
| 050637 - "Şəhərsalma" | |
| 050638 - "Sənaye mühəndisliyi" | |
| 050623 - "Materiallar mühəndisliyi" | |
| 050114 - "Riyaziyyat müəllimliyi" | |
| 050102 - "Biologiya müəllimliyi" | |
| 050109 - "Kimya müəllimliyi" | |
| 050105 - "Fizika müəllimliyi" | |
| 050115 - "Riyaziyyat və informatika müəllimliyi" | |
| 050406 - "Maliyyə" | |
| 050409 - "Mühasibat" | |
| 050407 - "Marketinq" | |
| 050405 - "İqtisadiyyat" | |
| 050404 - "Dövlət və bələdiyyə idarəetməsi" | |
| 050401 - "Beynəlxalq ticarət və logistika" | |
| 050402 - "Biznesin idarə edilməsi" | |

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəlil Hesabatında, eləcə də sahə baxışı zamanı universitet əməkdaşları tərəfindən təhsil proqramlarının hazırlanması prosesinə işəgötürənlərin nümayəndələrinin cəlb olunduğu qeyd olunsa da, işəgötürənlərin (istehsalat təşkilatlarının) nümayəndələrinin cəlb olunması, onlarla görüşlərin keçirilməsi və digər fəaliyyətlər sənədlərdə rəsmiləşdirilməmişdir. Universitet tərəfindən əsasən ixtisasların tədris planlarında seçmə fənlərin müəyyən edilməsi zamanı universitet-sənaye əməkdaşlığı çərçivəsində müəssisələrdən tədrisə cəlb olunmuş mütəxəssislərin fikirləri, onlarla aparılan müzakirələr, işəgötürən müəssisələrə təşkil olunan görüşlər nəticəsində əldə olunmuş məlumatlar nəzərə alınmışdır.

### *3.3 Tədrisin təşkili*

#### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ATM-də mütəxəssis hazırlanan ixtisaslar üztə tədris planları Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə, əsasən, uyğun olaraq tərtib olunur.

Bakalavriat səviyyəsində ayrı-ayrı ixtisaslar üzrə tədris planları 4 il üçün tərtib edilmişdir. Bütün təhsil müddəti üçün tədrisin ümumi həcmi 240 kredit nəzərdə tutulmuşdur. Hazırda yeni təhsil proqramlarına əsasən bu kreditlər (240 kredit) tədris planlarında ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə 120 kredit, universitet tərəfindən müəyyən edilən seçmə fənlərə 60 kredit və təcrübəyə 30 kredit olmaqla bölünmüşdür.

Magistratura səviyyəsində nəzərdə tutulan 120 kredit tədris planlarında 14 kredit humanitar fənlərə, 52 kredit ixtisas (ixtisaslaşma) fənlərinə, 24 kredit seçmə fənlərə, 12 kredit elmi-tədqiqat və pedaqoji təcrübələrə, 18 kredit magistr dissertasiyasının hazırlanmasına ayrılmışdır. İqtisadiyyat və idarəetmə ixtisaslarında humanitar fənlərə 14 kredit, ixtisas (ixtisaslaşma) fənlərə 60 kredit (o cümlədən, seçmə fənlərə 12 kredit), elmi-tədqiqat işlərinə 60 kredit (o cümlədən təcrübəyə 12 kredit, tədqiqat işinin aparılmasına 12 kredit, magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinə 36 kredit) nəzərdə tutlmuşdur. MBA proqramı üzrə magistr təhsili proqramlarında isə cəmi ixtisas (ixtisaslaşma) fənləri bölümünə 90 kredit yer verilmişdir.

Sahə baxışı zamanı İqtisadiyyat fakültəsinin bütün tədris planlarında bəzi fənlər üzrə kreditlərin dərs saatına uyğunlaşdırılmasında fərqli yanaşmalar müşahidə edilmişdir. Belə ki, müvafiq tədris planlarında 4, 6 və 10 kreditə malik ayrı-ayrı fənlərin hər biri üçün 60 auditoriya saatı (auditoriyadan kənar saatlar 6, 180 və 240) müəyyən edilmişdir. Belə planlaşdırmanın hansı səbəbdən bu şəkildə aparıldığını isə aydınlaşdırmaq mümkün olmamışdır.

#### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

ATM-də bakalavriat və magistratura səviyyələrində ixisasların tədris planlarının müvafiq təhsil proqramlarının tələblərinə və mövcud normativlərə uyğun hazırlandığı müəyyən edilmişdir. Bütün ixtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş məcburi fənlər müvafiq tədris planlarında öz əksini tapmışdır. Tədris planına daxil edilmiş həm məcburi – normativ fənlərin, həm də seçmə fənlərin tədris illəri və semestrlər üzrə bölgüsü cədvəllər şəklində verilmişdir. Fakültələrdə aidiyyəti bir ixtisas və ixtisaslaşmalar üzrə tədris planında müəyyən edilmiş fənlərin, kreditlərin, dərs saatlarının tədris illəri və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafiki və işçi tədris planları mövcuddur. Tədris planlarında semestrlər üzrə dərs saatları 15 həftəlik tədris nəzərə alınmaqla, əsasən, 330-360 saat müəyyən edilmişdir. Tələbələrin auditoriyada maksimal tədris yükü həftəlik ortalama 23 saat təşkil edir. Bakalavriat səviyyəsində nəzəri təlim-tədrisin

müddəti I-VII semestrlərdə 15 həftə nəzərə alınmışdır. Səkkizinci semestrdə tələbələr istehsalat təcrübəsinə göndərilir. Hər semestrdə orta hesabla 5-6 fənn planlaşdırılır və uyğun olaraq imtahanların sayı 5-6 olur.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Tədris planlarında məcburi fənlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqramlarına uyğun planlaşdırılmışdır. Təhsil proqramlarında müəyyən edilmiş kreditlərə uyğun olaraq fənlər üzrə ümumi dərs saatları hesablanmışdır. Ümumi dərs saatları auditoriya və auditoriyadankənar saatlar olmaqla 2 yerə bölünür, auitroiya saatlarının isə dərs növlərinə (mühazirə, məşğələ və laboratoriya dərslərinə) görə bölgüsü aparılmışdır. Seçmə fənlər üçün humanitar fənlər bölümündə ayrılmış 6 kredit Elm və Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, 2 fənn (bu fənlər də nazirlik tərəfindən tövsiyə olunur) arasında hər biri 3 kredit olmaqla bölünmüşdür. İxtisas fənləri bölümündə seçmə fənlər üçün ayrılmış 60 kredit çərçivəsində əsasən tədris planına hər biri 6-7 kredit olmaqla 8-9 fənn bloku daxil edilir. Bu fənlərin əksəriyyəti ixtisas fənləri olduğu üçün yuxarı kurslarda tədrisi nəzərdə tutulur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planlarında ümumi və ixtisas fənlərinin müvafiq ixtisasların təhsil proqramlarının tələblərinə uyğun planlaşdırıldığı müəyyən edilmişdir. Təhsil proqramlarına uyğun olaraq, ümumi fənlər bloku üçün 30 kredit (o cümlədən seçmə fənlərə 6 kredit) və ixtisas fənləri bloku üçün 180 kredit (o cümlədən seçmə fənlərə 60 kredit), təcrübə üçün 30 kredit ayrılmış və onlar arasında saat bölgüsündə balansa riayət olunmuşdur.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Mütəxəssis hazırlığı üçün tədris olunan fənlərin təlim nəticələri hər bir ixtisasın təhsil proqramında nəzərdə tutulmuş, təlim nəticələri ilə bağlı “biləlidir“, “bacarmalıdır“ və s. bölmələr daxil edilmişdir. Bir qayda olaraq, fənlərin tədris proqramlarına ixtisasın təhsil proqramında nəzərdə tutulmuş təlim nəticələri daxil edilmişdir. Seçmə fənlər üzrə təlim nəticələri ixtisas kafedraları tərəfindən təhsil proqramlarının tələblərinə uyğun tərtib edilir. Fənn proqramları kafedra iclaslarında və fakültənin Elmi şurasında, eləcə də universitetin tədris-metodiki şurasında müzakirə olunur və onların təhsil proqramlarının tələblərinə uyğunlüğu təmin edilir. Lakin bəzi fənlərin proqramlarında təlim nəticələrinin formal xarakter daşıdığı və ixtisasın təhsil proqramında olan nəticələrini tam əhatə etmədiyi aşkar edilmişdir. Uyğun olmayan təlim nəticələri ATM tərəfindən, demək olar ki, diqqət mərkəzində saxlanılmamışdır. Təlim nəticələrinin müəyyən olunması, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmləri mövcud deyildir.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Tədris olunan fənlərin təlim nəticələri həmin fənlərin sillabuslarında qismən əksini tapmışdır. Sillabuslar standart formalarda hazırlanmışdır. Məcburi fənlərə təhsil proqramlarında qoyulan tələblər müvafiq sillabuslarda nəzərə alınır və seçmə fənlər üzrə təlim nəticələri kafedra tərəfindən müəyyən edilir, lakin bəzi fənlərin sillabuslarında tədrisin sonunda əldə olunacaq təlim nəticələrinə diqqət verilmir və bunlara nəzarət mexanizmləri mövcud deyildir. Hazırlanan sillabuslar aidiyyəti kafedraya təqdim olunur, kafedra iclaslarında müzakirə olunaraq təsdiq edilir. Təsdiq olunmuş sillabuslar universitetdə istifadə olunan Google Classroom platforması üzərindən tələbələrlə paylaşılır.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

İxtisasların təhsil proqramlarında nəzərdə tutulmuş ümumi fənlər, ixtisas fənləri və universitet tərəfindən müəyyənləşdirilən fənlər hər I-VII semestrlər üzrə 30 kredit olmaqla və fənlərin məntiqi ardıcıllığı gözlənilməklə paylanmışdır. Orta hesabla hər semestrdə tədris olunan fənlərin sayı 5-6 saat təşkil edir. Nəticədə hər semestrin sonunda tələbələr 5-6 fəndən imtahan verirlər. Həftəlik dərs yükü, əsasən, 22-23 saat (bəzi hallar istisna olmaqla – bəzən həftəlik dər yükü 24-25 saat olur) təşkil edir ki, bunun sayəsində tələbələr dərsdənkənar məşğələlər üçün kifayət qədər vaxta malik olurlar.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

ATM-də tələbələrin fərdi tədris planları işçi tədris planları və seçilmiş fənlər əsasında universitetin EMS-də formalaşır. Bu planlar tələbələrin EMS-dəki şəxsi kabenitlərində əks olunur. Bununla yanaşı, tələbələr təhsil aldıqları müddət ərzində EMS vasitəsilə ixtisaslarının tədris planında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı, kreditləri və fənləri tədris edəcək müəllimlərin adları haqqında məlumat əldə edə bilirlər. Hər tədris ilinin sonunda tələbələr EMS-də növbəti tədris ili üçün özünün fərdi tədris planılarını təsdiqləyirlər. Növbəti semesterin əvvəlində isə onlar özlərinin fərdi tədris planlarında dəyişiklik etmək imkanına malik olurlar. Tələbələr arasında keçirilən sorğu zamanı fərdi tədris planı ilə bağlı suala verilmiş cavab aşağıdakı diaqramda əksini tapmışdır.

**Diaqram 3.1.**

**Tələbələrlə keçirilmiş sorğu nəticələri**




**3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

ATM-də ixtisasların (ixtisaslaşmalarının) tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində və semestrlərdə tədris olunacaq fənlərin adlarını, kreditlərini, dərsin növlərini, dərs növləri üzrə saat bölgüsünü və tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planları hazırlanır. İllik işçi tədris planları hər cari tədris ili üçün tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilərək tədris prosesində istifadə olunur. İşçi tədris planları ixtisasın tədris planı ilə bərabər universitetin EMS-ində yerləşdirilir.

**3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

ATM-də cari tədris ili üçün müəllimlərin illik işçi tədris planları hazırlanır. Bu planlar kafedrada tədris yükləri bölündükdən və fənləri tədris edən müəllimlər təyin edildikdən sonra EMS tərəfindən avtomatik formalaşdırılır. Müəllimin illik işçi tədris planında hər semestr üçün onun tədris etdiyi fənlər, mühazirə, məşğələ və laboratoriya dərslərinə

ayrılan saatların miqdarı, həmin dərs üçün qeydiyyatdan keşmiş tələbələrin sayı, fənnin tədris edildiyi fakültənin adı və qrupun nömrəsi öz əksini tapır.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

ATM-də ixtisasların tədris planlarına nəzərdə tutulmuş bölgüyə uyğun olaraq, auditoriya dərsləri mühazirələr, seminar praktik məşğələlər, laboratoriya dərsləri kimi tədris olunur. Bu bölgü zamanı ixtisasların və fənlərin xüsusiyyətləri nəzərə alınır. Belə ki, mühazirələrlə yanaşı mühəndislik və bəzi pedaqoji ixtisaslarda laboratoriya dərslərinə və praktik məşğələlərə, iqtisadiyyat istiqamətli ixtisaslarda isə seminar dərslərinə üstünlük verilir. Mühazirə otaqlarının texniki təchizatı tələb olunan səviyyədədir, mühazirə otaqları müvafiq tədrisin texniki vasitələrlə (aidiyəti üzrə proyektor, kompüter, Web-kamera və s.) təchiz edilmişdir. Laboratoriya dərsləri, əsasən, müvafiq texniki qurğu, cihaz  və avadanlıqlar quraşdırılmış laboratoriya otaqlarında və xüsusi kabinetlərdə keçirilir. Universitetdə hər bir fakültədə müvafiq tədris laboratoriyaları mövcuddur. Ümumiyyətlə, universitetdə cəmi 122 auditoriya, 42 - laboratoriya otağı, bir sıra yaradıcılıq kabinetləri və sahələri fəaliyyət göstərir. Eyni zamanda, tələbələr auditoriyadankənar saatlarda fənlər üzrə dərslərə hazırlıq, tapşırıqların, o cümlədən sərbəst işlərin yerinə yetirilməsi, digər tədris materiallarının mənimsənilməsi ilə müstəqil şəkildə məşğul olurlar.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

ATM-də tələbələr üçün məsləhət xidmətləri, əsasən, iki istiqamətdə həyata keçirilir. Birincisi, kredit borcları qalan və mənimsənilməsində çətinlik yaranan fənlərin öyrənilməsində tələbələrə köməklik göstərilməsi üçün aidiyyəti müəllimlər tərəfindən dərsdənkənar vaxtlarda məsləhət saatları təşkil olunur. Bununla yanaşı, kurs işlərinin, buraxılış işlərinin, referatların və magistr dissertasiyalarının hazırlanmasında yardım göstərilməsi üçün tələbələrə qrup şəklində və fərdi qaydada məsləhətlər verilir. Bu məqsədlə kafedralar tərəfindən məsləhət xidməti cədvəlləri tərtib olunur.

İkincisi, universitetdə tələbələrin uyğunlaşmasına, inkişafına nəzarət edən və akademik problemlərinin həllinə dəstək göstərən, müvafiq ixtisaslar dərəcələrinə malik akademik məsləhətçilər (tyutorlar) tərəfindən mütəmadi olaraq bütün tədris ili ərzində məsləhət xidməti həyata keçirilir. Onlar tələbələri kredit sistemi ilə tanış edir, onun tətbiqi, bu sistem çərçivəsində sistemin təşkili və digər zəruri hallarda tələbələrə köməklik göstərir, tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyur, tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edir, tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verir, tələbələrin fərdi tədris planlarının tərtib edilməsinə (dəyişikliklər aparmasına) yardım göstərir və yay semestrinin təşkilində iştirak edirlər.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ATM-də bütün fənlər üzrə sərbəst tapşırıqlar verilir. Tələbənin sərbəst işinin növü və forması (fərdi,komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Fakültə və kafedralarda tələbələrə hər bir fənn üzrə verilən sərbəst tapşırıqların sayı dəqiq müəyyən edilməmişdir ("Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"də onların sayı 10 nəzərdə tutulmuşdur) və bu məsələdə müəllimə sərbəstlik verilmişdir. Qiymətləndirmə sərbəst işlərin sayından və formasından asılı olaraq aparılır. Tələbələrin sərbəst işlərinin qiymətləndirilməsi AR TN 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Sərbəst işin yerinə yetirilməsinə görə tələbələrə 0-10 arasında bal verilir ki, bu da ümumi qiymətləndirmənin 10%-ni təşkil edir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ATM-də bakalavriat və magistratura səviyyəsində tələbələrin təcrübə keçməsi xüsusi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə universitetdə Təcrübə mərkəzi fəaliyyət göstərir. Bakalavriat səviyyəsində istehsalat təcrübəsi, magistratura səviyyəsində isə elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri həyata keçirilir. Təcrübələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 sentyabr 2008-ci il tarixli 221 № li qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Tədris planında nəzərdə tutulan təcrübə ilə yanaşı, istehsalat müəssisələrinin elan etdikləri könüllü təcrübə proqramlarında universitetin tələbələrinin iştirakını təmin etmək üçün davamlı iş aparılır.

Təcrübənin təşkilinə tədris ilinin əvvəlindən başlanılır, bununla əlaqədar müəssisələrə müraciətlər olunur. Təcrübələrin tələb olunan səviyyədə təşkili üçün daha çox ixtisasa uyğun dövlət qurumları, sənaye müəssisələri, banklar və s. müəssisələr müəyyən edilir və onlarla müqavilələr bağlanılır. Hazırda universitet onlarla belə müəssisə ilə müqavilə bağlamışdır. Müəssisələrlə razılaşdırılmış təcrübə yerləri ixtisas kafedralarına təqdim olunur və yanvar ayının sonuna qədər tələbələrin təcrübə yerlərinin bölgüsü yekunlaşdırılır.

Fakültələrdə təcrübəyə göndəriləcək IV kurs tələbələri və onların kafedradan təyin edilən rəhbərlərinə təcrübənin təşkili və keçirilməsi barədə ətraflı məlumat verilir, təlimlər təşkil olunur. Bundan sonra təcrübəyə göndəriləcək tələbələrin siyahısı, təcrübə rəhbərlərinin adları, təcrübənin qrafiki barədə məlumatlar müvafiq müəssisələrə göndərilir. Pedaqoji fakültənin ingilis dilində təhsil alan tələbələrinin pedaqoji təcrübələri özəl liseylərdə təşkil olunur. Təcrübənin sonunda aparılmış araşdırmalar və praktiki işlər üzrə əldə olunmuş

nəticələr barədə hesabatlar hazırlanır. Təcrübələr hesabatların tələbələr tərəfindən müvafiq qaydada müdafiəsi ilə başa çatır və müvafiq qaydada rəsmiləşdirilir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

ATM-in müəllimləri mütəmadi olaraq müxtəlif mübadilə proqramlarında iştirak etmiş, müxtəlif ölkələrdə (Almaniya, Cənubi Koreya, İtaliya, Rumıniya, Polşa və s.) olan aparıcı universitetlərdə ixtisasları üzrə akademik təcrübələrini artırmaq üçün stajkeçmədə olmuşlar. BMU-nun Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları Erasmus+ layihəsi çərçivəsində təlimlərdə olmuş, eləcə də Rektorlar Konfransının yaradılması (ECAR) qrant layihəsi çərçivəsində universitetin akademik heyətinin nümayəndələri bir çox təlimlərdə iştirak etmişlər.

**Cədvəl 3.5.**

**Mübadilə proqramlarında, təlim və konfranslarda iştirak statistikası**

| İllər | Xarici ölkələrdə keçirilən təlim və konfranslarda iştirak etmiş əməkdaşların sayı (nəfər) | Mübadilə proqramlarında iştirak edən akademik heyətin sayının professor-müəllim heyətinin ümumi sayına nisbəti (%) | Mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının inzibati heyətin ümumi sayına nisbəti (%) |
|---|---|---|---|
| 2018 | 44 | 4.46% | 12,88% |
| 2019 | 59 | 5.04% | 16,80% |
| 2020 | 7 | 0.66% | 2,04% |
| 2021 | 12 | 4.6% | 3.04% |
| 2022 | 56 | 15% | 11.85% |

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ATM-də kadr hazırlığı həyata keçirilən ixtisasların əksəriyyətində layihələrin işlənməsi təcrübəsinin tələb olunması baxımından kurs layihələrinə, kurs işlərinə önəm verilir. Magistratura səviyyəsində tədris planlarında magistrlar tərəfindən referatların hazırlanması nəzərdə tutulur. Tədris planlarında nəzərdə tutulmuş kurs layihələrinin, kurs işlərinin və referatların hazırlanması üçün kafedrada fənni tədris edən müəllimlər tərəfindən əvvəlcədən mövzular və tapşırıqlar hazırlanır və semestrin əvvəlində tələbələrə təqdim edilərək, onların yerinə yetirilməsi üçün zəruri ədədbiyyat və digər materiallar tövsiyə olunur. Tələbələrə istiqamət verilməsi və görülmüş işlərin müzakirəsi məqsədilə müəllimlər tərəfindən məsləhət saatları təyin edilir. Yekunda işlənib hazırlanmış kurs işlərinə müəllim tərəfindən baxış keçirilir və təsdiq edir. Hazırlanmış kurs layihələrinin və kurs işlərinin müdafiəsi kafedranın müəllimlərindən və ixtisas üzrə mütəxəssislərindən təşkil olunmuş komissiya qaşısında keçirilir və qiymətləndirilir.

Müdafiə prosesinin komissiyanın katibi tərəfindən xüsusi jurnalda rəsmiləşdirildiyi qeyd edilsə də, sahə baxışı zamanı komissiya üzvlərinə belə bir jurnal təqdim olunmamışdır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATM-də bakalavriat və magistr səviyyələrində buraxılış işlərinin və magistr dissertasiyalarının hazırlanmasının və müdafiəsinin təşkili Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin və Azərbaycan Respublikası Təhsil Nazirinin 20.04.1998-ci il tarixli, 202 saylı əmri ilə təsdiq olunmuş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Tədris planının bütün şərtlərini yerinə yetirmiş bütün bakalavrlar və magistrlər yekun attestasiyaya (buraxılış işinin və magistr dissertasiyalarının yazılmasına) buraxılırlar.

Buraxılış işlərinin mövzuları tələbələrin iştirakı ilə müəyyən edilir. Belə ki, kafedralarda tələbələrin iştirakı ilə qabaqcadan müzakirələr aparılır, aktual mövzular və rəhbərlər seçilir. Mövzular, bir qayda olaraq, təcrübə ilə bağlı olur, istehsalat sahələrinə aid məsələlərə həsr olunur. Buraxılış işlərinin mövzuları və rəhbərlər əmrlə rəsmiləşdirilir. Buraxılış işlərinin tapşırıqları, lazım olan ədəbiyyatlar yaz semestrinin başlanğıcında tələbələrə təqdim olunur və onlar üçün məsləhət saatları müəyyən edilir. Buraxılış işlərinin müdafiəsi Dövlət Attestasiya Komissiyası (DAK) tərəfindən həyata keçirilir. Komissiyanın sədri ixtisas sahəsinə uyğun sahələrdə elmi dərəcəsi olan tanınmış mütəxəssislər sırasından Azərbaycan Respublikasının elm və təhsil nazirinin əmri ilə təyin edilir, tərkibi isə rektorun əmri ilə təsdiq olunur və bir təqvim ili ərzində fəaliyyət göstərir. Komissiya sədri qismində eyni adam maksimum 3 il ardıcıl olaraq təyin oluna bilər. Buraxılış işlərinin müdafiələri iki mərhələdə (ilkin müdafiə və yekun müdafiə) aparılır. İlkin müdafiə kafedrada yaradılmış komissiya tərəfindən, yekun müdafiə isə DAK tərəfindən keçirilir. 2021-ci ildə pandemiya dövrünün tələblərinə uyğun olaraq yekun dövlət attestasiyası "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 İyun 2021-ci il tarixli 158 №-li qərarına əsasən aparılmışdır. Belə ki, buraxılış işinin yerinə yetirilməsi tələbi qoyulmadan, tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən, nəzərdə tutulmuş cari attestasiyalardan (imtahanlardan) müvəffəq qiymət almış tələbələr təhsil müddətində əldə etdiyi ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunmuşdur. ÜOMG-yə uyğun nəticə ilə razılaşmayan tələbələrə ixtisas üzrə yekun buraxılış dövlət imtahanında iştirak etmək hüququ verilmişdir.

Magistr dissertasiyalarının mövzuları və rəhbərləri də magistrlərlə aparılan müzakirələr nəticəsində müəyyən edilir və I kursun birinci semestrinin sonunda rektorun əmri ilə rəsmiləşdirilir. Bəzi hallarda mövzuların seçilməsində işəqötürənlərin imkanlarından istifadə olunmuş, onların fəaliyyəti ilə bağlı mövzu seçilmiş və uğurla müdafiə olunmuş işlərin onlar tərəfindən nəşr olunması qərara alınmışdır. Magistr dissertasiyalarının müdafiəsi İxtisaslaşdırılmış Şuralar (İŞ) tərəfindən həyata keçirilir. İŞ-in fəaliyyəti Elm və Təhsil Nazirliyinin 10.11.98-ci il tarixli, 742 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar haqqında” Əsasnaməyə əsasən təşkil olunur. İŞ-in sədri müvafiq ixtisas sahəsində tanınan, elmi dərəcəsi olan mütəxəssislər sırasından Azərbaycan Respublikasının elm və təhsil nazirinin əmri ilə təsdiq edilir və üzvləri isə rektorun əmri ilə təyin olunur. Bu şura tədris ili ərzində fəaliyyət göstərir. Müdafiələr iki mərhələdə aparılır: ilkin müdafiə və yekun müdafiə. İlkin müdafiə kafedrada yaradılmış daxili komissiya tərəfindən, yekun müdafiə isə İŞ tərəfindən keçirilir.

Kafedralarda həm bakalavriat, həm də magistratura səviyyələrində DAK və İŞ keçirilməsi üzrə zəruri sənədlər (DAK-ın və İŞ-in hesabatları, onların yaradılması əmrləri, tərkibi, keçirilən iclasların sayı, protokolları, müdafiəyə təqdim olunan bakalavr buraxılış işləri və magistr dissertasiyaları barədə bütün zəruri məlumatlar) mövcuddur.

Qeyd edilməlidir ki, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə buraxılış işləri və magistr dissertasiyaları çərçivəsində layihələrin (planşetlərin) istifadəsi ilə yanaşı, təqdimat albomlarının da təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

İmtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na, elm və təhsil nazirinin və universitetin rektorunun əmrinə əsasən təşkil olunur. İmtahan sessiyası dövründə yarana biləcək problemlərin və münaqişələrin həlli məqsədilə rektorun əmri ilə İmtahan qərargahı və Apellyasiya komissiyası yaradılır. Universitetdə imtahanlar iki formada – əsasən  yazılı formada, bəzi fənlər üzrə isə test formasında keçirilir. İmtahanda tələbələrin cavabları həmin gün fənn müəllimi tərəfindən yoxlanılır və qiymətləndirmənin nəticələri EMS-ə daxil edilir. EMS-ə daxil edilən qiymətləri tələbələr öz şəxsi kabinetlərində görürlər. İmtahan sessiyasının sonunda universitet üzrə imtahanların nəticələrinə dair yekun hesabat hazırlanaraq, Elm və Təhsil Nazirliyinə təqdim edilir. İmtahan sessiyasının nəticələri fakültə və universitet Elmi Şuralarında müzakirə edilir.

**Cədvəl 3.6.**

**2022/2023-cü və 2021/2022-ci tədris illərinin payız semestrlərinin imtahan sessiyalarının nəticələrinin müqayisəsi**

| Fakültə | İllər | Tələbələrin sayı | | İmtahanları müvəffəqiyyətlə verənlər | | | | Akademik borcu olanlar (F) | | | | İmtahanda iştirak etməyənlər | | Müvəffəqiyyət göstəricisi (müsbət qiymət alanlar %) | Keyfiyyət göstəricisi (əla, əla və yaxşı qiymət alanlar %) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | O cümlədən | | | | O cümlədən | | | | | | |
| | | Cəmi | İmtahanda iştirak edənlər | Cəmi | Əla (A) | Əla, çox yaxşı və yaxşı (C,B,A) | Qarışıq (E,D,C,B,A) | Cəmi | 1 fəndən | 2 fəndən | 3 və daha çox fəndən | Üzürlü | Üzürsüz | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** |
| Mühəndislik | 2022/23 | 1758 | 1739 | 1564 | 90 | 544 | 930 | 175 | 109 | 30 | 36 | 4 | 15 | 89,94 | 36,46 |
| | 2021/22 | 1589 | 1582 | 1435 | 71 | 439 | 925 | 147 | 68 | 41 | 38 | 3 | 4 | 90,71 | 32,24 |
| Memarlıq və inşaat | 2022/23 | 1110 | 1097 | 936 | 27 | 254 | 655 | 161 | 88 | 42 | 31 | 2 | 11 | 85,32 | 25,62 |
| | 2021/22 | 1057 | 1052 | 926 | 41 | 277 | 608 | 126 | 59 | 34 | 33 | 2 | 3 | 88,02 | 30,23 |
| İqtisadiyyat və idarəetmə | 2022/23 | 1036 | 1018 | 756 | 22 | 170 | 564 | 262 | 121 | 49 | 92 | 4 | 14 | 74,26 | 18,86 |
| | 2021/22 | 1199 | 1195 | 810 | 16 | 195 | 599 | 385 | 164 | 92 | 129 | 1 | 3 | 67,78 | 17,66 |
| Pedaqoji | 2022/23 | 517 | 515 | 479 | 22 | 181 | 276 | 36 | 21 | 10 | 5 | 0 | 2 | 93,01 | 39,42 |
| | 2021/22 | 535 | 535 | 482 | 15 | 143 | 324 | 53 | 26 | 8 | 19 | 0 | 0 | 90,09 | 29,53 |
| Cəmi: | 2022/23 | 4421 | 4369 | 3735 | 161 | 1149 | 2425 | 634 | 339 | 131 | 164 | 10 | 42 | 85,49 | 29,98 |
| | 2021/22 | 4380 | 4364 | 3653 | 143 | 1054 | 2456 | 711 | 317 | 175 | 219 | 6 | 10 | 83,71 | 27,43 |

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

ATM-də fənn üzrə yay semestri Elmi Şuranın qərarına əsasən, ən azı 5 tələbə müraciət etdikdə təşkil edilir. Yay məktəbi müvafiq qaydalara uyğun olaraq, universitetin rektorunun əmri ilə rəsmiləşdirilir. Əgər hər hansı fənn üzrə qrupun açılması üçün kifayət qədər tələbə müraciəti olmazsa, onda həmin fənni dinləmək istəyən tələbələr digər universitetlərə yönləndirilir. Sahə baxışı zamanı bəzi fakültələrdə müvafiq sənədlərin mövcudluğu müəyyən edilmişdir. Yay semestri, bir qayda olaraq, ayrıca təsdiq olunmuş 5 həftəlik dərs cədvəli əsasında aparılır. Dərslər başa çatdıqdan sonra 6-cı həftədə imtahanlar təşkil olunur.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

ATM-də tələbələrin kredit borçlarının yaranması dinamikası daim təhlil olunur və nəzarət altında saxlanılır. ATM tərəfindən hazırlanan kredit borclarının dinamikası bütün

fakültələr üzrə hər tədris ilində hazırlanır və müvafiq hesabatlar Elm və Təhsil Nazirliyinə təqdim olunur. Dinamikanın statistik göstəriciləri bakalavriat səviyyəsi üzrə kredit borclarının dəyişkən olması və pandemiyadan sonra 2021/2022-ci tədris ilində kəskin artması müşahidə olunmuşdur. Kredit borçlarının bütün tədris illəri üzrə əsas hissəsi İqtisadiyyat və idarəetmə fakültəsinin payına düşür.

**Cədvəl 3.7.**

**Son 5 il üçün bakalavriat səviyyəsində kredit borclarının dinamikası**

| Fakültə | 2018/19 | | 2019/20 | | 2020/21 | | 2021/22 | | 2022/23 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz |
| Mühəndislik | 324 | 339 | 223 | 102 | 35 | 17 | 147 | 418 | 175 | - |
| Memarlıq və inşaat | - | - | 144 | 31 | 26 | 9 | 126 | 216 | 161 | - |
| İqtisadiyyat və idarəetmə | 433 | 379 | 438 | 118 | 80 | 31 | 385 | 511 | 262 | - |
| Pedaqoji | 67 | 68 | 43 | 22 | 6 | 3 | 53 | 117 | 36 | - |
| **Cəmi:** | **824** | **786** | **848** | **273** | **147** | **112** | **711** | **1262** | **634** | **-** |

**Cədvəl 3.8.**

**Son 5 il üçün magistratura səviyyəsində kredit borclarının dinamikası**

| Fakültə | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|
| Mühəndislik | 7 | 4 | 0 | 5 | - |
| Memarlıq və inşaat | - | 4 | 0 | 2 | - |
| İqtisadiyyat və idarəetmə | 43 | 28 | 11 | 18 | - |
| Pedaqoji | 3 | 2 | 0 | 0 | - |
| **Cəmi:** | **53** | **38** | **11** | **25** | **-** |

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

**Cədvəl 3.9.**

**Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası**

| Tədris illəri | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|
| Bakalvr səviyyəsində | 520 | 443 | 418 | 570 | 336 |
| Magistratura səviyyəsində | 55 | 94 | 68 | 46 | 43 |

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-də tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi mütəmadi olaraq kafedralar, dekanlıqlar, Tədris hissəsi, Metodiki işlər və Keyfiyyətin təminatı şöbələri tərəfindən həyata keçirilir. Bəzən müəyyənləşdirilmiş normalar tədrisin keyfiyyətinin təmin etməyə imkan vermir. Məsələn, ixtisasın xüsusiyyətindən asılı olaraq, laboratoriya dərslərində tələbə sayı yalnız 25-dən çox olduqda qrupun yarımqruplara bölünməsinə icazə verilir, bu isə dərsi keyfiyyətli şəkildə keçirilməsində çətinliklər yaradır. Xüsusi hallarda, ixtisasdan və fənndən asılı olaraq, laboratoriya dərslərinin qrupda tələbə sayı 25-dən az (15-də çox) olduqda yarımqruplara bölünməsi məqsədəuyğun olardı.

## *3.4 Tədris metodları və üsulları*

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATM-də ixtisasların tədris proqramlarında nəzərdə tutulmuş təlim nəticələrinin əldə olunmasını təmin etmək məqsədilə tədris prosesində müxtəlif metod və texnologiyalardan, o cümlədən innovativ, yaradıcı və interaktiv təlim metodlarından istifadə olunur. Bu məqsədlə tələbələrin zehni və fəallığına, müstəqilliyinə əsaslanan, tədqiqatçılıq və əməkdaşlıq şəraiti yaradılır, onların məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran üsullar tətbiq edilir. Auditoriyalarda elektron lövhələrin və proyektorların olması, digər laboratoriya imkanları (kompüter, mexanika, kimya və s. avadanlıqları) belə metodların tətbiqini mümkün edir. Fakültələrdə

mövcud olan texniki təchizat, laboratoriyarda yaradılmış şərait təlim nəticələrinin hədəflərinə çatmağı təmin edir. Yaradıcı sahələrdə mütəmadi olaraq tələbələrin təfəkkürünün genişlənməsinə yönəlmiş layihələr, sərgilər və s. təşkil olunur.

Universitetdə keçirilmiş sorğunun nəticələri aşağıda verilmişdir.

**Diaqram 3.2.**

**Tələbələrlə keçirilmiş sorğu nəticələri**




### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

ATM-də tədris prosesidə tələbələrin müstəqil surətdə elmi bilikləri əldə edə bilməsi, problemlərin qoyulması və onların həlli yollarını tapılması, biliklərin yaradıcı şəkildə tətbiqi daim diqqət mərkəzində saxlanılır. Tədris yalnız elmi-nəzəri biliklərə əsaslanmır, həmçinin nəzəri biliklərin təcrübədə tətbiqinə önəm verilir və nəzəri biliklər təcrübə ilə möhkəmləndirilir. Tələbələrdə müstəqil işləmə bacarığı və məsuliyyəti kimi xüsusiyyətlərin formalaşması üçün müvafiq tədbirlər görülür. Bu zaman əsas məqsəd bilik və bacarıqların müəllimdən tələbəyə köçürülməsi deyil, tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirməsi, analitik təhlil, sərbəst düşünmə, verilən məlumatlar və özünün düşüncələri arasında əlaqələrin yaradılması, nəzəri biliklərin təcrübi yollarla dərinləşdirilməsi və qazanılan bilik və bacarıqların gələcək peşə fəaliyyətində tətbiq edilməsi ilə bağlıdır.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATM-də tədris yalnız əyani təhsilalma formasında aparıldığından təhsilin digər formaları haqqlnda fikir söyləmək çətindir. Əyani təhsilalma forması, eləcə də laboratoriya

imkanları, auditoriyaların maddi-texniki vəziyyəti və professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi tədris prosesində mümkün tədris metodlarını tətbiq etməyə imkan verir.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

ATM-də müəllimlərin istifadə etdikləri tədris metodları açıq dərslərin keçirilməsi yolu ilə qiymətləndirilir. Bu dərslər kafedra iclaslarında müzakirə olunur və müəllimlərə zəruri tövsiyələr verilir. Tələbələrin dünyagörüşünün inkişaf etdirilməsi, gələcək fəaliyyət sahələri ilə tanışlıq məqsədilə mühəndislik ixtisaslarında tələbələrin müvafiq müəssisələrə ekskursiyaları təşkil olunur, həmin müəssisələrin mütəxəssislərinin iştirakı ilə universitetdə və müəssisələrdə seminar və təlimlər təşkil olunur. Tədris prosesində müvəffəqiyyət əldən edən tələbələr müxtəlif üsullarla (təşəkkür, sertifikat, mükafat və s.) həvəsləndirilərək, motivasiyaları artırılır. Tələbələrin bilik və bacarıq diapazonunun genişlənməsi üçün fərdi metodik yanaşmalardan istifadə olunur. Universitetdə keçirilmiş sorğunun nəticələri aşağıda verilmişdir.

**Diaqram 3.3.**

**Tələbələrlə keçirilmiş sorğu nəticələri**




### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ATM-də uyğunlaşdırılmış tədris metodları tələbələrin tədris səviyyələrindən və fərdi xüsusiyyətlərinə əsaslanaraq tətbiq edilmişdir. Belə ki, universitetin maddi-texniki bazasından istifadə etməklə tələbələrin layihələri reallaşdırılmış, nəticədə onlar beynəlxalq tədbirlərdə müvəfəqiyyət qazana bilmişdir. Fərdi xüsusiyyətlərinin inkişafına

yönələn metodların yaradıcı sahədə (Memarlıq, Dizayn) tətbiqi səmərili nəticə vermişdir. Belə ki, qabiliyyət imtahanı olmadığı üçün bu ixtisaslar üzrə təhsil alan tələbələrin qısa zamanda müvafiq bacarıqlara yiyələməsinə zərurət yaranmışdır. Fakültədə bu proses tələbələrin fərdi bədii zövqlərinin formalaşması ilə yanaşı tənzimlənmişdir. III növbədə dərslərin təşkili magistr tələbələrinin sayının artmasında müsbət nəticələr göstərmişdir. Özünütəhlil Hesabatında qeyd olunan müəllimlərin və tələbələrin yorulması problemi ümumi problem olub, hələ ki rasional həllini tapmamışdır.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

ATM-də tədris prosesində istifadə olunan texnoloji vasitələrin və proqram təminatılarının müasir tələblərə uyğunluq təşkil etməsi daim nəzarət altında saxlanılır. Tədris olunan fənlər üzrə tədris materiallarının və ədəbiyyatın tələbələrə çatdırılması Google classroom üzərindən reallaşdırılmış platforma vasitəsi ilə həyata keçirilir. Həmçinin, tələbələr də hazırladıqları tapşırıqların cavablarını həmin platforma vasitəsi ilə fənn müəllimlərinə ötürə bilirlər. ATM-də fəalyyət göstərən kimya, fizika, biologiya, mexanika və kompüter laboratoriyaları müasir avadanlıqlarla təchiz edilmiş, avtomatika, elektronika, elektrotexnika, kompüter laboratoriyaları və s. kimi yeni laboratoriyalar, dizayn və memarlıq studiyaları yaradılaraq tələbə və müəllimlərin istifadəsinə verilmişdir.

Bununla yanaşı, tədris prosesində müasir mühəndislik tətbiqi proqramlarından (məs. SCADA, KissSoft, Sap2000, ArchCAD, AnsysWorkbench, StaadPro, XSteel, Eviews və s.) istifadə olunur. Tədrisin keyfiyyətinin yüksəldilməsi interaktiv tədris metodikasının tətbiqi ilə həyata keçirilir və dərs vaxtı tələbələr qarşılıqlı dialoqa cəlb olunur ki, bu yolla hər bir tələbənin tədris prosesində tam iştirakı təmin edilir.

Universitetdə keçirilmiş sorğunun nəticələri aşağıda verilmişdir.

**Diaqram 3.4.**

**Tələbələrlə keçirilmiş sorğu nəticələri**



### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

ATM-də tədris proqramlarında nəzərdə tutulmuş təlim nəticələrinin əldə olunması məqsədilə innovativ, yaradıcı və interaktiv metod və texnologiyalar tətbiq olunur. Dərslərin, o cümlədən mühazirələrin aparılmasında elektron təqdimatlardan (MS PowerPoint proqramı vasitəsilə) geniş istifadə olunur. Belə təqdimatlardan istifadə mühazirə dərslərində, müasir avtomatlaşdırılmış layihələndirmə, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərslərində interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərindən istifadə, praktik məşğələ dərslərinin xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında aparılması tələb olunan nəticələri əldə etməyə imkan verir. Fizika, kimya, elektrik maşınları, elektrik stansiyaları, elektronika, avtomatlaşdırılmış sistemlər üzrə dərslər xüsusi auditoriyalarda keçirilir. Bəzi praktik dərslər (elektrik maşınları, elektrik stansiyaları üzrə) “Azərenerji” ASC-nin Tədris Mərkəzində keçirilməsi tədrisin səmərəliliyini artırır. Bundan əlavə, BMU-da bir sıra fənlərin tədrisi ixtisaslaşmış proqram (Matlab, ETAP, Digsilent PowerFactory və s.) komplekslərinin bazasında virtual laboratoiyalardan istifadə etməklə keçirilir. Ümumiyyətlə, universitetdə yeni təlim-tədris metodlarının və interaktiv texnologiyaların tətbiqi təşviq edilir.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-də tədris metod və üsullarının mütəmadi olaraq monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçrilir. Bu məqsədlə Keyfiyyətin nəzarəti şöbəsi tərəfindən hər semestr müvafiq sorğular keçirilir, sorğuların nəticələri təhlil olunur və müvafiq təkliflər hazırlanır. Sorğuların nəticələri universitet rəhbərliyi yanında müzakirə edilir və müvafiq struktur bölmələrinə göndərilir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ATM-də “AZUMİS” adı altında Ədliyyə Nazirliyində qeydiyyata alınmış Elektron Məlumat Sistemi (EMS) mövcuddur. Bu istifadəçilərə verilən icazələr çərçivəsində proqram təminatı və avadanlıqlardan ibarət, onlayn rejimdə işləyən, universitetin müxtəlif struktur bölmələri tərəfindən hazırlanmış məlumatları qəbul edib özündə saxlayan, mərkəzləşdirən bir sistemdir. EMS vasitəsilə dərs yüklərini müəyyənləşdirmək, tələbələrin dərs qeydiyyatı (fənn seçimi), elektron jurnalın doldurulması, qiymətləndirmə, təqaüdlərin hesablanması üçün lazım olan məlumatların əldə edilməsi, tələbələrin təhsil

haqlarının hesablanması, müxtəlif hesabatların əldə edilməsi və digər prosesləri həyata keçirmək olur. Eyni zamanda tələbələr dərsə davamiyyət, qiymətləndirmələrin nəticələri, təhsil sahəsində qanunvericiliklər, elanlar, dərs cədvəli, təhsil haqqı borcu və ödənişləri barədə məlumatları əldə edə bilir, təkrar imtahanlarda iştirak üçün müraciət, sənəd sifarişi, anketlərdə iştirak, kitabxananın elektron kataloqunda kitab axtarışı və sifarişi və s. əməliyyatları şəxsi kabinetləri vasitəsi ilə icra edə bilirlər. Müəllim və əməkdaşlar isə öz səlahiyyətlərinə uyğun olaraq şəxsi kabinetlərindən elektron jurnal, qiymət daxil etmə, dərs cədvəli, tələbə məlumatları, hesabatlar, ixtisasların tədris planları, fənn məlumatları, kitabxana və s. altmodullara daxil olmaq imkanlarına malikdirlər.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı ATM-də elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlar və tədris-texniki vasitələr, informasiya-kommunikasiya texnologiyaları, əyani tədris vəsaitləri, ağıllı lövhələr və proyektorlarla təchiz olunmuş 24 laboratoriya (bunlardan 15 ədədi kompüter laboratoriyaları, 9 ədədi isə digər tədris laboratoriyalarıdır) və 130 tədris auditoriyası müəyyən olunmuşdur ki, onların 120 ədədi mühazirə zallarından, 10 ədədi isə seminar auditoriyasından və iclas zallarından ibarətdir. Bu auditoriyalar ümumilikdə 116 proyektor, 92 interaktiv lövhə, 515 internetə çıxışı olan kompüterlərlə təchiz olunmuşdur.

Lakin qeyd etmək lazımdır ki, bir çox kompüterlər köhnə nəsil kompüterlərdir, texniki göstəriciləri aşağıdır və müəyyən fənlərin tədrisi üçün tələb olunan spesifik proqram təminatlarını işlətmək üçün zəruri imkanlara malik deyildir. Belə kompüterlərin yenilənməsi və ya texniki parametrlərinin artırılması ilə ixtisasların spesifik xüsusiyyətlərinə uyğun proqram təminatı ilə təchiz edilməsi tövsiyə olunur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

ATM-də müəllimlər tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə almaq üçün EMS-dən istifadə edirlər. Belə ki, onlar tədris etdikləri fənlər üzrə tələbələrin dərslərdə iştirakı barədə məlumatları və aldıqları qiymətləri sistemə daxil edirlər. Daxil edilən məlumatlar həm də tələbənin şəxsi kabinetində sinxron olaraq görünür. 25 faizdən çox dərsdə iştirak etməyən tələbələrin fənn üzrə imtahana buraxılmaması prosesi də elektron jurnal vasitəsi ilə həyata keçirilir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Sahə baxışı və sorğu zamanı ATM-də tədrisin təşkili prosesində EMS-dən və Google Classroom-dan istifadə olunduğu müəyyən edilmişdir. Kompüter, proyektor, ağıllı lövhələr və s. texnika ilə təchiz olunmuş auditoriyalarda təhsil proqramına və fənnin

xüsusiyyətinə uyğun olaraq qeyd olunan rəqəmsal vasitələrdən istifadə etməklə tədris təşkil olunur. Bəzi fənlərin tədrisi, o cümlədən laboratoriya işlərinin yerinə yetirilməsi üçün xüsusi proqram təminatlarından istifadə olunur. Tələbələr arasında keçirilmiş sorğu zamanı Google Classroom platformasından istifadə ilə bağlı sualı cavablandırmışlar.

**Diaqram 3.5.**

**Google Classroom platformasından istifadə ilə bağlı sorğunun nəticələri**




### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də internetə çıxışı olan ümumilikdə 154 auditoriya və laboratoriya otaqları vardır. Eləcə də universitetdə fəaliyyət göstərən 164 nəfər inzibati heyət əməkdaşlarının hər biri və 299 nəfər professor-müəllim heyətinin 160 nəfər əməkdaşı kompüterlə təmin edilmişdir. Kompüter laboratoriyalarında və tədris auditoriyalarında mövcud olan kompüterlərin hər biri qlobal internet şəbəkəsi ilə təmin edilmişdir. Onu da qeyd etmək lazımdır ki, sadalanan bütün resursların cari vəziyyəti ortadır və onların yenilənməsi məsləhətdir.

Bundan əlavə, tədris binalarının dəhlizlərində təşkil olunmuş guşələrdə tələbələrin istifadəsi üçün nəzərdə tutulan kompüterlərin sayı 18 ədəddir. Kitabxananın ümumi oxu zalının və elektron kitabxana fondunun olmamasını nəzərə alaraq, belə kompüterlərin sayının artırılması vacibdir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

Sahə baxışı zamanı ATM-nun auditoriya fondunun sahəsinin 5241.51 kv.m təşkil etdiyi müəyyən olunmuşdur. I növbə bakalavriat səviyyəsində təhsil alan tələbələrin sayının 2483, II növbə bu sayın 1968 və III növbə magistr səviyyəsində təhsil alan tələbələrin sayının 406 nəfər olduğunu nəzərə alaraq auditoriya fondunun tələbə sayına

uyğunluğunu müvafiq olaraq 2.11 kv.m, 2.66 kv.m və 12.91 kv.m olduğunu görürük. Bu isə “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən normalara cavab verir.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Özünütəhlil Hesabatında verilən məlumata əsasən ATM-in akademik və inzibati heyətinin fəaliyyətini təmin edən zəruri otaq fondunun ümumi sayının 2022-ci ilə qədər 285 olduğunu söyləmək olar. 2022/2023-cü tədris ilində yeni tədris korpusunun istifadəyə verilməsi ilə əlaqədar otaqların ümumi sayı 346-ya çatdırılmışdır. Bulardan 27-si auditoriya, 15-i laboratoriya, 19-u isə inzibati otaqlardır. Bu fakt sahə baxışı zamanı öz təsdiqini tapmışdır. Eləcə də müəyyən olunmuşdur ki, otaq çatışmazlığı səbəbindən oğlanlar yataqxanasının 2 mərtəbəsi tədris və inzibati otaqlara ayrılmışdır. Mövcud olan otaq sayının azlığı, eləcə də akademik və inzibati heyətin artan sayını və universitetin kampusunun ərazisinin geniş olduğunu nəzərə alaraq otaq fondunun artırılması məqsədi ilə gələcəkdə yeni binaların tikilməsi tövsiyə olunur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Özünütəhlil Hesabatına əsasən ATM-in kitabxanasında 106 minə yaxın kitab və jurnal vardır. Kitabxana həm real, həm də elektron şəkildə fəaliyyət göstərir. Eyni zamanda, kitabxana fondundan əməkdaşların və təhsilalanların sərbəst və operativ formada axtarış və siafriş etməsi üçün ATM-in EMS resursu üzərindən zəruri şərait yaradılmışdır. Bütün bunlara baxmayaraq kitabxananın özünün ayrıca oxu zalının və elektron ədəbiyyat fondunun olmaması qənaətbəxş deyildir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Qeyd olunduğu kimi, ATM-in kitabxanasında 106 minə yaxın kitab və jurnal vardır. Özünütəhlil Hesabatına əsasən 2019-2022-ci illər ərzində ATM-in kitabxanasına daxil olunmuş kitab sayının 2 dəfəyə yaxın artdığı müşahidə etmək mümkün olmuşdur. Bu say illər üzrə 480-dən 848-ə çatmışdır. Lakin 2023-cü ildə bu sayın 800 olduğu qeyd olunur.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Sahə baxışı və sorğu zamanı kitabxana fondunda müxtəlif tədris dillərinə uyğun zəruri sayda ədəbiyyatın olduğu müəyyən edilmişdir. Həmçinin kitabxanada ədəbiyyatın sayının müxtəlif layihələr hesabına və təşkilatların dəstəyi ilə artdığı da konkret

nümunələrlə təsdiqlənmişdir. Belə ki, BP şirkətinin Azərbaycan dilinə tərcümə etdiyi bir çox kitab, BMU və Koreya Respublikasının İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı çərçivəsində Dövlət Neft Fondunun ayırdığı vəsait hesabına alınan kitablar, eyni zamanda Elm və Təhsil Nazirliyinin grantı hesabına Avtomatika və Elektronika ixtisası üzrə tədris materiallarının gücləndirilməsi layihəsi çərçivəsində kitabxanaya verilən 20-yə yaxın dərslik kitabxana fonduna daxil edilmişdir.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

ATM-də son 5 ildə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmi ildən-ilə fərqli şəkildə dəyişmişdir. Belə ki, 2018-ci ildə bu məbləğ 23792,01 manat, 2019-cu ildə 14862,20 manat, 2020-ci ildə 7440,00 manat, 2021-ci ildə 93510,00 manat, 2022-ci ildə isə 74760,00 manat olmuşdur. Eyni zamanda, verilən məlumatlara əsasən 2023-cü ildə Açıq kitabxana şəbəkəsi Thomson üçün 42800 manat və BMU-İNHA ikili diplom proqramının icrası ilə bağlı 23800 manat dəyərində kitabların alınması da nəzərdə tutulmuşdur.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

ATM-in 20 hektarlıq kampus ərazisində 5 tədris korpusu vardır. Burada tədris prosesinin təşkiliylə əlaqədar olaraq akt zalları, yeməkxanalar, yataqxana, tədris kabinetləri, laboratoriyalar və emalatxanalar, internet şəbəkəsinə qoşulmuş kompüter laboratoriyaları fəaliyyət göstərir. Tədrisin müasir metodlarla təşkili üçün auditoiyaların əksəriyyəti proyektorlarla, ağıllı lövhələrlə və digər lazımi avadanlıqlarla təchiz olunmuşdur. Bundan əlavə, universitetdə dərs yüklərini müəyyənləşdirmək, tələbələrin dərs qeydiyyatı, elektron jurnalın doldurulması, qiymətlərin daxil edilməsi, təqaüdlərin hesablanması üçün lazım olan məlumatların əldə edilməsi, tələbələrin təhsil haqlarının hesablanması, eyni zamanda dərsə davamiyyət, qiymətləndirmələrin nəticələri, təhsil sahəsində qanunvericiliklər, elanlar, dərs cədvəli, təhsil haqqı borcu və ödənişləri barədə məlumatlar, imtahanlarda iştirak üçün müraciət, sənəd sifarişi, anketlərdə iştirak, kitab sifarişi və s. əməliyyatlar universitetdə fəaliyyət göstərərn EMS vasitəsilə həyata keçirilir. ATM-in elektron poçt ünvanı və internetdə veb-səhifəsi mövcuddur. Bununla belə hər tədris ilində tələbə kontingentinin sayının artması yeni təlim və tədris resurslarından istifadəni və yenilənməni aktual edir.

Tələbələr tədris korpuslarında mövcud olan laboratoriyalardan, onların imkanlarından, emalatxanalardan, kitabxana fondundan daim istifadə etmək imkanına malikdirlər.
Təlim və tədris resurslarının istifadəsinin və vəziyyətinin monitorinqi kafedralar, fakültə rəhbərlikləri, Tədris və Tədris metodiki şöbələr, Keyfiyyətin təminatı şöbəsi və aidiyyəti prorektorluqlar tərəfindən həyata keçirilir. Zəruri hallarda təlim və tədris resursların yenilənməsi barədə təkliflər hazırlanaraq rəhbərliyə məlumat verilir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

ATM-də təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından təhlili göstərmişdir ki, əksər hallarda resurslar təlim-tədris prosesinin təmin edilməsi baxımından qənaətbəxşdir. Auditoriyalarda və laboratoriya otaqlarında təlim və tədris resursları kəmiyyət təhsilalanları təmin etmək üçün yetərli saydadır, lakin kitabxanada oxu zalının olmaması, kompüterləşdirilmiş oxucu yerlərinin olmaması, dəhlizlərin geniz sahələrinin oxu zalları və istirahət sahəsi kimi istifadəsi, burada kompüterlərin, demək olar ki, quraşdırılmaması müəyyən çətinlik yaradır. Memarlıq və inşaat fakültəsində emalatxanaların sərbəst istifadəsi imkanları, dəhlizlərdə emalatxana xarakterli şəraitin yaradılması, dərsdən sorakı vaxtlarda tələbələrin burada işləməsi tələbələrə arasında müsbət qarşılanır, praktiki təlimə marağı artırır.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

ATM-də sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları mövcud deyildir. Bəzi binalarda bu kateqoriyadan olan şəxslərin hərəkəti üçün müvafiq imkanlar mövcuddur, lakin imkanlar məqsədli şəkildə yaradılmamışdır. Ümumiyyətlə, hazırda universitetdə təhsilalanlar və təhsilverənlər arasında sağlamlıq imkanları məhdud şəxslər mövcud deyildir. Bu səbəbdən bu məsələ diqqətdən kənarda qalmışdır.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Təqdim olunmuş Özünütəhlil Hesabatındakı və sahə baxışı zamanı əldə edilmiş məlumatlara əsasən demək olar ki, ATM-də 2019-cu ildən 2021-ci ilə qədər çap olunmuş tədris resurslarının sayının azalması müşahidə edilmişdir. Verilən məlumata görə, bu, obyektiv səbəblə - Covid-19 pandemiyası ilə əlaqədar olmuşdur. 2022-ci ildə dərs vəsaitlərinin, dərsliklərin, monoqrafiyaların sayı nisbətən artsa da, fənn proqramları və metodik vəsaitlərin sayı azalmışdır. Müəllimlərlə sorğu zamanı buna səbəb dərs yüklərinin çoxluğu, elmi-tədqiqat və metodiki işlər üçün vaxtın az olması əsas kimi göstərilmişdir. Qeyd edilməlidir ki, universitetdə daimi ştatda olan pedaqoji heyətin sayının ümumi pedaqoji heyətin sayına nisbətdə az olması da bu məsələdə çətinlik yaradan səbəblərdəb biri olmuşdur.

### 3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ATM-də 4 tələbə təşkilatı - Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Yeni Klub və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Bu qurumların sədrləri ilə görüşdə tələbələrin elmi, tədris və sosial fəaliyyətlərinin dəstəklənməsi və koordinasiya olunması məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlərin keçirildiyi haqda məlumat verildi. Ancaq

bu qurumların təsdiq olunmuş tədbirlər planı və görülmüş işlərin hesabatı Akkreditasiya Komissiyasına təqdim olunmamışdır.

Məlumat verildi ki, adı çəkilən qurumlar tələbələr üçün mədəni tədbirlər və görüşlər təşkil edir, yataqxanada tələbələrin məişət şəraitini diqqət mərkəzində saxlayır, onlara maddi və mənəvi dəstək olur, elmi-tədqiqat işlərinə maraqlarının artırılmasına və dəstəklənməsinə xüsusi önəm verilir.

ATM-də tələbələrin məşğul olması üçün bir sıra idman avadanlıqları və meydançaları mövcuddur. Belə ki, ərazidə futbol, voleybol, basketbol, atletika və s. idman növləri üzrə məşğul olmaq üçün imkanlar nəzərdə tutulmuşdur. Lakin bu meydançaların bəzilərində avadanlıqlar köhnəlmişdir və istifadəyə tam yararlı halda deyildir.

Tələbə yataqxanalarında idman zallarında da müvafiq avadanlıqlar mövcuddur və istifadəyə yararlıdır, lakin bu zallardan tələbələrin sərbəst (xüsusən də axşam saatlarında) istifadə etmək imkanları məhduddur.

Sorğu zamanı bi istiqamətdə bəzi parametrlərin qiymətləndirilməsi aparılmışdır.

**Diaqram 3.6.**

**Keçirilmiş sorğunun nəticələri**




### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

ATM-dən verilən məlumata görə psixoloq tərəfindən psixoloji məsləhət xidməti həyata keçirilsə də, psixoloji məsləhət xidməti ayrıca struktur bölməsi kimi mövcud deyildir (ATM tərəfindən təqdim olunan struktur sənədində belə bir mərkəz və ya xidmət əksini

tapmamışdır). Bu da zərurət yarandıqda tələbələr psixoloji dəstək verilməsi imkanlarını məhdudlaşdırır. Universitetdə belə mərkəzin yaradılması məqsədəuyğun olardı.

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ATM-də bilik və bacarıqların qiymətləndirilməsi sistemi iki – cari və aralıq qiymətləndirmə metodları ilə həyata keçirilir. Cari qiymətləndirməyə semestr daxilində keçirilən kollokviumlarda əldə edilən qiymətlər, həmçinin tələbənin sərbəst işindən (o cümlədən kurs işi və layihəsindən) aldığı qiymətlər daxildir. Aralıq qiymətləndirmə isə semestr sonu imtahanların nəticəsində formalaşır. Qiymətləndirilmə sistemi Elm və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli, 1060a nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Əsasnaməyə əsasən yerinə yetirilir. 100 ballıq system ilə toplanmış balların müvafiq normalar üzə bölgüsündən tələbənin biliyi hərflərlə (A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi)) qiymətləndirilir. Qiymətləndirmə birbaşa elektron sistemə daxil edilir.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATM-də imtahanlar əsasən yazılı formada keçirilir, imtahan biletlərinə 5 sual daxil edilir və hər bir sual 20 balla qiymətləndirilir. Tələbənin hər bir sual üzrə ölçüləbilən və etibarlı qiymətləndirilməsi üçün sualların geniş şəkildə, balın formalaşması üçün qiymətləndirmə meyarlarını əks etdirməklə tərtib olunması tövsiyə edilir. Tələbələrin kurs işi, kurs layihəsi, referatlar, seminar və digər sərbəst işlər üzrə biliklərinin qiymətləndirilməsi üçün dəqiq meyarlar mövcuddur. Belə ki, ümumi qiymətləndirmə mərhələli şəkildə həyata keçirilir, hər bir mərhələ 100 ballıq şkala üzrə qiymətləndirmə aparılır və ölçülə bilən çəki əmsalına malikdir: a) davamiyyət – 0,1; b) semestr daxili fəaliyyət – 0,3; c) tələbənin sərbəst işi – 0,1; d) imtahan – 0,5.

Onu da qeyd etmək lazımdır ki, cari və aralıq qiymətləndirmə balları Tələbə Məlumat Sistemində öz əksini tapır. Ancaq burada qiymətlər ballar şəklində deyil, faiz nisbətlərində qeyd olunur. Ümumi qiymətləndirmə sisteminin bal üzərində qurulduğunu nəzərə alaraq, qiymətləndirmənin asan başa düşülən olması üçün EMS-də qiymətlərin faizlə deyil, balla qeyd edilməsi məqsədəuyğun hesab olunur.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

BMU-da imtahan prosesi bir qayda olaraq yazılı şəkildə həyata keçirilir. Buna görə də müəllim-tələbə təmasları olmur və qiymətləndirmə anonim şəkildə yazılı cavabların yoxlanılması ilə başa çatır. Məşğələ və seminarlarda isə qiymətləndirmə üz-üzə

qaydada həyata keçirilir. Bunun üçün elektron sistemdə xüsusi “İmtahan” modulu işlənilmiş və istifadə edilmişdir. Kurs layihələri (işləri) və buraxılış işləri isə baxış formasında komissiyada açıq müdafiə nəticəsində qiymətləndirilir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”dəki meyarlar diqqətə alınaraq hər bir təhsilalanın biliyi obyektiv qaydada qiymətləndirilir. İmtahan nəticələri ilə razılaşmayan hər bir tələbənin apellyasiya komissiyasına müraciət etmə hüququ vardır. Apellyasiya komissiyasında təhsilalanların iddiaları fənni tədris edən müəlimin və tələbinin iştirakı yenidən baxılıb qiymətləndirilir. Sahə baxışı zamanı imtahan və apellyasiya proseslərinin yazılı şəkildə arxivləşdirilməsi üçün müvafiq formalar götürülmüşdür.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

ATM-də təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması məqsədi ilə təhsilalanların müəyyən fənlər üzrə seçilmiş mövzuların qrup və ya fərdi qaydada hazırlayıb təqdim etmələri tələb olunur. Belə ki, tələbə fənni tədris edən müəllim ilə sərbəst iş mövzusunu seçir və semesterin sonuna qədər onu hazırlayıb təqdim edir. Bu da tələbələrin tədris olunan fənləri daha yaxşı mənimsəmələrinə və onların fərdi inkişafına müsbət təsir edir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

ATM-də tələbələr semestr daxili fəaliyyət üzrə hazırladıqları tapşırıqları və sərbəst işlərini EMS-ə daxil edir, fənn müəllimi də orada işləri qiymətləndirə bilir. Bu halda tələbə qiymətləndirmənin nəticəsini Tələbə Məlumat Sistemində görə bilir. Eləcə də semestr sonu imtahanlarda tələbələrin cavab kağızlarının kodlaşdırılması da elektron sistem vasitəsi ilə həyata keçirilir. Həmin kodlara görə tələbələrin nəticələri elektron sistemə daxil edilir, cari və aralıq qiymətləndirmə nəticələri əsasında yekun bal elektron bazada avtomatik hesablanır. Tələbə imatahan nəticələri ilə bağlı bütün məlumatları universitetin elektron məlumat sistemindəki şəxsi kabinetindən əldə edə bilir.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ATM-də təhsil alanlar arasında sağlamlıq imkanları məhdud şəxslərə rast gəlinmədiyindən onlar üçün xüsusi qiymətləndirmə üsulları nəzərdə tutulmamışdır.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

ATM-də tələbələrin biliyinin qiymətləndirilməsi üç mərhələdə aparılır: cari, aralıq və yekun. Cari qiymətləndirmə tələbələrin dərsə davamiyyəti və semestr ərzində tədris fəaliyyətinə görə həyata keçirilir. Cari qiymətləndirmə sərbəst işlərin, laboratoriya işlərinin, kurs işi və kurs layihələrinin təhvil verilməsi ilə bərabər semestr ərzində iki və ya üç dəfə aralıq qiymətləndirmənin keçirilməsi ilə aparılır. Yekun qiymətləndirmə bakalavriat səviyyəsində dövlət imtahanı və ya buraxılış işinin müdafiəsi, magistratura səviyyəsində isə magistrlik dissertasiyasının müdafiəsi formasında keçirilir. Aralıq qiymətləndirmə, yəni fənlər üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsi ildə 2 dəfə olmaqla qış və yaz imtahan sessiyası müddətində aparılır. İmtahanlar əsasən yazılı formada, bəzi fənlər üzrə test formasında təşkil olunur. Yazılı imtahanlar əvvəlcədən müəllimlər tərəfindən hazırlanmış sualların səviyyəsinə görə dörd ekvivalent variantlar formasında təqdim olunur ki, bu da imtahanların rəqabətlilik prinsipi əsasında təşkil olmasına xidmət edir. İmtahanlarda köçürmə halları aşkar edildiyi zaman akt tərtib olunur, tələbə imtahandan kənarlaşdırılır və imtahan nəticəsi “0” qiymətləndirilir. İmtahan nəticələri imtahan keçirilən gün fənn müəllimi tərəfindən yoxlanılıb EMS-ə daxil edilir. Tələbələr daxil edilən qiymətləri şəxsi kabinetlərində görə bilirlər. Tələbələrin apellyasiya müraciətləri operativ şəkildə araşdırılıb cavablandırılır. İmtahanların nəticələri fakültə və universitet elmi şuralarında müzakirə olunur. Sahə baxışı və tələbələrlə aparılmış sorğular əsasında ATM-də müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq, cari və aralıq qiymətləndirmələrin şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti araşdırılmış, prosedurlarla bağlı lazım olan sənədlərin nümunələri götürülmüşdür (İmtahan sualları vərəqi forması, imtahan nəticələrini sistemə daxil etmək/dəyişdirmək üçün müraciət forması, imtahan cavab vərəqi forması, imtahan qaydalarının pozulması haqqında AKT forması, appelyasiya komissiyasının protokolu forması, imtahan nəticəsinə etiraz ərizəsi forması, müəllim appelyasiya ilə əlaqəli izahat forması).

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ATM-də Yekun Dövlət Qiymətləndirilməsi (yekun dövlət imtahanı və / və ya buraxılış işi, magistrlik dissertasiyasının müdafiəsi) sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil olunur və nəticələri məsul şəxslər tərəfindən EMS-ə daxil edilir. Universitet və fakültə Elmi Şuralarında və Keyfiyyətin təminatı mərkəzində bilik və bacarıqların qiymətləndirilməsi sistemi təhlil olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. ATM-də bakalavriat və magistratura səviyyələri üzrə yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli

54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin, magistratura səviyyəsi üzrə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 20.04.1998-ci il tarixli 202 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin tələblərinə uyğun olaraq həyata keçirilir. Buraxılış işlərinin və magistrlik dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimatlara uyğun normativ tələbləri gözləməklə aparılır. Belə ki, bakalavriat və magistratura səviyyələrində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya bakalavriat səviyyəsi üzrə buraxılış işi müdafiəsindən və ya ixtisas fənləri üzrə buraxılış imtahanlarından, magistratura səviyyəsi üzrə isə magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir.

Buraxılış qruplarının tələbələrinin həm bakalavriat, həm də magistratura səviyyələrində yekun dövlət attestasiyası tədris proqramlarına uyğun yaradılmış müvafiq Dövlət Attestasiya Komissiyalarında (DAK) və İxtisaslaşdırılmış Şuralarında uyğun olaraq buraxılış işlərinin və dissertasiyaların müdafiəsi ilə başa çatdırılır. Buraxılış işlərinin müdafiəsi üçün DAK-ın tərkibi müvafiq əmr ilə yaradılır və təqvim ili boyu fəaliyyət göstərir. DAK və İŞ sədrləri dalbadal 3 ildən artıq olmamaqla ixtisas sahəsinə uyğun yüksəkixtisaslı, elmi dərəcəsi olan istehsalat müəssisələrinin və ya ali təhsil məktəblərinin nümayəndələrindən müəyyən edilir. Sədrlər Elm və Təhsil Nazirliyinin əmri ilə təyin olunur. DAK və İŞ tərkibi ATM-in rektorunun əmri ilə təsdiq edilir. İxtisaslaşdırılmış Şuralar nazirliyin müvafiq əmrləri ilə təşkil olunur və il boyu fəaliyyət göstərir. Buraxılış işlərinin müdafiələri iki mərhələdə aparılır (ilkin müzakirə və yekun müdafiə). Magistr dissertasiyalarının mövzuları və rəhbərləri magistrantların razılığı və istəyi əsasında aparılır və əmrləşdirilir. Müdafiələr iki mərhələdə (ilkin müzakirə və yekun müdafiə) aparılır. Dövlət İmtahanları Komissiyaların iştirakı ilə test üsulu vasitəsilə kompüterdə aparılır və dərhal qiymətləndirilir.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Hər imtahan sessiyasından öncə rektorun əmri ilə sessiyanın keçirilməsinə dair əmr imzalanır. Sessiyanın keçirilməsi üçün İmtahan Komissiyası, İmtahan Qərargahı, Münaqişə Komissiyası, nəzarət və s. bölmələr fəaliyyət göstərir. İmtahan variantları tərtib olunarkən sualların çətinlik dərəcəsinin müxtəlifiyinə diqqət olunur. Bu bilik və bacarıqların qiymətləndirilməsinin təkmilləşdirilməsinə xidmət edilir. Yazılı keçirilən imtahanlar bitdikdən dərhal sonra yazı işləri fənn müəllimləri tərəfindən yoxlanılır və nəticələr həmin gün EMS-ə daxil edilir. Sessiyanın yekunlarına dair hesabatlar fakültələrdə və universitetin Elmi Şurasında müzakirə olunur.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ATM-də ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun aparılır. Belə ki, tədrisin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (fulltime, parttime) ilə həyata keçirilir. Tələbələrin fənlər üzrə attestasiyası (biliyinin qiymətləndirilməsi) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydada çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır.

Təhsil səviyyəsinin bitirilməsi qaydaları Azərbycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq sərəncam və əmrlərinə uyğun olaraq sadə, aydın və başa düşülən şəkildə tələbələrə əlçatan formada universitetin EMS-nə yerləşdirilir. Təhsil müddətində tələbə öz şəxsi kabinetindən qiymətləndirmə ilə bağlı bütün nəticələri, dərsə davamiyyətini və sessiyanın sonunda topladığı kreditləri və ümumi orta müvəffəqiyyət göstəricisini görə bilir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

BMU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi qaydaları”na əsasən diplom və diploma əlavə verilir. Təhsilə fasilə vermiş tələbələrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası"na əsasən müvafiq arayış və ya transkript verilir. Verilən sənədlərin müvafiq qaydada qeydiyyatı aparılır və bu məlumatlar müvafiq elektron bazalara daxil edilir.

## *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ATM-də akademik heyətin işə qəbulu, irəli çəkilməsi və digər vəzifəyə keçirilməsi müvafiq normativ hüququ sənədlər əsasında həyata keçirilir. Universitetdə hər tədris ilində tələbə qəbulunun nəticələrinə əsasən dərs yükünün dəyişməsi, universitetə

perspektivli kadrlara, o cümlədən professor və müəllimlərə ehtiyacın ödənilməsi məqsədilə vakant yerlər barədə Abşeron – Xızı regional məşğulluq şöbəsinə məlumatlar verilir. İşə qəbul işinin daha şəffaf və rahat həyata keçirilməsini təmin etmək məqsədi ilə vətəndaşlara müraciətlərin edilməsi, öz ərizə, CV və digər sənədlərinin e-mail (hr@beu.edu.az) və poçt vasitəsi ilə təqdim olunması üçün imkanlar yaradılmışdır. ATM-də yaranmış vakant vəzifələrin seçki yolu ilə tutulması üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli 5/5 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq, müsabiqələr elan olunur və müvafiq qaydada keçirilir. Belə ki, 2022-ci ilin noyabr ayında 37, 2023-cü ilin yanvar ayında isə 25 ştat üzrə seçki üçün elan verilmişdir. Müsabiqəndən uğurla keçmiş akademik heyət işə qəbul olunur və onlarla 5 illik əmək müqaviləsi bağlanılır. Əmək qanunvericiliyinə uyğun olaraq işçilərin qəbulunun rektorun əmri vaxtında rəsmiləşdirilməsi həyata keçirilir.

Lakin sahə baxışı zamanı universitetin akademik heyətin işə qəbulu, yüksəlişi, irəli çəkilməsi və digər vəzifəyə təyinatının perspektivini əks etdirən hər hansı tədbirlər planı və ya bu sahədə işlərin məqsədyönlü şəkildə aparıldığını nümayiş etdirən rəsmi hesabat sənədləri aşkar olunmamışdır. Akademik heyətin işə qəbulu və azad edilməsi, bir qayda olaraq, kafedra və fakültənin təşəbbüsü ilə rəhbərliklə razılaşdırma yolu ilə İnsan resursları şöbəsi təəfindən rəsmiləşdirilməklə həyata keçirilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı ATM-in akademik heyətinin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran hər hansı bir daxili siyasəti əks etdirən sənəd aşkar olunmamışdır. Buna baxmayaraq bəzi müəllimlərin peşəkar səviyyəsinin artırılması məqsədi ilə xarici ölkələrdə təcrübə mübadiləsində iştirak etməsi təcrübəsi mövcuddur. Bu zaman müəllimlərin seçimi ya onların şəxsi təşəbbüsləri əsasında qrant layihələrinə, ya da ATM ilə birgə yerinə yetirilən beynəlxalq proqram koordinatorlarının təyin etdiyi meyarlara əsasən həyata keçirilir.

ATM-də professor-müəllim heyətinin informasiya və kommunikasiya texnologiyaları ilə işləməsi, onlardan düzgün istifadə edə bilməsi bacarığına boyük önəm verilir. Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsi məqsədi ilə Keyfiyyətin təminatı şöbəsi tərəfindən müxtəlif təlimlər təşkil olunmuşdur, yeni vəsaitlərin tədris prosesinə tətbiqi istiqamətində işlər görülmüşdür. Belə ki, yeni texnologiyaların istifadə qaydaları ilə bağlı İnformasiya hesablama mərkəzi tərəfindən təlimlər keçirilmişdir. Bundan əlavə, cari tədris ilində beynəlxalq əməkdaşlıq çərcivəsində sə müəyyən təlimlər təşkil olunmuşdur (məs., İsveçrədən KISSsoft şirkəti 2023-cü iln may ayında 3 təlim verilmişdir).

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Sahə baxışı zamanı aşkar olunmuşdur ki, 2020/2021-ci tədris ilində, pandemiya şəraitində ATM-in KT şöbəsi distant tədrisin təşkilində Google Classroom platformasından istifadə məqsədilə müəllimlər, tyutorlar, laborant və tələbələr üçün Google Classroom platformasının istifadəsi qaydalarına dair təlimlər keçirmişdir. Bu dövrdə elektron tədris, onlayn tədris platforması, elektron universitet idarəetmə sistemi və digər elektron resurslardan istifadə edilib. Hazırda universitetdə onlayn təhsil sistemi fəaliyyət göstərmir və bu istiqamətdə təlimlər keçirilmir.

Pandemiya dövründən sonra Google Classroom platformasının imkanlarından daha geniş şəkildə istifadə edilməyə başlanılmışdır:

1. "Google Classroomda dərslərin açılması" https://drive.google.com/file/d/1DpUy5j88D_A5JEulAYYJJS8SSn09O_fz/view?usp=drivesdk;
2. "Google Classroom platformasının səmərəli istifadə qaydaları-1" https://drive.google.com/file/d/1nU3CcGCE1JABZYBXmZ4f1HFx58GArQid/view?usp=sharing;
3. "Google Calendar və Google Meet-in istifadəsi" https://drive.google.com/file/d/1xjJlvR3kPuZh8opoIfH6r6stAP9C2Iaw/view - İmtahanların onlayn şəkildə effektiv təşkili;
4. “BMU-da təhsilin məsafədən effektiv təşkili ilə bağlı onlayn təlim” https://beu.edu.az/az/article/bmu-da-tehsilin-mesafeden-effektiv-teskili-ile-bagli-onlayn-telim-396;
5. “Müəllim kollektivi üçün Onlayn imtahanın təşkili”
   https://drive.google.com/open?id=1jQSB7hox5LlqZF_LxQbxK4tMCouh2j-5
   https://drive.google.com/open?id=1ZHDi1a0hG6PxgbApSzDx9slxreZufUH0;
6. Google Forms-da “Quiz” in hazırlanması qaydası - https://drive.google.com/file/d/1UDQMLZpRnpH5cRTskg-hHC7FWaUsUlsH/view?usp=sharing;
7. "Google Calendar və Google Meet-in istifadəsi" https://drive.google.com/file/d/1xjJlvR3kPuZh8opoIfH6r6stAP9C2Iaw/view.

Bununla yanaşı, KT şöbəsi tərəfindən Google Classroom platformasının verdiyi imkanlardan istifadə edərək onlayn dərslərə onlayn nəzarət təşkil olunmuşdur. KT şöbəsi keçirilən onlayn dərslərlə bağlı Universitet rəhbərliyinə gündəlik hesabatlar təqdim etmişdir. Bu mexanizminin yaradılması üçün aşağıdakı təlimlər keçirilmişdir:

1. “Distant dərslərə nəzarət cədvəlinin doldurulması” https://drive.google.com/file/d/1aittoiVM2iSlRBCpfR_6D1t9mayKeEYy/view?usp=sharing;
2. “Distant dərslərdə nəzarət cədvəlinin doldurulmasında məsul şəxslərlə görüş” https://meet.google.com/zht-fyog-gto;
3. “Google calendarda dərslər üçün daimi linkin yaradılması” qaydası https://drive.google.com/file/d/1aittoiVM2iSlRBCpfR_6D1t9mayKeEYy/view?usp=sharing ;

KT şöbəsi tərəfindən semestrdaxili fəaliyyətə (SDF) və semestrsonu imtahanlara (SSİ) nəzarət mexanizmi hazırlanmış, tyutor və professor-müəllim heyəti üçün aşağıdakı onlayn təlimlər keçirilmişdir:

1. "Tyutor və laborantlar üçün semestr sonu imtahanların distant təşkilinə nəzarət" təlimi https://meet.google.com/qif-ucyg-rai;
2. "Professor-müəllim heyəti üçün semestr sonu imtahanların distant təşkili" təlimi https://meet.google.com/dkr-vgmn-svo.

COVİD-19 pandemiyası dövründə dərslərin effektivliyini artırmaq, öyrətmə və öyrənmə prosesində diqqət və konsentrasiyanın artırılması məqsədilə KT şöbəsi tərəfindən silsilə təlimlər verilmişdir:

1. Distant tədris prosesində öyrətmə və öyrənmə psixologiyası (tələbələr üçün təlim) https://beu.edu.az/az/article/distant-tedris-prosesinde-oyretme-ve-oyrenme-psixologiyasi-633;
2. Distant tədris prosesində öyrətmə və öyrənmə (müəllimlər üçün təlim) https://www.muallim.edu.az/news.php?id=15039;
3. Distant tədris prosesində diqqət və konsentrasiyanın əhəmiyyəti (tələbələr üçün təlim) https://beu.edu.az/az/announcement/distant-tedris-prosesinde-diqqet-ve-konsentrasiyanin-ehemiyyeti-movzusunda-telim-kecirilecek-93?fbclid=IwAR3Omfum7DQoQBI1YY4fWhcFIytmD7Q_x-LFc5LzQctQJl12rn2CMC48n2k.

KT şöbəsi, Elm və İnnovasiya şöbəsi və Texnopark ilə birlikdə tələbələr üçün "Coursera for campus" təhsil proqramı keçirmişdir. Proqram çərçivəsində BMU tələbələri dünyanın ən qabaqcıl 18 universitet və şirkətinin 400 ixtisas üzrə 4262 onlayn kurslarına qatılmaq imkanı əldə edə bilmişdir.

1. "Coursera təhsil proqramının tətbiqi üçün Texnoparkla birgə təşkil olunmuş təlimlər" https://beu.edu.az/az/article/bmu-telebeleri-ucun-odenissiz-tehsil-proqrami-679.

2021/2022-ci tədris ili ərzində həftə sonları tələbələr üçün müxtəlif mövzularda olunan aşağıdakı onlayn təlimlər təşkil olunmuşdur:

1. "Müəllim-tələbə münasibətlərində pedaqoji və psixoloji məqamlar-1" https://beu.edu.az/az/announcement/muellim-telebe-munasibetlerinde-pedaqoji-ve-psixoloji-meqamlar-movzusunda-telim-155;
2. "Müəllim-tələbə münasibətlərində pedaqoji və psixoloji məqamlar-2" https://tehsil.biz/news/az/23575/Mllim-tlb-mnasibtlrind-pedaqoji-v-psixoloji-mqamlar-2-adl-nvbti-tlim.

KT şöbəsi Universitetin Tyutor və Laborantlarının İKT bacarıqlarının artırılması, kredit sistemi ilə tədrisin təşkili mövzusunda təlimlər təşkil etmişdir:

1. Tyutor və laborantlarda İKT bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim https://beu.edu.az/az/article/ikt-bacariqlarinin-tekmillesdirilmesi-meqsedile-telim-teskil-olunub-906;
2. Tyutor və laborantlar üçün “Kredit sistemi ilə tədrisin təşkili” https://beu.edu.az/az/article/training-on-quot-organization-of-education-with-credit-system-quot-organized-for-tutors-and-laboratory-assistants-1131.

İmtahan nəzarətçilərinin təkmilləşdirilməsi məqsədilə KT şöbəsinin əməkdaşları tərəfindən təlimlər keçirilmişdir:

1. İmtahan nəzarətçiləri üçün təlim https://muallim.edu.az/news.php?id=20799.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

ATM-də akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma kurslarında iştirak mexanizmi mövcud deyildir. Lakin ATM-də ingilis dilinin tədrisinin keyfiyyətinin daha da artırılması məqsədilə ABŞ səfirliyinin İctimai əlaqələr üzrə departamenti ilə gerçəkləşmiş “Akademik məqsədlər üçün ingilis dili” proqramı çərçivəsində “Layihə əsaslı öyrənmə və tənqidi pedaqogika”, “ESL dərs planı”, “TESOL metodologiyası”, “Peşəkar inkişaf təlimləri və peşəkar öyrənmə şəbəkələrinin təşkili” və digər mövzularda iki həftəlik təlimlər keçirilmiş, təlimləri müvəffəqiyyətlə başa vuran əməkdaşlara sertifikatlar verilmişdir.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

ATM ilə İNHA (Koreya) Universiteti arasında Dövlət proqramı əsasında maliyyələşdirilən ikili diplom proqramı fəaliyyət göstərir. Bu layihə çərçivəsində universitetin Informasiya texnologiyaları ixtisası üzrə 7 əməkdaşı Cənubi Koreyanın İNHA universitetində təşkil olunan təlimlərdə iştirak etmişdir (11 iyul–1 avqust 2022). Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə payı təqribən 10% təşkil etmişdir. Bundan əlavə, universitetdə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarına təşviqi istiqamətində hər hansı bir daxili siyasət sənədi müəyyən edilməmişdir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

ATM-in akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi istiqamətində hər hansı bir mexanizmi mövcud deyildir. Bununla yanaşı, qeyd edilməlidir ki, akademik heyətin tədris bacarıqlarının qiymətləndirilməsi açıq dərslərin keçirilməsi, onların müzakirəsi, tələbələr ilə sorğuların aparılması və sorğu nəticələrinin təhlil edilməsilə yolu aparılmışdır. Bu zaman yaradıcı və innovativ tədris bacarıqlarının da

tətbiqinə diqqət edilmişdir. Cari tədris ilinin payız və yaz semestrində açıq dərslər keçirilmişdir. Sahə baxışı zamanı bildirilmişdir ki, hazırda akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mexanizmi hazırlanır və yaxın zamanlarda tətbiq olunması nəzərdə tutulur.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ATM-də ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü Azərbaycan qanunvericiliyinə ("Ali təhsil pilləsinin dövlət standartı və proqramı" na, "Təhsil, təlim-tərbiyə müəssisələrini rəhbər, inzibati-təsərrüfat, tədris-köməkçi və digər işçilərinin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar"a, "Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə"yə, "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə" və "Təhsil müəssisələrinin pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında") əsasən aparılır. Bir ştat müəllimin tədris yükü 550-600 saat (ən az 60% auditoriya saatı, 40% isə auditoriyadan kənar saatlar olmaqla) nəzərdə tutulur. Ancaq sahə baxışı zamanı universitet üzrə dərs yükünün bölgüsündə dürüstlük və şəffaflığın monitorinqini tənzimləyən mexanizmin mövcudluğu müəyyən edilməmişdir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

ATM üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti fakültələr üzrə fərqlidir. Belə ki, Mühəndislik fakültəsində bu nisbət 1/26, Memarlıq və inşaat fakültəsində 1/14, İqtisadiyyat və idarəetmə fakültəsində 1/20, Pedaqoji fakültədə isə 1/6 bərabərdir. Ümumilikdə isə sahə baxışı zamanı universitet üzrə professor-müəllim heyətinin (xüsusən də ştatda olan) az olduğu aşkar olunmuşdur.

**Cədvəl 3.10.**

**Professor-müəllim heyətinin sayının tələbə sayına nisbəti**

| Fakültə | Professor-müəllim heyətinin sayının tələbə sayına nisbəti |
|---|---|
| Mühəndislik | 1/26 |
| Memarlıq və inşaat | 1/14 |
| İqtisadiyyat və idarəetmə | 1/20 |
| Pedaqoji | 1/6 |
| Universitet üzrə cəmi: | 1/16 |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ATM tədris prosesində iştirak edən 65% professor-müəllim heyətinin əsas iş yeridir. Qanunvericiliyə əsasən bu sayın 70%dən çox olmasını nəzərə alaraq, qeyd etmək olar ki, ATM-də gələcəkdə əsas iş yeri olan müəllimlərin sayının artırılması məqsədi ilə effektiv tədbirlərin görülməsinə zərurət vardır.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ATM-də mütəxəssis hazırlığı həyata keçirilən ixtisaslar, əsasən, mühəndislik və iqtisadiyyat yönümlü olduğundan sənaye müəsisələrində, bank sektorunda və böyük özəl şirkətlərdə çalışan mühəndis, maliyyəçi və digər mütəxəsislərin tədrisə cəlb olunması tələbələrin nəzəri biliklərinin praktik fəaliyyət və əmək bazarının ehtiyaclarına uyğunlaşdırılmasına kəmək edir və kadr hazılığının keyfiyyətini artırır. Ötən illərin təcrübəsi göstərir ki, ATM-in məzunları belə yanaşma nəticəsində iş görüşmələrində uğur qazanır və iş həyatına tez uyğunlaşırlar. Pedaqoji ixtisaslarda isə tədrisə Elm və Təhsil Nazirliyinin tabeliyində olan institutlardan, digər ali təhsil müəssisələrindən əməkdaşlar cəlb olunur və nəticədə tələbələrin tədqiatçılıq bacarıqlarının daha da inkişaf etdirilməsinə nail olunur.

Hazırda ATM-də çalışan professor-müəllim heyətinin 35%-i kənardan – Elm və Təhsil Nazirliyinin tabeliyində olan universitet və institutlardan, həmçinin əmək bazarından (sənaye müəssisələrindən, bank və maliyyə sektorlarından, özəl sektordan və s.) dəvət olunmuş mütəxəssislərdir.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Sahə baxışı zamanı ATM-də akademik heyətin əməyinin differensial qiymətləndirilməsi sisteminin mövcud olmadığı müəyyən olunmuşdur və bununla bağlı Akkreditasiya Komissiyasının üzvlərinə hər bir sənəd təqdim olunmamışdır. Lakin ingilis dilində tədris aparan müəllimlərin əməkhaqqına Elmi Şuranın qərarı ilə müvafiq əlavələr edilir. Saathesabı ilə dərs deyən müəllimlərə əməkhaqqı xüsusi razılaşma ilə ödənilir.

Sahə baxışı zamanı bildirilmişdir ki, hazırda differensiallaşdırılmış əmək haqqı sistemi tətbiq olunmasa da, bu istiqamətdə işlər aparılır və əməkhaqqının təyin olunması zamanı differensiasiya mexanizminin tətbiq olunması üçün müvafiq qaydalar hazırlanır.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ATM-də fəaliyyət əməkdaşların 57 nəfəri xarici ölkələrdə təhsil almışdır. Bu isə ümumi akademik heyətin 19 %-ni təşkil edir. Bunlardan İqtisadiyyat və idarəetmə fakültəsində 37 nəfər, Memarlıq və inşaat fakültəsində 7, Pedaqoji fakültədə 8 və Mühəndislik fakültəsində 5 nəfər çalışır.

**Cədvəl 3.11.**

**Xarici ölkələrdə təhsil almış əməkdaşların sayı**

| Fakültə | Xarici ölkələrin nüfuzlu ATM-lərindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətinin sayı |
|---|---|
| Mühəndislik | 5 |
| Memarlıq və inşaat | 7 |
| İqtisadiyyat və idarəetmə | 37 |
| Pedaqoji | 8 |
| Universitet üzrə cəmi: | 57 |

### *3.8 Tələbəyönümlü tədris*

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

ATM-də təhsilalanların fərdi tədris planlarının tərtib və təsdiq olunması elektron məlumat sistemi (EMS) vasitəsilə aparılır. Tələbələr hər tədris ilinin payız və yaz semestrlərinin sonunda növbəti tədris ili üçün elektron məlumat sistemindəki şəxsi hesablarından dərsləri seçərək fərdi tədris planlarını tərtib və təsdiq edirlər. Onlara hər növbəti ilin əvvəlində fərdi tədris planlarında dəyişiklik etmək imkanı verilmişdir. Tələbələr arsında keçirilmiş sorğu zamanı fərdi tədris planları ilə bağlı aşağıdakı kimi fikir bildirmişlər.

**Diaqram 3.7.**

**Fərdi tədris planları ilə bağlı sorğunun nəticəsi**




### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Tələbələrin tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənləri seçməsinin təmin edilməsi məqsədilə ayrıca seçmə fənlər bloku mövcuddur. Buna baxmayaraq, tələbələr EMS vasitəsilə yalnız onlara təqdim olunan fənləri seçərək təsdiq edirlər. Sahə baxışı zamanı məlumat verilmişdir ki, tələbələr seçmə fənləri sərbəst seçərək fərdi tədris planlarını tərtib edirlər. Lakin tələbələr arasında keçirilən sorğu zamanı bu tam təsdiqini tapmamışdır. Bu baxlmdan seçmə fənlərin müəyyən olunması zamanı tələbələrə sərbəstlik verilməsi və onların təkliflərinin də nəzərə alınması məqsədəuyğun hesab olunur.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Sahə baxışı zamanı təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin tam təmin edilmədiyi müşahidə olunmuşdur. Təhsilverənlərin və tyutorların tələbələr tərəfindən seçilməməsinə baxmayaraq, tələbə-müəllim və tələbə-tyutor münasibətləri dəstəkləyici olmuşdur. Həmçinin sahə baxışı zamanı Akkreditasiya Komissiyasının tələbələrlə apardığı sorğuda iştirak edən tələbələrin əksər hissəsi (96.1%) təhsilverənlərin tədris fəaliyyətindən razı olduğunu bildirmişlər.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

ATM-də tədrisin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın yaxşılaşdırılması, tədrisdə və idarəetmədə mövcud vəziyyəti qiymətləndirmək və bunun əsasında səmərəli tədbirlər həyata keçirmək məqsədilə EMS üzərindən mütəmadi anket sorğuları təşkil edilir. Bundan əlavə, elektron məlumat sistemində mövcud olan “anket” modulunda hazırki və əvvəlki illərə aid müxtəlif anketlərin nəticələri əlçatandır.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-in Özünütəhlil Hesabatında 2019, 2020, 2021 və 2022-ci illərin məzunları arasında sorğu keçirildiyi və onların təkliflərinin alındığı qeyd olunmuşdur. Buna baxmayaraq, tələbə və məzunların təklifləri əsasında görülən və ya görülməsi nəzərdə tutulan işlərlə bağlı hər hansa təsdiqedici sənəd təqdim edilməmişdir.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

ATM-in Keyfiyyətin təminatı şöbəsi, 2021/2022 və 2022/2023-cü tədris illəri üzrə müxtəlif səpkidə elektron sistem üzərindən anket sorğuları keçirmişdir. Anket sorğularının universitetin əməkdaşları və professor-müəllim kontingenti üçün əlçatanlığı https://pms.beu.edu.az/index.php?mod=anket linki vasitəsilə təmin olunmuşdur. Həmçinin anket nəticələri arxivlənərək qorunur, universitetin rəhbərliyinə və əlaqədar struktur bölmə rəhbərləri ilə paylaşılır. Buna baxmayaraq, 2021/2022 və 2022/2023-cü tədris illəri üzrə keçirilmiş anket sorğularının nəticələrinin qərarvermə prosesində istifadəsi ilə bağlı hər hanısa təsdiqedici sənəd təqdim edilməmişdir.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd olunduğu kimi tələbələr şikayət və təkliflərini ilk növbədə akademik məsləhətçilərinə edirlər. Daha sonra ehtiyac yaranarsa, dekana ərizə ilə müraciət edə bilirlər. Rektorla birbaşa əlaqənin əlçatanlığı üçün www.beu.edu.az saytında "Müraciət" hissəsindən rektora müraciət etmək və ya qəbula yazılmaq mümkündür.

İmtahan sessiyası müddətində isə universitet üzrə Apellyasiya komissiyası təşkil edilir və imtahan nəticəsindən narazı olan tələbələr, müraciətləri əsasında, qərərgahda cavab kağızının yoxanılması ilə tanış ola bilirlər. Əgər imtahan nəticəsi ilə bağlı tələbənin əsaslı narazılığı olarsa, Appelyasiya komissiyasına ərizə yazmaq hüququna malikdir.

Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin artırılması və xarici təhsilalanların da bu vasitə və mexanizmlərə əlçatanlığının təmin olunması tövsiyə olunur.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

ATM-də bütün fakültələrdə akademik məsləhətçilər (tyutorlar) fəaliyyət göstərirlər. Akademik məsləhətçilər (tyutorlar) magistr dərəcəsinə malikdirlər və müvafiq dekanlıqda və ya kafedralarda fəaliyyət göstərirlər. Akademik məsləhətçilər (tyutorlar) ixtisasları nəzərə alınmaqla ixtisas qruplarına təyin olunurlar.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

ATM-də tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya, əsasən, tələbənin dekanlığa yaxınlaşması (üzbəüz), korporativ email (onlayn) və WhatsApp qrupları vasitəsilə həyata keçirilir.

Covid-19 pandemiyası müddətində isə tələbələrlə, əsasən, “Google Meet” platforması üzərindən onlayn kommunikasiya təmin edilmişdir.

#### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması məsələsi həll edilməmiş qalmışdır.

#### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ATM-də Özünütəhlil Hesabatında qeyd edildiyi kimi qanunvericilikdə sosial cəhətdən həssas qrupa aid edilən təhsilalanların güzəşt və imtiyazlardan yararlanması təmin edilir. Həmçinin təhsilalanların Təhsil Tələbə Krediti Fondundan güzəştli olaraq (illik 2%) kredit əldə edərək illik təhsil haqqını ödəmək imkanları var. Sosial cəhətdən həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyətinin daha da yaxşılaşdırılması üçün müxtəlif təqaüd imkanlarının, proqramların, imtiyazların tətbiq edilməsi məqsədəuyğundur.

#### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

ATM tərəfindən təhsilalanlara hər hansı adlı təqaüdlərin verilməsi nəzərdə tutulmamışdır. Gələcəkdə tələbələr üçün müxtəlif istiqamətlərdə universitetin profilinə uyğun adlı təqaüdlərin, birbaşa ödənişlərin və s. təsis edilməsi tövsiyə olunur.

### *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

#### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ATM-də təhsil proqramlarının monitorinqi hər tədris ilinin əvvəlində tədris metodiki şöbə tərəfindən aparılır və fakültələrdən gələn təkliflər əsasında zəruri dəyişikliklər edilir. Sahə baxışı zamanı tədris planlarının monitorinqi ilə bağlı tədris metodiki şurada aparılan iclaslara aid protokollar olsa da, təhsil proqrmalarının davamlı olaraq monitorinqinin aparılması ilə bağlı fəaliyyət planına rast gəlinməmişdir.

#### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət mexanizmləri nəzərdə tutulmamışdır. Bu məsələ, əsasən, semestr daxili və semestr sonu

qiymətləndirmələr, sərbəst işlərin təqdim olunması və nəticələrin kafedra iclaslarında müzakirəsi formasında həyaya keçirilmişdir.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 2020-ci ildə təsdiq olunan tədris proqramları tətbiq olunur. Sahə baxışı zamanı təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması ilə bağlı hər hansı təsdiqləyici sənəd, görülən işlərlə bağlı hesabat Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ATM-də təhsil proqramları üzrə hazırlığın illik özünüqiymətlədirmə hesabatları hazırlanır və universitetin Elmi Şurasında müzakirə olunaraq təhlil edilir. Universitetdə tədris olunan təhsil proqramları 2020-ci ildə müvafiq qaydada hazırlanaraq rəsmiləşdirilmişdir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində təşkil olunan komissiya tərəfindən ali təhsil üzrə təhsil proqramları hazırlanıb təsdiq edildikdən sonra universitetdə yaradılan komissiya tərəfindən tədris planları hazırlanmışdır. Tədris olunan təhsil proqramlarının əmək bazarına və cəmiyyətin tələblərinə uyğun yenilənməsi ilə əlaqədar məzunlarının əmək bazarında iştirakının payı məzun sistemi vasitəsilə izlənilir.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ATM-də Müəssisələrlə əlaqələr və Karyera departamenti fəaliyyət göstərir. Sahə baxışı zamanı mərkəz ilə ayrı-ayrılıqda tanışılıq keçirilmişdir. ATM-də Müəssisələrlə əlaqələr və Karyera departamenti BMU-nun 104 nömrəli əmri ilə 31 mart 2017-ci ildə yaradılmışdır. Departamentin əsasnaməsi 16.05.2023-cü ildə təkmilləşdirilmişdir. Müəssisələrlə əlaqələr və Karyera departamentinin əsas məqsədi universitet-müəssisə, universitet-məzun əlaqələrinin qurulması, eyni zamanda tələbə və məzunların karyeralarını inkişaf etdirmək, iş dünyasına hazırlamaq, ixtisaslarına uyğun iş tapmaq kimi fəaliyyətlərdən ibarətdir.

Əsasnaməyə görə fəaliyyət istiqamətləri aşağıdakı kimidir:

- Məzunların və tələbələrin təcrübə keçməklə məşğulluq imkanlarını asanlaşdırmaq üçün həm özəl, həm də dövlət təşkilatları ilə tərəfdaşlıq qurmaq;
- Karyera ilə bağlı müzakirələr və şəbəkələşmə üçün platformalar təmin etmək üçün Karyera Günlərinə, seminarlara, konfranslara və forumlara ev sahibliyi etmək;
- Tələbələri CV hazırlamaq, iş axtarışı üsulları və müsabiqələrdə iştirak üçün təlimatlar kimi əsas bacarıqlarla təchiz etmək üçün təlim sessiyalarının keçirilməsi;
- Tədqiqat, kurs işləri, buraxılış layihələri və dissertasiya mövzuları üçün tələbələr və müvafiq qurumlar arasında əlaqəni asanlaşdırmaq, onların akademik işlərinin praktiki tətbiqinə imkan yaratmaq;
- Məlumatların yayılması və yerli və beynəlxalq şirkətlər tərəfindən təklif olunan təqaüd proqramlarında tələbələrin iştirakını asanlaşdırmaq;
- Masterklas formatında dərslərin keçirilməsi üçün müəssisələrdən aparıcı mütəxəssisləri cəlb etməklə müxtəlif akademik sahələr üzrə müasir tədris texnologiyaları üzrə ekspert konsaltinq xidmətlərinin göstərilməsi;
- Universitet müəllimləri və tələbələrini müəssisə fəaliyyətlərinə cəlb etməklə müəssisələrin geniş sənaye təcrübəsindən istifadə etmək və müqavilə müqavilələri vasitəsilə elmi və təhsil təşəbbüslərində qarşılıqlı iştirak üçün akademik sektor və bizneslər arasında əməkdaşlığı təşviq etmək;
- Məzunların peşəkar karyeralarında əldə etdikləri real təcrübələri bölüşmək üçün tələbələr və məzunlar arasında görüşlərin təşkili;
- Məzunların statistik və cari vəziyyətini əks etdirən məlumat bazasını saxlayan elektron məzun məlumat sisteminin davamlı olaraq yenilənməsi.

Bu məqsədlərə çatmaq üçün müxtəlif istiqamətlərdə aparılan fəaliyyətlərin bir çoxu ATM-in SİP-ində 2020-2023-də Strateji istiqamət 5-ci bəndində (Müəssisələrlə əlaqələr və karyeranın inkişafı) göstərilmişdir. Departamentin illik fəaliyyət planı SİP, əsasnamə və əməkdaşların vəzifə təlimatlarında göstərilən istiqamətlərə uyğun şəkildə hazırlanmışdır. Fəaliyyət planının icrası ilə bağlı məlumatlar departament daxilində olsa da, digər strukturlarda olduğu kimi hesabatlılıq yalnız Elmi Şurada şifahi şəkildə aparılmışdır. Strateji istiqamətin 5-ci bəndi üzrə olan qeydlər isə hər il daxili yazışma formatında müvafiq şəxslərə yönləndirilmişdir.

Strateji istiqamətin 5.6-cı bəndi (Dissertasiya mövzularının müəyyənləşdirilməsində iş dünyasından sifarişlərin qəbulu) istisna olmaqla digər istiqamətlərdə fəaliyyət illər üzrə uğurla aparılmış və hədəflər təmin olunmuşdur. Belə ki, departament öz fəaliyyətini tələb olunan səviyyədə həyata keçirirlər. Əmək bazarındakı müxtəlif beynəlxalq və yerli şirkətlərlə müvafiq əməkdaşlıqlar həyata keçirilir, bu istiqamətdə bir çox əməkdaşlıq müqavilələri mövcuddur və tələbələr bu əməkdaşlıq müqavilələri çərçivəsində təcrübələri yüksək səviyyədə keçirlər. Departament və kafedralar arasında lazımi qaydada qarşılıqlı əlaqə mövcuddur və bu səbəbdən istehsalat təcrübəsi zamanı tələbələrin davamiyyətində və çalışqanlığında tələb olunan nəticələr əldə olunur.

Sahə baxışı zamanı tələbələr arasında təsadüfi seçmə qaydasında sorğu keçirilmiş və Sorğuda Müəssisələrlə əlaqələr və Karyera departamenti ilə bağlı nəticələr aşağıdakı kimi olmuşdur.

**Diaqram 3.8.**
**Müəssisələrlə əlaqələr və Karyera departamenti ilə bağlı sorğunun nəticələri**




Müəssisələrlə əlaqələr və Karyera departamentinin Təcrübə şöbəsi ilə birlikdə karyera istiqamətində mühim işlər həyata keçirdiyi görülmüşdür. Bu əməkdaşlıq Təcrübə şöbəsinin əsasnaməsində və illik fəaliyyət planlarında öz əksini tapmışdır. Təcrübə şöbəsi ATM-in struktur bölməsidir. Şöbənin əsasnaməsi Elmi Şuranın "16.05.2023"-cü il tarixli, "05/2023" nömrəli qərarı ilə təsdiq edilmişdir. Şöbə bakalavr buraxılış kurs tələbələrinin diplomqabağı istehsalat və pedoqoji təcrübələrinin, həmçinin magistr ikinci kurs tələbələrinin elmi-tədqiqat və elmi-pedoqoji təcrübələrinin təşkilində iştirak edir, nəzarət və koordinasiyanı həyata keçirir. Təcrübədə iştirak etmiş tələbələr arasında 2022-2023 tədris ilindən etibarən sorğular keçirilmişdir. 549 nəfər arasında keçirilmiş sorğuda məmnuniyyət göstəricisi 78.86 % olmuşdur. Sorğu TMS platforması əsasında keçirilmiş, nəticələrə dair hesabat ( daxili yaxud müəssisələr üçün) yaxud düzəldici fəaliyyətlərlə bağlı plan hazırlanmamışdır. 2023-2024 tədris ilində nəticələrə uyğun addım atılacağı qeyd olunmuşdur. Akkreditasiya Komissiyasının məzunlarla görüşü zamanı məzunların universitetin keçirdiyi təcrübədən razı qaldıqları və bəzilərinin elə həmin şirkətlərdə əmək fəaliyyətinə başladığı görülmüşdür. Lakin bunun statistikası şöbə və departament tərəfindən izlənilməmişdir.

Aşağıdakılara diqqətin artırılması Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur:

1. Təcrübəyə göndərilən və göndərildikləri müəssisələrdən iş təklifi alan tələbələrin statistikasının aparılması;
2. Müəssisələrlə tələbələrin səriştələrinin artırılması istiqamətində olan danışıqların nəticələri barədə hesabatların və düzəldici fəaliyyətlər izlənilməsi;

3. Təcrübələrdən razı qalmayan tələbələrin səbəbləri araşdırılaraq müəssisələrə konstruktiv rəylər göndərilməsi.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Müəssisələrlə əlaqələr və Karyera departamentinin əsas fəaliyyət istiqamətlərindən biri karyera məsləhət xidmətlərinin göstərilməsidir. Özünütəhlil Hesabatında göstərilən şirkətlərlə bağlı əməkdaşlıq müqavilələrinə yerində baxılmışdır. Mütəmadi olaraq yerli və xarici müəssisələrin nümayəndələri ilə keçirilmiş görüşlər, masterklaslar, təqaüd proqramları, tələbə təcrübə proqramlarına qəbul üçün infosessiyalara və s. dair bütün hesabatlar, pres-relizlər BMU Müəssisələrlə əlaqələr və Karyera departamentinin feysbuk səhifəsində yerləşdirilmişdir (https://www.facebook.com/bmu.karyera) və səhifə aktiv şəkildə idarə olunur. Tələbə və məzunlara görüşlərlə bağlı məlumatlar email, kafedralara məlumat ötürmə, eləcə də sosial şəbəkələr üzərindən göndərilir. Məqsəd tələbələrin məlumat əlçatanlığını təmin etməkdir.

Tələbələrin müasir əmək bazarına hazırlanması məqsədilə müxtəlif iri şirkətlərin nümayəndələri ikitərəfli (Müəssisələrlə əlaqələr və Karyera departamenti və şirkətlərin nümayəndələri) təşəbbüs əsasında dəvət olunur. CV hazırlama, iş axtarma, işə müraciət və s. üzrə təlim proqramları keçirilir. Müəssisələrlə əlaqələr və Karyera departamenti şirkətlərin təşkil etdiyi müxtəlif təqaüd proqramları barədə tələbələrə bərabər və əlçatan şəkildə (e-mail, müxtəlif tələbə qrupları, sosial şəbəkələr, məlumatlandırıcı lövhələr vasitəsilə) məlumat verir. Departament təqaüd proqramına müraciət edənlərin, ərizəsi təsdiq və qəbul olunanların statistikasını aparır. Həmçinin mütəmadi şəkildə karyera sərgiləri keçirilir. Özünütəhlil hesabatında universitetdə keçirilən Karyera sərgiləri və məsləhət xidmətləri haqqında ətraflı məlumat verilmişdir. Həmin tədbirlərin pres relizləri universitetin rəsmi saytında göstərilmişdir.

Məlumatların əlçatanlığını ölçmək məqsədilə 181 tələbə arasında aparılmış anonim sorğunun nəticələri aşağıda göstərilmişdir. Sorğuda bütün fakültələrin 1-4-cü kurs tələbələri iştirak etmişdir.

**Diaqram 3.9.**
**Müəssisələrlə əlaqələr və Karyera departamenti ilə bağlı sorğunun nəticələri**







Sorğu nəticəsində Müəssisələrlə əlaqələr və Karyera departamentinin fəaliyyəti ilə bağlı qeyd olunan 3 sual üzrə "Narazıyam" cavabını qeyd edən tələbələrin məlumatları bir daha analiz olunmuş, onların 1-ci kurs tələbələri və xarici tələbələr olduğu müəyyən olunmuşdur. 1-ci kurs tələbələrinə məlumat departament tərəfindən göndərilsə də, (auditoriyalarda təsadüfi seçim şəkildə yoxlanılmışdır) tələbələrin diqqətsizliyi nəticəsində cavablar reallığı əks etdirməyə bilər. Xarici tələbələrdə isə narazılığın səbəbləri aşağıda qeyd olunmuşdur.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasının keçirdiyi müsahibə əsasında da müəyyən olunmuşdur ki, Departamentin keçirdiyi tədbirlərin, görüşlərin böyük əksəriyyətində Azərbaycan dilindən istifadə olunur. Eləcə də, feysbuk səhifəsindəki bütün məlumatlar, elektron poçt məlumatları Azərbaycan dilində olduğundan xarici tələbələr prosesdən kənar qalmışdır.

Bu baxımdan məlumatların həm azərbaycan, həm də ingilis dillərində paylaşılması, xarici şirkətlərdən dəvət olunan şəxslərdən təlimləri, görüşləri ingiliscə aparmasının təşkili yolu ilə xarici tələbələri prosesə daha çox cəlb etmək tövsiyə olunur.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

ATM-də məzunlarla əlaqəni təmin etmək və məzunlar haqda məlumatları bir bazadan idarə etmək üçün 2018-ci ildən etibarən Elektron Məzun Məlumat Bazası (EMMB) yaradılmışdır. Departamentlə görüş zamanı əyani olaraq Elektron Məzun Məlumat Bazasının effektivliyi yoxlanılmışdır. Məlumatları bazasında saxlanılan hər bir məzunun məşğulluq vəziyyəti davamlı olaraq izlənilmişdir. Sistemə ATM-in məzunları, onların iş yerləri, əmək bazarında fəaliyyəti barədə məlumatlar daxil edilir, onların öz ixtisası üzrə işləyib-işləməməsi, əgər işləmirsə, onların işsiz qalma səbəbləri və s. qeyd olunur. Sahə baxışı zamanı sistemdəki məlumatların mütəmadi olaraq yenilənməsi müşahidə

olunmuşdur. Bu zaman sorğu əsasında mərkəz tərəfindən zəruri məlumatlar təqdim edilmiş, tələbələrlə və məzunlarla əlaqə yaradılmışdır.

Təsadüfi qaydada seçilmiş məzunlarla əlaqə saxlanılmış, onların məlumatlarının düzgünlüyü yoxlanılmışdır. Məzunlar üçün yaradılmış xüsusi Gmail qrupu "mezun@beu.az" vasitəsilə müxtəlif qurumlardan olan vakansiyalar mütəmadi olaraq məzunlarla paylaşılmışdır. Akkreditasiya Komissiyasının təsadüfi şəkildə seçdiyi 10-a yaxın məzunlarla aparılan onlayn görüş zamanı işləməyən məzunlar e-poçt vasitəsilə ATM-dən elektron poçt göndərişləri almaları məlum olmuşdur.

Bundan əlavə, müvafiq ixtisaslardan məzun olan şəxslər birbaşa şəxsi e-poçt ünvanlarına ixtisaslarına uyğun olaraq seçilmiş filtrasiyadan keçirilmiş iş imkanları əldə edirlər. Hər il məşğulluq məlumatlarının hərtərəfli təhlili aparılır. Məlumatların düzgünlüyünü təmin etmək üçün verilənlər bazasında məzunların məlumatları ardıcıl olaraq yenilənir. Məzunların mövcud vəziyyətlərini izləmək üçün telefon zəngləri edilir və e-poçt göndərilir. Aktiv iş axtaran məzunlar, hərbi xidmətdə olan və ya xarici ölkələrdə təhsil almaq üçün qeydiyyatdan keçmiş məzunlarla əlaqə saxlayaraq məlumat bazası mütəmadi olaraq nəzərdən keçirilir və cari statusları verilənlər bazasında yenilənir. EMMB-nin funksionallığının kifayət etmədiyi hissələrdə şöbə daxilində Excel fayllarda məlumatlar saxlanılır. Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, EMMB-dən bir səhifə aşağıda göstərilmişdir.

Hazırda bazanın məzunlar tərəfindən istifadə oluna bilən formasının üzərində yenilənmə işləri gedir. Bununla daha da təkmilləşmişdirilmiş bir sistemə nail olunacaqdır.

**Şəkil 3.1.**

**EMMB-nin işçi pəncərəsi**



### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

ATM-də Personal Məlumat Sistemi (PMS) mövcuddur. Təhsil proqramının keyfiyyətini artırmaq məqsədilə tələbələr üçün həmin sistemdən istifadə etmək imkanı yaradılmışdır. Sistem üzərindən müəllimlərin tədris metodundan məmnuniyyət səviyyəsinin qiymətləndirilməsi və s. sorğuların keçirilməsi üçün imkanlar reallaşdırılmışdır.

2023-cü ildən etibarən isə Müəssisələrlə əlaqələr və Karyera departamenti məzunlarla, eləcə də sənaye müəssisələri ilə birbaşa telefon və elektron formlar vasitəsi ilə Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğuna dair sorğular keçirmişdir.

Sorğuların linkləri aşağıdadır:

1. "Universitet-iş dünyası əlaqələri" sorğu anketi https://forms.gle/SSwBsiZtHj1EvpTw7 ( 25 müəssisə iştirak etmişdir);

2. “Məzun məmnuniyyət” sorğu anketi https://forms.gle/PXX8CyPcp8xyQ8JS9 ( 79 məzun iştirak etmişdir).

Sorğular keçirilsə də, nəticələri barədə sahə baxışı zamanı hesabatlara rast gəlinməmişdir. Eyni zamanda qoşulan müəssisə sayı və məzun sayı az olduğundan nəticələr reallığı əks etdirməyə bilər.

**Diaqram 3.10.**
**Müəssisələrlə əlaqələr və Karyera departamenti ilə bağlı sorğunun nəticələri**




Təhsil proqramının keyfiyyətinin qiymətləndirilməsi üçün məzunlarla və işəgötürənlərlə onlayn görüş keçirilmişdir. Ümumi geri dönüş çox pozitiv olmuşdur. Təhsil proqramından əldə etdikləri səriştələr sayəsində məzunların əksəriyyəti ixtisas üzrə peşə sahibi

olmuşdur. Tələbələrin əksəriyyəti ATM-dətəhsilin digər təhsil ocaqları ilə müqayisədə daha yüksək olduğunu və təhsil proqramı və onun keyfiyyətində dəyişikliklərə ehtiyac olmadığını qeyd etmişdirlər.

İşəgötürənlərlə keçirilən görüşdə bir çox şirkətin nümayəndələri ( Azərbaycan Beynəlxalq Bankı, “Coca- Cola bottler LTD” MMC, Kapital Bank, Abşeron Logistika Mərkəzi, KPMG və s.) iştirak etmişdir. Onlayn görüş zamanı məzunların ümumi bilik və bacarıqlarından, eləcə də Müəssisələrlə əlaqələr və Karyera departamentinin fəaliyyətindən razı olduqları qeyd olunmuşdur. Tədris proqramlarının təkmilləşdirilməsi istiqamətində isə müəssisələrlə fikir mübadiləsinin aparılmadığı bildirilmişdir.

Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur:

1. Yuxarıda qeyd edilmiş onlayn sorğularda iştirak göstəricisinin artırılması nəticəsində daha düzgün statistikanın əldə olunması;
2. Sorğu nəticələri barədə düzəldici fəaliyyətlərlə bağlı hesabatlılığın təmin olunması;
3. Tədris proqramlarının təkmilləşdirilməsi və sənayenin tələblərinə uyğunlaşdırılması istiqamətində birgə fəaliyyətin təşkil olunmasında iştirak.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Məzunlarla davamlı əlaqə Elektron Məzun Məlumat Sistemində olan məlumat bazası vasitəsilə aparılır. Məlumatların yenilənməsi üçün 2023-cü ildən etibarən “Məlumatların yenilənməsi” sorğusu https://forms.gle/T4EvZNnpyuGJnreQ8 keçirilməyə başlanılmışdır. Sorğuda 354 məzunun iştirakı təmin olunaraq məlumatları sistem üzərində yenilənmişdir. Məzunlarla əlaqə telefon, elektron-poçt, sosial şəbəkələr vasitəsilə də davam etdirilmişdir. Elmi Şuranın 07.07.2023 tarixli iclasının 06/2023 saylı protokolundan çıxarışa əsasən il ərzində departament tərəfindən 2003-dən artıq tələbə ilə əlaqə saxlanıldığı və məlumatlarının yeniləndiyi qeyd olunmuşdur. Sahə baxışı zamanı sorğular və qeyd olunan məlumatlar Komissiya üzvləri tərəfindən yoxlanılmışdır.

Məzunlarla davamlı əlaqə sistemini təkmilləşdirmək istiqamətində SİP 2020-2023 sənədinin 5.8. BMU Məzun Assosiasiyasının qurulması hədəfini yerinə yetirmək üçün Elmi Şuranın 07.07.2023 tarixli iclasının 06/2023 saylı protokolundan çıxarışa əsasən Əsasnamə hazırlanmışdır. Hazırda Himayəçilər Şurasının iclasında təsdiqlənməsi gözlənilir.

Komissiya tərəfindən təsadüfi seçilmiş məzunlarla onlayn görüş zamanı hazırda çalışıb/çalışmadıqlarından asılı olmayaraq Müəssisələrlə əlaqələr və Karyera departamenti nümayəndələri tərəfindən məlumatların yeniləndiyi və yeni vakansiyalar barədə elektron-poçt aldıqları təsdiq olunmuşdur.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ATM-in Himayəçilər Şurasının 11 fevral 2020-ci il tarixli iclasında təsdiq edilmiş Strateji İnkişaf Proqramının 3-cü istiqaməti “Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi”ni əhatə etmişdir. Genişləndirilmiş elmi-tədqiqat strategiyası və müvafiq fəaliyyət planları Özünütəhlil Hesabatına əlavə olaraq Akkreditasiya Komissiyasına təqdim edilməmişdir. Sahə baxışı zamanı 2020-2023-cü illəri əhatə edən genişləndirilmiş elmi-tədqiqat strategiyasının 08.02.2021-ci ildə yaradılmış və 16.05.2023-cü ildə əsasnaməsi təsdiq edilən “Elm və innovasiya” şöbəsi tərəfindən 2023-cü ilin sentyabr ayında hazırlandığı və hələ də təsdiq edilmədiyi aşkar edilmişdir. Bu baxımdan 2020-2023-cü illəri əhatə edən elmi-tədqiqat strategiyası üzrə fəaliyyət planları və hesabatları mövcud deyildir. Genişləndirilmiş elmi-tədqiqat strategiyasının əlçatanlığı ATM-in internet səhifəsində təmin edilməmişdir.

Növbəti SİP hazırlanan zaman elmi-tədqiqat strategiyasının zamanında təsdiq edilməsi və struktur bölmələri ilə tanışlığının təmin edilməsi tövsiyə edilir. Eyni zamanda, fəaliyyət planlarının hazırlanması və strateji istiqamətlər üzrə hesabatlılığın aparılması məqsədəuyğun hesab edilir.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Özünütəhlil Hesabatında bu meyar üzrə ATM-in verdiyi məlumat 4.1.1-ci meyarda təqdim etdiyi məlumat ilə eynidir (cümlələr təkrarlanmışdır). Bu isə müvafiq istiqamət üzrə Özünütəhlil Hesabatının oxunaqlığını və qiymətləndirilməsini çətinləşdirmişdir.

ATM-in missiyası “təhsilin bütün səviyyələri və formaları üzrə dünya standartlarına uyğun təhsil, tədqiqat və innovasiya sahəsində fundamental biliklərə, tədqiqat vərdişlərinə yiyələnmiş, milli və beynəlxalq əmək bazarında rəqabətədavamlı, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı məzun və kadr hazırlamaqdan ibarətdir”. SİP-in “Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi” üzrə 3-ci istiqamətinin və genişləndirilmiş elmi-tədqiqat strategiyasının müqayisəli təhlili aşağıdakı cədvəl 4.1-də verilmişdir.

**Cədvəl 4.1.**

**Genişləndirilmiş elmi-tədqiqat strategiyası və SİP-in "Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi" istiqamətinin müqayisəsi**

| **Genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəfləri (təsdiqlənməmiş): 8 hədəf və 38 alt hədəf** | **SİP-in "Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi" üzrə strateji hədəfləri** |
|---|---|
| 1. Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək | -- |
| 2. Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətinə dəstək olmaq | 3.4 "Scopus" platforması, "Science Direct" məlumat bazası və çap məhsullarına çıxış imkanı<br>3.6 Simpozium və seminarların təşkili |
| 3. Təhsilin bütün pillələrində tədqiqat mühitinin keyfiyyətinin yaxşılaşdırılması | 3.9 PHM-nin monoqrafiya və dərs vəsaitlərinin nəşri<br>3.10 Kitabxana fondunun zənginləşdirilməsi<br>3.11 Buraxılış və dissertasiya işlərinə ikili elmi rəhbərlik sisteminin tətbiq edilməsi<br>3.12 Fundamental və tətbiqi elmlərin spektrinin genişləndirilməsi |
| 4. Elmi-tədqiqat sahəsində beynəlxalq əlaqələri genişləndirmək | 3.3 Dövri elmi jurnalların beynəlxalq elmmetrik bazalara daxil olması<br>3.5 Beynəlxalq və respublika əhəmiyyətli elmi konfransların təşkili<br>3.8 Beynəlxalq konfranslarda iştirakın maliyyələşdirilməsi |
| 5. Universitet-sənaye əməkdaşlığını təkmilləşdirmək və "Elmi-tədqiqat və innovasiya ekosistemi"nin qurulması | 3.1 Universitetin Texnoparkının nəzdində Texnoloji Transfer və Patent Ofisinin qurulması<br>3.7 İnnovasiya və ixtiraların patentləşdirilməsi<br>3.13 Elmi Tədqiqat İşlərinin (ETİ) AMEA-nın institutları, layihə təşkilatları, sənaye və digər müəssisələr ilə birgə təşkili |
| 6. Müəllim heyətinin dünyanın əhəmiyyətli elmmetrik platformalarında hesablarının açılması və onların məhsuldar istifadəsinə nail olmaq | 3.2 Beynəlxlalq elmi jurnallarda məqalə sayı |

| | |
|---|---|
| 7. Tədqiqatçılar arasında əməkdaşlığın artırılması | 3.5 və 3.8 |
| 8. Elmi-tədqiqatlarda etik tədqiqat qaydalarının mənimsənilməsi, tətbiq edilməsinin öyrənilməsi və təbliğ edilməsi | -- |

Cədvəldən göründüyü kimi ATM-in genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəfləri SİP-in elmi-tədqiqat üzrə 3-cü istiqamətinin hədəfləri ilə əsasən uyğunluq təşkil etmişdir. Belə ki, SİP-in elmi-tədqiqat üzrə 3-cü strateji istiqamətinin hədəfləri ATM-in genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəflərinin alt hədəfləri kimi daxil edilmişdir.

Növbəti SİP hazırlanan zaman SİP-in elmi-tədqiqat strateji istqaməti üzrə hədəfləri ilə genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəflərinin uyğunlaşdırlması tövsiyə edilir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

ATM-in elmi-tədqiqat üzrə inkişaf siyasəti elmi-tədqiqat fəaliyyətinin effektivliyinin artırılması, kadr potensialının gücləndirilməsi, elmi-pedaqoji və tədris köməkçi işçilərinin motivasiya mexanizminin təkmilləşdirilməsindən ibarətdir. SİP-in məqsədi müvafiq olaraq elmi-tədqiqat və innovasiya fəaliyyətini gücləndirilmək, ən qabaqcıl elmi nailiyyətlərdən və innovativ təlim-tədris texnologiyalarından faydalanaraq tədrisi beynəlxalq standartlara uyğunlaşdırılmaq və akademik potensialı gücləndirməkdir.

Genişləndirilmiş elmi-tədqiqat strategiyasında ATM-in elmi-tədqiqat siyasəti və məqsədləri ayrı bölmələr halında təqdim edilməmiş, prioritet tədqiqat sahələri və istqamətləri isə öz əksini tapmamışdır.

Təşviq mexanizmləri və tədqiqat fəaliyyətinin idarə olunması ATM-in genişləndirilmiş elmi-tədqiqat siyasətinə daxil edilmişdir.

***Təşviq mexanizmiləri***

Strateji hədəf 2: Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətinə dəstək vermək;

2.1 “Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunmasını təmin etmək”;

2.2 “Nəşr performansının artırılması üçün bibliometriklər və onların istifadəsi üzrə təlimlər keçmək”;

2.3 “Tədqiqatçıların beynəlxlaq elmi tədqiqatlara əlçatanlığının təmin edilməsi üçün beynəlxalq resurslara çıxışlarını genişləndirmək”;

2.4 “Web of Science və Scopus indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşviq edilməsi ilə qlobal elmi məkana inteqrasiyanın gücləndirməsi, məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması sisteminin qurulması”;

2.5 “Tədqiqatçıların müxtəlif beynəlxalq tədqiqat əlaqələrini dəstəkləmək, qısa müddətli tədqiqatlara maliyyə dəstəyi vermək”;

2.6 “Tədiqatçıların xarici akademik dil bacarıqlarının formalaşdırılması/təkmilləşdirilməsi üçün təlimlərin keçirilməsi”.

***Tədqiqat fəaliyyətinin idarə olunması***

Strateji hədəf 1:

1.1. “Elmi-tədqiqat işlərinin təşkili və idarə olunmasının mərkəzləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə müvafiq strukturlar yaratmaq və təkmilləşdirmək”.

Növbəti dövr üçün genişləndirilmiş elmi-tədqiqat strategiyası hazırlanan zaman elmi-tədqiqat siyasətinin və məqsədlərin fərqli bölmələrdə aydın şəkildə verilməsi və eyni zamanda prioritet tədqiqat sahələri və istiqamətlərinin daxil edilməsi məqsədəuyğun hesab edilir.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Genişləndirilmiş elmi-tədqiqat strategiyasının müəyyən məqsədlər (strateji hədəflər/istiqamətlər) üzrə icrası SİP-in icrasında istifadə olunan prinsiplər əsasında həyata keçirilir. Bu məqsədlərin SİP-in 2020-2023-cü illər üçün 1-ci “Universitetin infrastrukturunun təkmilləşdirilməsi”, 2-ci “Tədris prosesinin təkmilləşdirilməsi”, 3-cü “Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi”, 4-cü “Beynəlxalq əlaqələrin inkişafı” və 5-ci “Müəssisələrlə əlaqələr və karyeranın inkişafı” strateji istiqamətlərinə uyğunluğu təmin edilmişdir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Genişləndirilmiş elmi-tədqiqat strategiyasının 3-cü hədəfində elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası nəzərə alınmışdır.

Strateji hədəf 3: Təhsilin bütün pillələri üzrə tədqiqat mühitinin keyfiyyətini yaxşılaşdırmaq.

3.1 “Magistrant və doktorantların tədqiqat bacarıqlarının inkişafına dəstək verən seminar və təlimlər  keçirmək”;

3.2 “Magistrant və doktorantları universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb etmək”;

3.3 “Magistrant və doktorantlar üçün partner universitetlərdə və tədqiqat mərkəzlərində tədqiqat aparmaq imkanlarını yaratmaq”;

3.4 “Doktorant və dissertantları universitetdə tədris prosesinə cəlb etmək”;

3.5 “Universitetin Tələbə Elmi Cəmiyyətinin fəaliyyətini genişləndirmək və tələbələrdən ibarət müxtəlif tədqiqat qrupları formalaşdırmaq”;

3.6 “Tələbələri müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə cəlb etmək”;

3.7 “Buraxılış və dissertasiya işlərinə ikili elmi rəhbərlik sisteminin tətbiq edilməsi imkanlarının öyrənilməsi”.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında bu meyarda verilmiş məlumatlar kəmiyyət və keyfiyyət göstəriciləri üzrə ATM-in SİP-nin “Elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi” üzrə 3-cü istiqamətindəki hədəflər və genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəfləri ilə uyğunluq təşkil etmir. Hətta, meyara birbaşa aidiyyəti olmayan geniş həcmli hesabat xarakteri daşımayan məlumatların daxil olunması meyara verilən cavabın qiymətləndirilməsini çətinləşdirir. Buna baxmayaraq 4.1.3-də apardığımız təhlili əsas gətirərək professor-müəllim heyətinin performansının strategiyada müəyyən səviyyədə nəzərə alındığı qənaətinə gələ bilərik. Əlavə olaraq SİP-in 3-cü strateji istiqaməti üzrə “3.2 Beynəlxalq elmi jurnallara məqalə sayı” (35 ədəd) və “3.8 Beynəlxlaq konfranslarda iştirakın maliyyələşdirilməsi” (hər il 10%) hədəflərini qeyd etmək olar.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

ATM-in genişləndirilmiş və təsdiq edilməmiş elmi-tədqiqat srategiyasının ATM-in internet səhifəsində əlçatanlığı təmin edilməmişdir. Struktur bölmələrinə əlçatanlığını, onların müzakirələrdə iştirakını təsdiq edən müvafiq sənədləşmə Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

ATM-in daha əhatəli və genişləndirilmiş elmi-tədqiqat strategiyasının əlçatanlığının təmin edilməsi tövsiyə edilir.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin birbaşa iştirakı təmin edilməmişdir. Maraqlı tərəflərin iştirakını təsdiq edən sənəd mövcud deyildir.

Növbəti SİP hazırlanan zaman maraqlı tərəflərin (struktur bölmələrinin, əməkdaşlıq edilən elmi-tədqiqat müəssisələrinin nümayəndələrinin) iştirakını təmin etmək və müvafiq sənədləşməni həyata keçirmək tövsiyə edilir.

### *4.2 Tədqiqat resursları*

#### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Elmi-tədqiqat məqsədlərinin reallaşdırılması üçün büdcədən ayrılan maliyyə resursu aşağıdakı cədvəl 4.2-də verilmişdir.

**Cədvəl 4.2.**

**ATM-in elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğun xərcləri**

| № | **Xərclər** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|
| 1 | Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | 0 | 0 | 0 | 0 | 0 |
| 2 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin ümumi xərclərdə payı, % | 0.253 | 0.137 | 0.065 | 0.559 | 0.427 |

Elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində 2019 və 2020-ci illərdə azalma, 2021-ci ildə isə 1157% artım müşahidə edilmiş və ümumi büdcə xərclərinin 0.56%-ni təşkil etmişdir. 2020-ci ildə 316, 2021-ci ildə 270 və 2022-ci ildə 206 kitab alınmışdır (2023-cü ilin məlumatı təqdim edilməmişdir). Bu isə SİP-in 3.10-cu hədəfində həmin dövr üçün planlaşdırılmış saydan 42 ədəd çoxdur.

ATM-in ümumi sahəsi 763 $m^2$ olan kitabxanasında mövcud olan 110360 kitab, o cümlədən “Web of Science” və “EBSCOhost” adlı elektron portallarına və “Scopus” elmmetrik bazasına çıxış elmi-tədqiqatla məşğul olan 248 nəfərdən ibarət akademik heyətin fəaliyyəti üçün əlverişli imkan yaratmışdır (2022-2023-cü il məlumatına əsasən).

ATM-in Özünütəhlil Hesabatı ilə birlikdə Akkreditasiya Komissiyasına təqdim etdiyi “Maddi - texniki baza və sosial-məişət şəraiti” faylında elmi-tədqiqatların aparılmasına imkan verən 42 laboratoriyanın mövcudluğu qeyd edilmişdir. Özünütəhlil Hesabatının 6.1.4-cü meyarında tədris və elmi-tədqiqat işlərinin aparılması üçün müasir avadanlıq və kompüterlərlə təchiz olunmuş yararlı laboratoriyaların sayının 42 olduğu vurğulanmışdır.

**Cədvəl 4.3.**

**Maddi-texniki baza**

| № | **Resurslar** | **Sayı** | **Ümumi sahə (kv.m)** | **Faydalı sahə (kv.m)** |
|---|---|---|---|---|
| 1 | Elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş müasir və digər laboratoriyalar | 42 | 3331.50 | 3331.50 |

- Meyar 3.5.2-də ATM tərəfindən verilən məlumata görə isə ATM-də müasir təlim prosesini aparmaq üçün 24 laboratoriya otağı mövcuddur (bunlardan 15 ədədi kompüter laboratoriyalarını, 9 ədədi isə tədris laboratoriyalarını əhatə edir). ATM-in Akkreditasiya Komissiyasına təqdim etdiyi “BMU laboratoriyalar” sənədində 24 laboratoriyanın sadalanması və təsviri öz təsdiqini tapmışdır;
- SİP-in “Universitetin infrastrukturunun təkmilləşdirilməsi” üzrə 1-ci istiqamətinin 1.6-cı hədəfində 2020-2023-cü illərdə 7 elmi-tədqiqat laboratoriyasının təşkili planlaşdırılmışdır. Meyar 4.2.3-də ATM-in verdiyi məlumata görə son 5 ildə 10-a yaxın laboratoriya qurulmuşdur. Sahə baxışı zamanı ATM-də 17 laboratoriyanın olduğu, onlardan 4-nün elmi-tədiqatların aparılması üçün də istifadə edildiyi bildirilmişdir;
- SİP-in 1-ci istiqamətinin 1.10-cu hədəfində mühəndislik üzrə elmi-tədqiqat mərkəzinin 2021-ci ildə qurulması planlaşdırılsa da sahə baxışı zamanı bu laboratoriyanın qurulması barədə məlumat əldə edilməmişdir. Himayəçilər Şurasının 15.07.2022-ci il 6 N-li Protokoluna əlavə edilmiş, SİP-in icrası üzrə 2021-ci ili əhatə edən hesabatında bu hədəfinin icrası üçün ümumi olaraq ATM-də 15 elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərdiyi qeyd edilmişdir.

Elmi-tədqiqatların aparılmasına imkan verən laboratoriyalar barədə verilən məlumatların qeyri-simmetrik olması mövcud vəziyyəti qiymətləndirməyi çətinləşdirmişdir.

ATM-in infrastrukturasının, maliyyə ve texnoloji resurslarının tədqiqat məqsədləri və strategiyası ilə effektiv şəkildə uyğunlaşdırılması və dinamik strateji planlaşdırma çərçivəsində bu uyğunluğun saxlanılması və hesabatlılığın aparılması məqsədəuyğun hesab edilir.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

ATM-in mövcud 21 kafedrası üzrə elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin ümumi akademik heyətə nisbəti aşağıdakı diaqram 4.1-də verilmişdir.

**Diqaram 4.1.**

**Elmi tədqiqatla məşğul olan akademik heyət**




Elmi-tədqiqatla məşğul olan akademik heyətin sayında və ümumi akademik heyətə nisbətində artım müşahidə olunmuşdur. 2022-2023-cü tədris ilində İqtisadiyyat və idarəetmə fakültəsində 56.7%, Memarlıq və inşaat fakültəsində 46%, Pedaqoji fakültədə 80% və Mühəndislik fakültəsində 70% təşkil etmişdir.

Mütənasib olaraq "Scopus" və "Web of Science" indeksli məqalələrin sayında artım müşahidə olunmuşdur.

**Diqaram 4.2.**

**İmpakt faktorlu jurnallarda məqalələrin dərc edilməsi**



2017-2023-cü illərdə 81 müəllif tərəfindən dərc edilən 181 SCOPUS indeksli məqalənin sahələr üzrə bölgüsü aşağıdakı diaqramda əks olunmuşdur (2017-2022-ci illərdə 165 + 2023-cü ildə 16 məqalə).

**Diaqram 4.3.**

**“Scopus” indeksli məqalələrin sahəıər üzrə bölgüsü**






### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsində, seminar və konfransların və müxtəlif ixtisas və fənlər üzrə olimpiadaların təşkilində ATM-in Tələbə Elmi Cəmiyyəti (TEC) töhfə verir. TEC, elmi-təşkilati və tədqiqat işində fəal iştirak edən bakalavr və magistr tələbələrinin könüllü ictimai təşkilatıdır. ATM tərəfindən Akkreditasiya Komissiyasına TEC-in yalnız 2018-2019-cü tədris ili üzrə fəaliyyət planı (imzalarsız) və hesabatı təqdim edilmişdir. Hesabatın əlçatanlığı ATM-in internet səhifəsində təmin edilməmişdir.

Akkreditasiya Komissiyasına təqdim edilən məlumata əsasən ATM-də hal-hazırda 28 doktorant təhsil alır (7 tələbə 1-ci il, 6 tələbə 2-ci il, 5 tələbə 3-cü il və 10 tələbə 4-cü il). Bu tələbələrdən yalnız 3-ü aktiv elmi-tədqiqatla məşğul olur. 2019/2021-ci illərdə 5 aktiv doktorant olmuşdur. Bu tələbələrin məqalələrinin nəşr edildiyi jurnallar barədə komissiyaya təqdim edilən "Excel" faylda məlumat aşkar edilməmişdir. İnternet üzərindən axtarış zamanı məqalələrin dərc edildiyi və əlçatan olduğu müəyyən edilmişdir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, magistr tezisləri barədə statistik məlumat ATM tərəfindən daxil olmamışdır. ATM-in elektron kitabxanasından magistr və doktorluq tezislərinin əldə edilməsi mümkün olmamışdır. Sahə baxışı zamanı magistr tezislərinin kitabxanada əlçatan olduğu müəyyən edilmişdir.

https://beu.edu.az/az/library/search/

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında bir çox beynəxalq elmi məlumat bazalarına çıxışın olması barədə məlumat verilmişdir. ATM, "Web of Science" və "EBSCOhost" adlı elektron portalların üzvüdür. 14 iyun 2023-cü ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə "Elsevier" şirkəti arasında imzalanan müqavilə əsasında Azərbaycanın özəl və dövlət ali təhsil müəssisələrinin, elmi-tədqiqat institutlarının dünyanın ən böyük elmmetrik bazası olan "Scopus"a çıxış imkanı təmin edilmişdir.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

ATM-in "Nüfuzlu elmi nəşrlərdə əsərləri çap edilən BMU əməkdaşlarının mükafatlandırılması haqqında" qaydaları mövcuddur (sahə baxışı zamanı Akkreditasiya Komissiyasına təsdiq edilməmiş qeyri-rəsmi sənəd təqdim edilmişdir). Bu qaydaların məqsədi BMU əməkdaşlarının nüfuzlu elmi nəşrlərdə əsərlər çap etdirmələrini stimullaşdırmaqdır. Qaydaların "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Bakı

Mühəndislik Universiteti Publik Hüquqi Şəxsinin Nizamnaməsi" əsasında hazırlandığı qeyd edilmişdir.

Özünütəhlil Hesabatı ilə birlikdə Akkreditasiya Komissiyasına təqdim edilən "Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat" və "Elmi-tədqiqat fəaliyyəti 2023" cədvəllərində "elmi-tədqiqata ayrılan büdcə vəsasitinin ümumi büdcədə payı" barədə məlumat verilməmişdir.

Eyni zamanda, ATM-in "gəlir və xərclərin icrası barədə hesabatlarında" mükafat kimi ödənişlərin aid olduğu kateqoriya aydın deyildir. Hesabatda uyğun kateqoriyalar "Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri" və "Elmi-tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi" ümumi xarakter daşıyır.

Buna baxmayaraq, Elmi işlər üzrə prorektorun təqdim etdiyi, 2021 və 2022-ci illəri əhatə edən və rəsmi olmayan hesabatlarda qeyd edilmiş mükafatlandırma cədvəl 4.4-də verilmişdir.

**Cədvəl 4.4.**

**"Web of Science" və "Scopus" indeksli məqalələrə görə mükafatlandırma**

| | 2021 | 2022 |
|---|---|---|
| **Məqalə sayı** | 42 (20 müəllif) | 37 məqalə (24 müəllif) |
| "Web of Science" | 12 | 2 |
| "Scopus" | 20 | 35 |
| **Ümumi məbləğ (AZN)** | 11965 | 12367.2 |
| **Hesabatın tarixi** | 14.02.2022 | 05.02.2023 |

Əlavə olaraq qeyd etmək lazımdır ki, SİP-in "Maliyyə-iqtisadi fəaliyyətlərinin təkmilləşdirilməsi" üzrə 7-ci strateji istiqamətində qeyd edilmiş və 2022-ci ildə icrası planlaşdırılan "7.2. Differensial əmək haqqı sisteminin formalaşdırılması" maddəsi reallaşdırılmayıb.

4.1.3-də qeyd edilmiş təşviq mexanizminin tərkib hissəsi kimi "Nüfuzlu elmi nəşrlərdə əsərləri çap edilən BMU əməkdaşlarının mükafatlandırılması haqqında" qaydaların hüquqi və normativ tələblər çərçivəsində təsdiq edilməsi və mükafatlandırmanın hesabatlılığının aparılması tövsiyə edilir. Elmi-tədqiqatın təşviq edilməsi üçün differensial əmək haqqı sisteminin formalaşdırılması məqsədəuyğun hesab edilir.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Özünütəhlil Hesabatında ATM-in bu meyara verdiyi cavab 4.2.4-ci bəndi təkrarlamışdır və bu meyara aid deyildir. ATM-in təqdim etdiyi maliyyə təminatı sənədində elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlirlərin əldə edilmədiyi göstərilmişdir.

ATM-in yuxarıdakı meyarlara cavablarından da məlum olduğu kimi meyarlara aid olmayan geniş həcmli mətnlər meyarları qiymətləndirməyi çətinləşdirmişdir. Təhsildə Keyfiyyət Təminatı Agentliyinə təqdim ediləcək növbəti Özünütəhlil Hesabatının yazılması zamanı hesabatlılığın daha ciddi əməl olunması tövsiyə edilir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında ATM-in 30-a yaxın yerli və xarici ali təhsil və elmi-tədqiqat müəssisələri ilə müqavilələrin imzalandığı (21-i xarici olmaqla) qeyd edilsə də müəssisələrin siyahısı, müqavilələr və ya əməkdaşlıq memorandumları Akkreditasiya Komissiyasına təqdim edilməmişdir. ATM-in təqdim etdiyi “PowerPoint” formatında 2018-2023-cü illəri əhatə edən elmi fəaliyyət hesabatlarında əməkdaşlıq əlaqələrinə nümunə olaraq yalnız “Azərbaycanda Rektorlar Konfransının yaradılması (ECAR) adlı Erasmus+ KA2 və “Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə emək vasitəsi ilə yumşaltma yolları ilə hərəkət edir” adlı HORİZON 2020 layihələri qeyd edilmişdir. Özünütəhlil Hesabatı ilə təqdim edilən “Elmi tədqiqat fəaliyyəti 2023” sənədində isə tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların sayının dinamikası diqaram 4.4-də verilmişdir.

**Diaqram 4.4.**

**Elmi-tədqiqat sahəsində əməkdaşlıq**




Elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu barədə hesabatlılığın aparılması məqsədəuyğun hesab edilir.

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

#### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Sahə baxışı zamanı ATM-də elmi-tədqiqat fəaliyyəti üzrə strateji inkişaf planı təqdim edisə də, bu planın təsdiq olunmadığı müəyyən edilmişdir. Elm işləri üzrə prorektorluğun təqdim etdiyi Elmi-tədqiqat strategiyası 2020/2023-cü illəri əhatə edir. Buna baxmayaraq, BMU-də fakültələr, kafedralar, laboratoriyalar və diqər elmi strukturların bazasında elmin fərqli sahələri və istiqamətləri üzrə fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi tədqiqatlar aparılmışdır. Elmi tədqiqatların nəticələrinin istehsalatda və tədris prosesində tətbiq olunması, onların dərc olunması, həmçinin elmi konfrans, seminar və diqər elmi tədbirlərdə təqdim olması və yayılması ATM tərəfindən təşkil olunur.

ATM-də elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi Elm işləri üzrə prorektorluq, Elm və İnnovasiya şöbəsi tərəfindən həyata keçirilir. Elm və İnnovasiya şöbəsi ATM-in elm və innovasiyalar üzrə işlərin təşkili və koordinasiyası sahəsində fəaliyyət göstərən struktur bölmədir. Elm və innovasiya şöbəsinin əsas fəaliyyət istiqamətlərinə elmi tədqiqatların koordinasiyasının həyata keçirilməsi və universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması daxildir.

Özünütəhlil Hesabatında elmi-tədqiqat fəaliyyətinin həyat keçirilməsi üçün müvafiq strategiyanın olması və tədbirlər planının hazırlanması qeyd olunsa da, sahə baxışı zamanı təsdiq olunmuş startegiya Akkrediatasiya Komissiyasına təqdim edilməmişdir. Yalnız ATM-in Elm işləri üzrə prorektoru tərəfindən Akkreditasiya Kommissiyasına təqdim olunmuş, SİP-nin müvafiq bölmələrinin müddəalara uyğun yeni hazırlanmış Elmi-tədqiqat strateqiyası 2020/2023-cü illəri əhatə edir və təsdiq edilməmişdir.

Özünütəhlil Hesabatında ATM-də elmi-tədqiqat fəaliyyəti bu sahədə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq aparıldığı və hər ilin sonunda hesabatın verildiyi qeyd olunmuşdur. Hesabatlar əsasında Elmi işlər üzrə prorektorluq tərəfindən BMU-nun elmi-tədqiqat fəaliyyəti haqqında hesabatı hazırlanır, Elmi Şurada müzakirə edildikdən və təsdiq olunduqdan sonra ATM tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilir.

Sahə baxışı zamanı elmi-tədqiqat fəaliyyəti haqqında illik hesabatları təqdimat formatında mövcudluğu məlum olmuşdur. İllik fəaliyyət hesabatları 2018-2023-cü illərə aid olub, əsasən, ATM-in aşagıda qeyd olunan sahələrdə elmi-tədqiqat fəaliyyətini özündə əks etdirmişdir: nəşr aktivliyi, fəlsəfə doktorluğu proqramlarının vəziyyəti, magistratura və doktoranturaya qəbulu, elmi-tədqiqat işlərinin vəziyyəti (hesabat dövründə ATM-in mövcud 21 kafedrasında 42 problem və 84 mövzu üzrə 252 elmi-

tədqiqat işi yerinə yetirilmiş və 25 mövzu üzrə 34 iş tamamlanmışdır), elmmetrik göstəricilər, Universitet jurnallarının beynəlxalq elmmetrik bazalarına daxil olması vəziyyəti, beynəlxalq və respublika əhəmiyyətli elmi konfransların, seminar və simpoziumların təşkili, tələbələrin elmi-tədqiqat fəaliyyətini.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Akkreditasiya dövründə ATM-in təşəbbüsü ilə respublika və beynəlxalq səviyyəli elmi-praktik konfrans və seminarlar mütəmadi olaraq təşkil olunmuşdur. Onların bəzilər ənənəvi xarakter daşıyır və hər il keçirilir. Elm işləri üzrə prorektorluğun təqdim etdiyi hesabatda son 2017/2023-cü illər ərzində 23 beynəlxalq konfransın keçirildiyi, onların materiallarının nəşr olunduğu və ATM-in internet saytında yerləşdirildiyi göstərilmişdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən «Azərbaycan Beynəlxalq nəqliyyat sistemində: hədəflər və perspektivlər» (2018-ci ildən), «İqtisadiyyat və idarəetmədə davamlı inkişaf: problemlər və perspektivlər» (2021-ci ildən), “Beynəlxalq Elm və Texnologiya Konfransı” (2020-ci ildən) haqqında Özünütəhlil Hesabatında məlumat verilmiş və sahə baxışı zamanı həmin konfransların nəşr olunmuş materiallara baxış keçirilmişdir. Özünütəhlil Hesabatında yer almayan BMU-nun konfransları haqqında Universitetin rəsmi saytında məlumatlar mövcuddur (Azərbaycanın innovativ inkişafında mühəndisliyin rolu: hədəflər və perspektivlər, Beynəlxalq konfrans, 29-30, 2019; Turizm və rekreasiya: problemlər və perspektivlər, IV Beynəlxalq konfrans, 3-4 may 2019). Genişşahəli konfrans sırasında Universitetin 2016-cı ildən başlayaraq təşkil etdiyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilən, ənənəvi olaraq aprel ayının sonunda keçirilən «Gənc Tədqiqatçıların Beynəlxalq Konfaransı» keçirilir. Elmi tədbirlər sırasında gənclərin elmi tədqiqata təşviqi Universitetin fəaliyyətində xüsusi yer tutur. Ənənəvi elmi konfranslar sırasında bu istiqamətdə “Qış elm festivalı” layihə yarışmasının (Universitet tələbələri və məktəb şagirdləri arasında) keçirildiyini də qeyd etmək olar. Elmi əhəmiyyətlə yanaşı bu üsulla Universitet potensial tələbə kontingentini də cəlb etmək imkanı əldə edir.

Hesabat dövründə BMU bir neçə xarici ölkənin müvafiq qurum və təşkilatları ilə birgə elmi tədbirlər keçirmişdir. Belə ki, Türkiyənin İKSAD tədqiqat mərkəzi ilə birlikdə Memarlıq və Ekologiya sahəsində iki beynəlxalq konfrans (II Beynəlxalq Memarlıq Elmləri və Tətbiqi Konfrası, 9-11 sentyabr, 2022, Beynəlxalq Ekologiya və Ətraf Mühit konfransı 1-2 May 2023); Kanadanın Ryerson Universiteti ilə birgə XIII Beynəlxalq Termal Mühəndislik Konfransı (22-24 may 2022) keçirilmişdir.

Özünütəhlil Hesabatında fakültələrdə müntəzəm keçirilən seminarlar və elmi müzakirələr, Tələbə Elmi Cəmiyyəti təşkilatçılığı ilə tələbələr üçün keçirilən konfranslar, respublika səviyyəli çoxsayılı konfranslar qeyd olunmuşdur. Lakin sahə baxışı zamanı akkreditasiya dövrünü əhatə edən sənədlərdə (fakültə Elmi Şuralarının protokollarında,

kafedra iclaslarının protokollarında, Tələbə Elmi Cəmiyyətinin hesabatlarında) bu haqda məlumatlar əksini tapmamışdır. Məlumatlar əsasən ATM-in rəsmi veb saytında verilmişdir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ATM-də təşkil olunan elmi tədbir, konfrans və seminarlara respublikanın ali təhsil müəssisələrindən və tədbirlərin istiqamətinə uyğun digər təşkilatlardan mütəxəssislər dəvət olunur. Rəsmi dəvətlərlə yanaşı, ATM-in saytında yer alan elanlara əsasən digər təşkilatlardan və ölkələrdən mütəxəssislər və tədqiqatçılar elmi tədbirlərdə iştrak edirlər. Elm və innovasiyalar şöbəsi tərəfindən təqdim olunan sənədlərdə, Özünütəhlil Hesabatında xarici tədqiqatçıların konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə iştirakı barədə dəqiq statistika əks olunmamışdır. Sahə baxışı zamanı da belə məlumat təqdim olunmadı.

**Cədvəl 4.5.**

**Elmi tədbirlərin və onlarda iştirak etmiş tədqiqatçıların illər üzrə dinamikası**

| № | İllər | Keçirilmiş elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. sayı | Elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə digər müəssisə və ölkələrdən iştrak etmiş tədqiqatşıların sayı |
|---|---|---|---|
| 1 | 2018/2019 | 20 | 850 |
| 2 | 2019/2020 | 23 | 920 |
| 3 | 2020/2021 | 25 | 1050 |
| 4 | 2021/2022 | 28 | 1300 |
| 5 | 2022/2023 | 31 | 1450 |

Eyni zamanda fakultələrdə respublikanın digər ali təhsil müəssisələri ilə təcrübə mübadiləsi aparılmış, tələbələrlə aparıcı mütəxəssislərin görüşləri təşkil olunmuş, ustad dərsləri və təlimlər keçirilmişdir.

ATM-də keçirilən elmi-tədqiqat xarakterli konfranslarda ölkənin digər elm və ali təhsil müəssisələrinin tədqiqatçılarının təşkil olunur və müvafiq şərait yaradılmışdır. Beynəlxalq konfranslarda isə xarici ölkələrdən çoxsaylı tədqiqatçılar iştirak etmişdir. Belə ki, təkcə 2022-ci ildə keçirilən beynəlxalq konfranslarda 30-dan çox müxtəlif xarici ölkədən tədqiqatçılar məruzələrlə çıxışlar etmişdirlər.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Tələbə-tədqiqatçıların konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə iştrakı ATM-in Tələbə Elmi Cəmiyyətinin təşkilatşılığı ilə həyata keçirir. Belə ki, Tələbə Elmi

Cəmiyyəti (TEC) ATM-də hər il konfrans təşkil edir (yalnız pandemiya dövründə keçirilməmişdir). Bu konfranslarda yüzlərcə tələbə-tədqiqatçılar iştirak edir, onların tezis və məruzələri konfrans materiallarında çap olunur. Özünütəhlil Hesabatında verilən məlumata əsasən ötən dövründə TEC (Tələbə Elmi Cəmiyyəti) və Elm və innovasiya şöbəsinin təşkilatçılığı ilə 50-dən çox onlayn tədbir keçirilmiş və bu tədbirlərə minlərlə gənc tədqiqatçı iştirak etmişdir. Bu məlumatları TEC və Elm və innovasiya şöbəsində dəqiqləşdirmək mümkün olmamışdır.

Hesabat dövründə BMU tələbələrindən ibarət "SPACEFORCE" komandası "CanSat Azərbaycan 2023" model peyk müsabiqəsində yüksək nəticələr əldə etmişdir. BMU tələbələrinin "RED X" komandasının hazırladıqları hərbi məqsədli tibbi ləvazimat daşıya, kuryer vəzifəsini yerinə yetirə və bənzər yerlərdə əlverişliliyini göstərə bilən sabit qanadlı, sadə və ergonomik PUA Türkiyədə sınaq uçuşu həyata keçirildikdən sonra, aprelin 27-dən mayın 1-dək İstanbulda keçiriləcən "TEKNOFEST-2023" festivalında nümayiş etdirilmiş və 4-cü yerə layiq görülmüşdür. ATM-in digər tələbə komandası "Enactus Biznes Məktəbi 2023" layihəsi çərçivəsində 25-28 may tarixində "Enactus Biznes Məktəbi"ndə keçirilən müsabiqədə birinci yerə layiq görülmüşdür.

**Cədvəl 4.6.**

**Elmi-tədqiqat tədbirlərində iştirak etmiş gənc tələbə tədqiqatçıların dinamikası**

| № | İllər | Elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə iştrak etmiş gənc tədqiqatşıların sayı |
|---|---|---|
| 1 | 2018/2019 | 500 |
| 2 | 2019/2020 | 650 |
| 3 | 2020/2021 | 680 |
| 4 | 2021/2022 | 820 |
| 5 | 2022/2023 | 1030 |

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

ATM Erasmus+ mübadilə proqramı çərçivəsində Avropanın 13 universiteti ilə əməkdaşlıq etmiş, BMU-nun akademik və inzibati heyəti həmin universitetlərdə təlim-tədris prosesində iştrak etmişdir. Bu zaman ATM-in maddi və insan resurları ən optimal şəkildə istifadə olunur. ATM beynəlmiləlləşmə prosesində maliyyə resurslarının bir qismini beynəlxalq qrant proqramları çərçivəsində əldə edir. Həmin layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək, kadr potensialının artırılmasına dəstək verilir.

Özünütəhlil Hesabatında ATM-in layihələrdə iştrak prosesində iki hədəfin reallaşdırılmasına nail olunduğu qeyd edilmişdir: qrant proqramları çərçivəsində maliyyə resursları əldə edilir, proqramlarda iştrak beynəlxalq təcrübənin öyrənilməsi və gələcəkdə elmi-pedaqoji potensialın artırılması.

2017/2022-ci illərdə ATM 9 beynəlxalq qrant layihəsində iştirak etmiş və ya tərəfdaş kimi cəlb olunmuşdur. Bu layihələr aşağıda göstərilmişdir:

1. "PAWER - Təhsildə regionlararası mobillik, keyfiyyət, uyğunluq və hər kəsə açıq sistemin qurulması" Erasmus+ KA2 layihəsi;
2. "PROMIG - Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi" Erasmus+ KA2 layihəsi;
3. "CRENG - Nəqliyyat xidmətləri üçün böhran və risklər mühəndisliyi" Erasmus+ KA2 layihəsi;
4. "MAGNUS - Tərəfdaş universitetlərdə Mobil Tətbiqlərin və Oyun Dizaynı magistr proqramlarının hazırlanması" Erasmus+ KA2 layihəsi;
5. "ITACA - Azərbaycanda İnnovativ Tədris Mərkəzinin qurulması" Erasmus+ KA2 layihəsi;
6. "ECAR - Azərbaycanda Rektorlar Konfransının yaradılması" Erasmus+ KA2 layihəsi Qrant sahibi/koordinator: Bakı Biznes Universiteti (Azərbaycan);
7. "STM (Slow Turism Management) - Davamlı Turizm Menecmenti" Erasmus+ KA2 layihəsi;
8. "CAMPAIGNers - Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə etmək vasitəsi ilə yumşaltma yolları ilə hərəkət edir" adlı HORIZON 2020 layihəsi;
9. Magistratura səviyyəsində Kibertəhlükəsizlik ixtisası üzrə məzmunun təkmilləşdirilməsi, yeni tədris planının hazırlanması və tədris resurslarının formalaşdırılması layihəsi üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrantı.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

ATM tərəfindən patentlərin əldə edilməsi və mövcud potensialın stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Son beş ildə 9 patent alınmışdır ki, onlardan ikisi beynəlxalq patent, 7-si respublika səviyyəli patentdir. Respublika daxili patentlərdən Avtomatika və elektroenergetika kafedrasının dosenti, texnika elmləri doktoru Elçin Qurbanovun həmmüəllifi olduğu "Nanosaniyəli impuls tac qaz boşalmasını həyata keçirən cihaz" adlı ixtiraya Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Patent və Əmtəə Nişanları Ekspertizası Mərkəzi tərəfindən F 2021 0022 nömrəli patent verilmişdir.

Beynəlxalq patentlər aşağıda verilmişdir:

- ABS patent ofisi: Abdullayev, Yusif; Hasanov, Zafar; Methods of and systems for electrochemical reduction of substrates From U.S. Pat. Appl. Publ. (2020), US 20200010964 A1 20200109;
- Dunya patent ofisi: Abdullayev, Yusif; Hasanov, Zafar; Methods of and systems for electrochemical reduction of substrates From PCT Int. Appl. (2020), WO 2020008267 A2 20200109.

Sahə baxışı zamanı ATM tərəfindən patentlərin kommersiyalaşdırılmasına dair məlumat verilməmişdir. Ümumiyyətlə, ATM-də bu istiqamətində işlərin aparılmadığı məlum olmuşdur.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

ATM bir sıra respublika və xarici universitet və təşkilatlarla əməkdaşlıq əlaqələri qurmuş, milli və beynəlxalq təşkilatlarla 2017-2023-ci illərdə müxtəlif əməkdaşlıq müqavilələr imzalamışdır. Bu müqavilələrin əsas məqsədi birgə elmi tədqiqatların aparılması və birgə proqramların həyata keçirilməsi ilə bağlı olmuşdur. Xüsusilə qeyd edilməlidir ki, Koreyanın INHA Universiteti ilə 28 avqust 2000-ci ildə bağlanan müqaviləyə əsasən ikili diplom proqramı, Koreyalı elm adamları ilə birgə tədqiqatlar və elmi-tədqiqat təcrübəsi nəzərdə tutulmuşdur. ATM-in birgə proqramların icrası kontekstində 9 oktyabr 2019-cu il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Strateji Elmi Tədqiqatlar Mərkəzi (SETM) və AMEA-nın İdarəetmə Sistemləri İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən BMU tələbələri-tədqiqatçıları üçün AMEA-nın struktur bölmələrinə daxil olan institutlarda və Yüksək Texnologiyalar Parkında (YTP) müxtəlif rezident laboratoriyalarında gənc mühəndis kimi işləmək, həm də təcrübə qazanmaq imkanı yaradılmışdır.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ATM tərəfindən digər ölkələrin univesitetləri və elmi-tədqiqat müəssisələri ilə ikitərəfli müqavilələr və beynəlxalq proqramlar çərçivəsində də əməkdaşlıq həyat keçirilir. Proqramların əsas hissəsinin tələbə və akademik heyətin tədris-təcrübə mübadiləsinə yönümlü olması müəyyən edilmişdir. Belə ki, ABŞ Dövlət Departamentinin Fulbright , Almaniyanın GİZ, DAAD, Koreyanən KOİKA, Avropa Komissiyasının TEMPUS, ERASMUS MUNDUS, "Erasmus +" proqramları çərçivəsində Avropanın 30-a yaxın aparıcı universiteti ilə elmi-tədqiqat və təcrübə mübadiləsi həyata keçirilmişdir. Bu proqramlarda ATM-in 60-dan çox əməkdaşı istirak etmişdir. Özünütəhlil Hesabatında bu proqramlarda 60-dan çox əməkdaşın iştrakı qeyd edilmişdir, lakin sahə baxışı zamanı qeyd olunanların elmi-tədqiqat aspektini açıqlayan sənədlər təqdim olmamışdır.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

BMU-nun akademik heyətinin fərdi elmi-tədqiqat fəaliyyəti ölkə üzrə yüksək nəticələr göstərmişdir.
Cari ildə beynəlxalq səviyyədə nəşr olunan "Azerbaijan National H-index Ranking" tərəfindən 2023-cü ilin ikinci rübünün elmi nəticələri əsasında Azərbaycanda fəaliyyət göstərən elmi qurumların və universitetlərin H-indexinə görə açıqlanmış reytinq sıralamasında 20 mindən çox alim və mütəxəssisin profili, eləcə də 150 minə yaxın elmi nəşr təhlil olunmuşdur. Web of Science, Scopus və Google Scholar kimi beynəlxalq

bazaların göstəriciləri əsasında hesablanmış H-indexinə görə, Azərbaycanın 83 elmi təşkilatının və universitetinin elmi fəaliyyəti analiz edilmişdir. BMU H-indeksi (National H-index) 18 olmaqla ali təhsil müəssisələri arasında ilk yerlərdə mövqe tutmuşdur. ATM-in Scopus-da H-indeksi 18, Web of Science bazasında 20, Google Scholar-da isə 29 olmuşdur. Bu sistemdə Azərbaycanın Scopus və Google Scholar göstəricilərinə görə ən məhsuldar 1000 alim siyahısına BMU-nun Scopus göstəricilərinə görə 9, Google Scholar göstəricilərinə görə 13 əməkdaşı yer almışdır (https://az.h-index.com/en/baku-engineering-university).

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

ATM-in əməkdaşları tərəfindən 2017/2023-cü illərdə aparılmış elmi-tədqiqat işlərinin nəticəsində 18 monoqrafiya, 13 dərslik, 42 dərs vəsaiti, eləcə də xaricdə 268 elmi məqalə, 91 konfrans tezisi, respublikada 448 elmi məqalə və 183 konfrans tezisi nəşr olunmuşdur. Bununla yanaşı, həmin dövrdə 2 müəlliflik şəhadətnaməsi və 3 patent alınmışdır.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

ATM-də elmi-tədqiqatçıların əsərlərinin dərc etdirilməsinə imkan yaradılması məqsədilə bir sıra elmi jurnallar nəşr olunur. Belə ki, hər biri ildə iki dəfə olmaqla altı istiqamət üzrə “Journal of Baku Engineering University” elmi jurnalları nəşr olunur:

1. Mechanical and Industrial Engineering;
2. Chemistry and Biology;
3. Mathematics and Computer Science;
4. Physics;
5. Philology and Pedagogy;
6. Economics and Administration/

Bu jurnalların hamısı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müvafiq sahələr üzrə tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilmişdir.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Web of Science bazasına BMU adı ilə daxil olan 181 əsərə minə yaxın istinad müəyyən edilmişdir. İstinadların sayı hər il əvvəlki ilə nisbətən təxminən 20% artmaqdadır. ATM-in əməkdaşları tərəfindən son 5 ildə xaric nəşr olunan elmi jurnallarda 200-ə yaxın elmi məqalə dərc edilmişdir ki, onların təxminən 30%-i Q1 kateqoriyalı elmi jurnallarda nəşr olunmuşdur.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Magistratura və doktorantura səviyyələrində ixtisasların tədris planlarında bir çox tədqiqat yönümlü fənlər daxil edilir. Belə ki, magistratura səviyyəsinin tədris planında seçmə fənlər bölümündə əksər fənlər tədqiqat yönümlü nəzərdə tutulur. Doktorantura səviyyəsində isə bütün tədris fəaliyyəti elmi tədqiqatlara yönəlmiş olur.

Magistratura səviyyəsinin tədris planları Elm və Təhsil Nazirliyi tərəfindən hər bir ixtisas üçün təsdiq olunmuş təhsil proqramlarına uyğun hazırlanır və tədrisi həyata keçirilir. Bu tədris planlarında tədqiqat yönümlü nəzərdə tutulmuşdur. Belə ki, tədris planlarında elmi tədqiqatların tarixi, metodologiyası, elmi tədqiqat üsulları kimi ümumi təyinatlı məcburi fənlər daxil edilmişdir.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

ATM-də akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif təlimlər və seminarlar keçirilir. Hər il fevral ayının ilk həftəsində fakültələr üzrə elmi hesabat dinlənilir. Elmi tədqiqatla məşğul olan əməkdaşlar üçün mütəmadi olaraq beynəlxalq Elmi Tədqiqat Bazalarından (Web of Science, Scopus və Google Scholar) effektiv istifadə üzrə təlimlər keçirilir.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

ATM-də doktorantura proqramları üzrə hər il qəbul planları formalaşdırılır və qəbul keçirilir.2016-2022-ci illərdə fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya 36 nəfər qəbul edilmişdir. Onlardan 14 nəfəri təhsil aldıqları müddətdə universitetdə işə qəbul olunmuşdur. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı çərçivəsində ATM-in rəsmi razılığı ilə 11 nəfər (8 nəfər mühəndislik, 2 nəfər iqtisadiyyat, 1 nəfər təhsilin idarəedilməsi ixtisasları üzrə) dövlət təqaüdü ilə PhD təhsili almaq üçün dünyanın qabaqcıl universitetlərinə göndərilmişlər. Lakin elmlər doktoru proqramı üzrə son illərdə qəbul keçirilməmiş və elmlər doktoru proqramı üzrə hazırlıq aparılmamışdır. Lakin universitetdə çalışan ondan çox əməkdaş respublikanın nüfuzlu universitetlərində müxtəlif sahələr üzrə elmlər doktoru proqramı üzrə məqsədli yerlərə qəbul olunmuşdur.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Hazırda ATM-də tədris prosesində 14 elmlər doktoru və professor fəaliyyət göstərir. Tədris prosesində iştirak edən rlmlər doktorlarının və professorların sayının artırılması istiqamətində tədbirlərin görülməsi tövsiyə olunur.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

ATM-də tədris fəaliyyəti ilə birgə elmi-tədqiqat işi yerinə yetirən 180 əməkdaşdan 105-i müvafiq elmi dərəcəyə malikdir, elmi dərəcəsi olmayan 75 əməkdaş isə əsasən doktorantura və ya dissertantlıq yolu ilə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olur. Son illərdə ATM-də fəlsəfə doktoru proqramı üzrə doktorant və dissertantlarının dissertasiya işlərinin müdafiəsində artım dinamikası müşahidə olunmuşdur. Bu da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinə müsbət təsirini göstərmişdir.

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

ATM-də aparılan elmi-tədqiqat işləri, əsasən, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərancamlarına, eləcə də ölkənin strateji inkişaf planlarına uyğun olaraq universitetin prioritet istiqamətləri üzrə aparılır. Əməkdaşlar tərəfindən alınmış elmi dərəcələrin elmi istiqamətlərinin ATM-in elmi-tədqiqat hədəflərinə uyğunluğu müşahidə edilmişdir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATM-in elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin fəaliyyəti elmi-tədqiqat işlərinin planı cərçifəsində planlaşdırılır və həyata keçirilir. Bu plana uyğun olaraq, professor-müəllim heyəti hər ilin sonunda elmi-tədqiqat işləri haqqında hesabat verirlər. Yeni qəbul olunmuş magistrlərə, doktorant və dissertantlara veriləcək dissertasiya mövzuları kafedra iclaslarında və fakültə Elmi şuralarında, eləcə də universitetin Elmi Şurasında müzakirə olunduqdan sonra universitet rəhbərliyi tərəfindən təsdiq edilir. Doktorantlar, dissertantlar və magistrantlar görülmüş elmi-tədqiqat işləri haqqında mütəmadi olaraq aidiyyəti kafedra və fakültəyə, eləcə də uyğun olaraq doktorantura və magistratura şöbələrinə hesabatlar tədqim edirlər. Hesabatlar müəyyən olunmuş formalarda və vaxtlarda müvafiq mütəxəssislərin iştirakı ilə müzakirə olunur.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

ATM-də son 5 ildə 12 doktorant və dissertant dissertasiya işi yekunlaşdıraraq müdafiə üçün təqdim etmişdir. Aidiyyəti kafedralarda dissertasiya işlərinin ilkin müzakirəsi keçirildikdən və müdafiəyə tövsiyə edildikdən sonra sənədlər digər elm və ali təhsil müəssisələrində fəaliyyət göstərən müvafiq Dissertasiya şuralarına təqdim edilmişdir. Dissertasiya şuralarına təqdim edilmiş işlərin böyük əksəriyyəti uğurla müdafiədən

keçirmiş və müvafiq qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasına təqdim edilmişdir.

## *4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

ATM-də, eləcə də onun struktur bölmələrində, o cümlədən fakültələrdə, kafedralarda, elmi-tədqiqat bölmələrində və elmi juranalların redaksiyalarında hazırlanan elmi-tədqiqat əsərlərində oxşarlıq və plagiat, başqa sözlə, digər mənbələrədən icazəsiz və qeyri-qanuni istifadə, özününküləşdirm hallarının aşkarlanması və qarşısının alınması məqsədilə Polşa mənşəli StrikePlagiarism.com anitiplagiat sistemindən istifadə olunur. Bu məqsədlə ATM ilə həmin sistemin mülkiyyətçisi olan Plagiat.pl MMC arasında müvafiq müqavilə bağlanmışdır. Universitetdə antiplagiat və akademik dürüstlük siyasəti müvafiq qaydalar tətbiq edilməklə aparılır. Bu məqsədlə plagiat meyarları və oxşarlıq əmsalları müəyyən olunmuşdur.

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

ATM-də antiplagiat sisteminin tətbiqi və istifadəsi üzrə müvafiq qaydalar işlənib hazırlanmışdır, elmi-pedaqoji fəaliyyətdə oxşarlıq və plagiat hallarının aşkarlanması və aradan qaldırılması məqsədilə tətbiq edilir. Burada magistr və doktorluq (fəlsəfə doktoru və elmlər doktoru) dissertasiyalarının,tədris-metodiki vəsaitlərin (dərsliklərin, dərs vəsaitlərinin və s.), eləcə də digər elmi əsərlərin (elmi jurnallarda çap üçün təqdim olunan məqalələrin, konfranslara təqdim olunan məruzə və tezislərin, elmi hesabatların və s.) və yoxlanılması prinsiplərini, qaydaları və tələbləri müəyyən edilmişdir. Antiplagiat sisteminin tətbiqinin əsas məqsədi qeyd olunan əsərlərdə başqa mənbələrə oxşarlığının yoxlanılmasını, onlardan götürülmüş fraqmentlərin aşkarlanmasını təşkil etməkdir. Antiplagiat sisteminin istifadəsi, yəni elmi əsərlərin yoxlanılması rektor tərəfindən müəyyən edilmiş struktur bölmə tərəfindən həyata keçirilir və yoxlamanın nəticəsi barədə müvafiq rəy (antiplagiat hesabatı) hazırlanır. Rəy müsbət olduqda, yəni oxşarlıq əmsalları müəyyən edilmiş normaları keçmədiyi təqdirdə verilmiş arayış antiplagiat hesabatı ilə birlikdə magistr, fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəyə buraxılması, məqalənin çap olunması və tezisin qəbul edilməsi üçün əsas kimi qəbul edilir.

Plagiat yoxlaması nəticəsində dissertasiyalarda, elmi məqalələrdə və tədris vəsaitlərində (dərsliklərdə, dərs vəsaitlərində, fənn proqramlarında, metodiki göstərişlərdə və monoqrafiyalar) aşkarlanmış oxşarlıq əmsalları müəyyən edilmiş normadan artıq olarsa,

antiplagiat sistemi üzrə Komissiya oxşarlıq səbəblərini araşdırır, istinad edilən mənbələri dəqiqləşdirir və plagiat halının olub-olmaması barədə qərar qəbul edir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

ATM-də antiplagiat sistemi elmi-tədqiqat işlərinin və tədris-metodiki əsərlərin originallığının yoxlanılması üçün tətbiq olunur. Belə ki, magistr və doktorluq dissertasiyalarının müdafiəyə buraxılması, monoqrafiyaların çap olunması üçün qərarın qəbul edilməsi zamanı antiplagiat sistemindən hesabat tələb edilir. Antiplagiat sistemindən keçməyən işlər müdafiəyə buraxılmır. ATM-də dərc olunan elmi jurnallarda çap olunan məqalələr də antiplagiat sistemindən keçirilir. Universitetdə hazırlanan və tədris prosesində istifadəsi nəzərdə tutulan dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, metodiki göstərişlərin çap olunması üçün müvafiq olaraq Elmi Şurada və ya Elmi Metodiki Şurada baxılması və onlara qrif verilməsi üçün antiplagiat sisteminin müsbət hesabatı əsas götürülür.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

ATM-də ictimai əsaslarla Himayəçilər Şurası fəaliyyət göstərir. Bu Şuraya Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini rəhbərlik edir. Şuraya nazirliyin və universitetin məsul şəxsləri, respublikanın dövlət və hökümət qurumlarının, eləcə də özəl şirkət nümayəndələri daxildir. Himayəçilər Şurası universitetin əsas məsələlərinin müzakirə və həlli ilə məşğul olur.

ATM-də əsas kollegial idarəetmə orqanı olan Elmi Şura, eləcə də elmi, tədris, tədris-metodiki (monoqrafiya, dərslik, dərs vəsaiti, metdiki vəsaitlərə, tədris proqramlarına qrif verilməsi) və digər məsələlərin kollegial müzakirəsi məqsədilə Elmi-metoodiki şura fəaliyyət göstərir. Elmi şuraya ATM-in rektoru, Elmi-metodiki şuraya isə tədris işləri üzrə prorektor rəhbərlik edir.

ATM-də Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Bu qurumların hər biri öz səlahiyyətləri, hüquq və vəzifələri çərçivəsində tələbələrin elmi, tədris, sosial fəaliyyətlərinin dəstəklənməsi və koordinasiya məsələləri ilə məşğul olur.

Bütün qeyd olunan qurumlar müəyyən sruktura malik olub, fəaliyyət planları əsasında öz vəzifələrini yerinə yetirirlər. Lakin bir çox hallarda bu qurumlar keçirdikləri iclasları və görüşləri rəsmiləşdirmir, protokol və hesabatlar tərtib etmirlər.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

ATM-də Himayəçilər Şurası, Elmi Şura, Elmi-metoodiki şura, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Bu orqanlardan yalnız Himayəçilər Şurasında işəgötürənlərin nümayəndələri təmsil olunurlar. Digər qurumlar ATM daxili olduğu üçün onların tərkibinə öz fəaliyyət istiqamətlərinə uyğun olaraq yalnız universitet daxilindən üzvlər daxil edilir. Tələbə Həmkarlar İttifaqı Komitəsinin, Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin sədrləri ATM-in Elmi Şurasında səsvermə hüququ olan üzv kimi iştirak edirlər. Adıçəkilən qurumların bütün fakültələr üzrə bölmələri də mövcuddur. Sahə baxışı zamanı göstərilən qurumlarla müsahibələr keçirilmiş və hər bir qurum sədri ilə görüşdə fəaliyyət sahələrinə uyğun mütəmadi tədbirlərin keçirildiyi müəyyən edilmişdir. Amma bununla belə bu qurumların müəyyən dövri fəaliyyəti barədə iş planı və görülmüş işlər barədə hər hansı bir qəbul olunmuş hesabat formasının olduğu müəyyən edilməmişdir.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

ATM-in Elmi Şurasının iclası təsdiq edilmiş fəaliyyət planına uyğun olaraq ayda 1 dəfə olmaqla təşkil olunur. Bu plan hər il üçün hazırlanır və Elmi Şuranın sonuncu iclasında növbəti il üçün təsdiq olunur. Elmi Şuranın iclaslarının nəticələri haqqında yekun hesabat və qərarlar yazılı şəkildə tərtib olunaraq rektor tərəfindən imzalanır. Elmi Şuranın bir çox qərarları rektorun əmri ilə rəsmiləşdirilir və elan olunur. Elmi Şuranın protokolu iclasda verilən hesabatlar, təqdimatlar daxil olmaqla tərtib edilir, ona görə də həcmi kifayət qədər böyük olur. Bu baxımdan protokolun təkmilləşdirilməsi tövsiyə olunur. Belə ki, hesabatların, təqdimatların və s. sənədlərin məzmununun protokolda əks edilməməsi, onların protokola əlavə edilməsi, beləliklə, protokolun həcminin kifayət qədər qısaldılmasına və dah oxunaqlı olmasına gətirib çıxarardı.

ATM-in Himayəçilər Şurasının iclasları sədr (Elm və təhsil nazirinin müavini) tərəfindən müəyyən edilən tarixlərdə ildə 2 dəfədən az olmayaraq keçirilir. Himayəçilər Şurası təsdiq edilmiş planı əsasında fəaliyyət göstərir. İclaslarda ATM-in əsas prinsipial, struktur məsələləri müzakirə olunur. Himayəçilər Şurasının iclasları protokollaşdırılır və Şuranın katibində (universitetnin məsul əməkdaşında) saxlanılır.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

ATM-in bütün idarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur və bu prosedurlara riayət olunur. ATM-in ali idarəetmə orqanı olan  Elmi Şuranın tərkibinin seçilməsi və təsdiq edilməsi qaydaları, onun hüquq və vəzifələri, fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli, 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə, BMU-nun Nizamnaməsinə və digər normativ hüquqi aktlar müvafiq olaraq həyata keçirilir. Elmi Şuranın tərkibi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmri ilə təsdiq edilir. Elmi Şuraya rektor rəhbərlik edir.

Sahə baxışı zamanı BMU-nun Elmi Şurasının katibi və Elmi katibi ilə görüşlərdə Elmi Şuranın 16.05.2023-cü il tarixli 05/2023 nömrəli qərarı ilə təsdiq edilmiş Elmi Şuranın əsasnaməsi və son il üçün gündəliyi Akkreditasiya Komissiyasının üzvlərinə təqdim olunmuşdur.

Öz növbəsində Himayəçilər Şurasında da məsələlərin müzakirəsi, qərarların qəbul edilməsi, reqlament və prosedurla bağlı digər məsələlər universitetin Nizamnaməsi və Şuranın əsasnaməsinə uyğun olaraq həyata keçirilir.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Şuranın iclaslarında göstərilən məsələlərin müzakirəsi, qərarların verilməsi və qərarlara daxil edilmiş məsələlərin icrasına və yerinə yetirilməsi vəziyyətinə nəzarət Daxili audit şöbəsi tərəfindən həyata keçirilir. Elmi Şurada qəbul edilmiş qərarlar ancaq Elmi Şura protokolu rektor tərəfindən imzalandıqdan sonra qüvvəyə minir, protokoldan çıxarışlar Elmi Şuranın katibi tərəfindən rəsmi qaydada aidiyyəti struktur bölmələr göndərilir. Zəruri hallarda Elmi Şurada qəbul edilən qərarlar məsələlərin icrasını təmin etmək məqsədi ilə əmrləşdirilir və icra üçün aidiyyatı strukturlara göndərilir.

BMU-da idarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar qanunvericiliyin tələblərinə uyğundur, gərarların əlçatanlığı elektron sistem üzərindən və bəzi hallarda birbaşa kommunikasiya vasitləri ilə aparılır. Bu qərarların ən mühümlərinin cəmiyyətə əlçatanlığı BMU-nun internet səhifəsi və kütləvi informasiya vasitələri ilə həyata keçirilir.

Himayəçilər Şurasının fəaliyyəti ATM-in Nizamnaməsinə və Şuranın Əsasnaməsinə uyğun olaraq həyata keçirilir. Bütün iclaslar protokollaşdırılır və gündəlikdə olan məsələlərlə bağlı qərarlar qəbul edilir. Protokol tərtib edildikdən sonra bütün üzvlər tərəfindən imzalanır, onun bir nüsxəsi hər bir üzvə təqdim edilir.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

İdarəetmə orqanları arasında qarşlılıqlı funksional əlaqələr və daxili kommunikasiya mövcud qaydalara uyğun olaraq aparılır. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiyalar əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- ATM-in Elmi Şurası SİP-in plan layihəsini müzakirə etdikdən sonra Himayəçilər Şurasının təsdiqinə təqdim edir;
- ATM-in müvafiq səlahiyyətli strukturları tərəfindən illik büdcə layihəsi hazırlanır və ilkin müzakirədən sonra təsdiq üçün Himayəçilər Şurasına təqdim edilir. Himayəçilər Şurası maliyyə vəziyyətini nəzərə alaraq büdcə layihəsinə əlavə və düzəlişlər etməklə və ya dəyişiklik etmədən təsdiq edərək icrasına nəzarəti həyata keçirir;
- ATM-in Daxili audit şöbəsi daxili monitoronq fəaliyyətlərini həyata keçirir və mütəmadi olaraq Himayəçilər Şurasına hesabatlar və təkliflər verir;
- Elmi Şuranın sədri və ATM-in cari fəaliyyəti ilə bağlı Himayəçilər Şurasına hesabatlar təqdim edir. Himayəçilər Şurası hesabatları dinləyir, çatışmazlıqların aradan qaldırılması ilə bağlı məsələlərin həlli istiqamətində tədbirlər planı hazırlayır və qərarlar qəbul edir;
- Cari fəaliyyətin həyata keçirilməsi zamanı ortaya çıxan əhəmiyyətli problemlərin həlli istiqamətində də Elmi Şura sədri (rektor) və Himayəçilər Şurasının sədri qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyətlərini həyata keçirilər.

Daxili kommunikasiyada bəzən müəyyən məsələlərdə (məsələn, qəbul edilmiş qərarların aidiyyəti struktur bölmələrə çatdırılması, SİP-in struktur bölmlərə paylanması və s.) dəqiq mexanizmin olmaması müşahidə edilmişdir.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

ATM-də idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən aparılır.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

ATM-də idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi Daxili audit şöbəsi tərəfindən həyata keçirilir. Şöbənin fəaliyyətinə isə Himayəçilər Şurası nəzarət edir. Daxili audit şöbəsi öz Əsasnaməsi ilə verilən səlahiyyətlər çərçivəsində ATM-in idarəetmə orqanlarında və struktur bölmələrində daxili nəzarət tədbirlərini həyata keçirilir. BMU-nun ali idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi Himayəçilər Şurasının və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin səlahiyyətlərinə aid olduğundan həmin orqanlar tərəfindən yerinə yetirilir.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasının üzvləri Daxili audit şöbəsinin fəaliyyəti ilə tanışlıq olmuşdur. Görüş zamanı şöbənin fəaliyyəti barədə şifahi şəkildə məlumat verilmiş, lakin hər hansı hesabat və ya digər sənəd təqdim edilməmişdir

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

ATM-in əməkdaşlarının fəaliyyətlərini dəyərləndirmək, eyni zamanda idarəetmə strukturlarının fəaliyyətlərinin qiymətləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə Keyfiyyətin təminatı şöbəsi tərəfindən mütəmadi olaraq “Əməkdaşların məmnuniyyəti anketi” üzrə sorğu həyata keçirilir. 2022/2023-cü tədris ili üçün Keyfiyyətin təminatı şöbəsinin əməkdaşları beynəlxalq təcrübələri, üsulları və prinsipləri araşdıraraq qərarvermə, nəticəyönümlülük və ATM-in digər vacib konsepsiyalarını əhatə edən suallar toplusu hazırlamış və sorğu keçirmişdir. Suallar öncədən keyfiyyət komissiyası tərəfindən iclasda müzakirə olunaraq təsdiq edildikdən sonra BMU-nun EMS sisteminin müvafiq moduluna yerləşdirilmişdir. ATM tərəfindən təqdim olunan 186 əməkdaşın iştirak etdiyi həmin sorğuların nəticələrinə əsasən respondentlərin məmnuniyyət göstəricisinin ortalama 69.81% olduğu məlum olmuşdur.

## *5.2 İnsan resurslarının idarə edilməsi*

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

ATM-də işə qəbul Azərbaycan Respublikasının qanunvericiliyi əsasında həyata keçirilir. Heç bir daxili xüsusi işə qəbul proseduru yoxdur. CV və ərizə müraciətləri çox az sayda daxil olur, daxil olan CV-lərin əksəriyyəti inzibati işçilərə aiddir. Professor-müəllim vəzifələrinə namizədlər, bir qayda olaraq, kafedralar və ya dekanlıqlar tərəfindən təqdim olunur. Müəllim vəzifələrinə namizədlərinin CV-ləri dekanlıq və kafedra tərəfindən nəzərdən keçirilir və onların işə qəbul üçün təsdiqlənməsi dekanlıq yaxud kafedra tərəfindən həll edilir. İnsan resursları şöbəsinin işi yalnız sənədlərin rəsmiləşdirilməsi ilə məhdudlaşdırılır.

**5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

BMU-nun akademik və inzibati heyəti ilə bağlı lazımi tədbirlər və layihələr universitetin maliyyə resurslarına proporsional şəkildə həyata keçirilir. Akademik heyət arasında ştatda olanların say tərkibi arzu olunan səviyyədə deyildir. Kafedralarda çox sayda müəllimlər əvəzçiliklə və ya saat hesabı ödənilməklə tədris prosesinə cəlb olunur. Bu da

akademik heyətin işə qəbulunun strateji inkişaf proqramına tam uyğun olmadığını göstərir.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

ATM-də işçilərin əmək haqqı müvafiq qanunvericiliyə əsasən ödənilir. Universitetdə professor-müəllim heyəti üçün differensial əmək haqqı sistemi mövcud deyil. İşçilərə səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq təsdiq olunmuş ştat cədvəlinə uyğun olaraq əmək haqqı sistemi tətbiq edilir. Yalnız inzibati işçilər (şöbə və mərkəz müdirləri) üçün əmək haqqının təyin edilməsi zamanı differensial yanaşma həyata keçirilir. Akademik heyətə peşəkarlıq səviyyəsinə görə əlavə ödənişlər verilmir, onlara elmi dərəcələrinə və elmi adlarına görə əlavə ödənişlər həyata keçirilir. Bu ödənişlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğinin müəyyən edilməsi” haqqında Qərarına uyğun olaraq aparılır. Ödənişlərin məbləği qeyd olunan Qərara uyğun olaraq standart məbləğdə müəyyən olunur və əməkdaş işə qəbul edilərkən əmrləşdirilir. Elmi Şuranın qərarı ilə ingilis dilində tədris aparan müəllimlərin əmək haqqına əlavə ödəniş forması müəyyən edilmişdir.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasınını üzvlərinə işçilərin motivasiyası və mükafatlandırılması sistemi ilə bağlı heç bir daxili siyasət sənədi təqdim olunmamışdır. Bəzi rəsmi dövlət və milli bayram günləri ilə əlaqədar universitet işçilərinin mükafatlandırılması, bir qayda olaraq, sistemli şəkildə həyata keçirilir. Universitetin professor-müəllim heyətinin motivasiyasını yüksəltmək məqsədilə indeksli bazalara daxil olan impakt faktorlu jurnallarda məqalələrinin çap olunduğu təqdirdə onlara bir dəfəlik mükafat verilir. Mükafatın məbləği məqalənin çap oluduğu mənbənin kateqoriyasından və impakt faktorundan asılı olur.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-in daxili Personal Məlumat Sistemində keçirilən sorğu cavablarından qiymətləndirmə məqsədilə rəhbərlik tərəfindən istifadə olunur.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

BMU-İNHA beynəlxalq (Koreya) ikili diplom proqramı icra edilməkdədir. Eyni zamanda BMU əməkdaşlarının və müəllimlərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin

yüksəldilməsi məqsədilə xarici ölkələrdə təcrübə mübadiləsində iştirakı təmin olunur. Müəllimlərin seçilməsi beynəlxalq proqram koordinatorlarının təyin etdiyi meyarlara əsasən aparılır, universitet seçim prosesində iştirak etmir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

İşçilər ölkəmizin sosial və mədəni tədbirlərində iştirak edirlər. ATM-də müxtəlif dövlət bayramları, əlamətdar hadisələrlə (Zəfər günü, Anım  günü və s.) və tarixi günlərlə bağlı tədbirlər, görüşlər keçirilir. Bu tədbirlər ATM-in müxtəlif sturktur bölmələri tərəfindən təşkil olunur. Sahə baxışı zamanı ATM-də müxtəlif sturktur bölmələrlə görüşlər zamanı bir çox tədbirlərin foto və videomateriallarla arxivləşdirilməsi müəyyən edilmişdir. Bu məlumat Universitetin internet səhifəsində və broşuralarda öz əksini tapır.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətin işə qəbulu prosesi qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Vakant yerlərə qəbul üçün müraciət edən namizədlər müvafiq struktur bölmələri və rəhbərlik tərəfindən baxıldıqdan sonra məqsədəmüvafiq hesab edildikdən sonra rəsmiləşdirilir.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi sisteminin mövcudluğunu sübut edən heç bir sənəd təqdim edilməmişdir. Müvafiq rəsmi sənəd olmasa da, əmək haqlarının təyin olunması zamanı (xüsusən struktur bölmə rəhbərləri üçün) differensasiya mexanizmi tətbiq olunur.

BMU-nun İntizam Komissiyası və aidiyyət istruktur bölmələrin tabe olduğu rəhbər şəxslər tərəfindən mütəmadi olaraq qeyri-akademik heyətin fəaliyyəti ilə bağlı təhlil işlərinin aparılması və işçilərin fəaliyyətinin qiymətləndirilməsi hər hansı bir müəyyənedici sənəd və hesabat formaları ilə müşayiət olunmur. Sahə baxışı zamanı bütün bu fəaliyyəti təsdiq edən yazılı sənədlər müəyyən edilməmişdir.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

Əmək münasibətlərinin idarə edilməsi qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Əməkdaşlar işə qəbul edilərkən müvafiq sənədləşmələr aparılır, işçi ilə müqavilə bağlanılır və əmrləşdirilir.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

#### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

BMU-nun Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 iyun tarixli 223 nömrəli Qərarı ilə təsdiq Nizamnaməsində maliyyə məsələləri aşağıdakı maddələrdə əksini tapmışdır:

- “5.2. Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır”;
- “5.8. Universitet “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir”;
- “5.9. Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir”;
- “5.10. Universitet bilavasitə mənfəət əldə etmək məqsədi güdmür”.

ATM-in maliyyə resurslarının mənbələrinin təşkili nizamnaməyə uyğun həyata keçirilir. Belə ki, ödənişli təhsil üzrə qəbul planı verilərkən planda hər ixtisas üzrə təhsil haqqı müəyyən olunur. Akademik borc üzrə ödənişlərin məbləği isə hər bir kredit üzrə təhsil haqqı, illik təhsil haqqı semestr üzrə nəzərdə tutulan kreditə bölünməklə hesablanır.

Dövlət sifarişi ilə təhsil alan tələbələrin təhsil haqqlarının məbləği Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsilin müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” 25 iyun 2010-cu il tarixli 120 nömrəli Qərarına əsasən hər bir təhsilalana düşən illik təhsil xərcləri nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Dövlət sifarişi əsasında təhsil alanların təhsil haqları ATM-ə dövlət büdcəsindən ödənilir. Həmçinin aşağıda qeyd olunmuş qanunvericilik aktların əsasən müvafiq kateqoriyalara daxil tələbələr də təhsil haqlarının ödənilməsindən azad edilir və onların təhsil haqlarının ödənilməsi də dövlət büdcəsi hesabına həyata keçirilir:

I. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” 22 iyun 1999-cu il tarixli 693-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (maddə 5) və “Təhsil haqqında ” 19 iyun 2009-cu il tarixli 833-IIIQ Azərbaycan Respublikasının Qanunu;

II. “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamı;

III. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 18 mart 2014-cü il tarixli Sərəncamı;

IV. “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 3 may 2019-cu il tarixli Sərəncamı.

Bununla yanaşı, ATM müxtəlif qrant və layihələrdən daxil olan maliyyə vəsaitləri həmin layihə üzrə imzalanmış müqavilələrə, qrant verən təşkilatın tələb və qaydalarına uyğun olaraq nizamlanır.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

ATM-də maliyyə resursları, bir qayda olaraq, illik büdcə smetası üzrə planlaşdırılır və həyata keçirilir. Belə ki, hər il üçün büdcə tərtib olunarkən daxil olan bütün illik maliyyə resurslarının mənbələri nəzərə alınır. ATM-də hər təqvim ili üçün maliyyə resurslarının cəlb edilməsi və istifadəsi ilə büdcə smetası tərtib olunur, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra icra olunur. Gəlir və xərclərin icrasına cari nəzarət isə ATM-in Himayəçilər Şurasının tabeçiliyində olan Daxili audit şöbəsi tərəfindən həyata keçirilir.

Maliyyə resurslarının planlaşdırılması zamanı aşağıda qeyd olunan əsas məqamlar (əhəmiyyətli məsələlər) nəzərə alınmışdır:

- müvafiq dövrlərdə gəlirlərin proqnozlaşdırılması;
- müxtəlif gəlir mənbələri üzrə daxilolmaların gəlirlərin tərkibində xüsusi çəkisinin təhlili;
- maliyyə dayanaqlılığının təmin edilməsi.

BMU-da orta müddətli dövr üçün (3 və 5 illik) smetalar hazırlanmır və maliyyə resurslarının orta müddətli dövr üçün planlaşdırılması həyata keçirilmir.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

ATM-in maliyyə resursları SİP-in müvafiq müddəaları əsas götürülməklə planlaşdırılır. Maliyyə resurslarının planlaşdırılması zamanı nəzərə alınan əsas prinsiplər aşağıdakılardır:

- Maliyyə resurslarının SİP-in müvafiq müddəalarına uyğunluğunun təmin edilməsi;
- Gəlir və xərcləri proqnozlaşdırmaqla büdcənin tərtib edilməsi;
- Gəlir və xərclərin icrası, maliyyə və mühasibatlıq hesabatlarının tərtib edilməsi;

- Müvafiq hesabatlarda qeyd edilmiş göstəricilərin və maliyyə resurslarından istifadənin təhlili;
- Maliyyə resurslarına nəzarətin və monitorinqin təşkil edilməsi.

2020/2023-cü illər üzrə SİP-in və dövri fəaliyyət planının hazırlanmasında, hədəflərinin müəyyən edilməsində maliyyə planlamasının nəzərə alınması müəyyən edilməsə də hər fəaliyyət ilinin büdcə smetasında təmin edilir, gəlir və xərclərin icrasına nəzarət Daxili audit şöbəsi tərəfindən həyata keçirilir.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ATM-in maliyyə resursları əsasən təhsil haqqından formalaşır. Bu baxımdan BMU-da təhsilin müasir tələblər səviyyəsində, şəffaf və keyfiyyətli şəkildə təşkili tələbələrin sayının artmasına, bu da öz növbəsində daxil olan maliyyə resurslarının çoxalmasına gətirib çıxara bilər.

Eyni zamanda ATM müxtəlif qrant layihələrində iştirak edir ki, həmin layihələrdən daxil olan maliyyə vəsaitləri əməkdaşlara əlavə əməkhaqqı, eləcə də maddi-texniki tədris bazanın gücləndirilməsi məqsədilə istifadə olunur.

ATM-də elmi-tədqiqatlardan, onların nəticələrinin sənayedə tətbiqi, maddi-texniki bazanın imkanlarının reallaşdırılması yolu ilə əlavə gəlirlərin əldə edilməsi istiqamətində işlər aparılmamışdır. Bu baxımdan əlavə maliyyə resurslarının əldə edilməsi üçün ATM-in maddi-texniki bazasından, xüsusən də Texnoparkın infrastrukturundan, eləcə də kafedrlarda qrant layhiələrində iştirak, sənaye əhəmiyyətli elmi-tədqiqat işlərinin aparılması və tətbiqi imkanlarından istifadə edilməsi tövsiyə olunur.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ATM-in müxtəlif mənbələrdən daxil olan maliyyə resursları illik büdcə smetasında öz əksini tapır. Təsdiq olunmuş smetaya uyğun olaraq, onların il ərzində icrası şəffaf şəkildə təmin edilir. Əldə olunan və icra edilən maliyyə resurslarına nəzarət ATM-in Himayçilər Şurası və Daxili audit şöbəsi tərəfindən həyata keçirilir. Bununla bağlı müvafiq maliyyə hesabatları hazırlanaraq, aidiyyəti üzrə təqdim olunur.

**Cədvəl 5.1.**

**ATM-in maliyyə təminatı – gəlirlər**

| № | Təhsil müəssisəsinin maliyyə təminatı | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| 1 | Büdcədən ayrılan vəsait | 1789784.50 | 2471961.00 | 2733660.00 | 3476570.00 | 3437774.00 |
| 2 | Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr,magistr,doktorantura) | 3035632.50 | 3829827.00 | 4981427.00 | 5769139.00 | 6424805.00 |
| 3 | Büdcədənkənar vəsaitlər | 5204123.95 | 4896166.71 | 4201201.67 | 4425701.67 | 3929021.77 |
| 6 | Qrant və layihələrdən əldə olunan gəlirlər | 139870.11 | 124670.00 | 268618.63 | 860015.98 | 255582.76 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7 | ATM daxilində elan edilmiş qrant və layihələr | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 8 | Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersialaşdırılması və s.) | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 12 | Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 19 | Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmalar ümumi daxilolmalara nisbəti | 52.55 | 44.34 | 36.68 | 36.37 | 29.79 |
| 20 | **Ümumi gəlir** | 10169411.06 | 11322624.71 | 12184907.30 | 14531426.65 | 14047183.53 |
| 21 | **Müəssisənin ümumi büdcəsi** | 12885443.63 | 14802373.50 | 16515346.98 | 22074729.47 | 25931092.64 |

**Cədvəl 5.2.**

**BMU-da 01.01.2023-cü il tarixə gəlir və xərclərin icrası barədə hesabat**

**Bakı Mühəndislik Universiteti**
(ali təhsil müəssisəsinin adı)

**01.01.2023-cü il tarixə gəlir və xərclərin icrası barədə**

**HESABAT**

manatla

| Xərc istiqamətlərinin adı | 2022-ci ilə təsdiq olunmuş smeta | Yanvar-dekabr ayları üzrə gəlir və xərc | Smeta qalığı |
|---|---|---|---|
| İlin əvvəlinə qalıq | 5,352,571.28 | 5,352,571.28 | |
| İl ərzində daxilolmalar | 22,936,686.67 | 20,678,521.36 | 2,358,165.31 |
| o cümlədən: | | | |
| Dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə | 10,946,061.67 | 9862579 | 1,083,482.67 |
| "Sabah" qruplarının saxlanması üzrə | 70,000.00 | 43738 | 26,262.00 |
| "Gələcəyin müəllimi" təqaüdü üzrə | 48,000.00 | 36696 | 11,304.00 |
| Ödənişli kadr hazırlığı üzrə | 3,743,975.00 | 3826869.17 | 82894.17 |
| İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi üzrə | 74584 | 74584 | 0.00 |
| Digər daxilolmalar (elmi təd.müq.,birgə fəaliyyət) | 8,054,066.00 | 6,734,055.19 | 1,320,010.81 |
| **Cəmi xərclər:** | 28,289,257.95 | 17,525,106.38 | 10,764,151.57 |
| o cümlədən: | | | |
| Ştatda olan işçilərin əməkhaqqı | 6,840,000.00 | 6760041.78 | 79,958.22 |
| Ştatdankənar işçilərin əməkhaqqı (ştatdankənar şəxslərə ödənilən haqq) | 270,000.00 | 200711.41 | 69,288.59 |
| Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri | 293,000.00 | 286216.37 | 6,783.63 |
| Məcburi dövlət sosial sığorta haqları | 1,628,660.00 | 1560861.58 | 67,798.42 |
| İcbari dövlət sığortası | 20,827.60 | 17475.52 | 3,352.08 |
| İcbari tibbi sığorta | 148,060.00 | 140847.58 | 7,212.42 |
| İşsizlikdən sığorta | 37,015.00 | 35281.02 | 1,733.98 |
| Dəftərxana və təsərrüfat xərcləri | 49,989.00 | 49255.05 | 733.95 |
| Mətbəə məhsulları üzrə xərclər | 4,990.00 | 4587 | 403.00 |
| Yanacaq və sürtkü materiallarının alınması | 35,000.00 | 31800.2 | 3,199.80 |
| Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması | 4,900.00 | 1651.24 | 3,248.76 |
| Yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin alınması | 4,990.00 | 4904 | 86.00 |
| Digər malların alınması | 49,985.00 | 19546.83 | 30,438.17 |
| Tikili və avadanlıqların cari təmir xərcləri | 4,990.00 | 4987.6 | 2.40 |
| Nəqliyyat vasitələrinin cari təmir xərcləri | 18,000.00 | 11050.3 | 6,949.70 |
| Sair torpaq, tikili və avadanlıqların cari təmir xərcləri | 4,985.00 | 4812 | 173.00 |
| Elektrik enerjisi haqqının ödənilməsi | 156,000.00 | 104034.7 | 51,965.30 |
| Qaz haqqının ödənilməsi | 132,000.00 | 116517.25 | 15,482.75 |
| Su haqqının ödənilməsi | 40,000.00 | 36000.01 | 3,999.99 |
| Kanalizasiya xidmətləri haqqının ödənilməsi | 40,000.00 | 36000.01 | 3,999.99 |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 3,000.00 | 0 | 3,000.00 |
| Digər kommunal xidmətlərin haqqının ödənilməsi | 13,700.00 | 10000 | 3,700.00 |
| Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | 10,000.00 | 8107.22 | 1,892.78 |
| Poçt xidmətləri haqqının ödənilməsi | 3,500.00 | 2273.29 | 1,226.71 |
| İnternet xidməti haqqının ödənilməsi | 35,000.00 | 30312.84 | 4,687.16 |
| Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi | 73,500.00 | 17997.36 | 55,502.64 |
| Mühafizə xərcləri | 277,380.00 | 277376.4 | 3.60 |
| Əsas fondlara xidmət haqqı xərcləri | 4,974.00 | 3678 | 1,296.00 |
| Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | 4,980.00 | 4359.4 | 620.60 |
| Ölkədaxili ezamiyyətlər | 5,000.00 | 84 | 4,916.00 |
| Xarici ezamiyyətlər | 30,000.00 | 16040.42 | 13,959.58 |
| Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi | 21,000.00 | 18849.08 | 2,150.92 |
| Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi | 4,900.00 | 0 | 4,900.00 |
| Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər | 5,492.00 | 4982.74 | 509.26 |
| İstehlakyönlü müxtəlif xidmətlər | 211,000.00 | 15003.65 | 195,996.35 |
| Abadlaşdırma xidmətləri haqqının ödənilməsi | 5,990.00 | 4972 | 1,018.00 |

| Xərc istiqamətlərinin adı | 2022-ci ilə təsdiq olunmuş smeta | Yanvar-dekabr ayları üzrə gəlir və xərc | Smeta qalığı |
|---|---|---|---|
| Bank xidmətləri haqqının ödənilməsi | 62,000.00 | 50322.83 | 11,677.17 |
| Plastik kartların dəyəri və digər ödənişlər | 40,000.00 | 3006.55 | 36,993.45 |
| Sair xərclər | 12,051,500.35 | 3316548.88 | 8,734,951.47 |
| Beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər | 10,000.00 | 0 | 10,000.00 |
| Cari məqsədlər üçün verilən qrantlar və digər ödənişlər | 510,000.00 | 301306.5 | 208,693.50 |
| Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | 28,000.00 | 20344.14 | 7,655.86 |
| Dəfn üçün müavinət | 31,000.00 | 30838.44 | 161.56 |
| Tələbələrə verilən təqaüdlər | 4,320,000.00 | 3478600.82 | 841,399.18 |
| Maşın və avadanlıqlar | 697,990.00 | 451348.17 | 246,641.83 |
| Avtomobil nəqliyyatı vasitələri | 36,000.00 | 27500 | 8,500.00 |
| Sair torpaq, tikili və avadanlıqlar | 4,970.00 | 4672.2 | 297.80 |
| Qeyri-maddi aktivlər | 4990 | 0 | 4,990.00 |

Maliyyə hesabatının ATM-in veb səhifəsində əlçatanlığı və şəffaflığı təmin edilməmişdir. ATM-in təqdim etdiyi maliyyə təminatı sənədində (meyar 5.31, cədvəl 5.1) gəlirlərin təsnifatı ilə ATM-in il üzrə "gəlir və xərclərin icrası barədə hesabat"ının gəlirlər bölməsinin təsnifatı ilə uyğunluğu aşkar görünmür.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

BMU-da maliyyə resurslarının ATM-in tədris, elmi-tədqiqat fəaləyyətləri, eləcə də maddi-texniki bazanın gücləndirilməsi məqsədilə Nizamnaməyə uyğun olaraq xərclənməsi həyata keçirilmişdir. Belə ki, büdclə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən istifadə edilməsi (3.1.18), illik maliyyə hesabatların hazırlanması və təsdiq edilməsi (4.2.4 və 4.10.4), mühasibat uçotunun aparılması və s. maliyyə məsələləri ATM-in Nizamnaməsinə uyğun şəkildə təmin edilir.

**Cədvəl 5.3.**

**ATM-in elm və təhsil sahəsində maliyyə təminatı – xərclər**

| № | **Təhsil müəssisəsinin maliyyə təminatı** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|
| 1 | Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 2 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait | 23792.01 | 14862.20 | 7440.00 | 93510.00 | 74760.00 |
| 3 | Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsait | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 4 | Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait | 1370.00 | 163.20 | 680.00 | 221.00 | 1013.20 |
| 5 | Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait | 240.00 | 0.00 | 0.00 | 0.00 | 12484.80 |
| 6 | Beynəlmilləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 0.00 | 0.00 | 451175.00 | 2561523.75 | 6531337.83 |
| 7 | **Ümumi xərclər** | 9419193.03 | 10823108.82 | 11533567.91 | 16722158.19 | 17525106.38 |

Cədvəl 5.3-ə daxil edilməsə də, ATM-in il üzrə gəlir və xərcləri barədə hesabatında məcburi dövlət sosial-sığorta haqları, icbari dövlət sığortası, icbari tibbi sığorta, işsizlikdən sığorta, əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət, cari məqsədlər üçün verilən qrantlar və s. xərclər öz əksini tapmışdır.

ATM-in Nizamnaməsində qeyd edilmişdir ki, ATM ""Elm haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən fundamental, nəzəri- metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan publik hüquqi şəxsdir" və onun fəaliyyət istiqamətlərinə "2.1.2. magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi", 2.1.3. doktorantura təhsil səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi" və "2.1.5. elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatların aparılması" daxildir.

Nizamnamənin 5.8-ci bəndində qeyd edildiyi kimi "Universitet "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir". Lakin, yuxarıda qeyd etdiyimiz 5.13-cü bənddə isə əldə edilmiş vəsaitin birbaşa olaraq elmi-tədqiqat üçün sərf edilməsi məqsədi qeyd edilməmişdir və müvafiq olaraq ATM-in Akkreditasiya Komissiyasına Özünütəhlill Hesabatı ilə birlikdə təqdim etdiyi maliyyə təminatı sənədində elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan (xərclənən) vəsait barədə məlumat verilməmişdir. ATM-in illər üzrə gəlir və xərclərinin hesabatlarına sahə baxışı zamanı ümumi xarakter daşıyan "Elmi-tədqiqat xidmətləri, təcrübələr və müayinələrin haqqının ödənilməsi" üzrə aşağıdakı məlumatlar aşkarlanmışdır:

- 01.01.2021-ci il hesabatı: 2020-ci ildə təsdiq edilmiş smetada 4900 AZN nəzərdə tutulmuş, 1760 AZN xərclənmişdir;
- 01.01.2022-ci il hesabatı: 2021-ci ildə təsdiq edilmiş smetada 4900 AZN nəzərdə tutulsa da xərclənməmiş və smeta qalığı 4900 AZN təşkil etmişdir;
- 01.01.2023-ci il hesabatı: 2022-ci ildə təsdiq edilmiş smetada 4900 AZN nəzərdə tutulsa da xərclənməmiş və smeta qalığı 4900 AZN təşkil etmişdir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru ATM-in Nizamnaməsində öz əksini tapmamışdır. ATM-in illik büdcəsini və onun icrasının nəticələrini Himayəçilər Şurası təsdiq edilir. Sahə baxışı zamanı ATM tərəfindən verilmiş məlumata əsasən, ATM-in gəlir və xərclər smetası hər növbəti təqvim ili üçün qüvvədə olan Nizamnaməyə uyğun olaraq tərtib edilir, cari ilin dekabr ayında aidiyyəti struktur bölmələri ilə müzakirə edilərək, növbəti ilin yanvar ayında yekun smeta sənədi razılaşdırılmaq üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim olunur. Büdcə smetası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra təsdiq edilir, təsdiq edilmiş smeta sənədinin bir nüsxəsi müvafiq banka təqdim olunur.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

ATM-in hər təqvim ili üçün büdcəsi həmin il ərzində xərclərin istiqamətləri SİP-ə uyğun şəkildə müəyyən olunmuşdur. Mövcud qanunvericiliyə uyğun olaraq, maliyyə resurslarının təyinatı üzrə istifadəsi xərclərin aid olduqları iqtisadi təsnifat istiqamətləri müəyyənləşdirildikdən sonra icra edilməklə həyata keçirilmişdir. İl ərzində sərf edilmiş vəsaitlərin təyinatı üzrə istifadə olunmasına cari nəzarət müvafiq hesabatlar formasında təşkil olunur və ümumi nəzarəti Daxili audit şöbəsi tərəfindən həyata keçirilir. Tərtib edilmiş maliyyə və mühasibatlıq hesabatları aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanına təqdim edilərək təsdiqlənməsi həyata keçirilir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də malların alınması, işllərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları müvafiq qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. BMU-da satınalma proseduru əsasən iki yolla aparılır: açıq tender keçirməklə və kotirovka yolu ilə. Satınalma prosedurları rektorun əmri ilə yaradılan Tender komissiyası tərəfindən ATM-in Satınalmaların təşkili və təchizat şöbəsinin təşkilatçılığı ilə təşkil olunur. Belə ki, tender elanının verilməsi məqsədilə ilkin olaraq ən azı 3 şirkətə qiymət təklifi üçün sorğu göndərilir. Alınan qiymətlər əsasında işlərin, xidmətlərin və malların ehtimal olunan orta bazar dəyəri müəyyən olıunur, sonra isə tender komissiyası tərəfindən açıq tender protokolu tərtib edilir, bütün komissiya üzvləri tərəfindən imzalandıqdan sonar tenderin şərtlər toplusu hazırlanır və https://etender.gov.az elektron portalında elan verilir.

Zəruri satınalma prosedurları yerinə yetirildikdən sonra tenderdə iştirak etmiş şirkətlərin təklifləri tender komissiyası tərəfindən qiymətləndirilir və şərtlər toplusunda qeyd olunan tələblərə uyğun olan şirkət qalib seçilir. Açıq tender prosedurunun yekun protokolu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarət Xidmətinə göndərilir. Həmin xidmət tərəfindən qanunvericiliklə müəyyən olunmuş vaxtda məsələyə baxılır və Azərbaycan Respublikası Dövlət Satınalmaları haqqında qanuna əsasən müqavilə baglanması ilə ATM-ə bağlı məktub göndərilir. Qalib seçilən təşkilat ilə müqavilə bağlanıldıqdan sonra https://etender.gov.az portalına yerləşdirilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibət əməliyyatları qanunvericiliyin tələblərinə uyğun şəkildə icra olunur, sonradan müvafiq qaydada hesabatlar hazırlanır və müvafiq icra strukturlarına təqdim olunur.

**5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

ATM-də maliyyə və mühasibət hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilir, elektron formada aidiyyatı qurumlara – vergi xidmətinə, statistika idarəsinə, müvafik nazirliklərə və s. təqdim olunur.

Dövri hesabatlar Nizamnamənin aşağıdakı bəndlərinə uyğun olaraq tərtib edildikdən sonra aidiyyəti orqanlara təqdim edilir.

- "7.1. Universitet "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir";
- "7.2. Universitet "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir".

**5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

ATM-in Özünütəhlil Hesabatına əlavə olaraq təqdim edilən sənədlərdə maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun olaraq, tələb olunan qaydada və müəyyən edilmiş müddətlərdə hazırlanması və aidiyyatı orqanlara aidiyyəti orqanlara təqdim edilməsi əksini tapmışdır. Lakin, bir neçə məqamı nəzərə çatdırmaq məqsədəuyğundur:

- ATM-in Akkreditasiya Komissiyasına təqdim etdiyi maliyyə təminatı sənədi imzasız və möhürsüzdür;
- Meyar 5.3.5-də qeyd edildiyi kimi ATM-in təqdim etdiyi maliyyə təminatı sənədində (meyar 5.3.1, cədvəl 5.1) gəlirlərin təsnifatı ilə ATM-in il üzrə "gəlir və xərclərin icrası barədə hesabat"ının gəlirlər bölməsinin təsnifatı uyğunsuzdur;
- Cədvəl 5.1-də verilmiş maliyyə təminatı göstəricilərindən yalnız "Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr,magistr,doktorantura)" - 6424805 AZN ilə ATM-in gəlir və xərclərin icrası barədə hesabatındakı "Dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə" - 9862579 AZN istiqamətləri eynilik təşkil etmiş, lakin məbləğ uyğunsuzluğu müşahidə olunmuşur. Büdcədən ayrılan 3437774 AZN vəsaitin təhsil xərci olduğu nəzərə alındıqdan sonra bu göstərici üzrə təqdim edilən məlumat aydın olmuşdur. Cədvəl 5.1-dəki təsnifat ilə ATM-in gəlir və xərclərin icrası barədə hesabatındakı təsnifat fərqliliyi digər göstəricilər üzrə məbləğ uyğunluğunu müəyyən etməyi çətinləşdirmişdir.

**5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Müvafiq nəzarət Daxili audit şöbəsi tərəfindən həyata keçirilir və Himayəçilər Şurasının iclaslarında müazkirə olunur. ATM-in Nizamnaməsinə əsasən “6.7. Universitetdə daxili audit bölməsinin fəaliyyətinə Himayəçilər Şurası nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir”.

Sahə baxışı zamanı və ATM-in veb sayt;nda audit komitəsi və üzvləri barədə məlumat əldə edilməmişdir.

https://beu.edu.az/az/page/audit-komitesi-20

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

ATM-in Nizamnaməsinə əsasən “6.6. Universitetin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün Himayəçilər Şurası kənar auditor təyin edir və onun audit hesabatını qəbul edir”. Lakin, ATM-in Özünütəhsil Hesabatının bu hesabatına cavabında kənar audit barədə məlumat verilməmiş, 5.3.13-də verilmiş cümlələr təkrarlanmışdır. Eyni zamanda sahə baxışı zamanı kənar audit barədə məlumat əldə edilməmişdir.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

BMU-da maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə müəyyən işlər aparılır. Belə ki, maliyyə resurslarının artırılması, professor-müəllim heyətinin əmək haqqının yüksəldilməsi və ATM-in maddi-texniki bazanın təkmilləşdirilməsi məqsədilə tələbə sayının artırılması əsas fəaliyyət istiqaməti kimi önə çəkilmişdir

Lakin ATM-in maddi-texniki bazasının, xüsusən Texnoparkın imkanlarından istifadə etməklə, habelə elmi-tədqiqat işlərinin nəticələrini sənayedə tətbiqi, qrant layihələrində iştirak yolu ilə əlavə maliyyə resurslarının əldə olunması məsələsi diqqətdən kənarda qalmışdır. BMU-nun bu imkanlarından istifadə etməklə əlavə maliyyə resurslarının əldə olunması tövsiyə olunur.

## *5.4 İnformasiya idarəetmə sistemi*

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATM-də dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının idarə olunmasını təmin edən elektron məlumat sistemi fəaliyyət göstərir. EMS-in mülkiyyəti BMU-ya məxsusdur. Həmçinin EMS bazası

çərçivəsində yaradılmış proqram kodlaşması və proqram təminatının bütün hüquqları ATM-ə aiddir. EMS “AZUMİS” adı altında Ədliyyə Nazirliyində dövlət ekspertizasından keçmişdir. EMS-in ATM-in Elmi Şurasında 05.04.2022-ci il tarixli, 04/2022 nömrəli təsdiq edilmiş əsasnaməsi mövcuddur.

Pandemiya dövründə onlayn dərslərin təşkili üçün tətbiq olunmağa başlamış MS Teams proqramı hazırda da müxtəlif onlayn görüşlərin, təlimlərin və seminarların keçirilməsi üçün uğurla istifadə olunur. Bununla yanaşı, imtahan sessiyalarının keçirilməsi üçün ATM tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

BMU-nun hər bir əməkdaşı və tələbəsi ATM-in rəsmi domen adı altında fəaliyyət göstərən (_user_name@official_domain_name) e-poçt ünvanından istifadə edir. İstifadəçi adları avtomatik olaraq EMS tərəfindən yaradılır. BMU-nun əməkdaşları ATM-in adı ilə yazılan bütün rəsmi və şəxsi yazışmalarda universitetin e-poçt ünvanından istifadə edirlər. ATM-in rəhbər strukturlarının qərarları və digər qərarların nəticəsi daim olaraq sistemə tətbiq edilir. BMU tələbələri şəxsi yazışmalarda ATM-in əməkdaşları və ATM-in adlarını özündə birləşdirən korporativ e-poçt ünvanından istifadə edirlər.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

EMS-in alt sistemi vasitəsilə səlahiyyət bölgüsü strukturlar və vəzifələr üzrə təmin edilir. Hər bir istifadəçi ona verilən icazələr çərçivəsində sistemdən istifadə edə bilir. EMS-nin tərkibindəki proqram va modullardan istifadə səlahiyyəti əməkdaşın əmək funksiyasına görə müəyyən edilir. İstifadə icazəsi üç növə ayrılır. Birinci icazə növündə əməkdaşa əmək funksiyasına görə bazadakı müəyyən məlumatları yalnız görməyə icazə verilir. İkinci növdə məlumatları görməklə yanaşı həm də həmin növ yeni məlumatları bazaya daxil etməsinə icazə verilir. Üçüncü növdə bazaya daxil edilmiş müəyyən məlumatlara düzəliş etməsinə icazə verilir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Təlim və tədris prosesinin fəaliyyətinin rəqəmsallaşdırılması istiqamətində ATM-də 2017-ci ildən Elektron Universitet (https://pms.beu.edu.az/index.php) layihəsi tətbiq edilmişdir və hazırda uğurla davam etdirilir. Bu sisitem universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE verilənlər bazası sisitemindən istifadə etməklə yaradılan verilənlər bazalarının əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması modulları, tələbələrin və müəllimlərin şəxsi kabinet modulları yaradılmışdır. Tələbələrin

bütün tədris fəaliyyəti, imtahan prosesinin nəticələri onların şəxsi kabinetində öz əksini tapmışdır.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Tələbələr ATM-də fəaliyyət göstərən EMS-dən aktiv istifadə edirlər. Tələbələr məlumat sisteminə daxil olmaqla elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemlərindən yararlana bilirlər. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi də həmçinin onların şəxsi kabinetində öz əksini tapır. Tələbələr bu sistem vasitəsilə qiymətlərinə və elektron jurnala baxa, kitabxanadan kitab sifariş edə, onlayn olaraq arayış və digər sənədləri sifariş edə, universitet tərəfindən təşkil edilən anket sorğularında iştirak edə, rəhbərlik tərəfindən yazılmış elanlara baxa bilir və s. bu tipli fəaliyyətlər həyata keçirir.

Sahə baxışı zamanı EMS-in iş prinsipi və imkanları Akkreditasiya Komissiyasının üzvlərinə nümayiş etdirilmişdir.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

ATM-də keyfiyyətin idarə olunması məqsədilə EMS-ə daxil olan sorğu sistemindən istifadə olunur. Sorğunu elektron qaydada aparmaq məqsədilə EMS-də anketlər modulu reallaşdırılmışdır. Modul vasitəsilə tələbələr və işçilər anketdə iştirak edərək sorğuları cavablandırırlar. Bundan əlavə, işçilər öz şəxsi kabinetlərinə daxil olaraq normativ hüquqi sənədlərlə tanış ola, onları və digər formaları yükləyib istifadə edə bilərlər. Bütün bu sadalananlar universitetdə keyfiyyətə öz töhfəsini verir, tədrisin təşkilində, həm də inzabati idarəetmə strukturlarının işinin təşkilində və universitetin idarə olunmasında mühüm rol oynayır.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

ATM-in informasiya idarəetmə sistemində ATİS ilə inteqrasiya imkanları nəzərdə tutulmuşdur. Belə ki, ATİS-ə daxil olunan məlumatlara əlçatanlıq sistem tərəfindən avtomatik olaraq təmin edilir. Yeni daxil edilmiş məlumatlarla bağlı sistemdə daim hesabatlar hazırlanır. Sistemdə, həmçinin, tələbələrin təhsil haqqlarını, akademik borclarını və yataqxana borclarını ödəyə bilməsi üçün onlayn ödəmə modulu nəzəərdə tutulmuşdur. Bu funksiyanın yerinə yetirilməsi Kapitalbankın tərəfdaşlığı və dəstəyi ilə təmin edilir. Tələbə sistemdə ödəməni həyata keçirdiyi anda avtomatik olaraq müvafiq borc sistemdən silinir.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Hazırda ATM-də İnformasiya İdarəetmə sistemlərinin təhlükəsizliyinin, sistemdə mövcud olan, dövr edən məlumatların məxfiliyinin və etibarlılığının təmin edilməsinin səviyyəsi qənaətbəxş hesab oluna bilər. Sahə baxışı zamanı bildirilmişdir ki, sisitemdə təhlükəsizlik qaydalarına əməl edilmiş, sistemin proqram kodlarının yazılması zamanı bütün təhlükəsizlik qaydlarına əməl edilməklə həssas məlumatların sistemdə şifrələnmiş şəkildə saxlanılması nəzərdə tutulmuşdur. Eyni zamanda qeyd edilmişdir ki, universitetin İnformasiya hesabalama mərkəzi tərəfindən sistemdə olan məlumatların nüsxəsi (dublikatı) mütəmadi olaraq köçürülür və saxlanılır. Həmçinin İnformasia İdarəetmə sistemində informasiya mübadiləsi zamanı təhlükəsizliyi təmin etmək məqsədilə SSL protokolu (sertifikatı) informasiyanın qorunması əlavə təhlükəsizlik tədbiri tətbiq edilmişdir.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ATM-in rəsmi veb saytı https://beu.edu.az/ aktiv şəkildə fəaliyyət göstərir və burada universitet haqqında ümumi məlumat yerləşdirilmişdir. ATM ilə əlaqə vasitəsitələri aydın şəkildə göstərilmişdir. Saytın funksionallığı bir neçə istiqamətdə artırıla bilər. Səhifəyə daxil olan istifadəçilər, xüsusən də abiturient, magistratura, doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən potensial bakalavr tələbələri, məzunlar, valideynlər və BMU-dakı imkanlar barədə məlumat almaq istəyən xarici şəxslər üçün saytı yeniləmədən (daha çox resurs və vaxt tələb edildiyindən) funksionallığının artırılması istiqamətində tövsiyələr qeyd olunmuşdur:

1) Saytda, xüsusən daxili səhifələrdə vizuallığı artırmaq, universitetin infrastrukturu, fəaliyyəti barədə daha çox şəkillər yerləşdirmək;
   Nümunə link:
   https://beu.edu.az/az/page/ecnebi-telebelerin-qebulu-295/;
2) “Niyə Bakı Mühəndislik Universiteti?” hissəsinə maraqlı tərəflərin, potensial müştərilərin daxil olduğunu nəzərə alaraq daha ətraflı məlumat və vizual yerləşdirmək;
3) Başlıq (header) hissəsinin təkmilləşdirmək
   Nümunə: “Abiturient” ifadəsi magistr və doktoranturaya aid olmadığı üçün “Qəbul” sözü ilə əvəz etmək;
4) İnkişaf etməkdə olan ölkənin universiteti olaraq xarici tələbələrə daha çox məlumat ötürülməsi üçün statistik məlumatlar yerləşdirmək
   Nümunə: ümumi tələbə sayı, ümumi ixtisas sayı, xarici tələbə sayı, xarici tələbələrin təmsil olunduğu ölkələr və s.;
5) Sənədlər bölməsində önəmli sənədləri yerləşdirmək

Nümunə: Beynəlmilləlləşmə Strategiyası sənədi, Magistraturaya qəbul qaydaları qeyd olunduğu kimi Bakalavr səviyyəsinə qəbul qaydaları sənədi;

6) İxtisaslar üzrə həm yerli həm də əcnəbi tələbələr üçün Təhsil haqları haqqında məlumat yerləşdirmək.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

BMU-nun rəsmi veb saytında xəbərlər mütəmadi yenilənir. Tələbələrin daxili platformalara (EMS) girişi sayt vasitəsilə də təmin edilmişdir.

Sahə baxışı zamanı bir çox strukturla bağlı xəbərlərin pres-relizlərinə sayt vasitəsilə əlçatanlıq təmin edilmişdir. Xəbərlərin paylaşılma vaxtları ilə həmin məlumatdakı vaxtlar ilə üst-üstə düşmüşdür.

ATM-də Struktur dəyişikliyi ilə bağlı məlumatların mütəmadi şəkildə yeniləndiyi yoxlanılmışdır. Elanlar bölməsi də aktiv şəkildə yenilənərək tələbələrə aid önəmli elanlar öz əksini tapmışdır.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

BMU rəsmi veb sayt xaricində “Facebook”, “Instagram”, ”X”, ”LinkedIn”, “Youtube”, “Telegram” kimi sosial şəbəkələrdə məlumatlandırma funksiyalarını yerinə yetirir. Bunların arasında ən geniş istifadə olunan 17 mindən artıq izləyici sayı ilə “Facebook” şəbəkəsidir. Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, sosial şəbəkələrə üzv olan şəxslərin sayında artım dinamikası izlənilir.

“İnstagram” platformasında məlumatlar yalnız səhifə izləyiciləri üçün açıqdır, hamı üçün əlçatanlığın təmin olunması məqsədəuyğundur. Eyni zamanda “Linkedin” platformasında əksər şirkətlərin təmsil olunduğunu nəzərə alaraq məlumatlar digər sosial şəbəkələrdə olduğu kimi daha intensiv şəkildə paylaşıla bilər.

Rəsmi səhifələr xaricində bəzi strukturların, məsələn Müəssisələrlə əlaqə və Karyera departamentinin, Xarici əlaqələr və layihələrin idarə edilməsi şöbəsinin individual “Facebook” səhifələri də fəaliyyət göstərir və məhz struktura aid xəbərlərin paylaşılması təmin edilir. Özünütəhlil Hesabatında BMU-nun ölkə miqyasında böyük oxucu auditoriyasına malik 5 media orqanı ilə əməkdaşlıq etdiyi qeyd olunmuşdur.

İctimaiyyətlə əlaqələr şöbəsi universitetin tanıdılması üçün ümumi orta təhsil məktəbləri, lisey və gimnaziyalarla əlaqələrin qurulması, valideynlərin, şagirdlərin universitetlərə ekskursiyalarının təşkili istiqamətində də müvafiq tədbirlər həyata keçirmişdir. Görüşlərin pres-relizləri saytda qeyd olunmuşdur.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

BMU-nun İctimaliyyətlə əlaqələr şöbəsinin fəaliyyəti İllik fəaliyyət planına əsasən icra olunur. Fəaliyyət planının icrası sonda Elmi Şurada müzakirə olunur və hesabat rəhbərliyə prezentasiya şəklində təqdim olunur.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

Məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı xüsusi bir mexanizm olmasa da rəsmi veb sayt, eləcə də sosial şəbəkələrdən maraqlı tərəflər açıq şəkildə qeyd olunan əlaqə vasitələrilə öz fikirlərini ifadə edə, fəaliyyəti qiymətləndirə bilərlər. Məlumat və təkliflərin aidiyyəti şəxslərə yönləndirilməsi təmin olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

İctimaiyyətlə əlaqələr şöbəsinin fəaliyyətinə dair Elmi Şuraya çıxarılmış hesabatlara Akkreditasiya Komissiyası tərəfindən baxılmışdır. Mütəmadi təkmilləşdirmə işlərinin həyata keçirildiyi qeyd olunsa da, təkmilləşdirmələrin hansı istiqamətdə olduqları və nə zaman icra olunduqları ilə bağlı təsdiqedici sənəd təqdim olunmamışdır.

# 6. İNFRASTRUKTUR

## *6.1 Tədris infrastrukturu*

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Universitetin təlim-tədris prosesi 5 binada təşkil edilmişdir. Təlim-tədris üçün nəzərdə tutulmuş binalar 20 hektarlıq ərazidə yerləşmişdir. Təlim-tədris binalarında otaqların böyük əksəriyyəti geniş, düzgün şəkildə həm təbii, həm də süni işıqlandırma, səs izolyasiyası, qızdırıcı və havalandırma ilə təmin edilmişdir. Ancaq buna baxmayaraq bir çox auditoriyalar əvvəllər tədris üçün nəzərdə tutulmayan otaqların bazasında yaradıldığı üçün qismən tədris standartlarına uyğun deyildir. Buna əsasən oğlanlar yataqxanasında tələbələrin hazırlaşması üçün nəzərdə tutulmuş otaqları aid etmək olar. Eləcə də, vizual baxış nəticəsində, təhsilalanların zəruri hallarda idmanla məşğuliyyətinin təmin olunması üçün universitetin həyətyanı sahəsində suni ot örtüklü idman meydançası və digər idman növləri üzrə meydançaların vəziyyətinin qeyri-qənaətbəxş olduğu aşkarlanmışdır. Üstüaçıq futbol meydançasının süni döşəməsinin və torlarının sıradan çıxması, bura aid yardımçı otaqların vəziyyətinin kafi olması, digər meydançaların standartlara uyğunsuzluğu, eləcə də üstüörtülü idman meydançasının ümumiyyətlə olmaması kimi çatışmazlıqları qeyd etmək olar.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

Sahə baxışı nəticəsində kitabxananın fondunda yetəri sayda kağız daşıyıcıda olan və universitetin elmi istiqamətinə qismən cavab verən ədəbiyyatın mövcudluğu müəyyən edilmişdir. Bunların sayının illər üzrə yüksələn tendensiya ilə müxtəlif layihələr, qrantlar, eləcə də universitetin daxili büdcəsi vasitəsilə yenilənməsi təqdirəlayiqdir. Kitablar azərbaycan, ingilis, türk və rus dillərindən başqa bir çox digər dillərdə (o cümlədən koreya dilində) də mövcuddur. Eyni zamanda, kitabxana fondundan əməkdaşların və təhsilalanların sərbəst və operativ formada axtarışı və siafriş edilməsi üçün PMS və TMS elektron resursu üzərindən istifadəsi üçün zəruri şərait yaradılmışdır. Bütün bunlara baxmayaraq kitabxananın özünün ayrıca oxu zalının və elektron ədəbiyyat fondunun olmaması qənaətbəxş deyildir.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

ATM-in tədris binalarında kadr hazırlığı həyata keçirilən ixtisasların xüsusiyyətlərinə uyğun təlim və tədris bazası mövcuddur. Belə ki, müvafiq avadanlıq, tədris-texniki vasitələrlə təchiz olunmuş tədris laboratoriyaları, akt zalı, təhsilalan və təhsilverənlərin rahat hazırlaşması və istirahəti ücün mebellə təchiz edilmiş sahələr, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, əyani tədris vəsaitləri, ağıllı lövhələr və proyektorlar, tədris-texniki vəsaitləri ilə təchiz olunmuş bir çox tədris otaqları təhsil alanların istifadəsinə verilmişdir. Universitetdə fakültələr əsasən ayrı-ayrı binalarda yerləşdiyi üçün xüsusi hallar olmadıqda (spesifik laboratoriyalar tələb olunmadıqda) müvafiq ixtisaslarda təhsil alan tələbələrin dərsləri həmin fakültələrin auditoriyalarında təşkil olunur. Bu baxımdan fakültələrdə auditoriyaların texniki təchizatının və sayının kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğunluğunu qənaətbəxş hesab etmək olar.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də, xüsusən Mühəndislik, Memarlıq və inşaat, Pedaqoji fakültələrində tədris prosesinin təmin edilməsi, laboratoriya dərslərinin aparılması üçün istifadə edilən zəruri avadanlıq və cihazlarla təmin olunmuş bir çox laboratoriyalar, eləcə də Texnopark fəaliyyət göstərir. Bunlara Pedaqoji fakültədə kimya mühəndisliyi üzrə laboratoriyaları, Texnoparkda mexanika mühəndisliyi üzrə labortoriyaları, Mühəndislik fakültəsində elektronuka, elektrotexnika, robototexnika, İT və s. laboratoriyaları misal göstərmək olar. Bu laboratoriyalar müvafiq ixtisaslar üzrə tədris laboratoriyalarının yerinə yetirilməsi aparılması üçün lazım olan avadanlıqlar, cihazlar, qurğular və kompüterlərlə təchiz olunmuşdur.

Lakin qeyd edilməlidir ki, Texnoparkda Mexanika mühəndisliyi üzrə mövcud olan bir sıra avadanlıqlar, dəzgahlar və tədris stendləri fiziki qüsurlar, yedək hissələrinin olmaması və s. səbəblərə görə istifadəyə yararsız vəziyyətdədir və işlək deyildir. Texnoparkda Mexanika mühəndisliyi labortoriyalarında bəzi avadanlıqların istifadəsi üçün normalara

uyğun şərait yaradılmamışdır, məsələn, qaynaq aparatının istifadə olunduğu işçi sahədə havalandırma sistemi mövcud deyil. Eləcə də xüsusi təhlükəsizlik tədbirlərinin görülməsi tələb olunan mexanika və kimya laboratoriyalarında tədris prosesi zamanı iştirak edən tələbə sayına uyğun kifayət qədər nəzarətçi və laboratoriya mütəxəssislərinin olmaması, kimya laboratoriyalarında təhlükəsizlik məqsədilə istifadə olunan eynək və əlcəklərin az olması və ya olmaması qənaətbəxş deyildir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ATM-in özünün istehsalat-təcrübə bazası mövcud deyil. Buna baxmayaraq bakalavriat səviyyəsində buraxılış kurslarının tələbələrinin istehsalat təcrübəsinin təşkili ilə əlaqədar baza müəssisələrin müəyyənləşdirilməsi və təcrübənin həmin müəssisələrdə təşkili istiqamətində işlər aparılır. Bununla əlaqədar, hər bir ixtisaslar üzrə uyğun müəssisələrlə müqavilələr bağlanılır, tələbələrin orada təcrübə keçməsi üçün zəruri şərait yaradılır və bütün bu proseslər müvafiq sənədlərlə tənzimlənir. Sahə baxışı zamanı müxtəlif istiqamətlər üzrə 30-dan çox müəssisə ilə təcrübənin təşkili məqsədi ilə müqavilələrin bağlanması müvafiq sənədlərlə təsdiq olunmuşdur.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-də distant təhsil infrastrukturu mövcud deyildir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd olunan 7 minik, 2 sərnişindaşıma və 1 yük maşınının mövcudluğu sahə baxışı zamanı əyani olaraq yoxlanmışdır. Sahə baxışı zamanı maşınların bir neçəsinin nasaz olması və bir sərnişindaşıma avtobusunun köhnəliyi və salonunun uyğun tələblərə cavab verməməsi aşkarlanmışdır. Bundan əlavə universitet rəhbərliyinin təşəbbüsü ilə 2 xətt üzrə hərəkət edən iri tutumlu ictimai nəqliyyatın təşkil edilməsinə baxmayaraq və universitetin Bakı şəhərindən uzaqda yerləşdiyini nəzərə alaraq əməkdaşların daşınması üçün xüsusi servis xidmətinin təşkili tövsiyə olunur. Bu xidmətin olması gələcəkdə universitetdə olan ən böyük problemlərdən birinin – pedaqoji heyət çatışmazlığının həllinə böyük təkan verə bilər.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATM-də sahə baxışı zamanı, eləcə də aparılan sorğular nəticəsində həm pedaqoji heyətin, həm də tələbələrin hər bir tədris binasında yerləşən kitabxanalar, laboratoriyalar, tədris-təcrübə bazaları və s. infrastrukturundan istifadənin əlçatanlığı vəziyyətinin qənaətbəxş olması aşkarlanmışdır. Tələbələrə dərsdənkənar vaxtlarda tədris korpuslarında geniş dəhliz sahələrində yerləşdirilmiş avadanlıqlardan (kompüterlərdən, iş stollarından, emalatxana avadanlıqlarından) istifadə etmək imkanı yaradılır.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-də hərəkəti məhdud insan qrupları (HMİQ) üçün müyəssərliyin təmin olunması istiqamətində bəzi tədbirlər görülsə də buna mane olan bir çox stress-faktorların mövcudluğu müşahidə olunur. Belə ki, bütün binalarda HMİQ üçün üfüqi və şaquli istiqamətlərdə hərəkətin təmin olunması üçün zəruri tədbirlərin görülməsinə ehtiyac vardır. Bundan əlavə pandus, lift və bəzi hallarda qaldırıcılar, taktil döşəmə cığırları, brayl əlifbası ilə sinxronlaşdırılan məlumat və istiqamət bildirən lövhələr, giriş-çıxış qapıları və pillələrin xüsusi rənglərlə fərqləndirilməsi, normalara uyğun sanirar qovşaqları və pilləkən tutacaqlarının təchizatı və s. bir çox işlərin görülməsi vacibdir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

ATM-də müvafiq normativlərə uyğun təşkil edilmiş qidalanma xidməti mövcuddur. Belə ki, əsas tədris binasında tələbələrin və akademik heyətin növbələr üzrə 100 faiz yerləşməsini təmin edə bilən yeməkxana və digər tədris binalarının hər birində isə bütün zəruri avadanlıqlarla təchiz edilmiş 5 bufet fəaliyyət göstərir. Yeməkxanaların fəaliyyəti sanitar-gigiyena qaydalarına və dövlət standartlarına uyğundur. Təklif olunan yeməklərin keyfiyyəti və qiyməti qənaətbəxşdir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

ATM-də iki fərqli bina olmaqla həm qızlar və həm də oğlanlar üçün müasir tələblərə uyğun yataqxana mövcuddur. Tələbələr otaqlarda 4 nəfər olmaqla yerləşdirilmişdir. Hər mərtəbədə sanitar qovşaqları və duş otaqları, eləcə də hər binada camaşirxanalar vardır. Yataqxnalarda 24 saat növbəli şəkildə komendantlar fəaliyyət göstərir. Müvafiq məkanlar kamera nəzarəti altındadır. Mənfi sayılan cəhətlərdən isə oğlanlar üçün olan yataqxananın qismən tədris məqsədi ilə istifadə olunmasıdır. Binanın birinci və ikinci mərtəbələri tamamilə tədris məqsədilə istifadə olunur. Eləcə də yataqxanalarda tibb xidməti mövcud deyildir. Burada olan bufetlər fəaliyyətini saat 21:00 da dayandırır və mərtəbələrdə çay-kofe avtomatları yoxdur. Yataqxanalarda idman otaqlarının olmasına baxmayaraq, onlardan istifadə məhduddur, tələbələrə idman avadanlıqlarından sərbəst istifadə etmək imkanı yaradılmır. Tələbələrin tələbatlarını nəzərə alaraq, yataqxanalarda bufetlərin fəaliyyətinin 22:00-dək artırılması, çay, kofe və digər sərinləşdirici içkilər üçün 24 saat işləyən aparatların quraşdırılması tövsiyə olunur.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATM-də tibbi xidmətin təşkili məqsədi ilə əsas tədris binasında bir tibb otağı ayrılmışdır və burada universitetin ştat cədvəlinə daxil edilmiş bir ştat vahidi ixtisaslı həkim xidmət göstərir. Tibb xidməti ilkin tibbi yardımın göstərilməsi üçün müvafiq avadanlıq və dərman vəsitələri ilə təchiz edilmişdir. Universitetdə olan tədris binalarının sayını, binalar arasındakı məsafələri və tələbə sayını nəzərə alaraq, qeyd etmək olar ki, tibb xidmətinin

imkanlarının genişləndirilməsinə, tibb işçilərinin sayının artırılmasına, yataqxanalarda növbəliçi tibb xidmətinin təşkilinə zərurət vardır.

#### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATM-də təlim-tədris və idarıetmə proseslərinin avtomatlaşdırılmış xidmətinin təşkili məqsədi ilə "AZUMİS" Elektron Məlumat Sistemi fəaliyyət göstərir. Bu elektron rejimdə işləyən və universitetin müxtəlif bölmələri tərəfindən hazırlanmış məlumatları əhatə edən və mərkəzləşdirən proqram təminatıdır. EMS insan resursları, admin, kitabxana, dil tədris koordinatorluğu, personal məlumat sistemi, tələbə məlumat sistemi, tələbə qeydiyyatı və yataqxana modullarını özündə cəmləyir, bunlardan gələn məlumatları emal edir və istifadəçilərə verilən icazələr çərçivəsində idarə və istifadə olunur. Bu sistem bütövlükdə universitetdə elektron sənəd dövriyyəsi funksiyasını yerinə yetirmir. Bu baxımdan sistemin funksiyalarının genişləndirilməsi və elektron sənəd dövriyyəsi sisteminin funksiyalarının bir sistem çərçivəsində əhatə olunması məqsədəuyğun olardı.

#### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

ATM-in infrastrukturunun istifadəsi mövcud qaydalara əsasən mütəmadi olaraq araşdırılır. İnfrastrukturun istifadəsinə öz funksiyaları çərçivəsində maddi-texniki təminat struktur bölmələri, Keyfiyyətə nəzarət şöbəsi, prorektorluqlar tərəfindən həyata keçirilir. Müəyyənləşdirilmiş tələblər və müddətlər nəzərə alınaraq rəsmiləşdirilməklə inventarizasiya həyata keçirilir. Əldə olunan nəticələrə əsasən maddi-texniki bazanın tədris prosesinə uyğun təkmilləşdirilməsi təmin edilir və yekun nəticə barədə cari ilin sonunadək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə məlumat verilir.

### *6.2 Elmi-tədqiqat infrastrukturu*

#### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

Elm və innovasiya şöbəsi ATM-in 08 fevral 2021-ci il 2865 nömrəli əmri ilə yaradılmış, şöbənin əsasnaməsi isə 16 may 2023-cü il tarixli 05/2023 nömrəli əmrlə təsdiq edilmişdir. Şöbə ATM-in idarəetmə aparatının struktur bölməsi olub, elmi işlər üzrə prorektora tabedir. Şöbənin əsas vəzifəsi ATM-in elmi-texniki potensialından məqsədyönlü və səmərəli istifadəni təmin etmək, elmi-tədqiqat işlərinin həyata keçirilməsinin təmin edilməsində kafedralara dəstək vermək, işlərin mərkəzləşdirilmiş qaydada əlaqələndirilməsinə və idarə olunmasına, birgə elmi-texniki fəaliyyətin aparılmasına, ATM-də innovativ texnologiyaların işlənməsi, patentləşdirilməsi və əldə edilın nəticələrin istehsal prosesinə tədbiqinə nail olmaqdır.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyası şöbənin fəaliyyət planlarını və hesabatlarını əldə edə bilməmişdir. Mərkəzdən əldə edilən sənədlər mərkəzin

əsasnaməsi və ATM-in 2020/2023-cü illəri əhatə edən, lakin təsdiqlənməmiş elmi-tədqiqat strategiyasıdır.

ATM-in elmi-tədqiqat strategiyası əsasında Elm və innovasiya şöbəsinin fəaliyyət planlarının hazırlanması və hesabatlılığın həyata keçirilməsi məqsədəuyğun hesab olunur.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 noyabr 1995-ci il tarixli “242” nömrəli elmi-tədqiqat laboratoriyası haqqında Əsasnaməsinin tələbləri əsasında ATM-də fəaliyyət göstərən laboratoriyalar tələbələrin təcrübə işlərinin yerinə yetirilməsi, eyni zamanda təlimlərin, seminarların və tədqiqatların həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Meyar 4.2.1-də qeyd olunduğu kimi, laboratoriyaların sayı barədə aydın məlumat əldə etmək mümkün olmamışdır. ATM-in Özünütəhlil Hesabatı ilə birlikdə təqdim etdiyi “Maddi-texniki baza və sosial məişət şəraiti” sənədində “elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz edilmiş müasir və digər laboratoriyalar”ın sayı 42 qeyd edilmişdir. Sahə baxışı zamanı 17 laboratoriyanın olduğu, bütün laboratoriyaların rəsmi olaraq tədris üçün nəzərdə tutulduğunu, onlardan dördünün həmçinin elmi-tədqiqat üçün də istifadə edildiyi ATM tərəfindən bildirilmişdir. ATM-in təqdim etdiyi “BMU laboratoriyalar” sənədində isə laboratoriya sayı 24, Himayəçilər Şurasının 15.07.2022-ci il 6 N-li Protokolunda isə ATM-də 15 elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərdiyi qeyd edilmişdir.

ATM-in Özünütəhlil Hesabatında nümunə olaraq yalnız 2016-cı ildə fəaliyyət göstərməyə başlamış İnformasiya Kommunikasiya Texnologiyaları Elmi Tədqiqat Laboratoriyası (İKTETL) barədə məlumat verilmişdir. Özünütəhlil Hesabatının bu meyarına yalnız İKTETL-in qeyd edilməsinin səbəbini sahə baxışı zamanı ATM həmin laboratoriyanın elmi-tədqiqatların, startup layihələrin həyata keçirilməsi üçün nəzərdə tutulması ilə əsaslandırmışdır. Laboratoriyanın yaradılmasında məqsəd ATM-in mövcud potensialını inkişaf etdirmək və tədqiqata meylli olan tələbələrə dəstək verməkdir. Sahə baxışı zamanı laboratoriyanın texniki ləvazimatları ilə tanışlıq həyata keçirilmişdir.

Əlavə olaraq, sahə baxışı zamanı Kimya laboratoriyasının aktiv fəaliyyəti və elmi-tədqiqat işlərinin təşkili üçün də nəzərdə tutulmuş Texnoparkının fəaliyyətində durğunluq müşahidə edilmişdir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATM-in Beynəlmilləşmə Strategiyası Elmi Şuranın 16.05.2023 tarixli, 05/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir. Beynəlmilləşmə siyasətinin hazırlanması Xarici əlaqələr və layihələrin idarə edilməsi şöbəsinin 18.04.2023 tarixli 18 nömrəli protokoluna əsasən Beynəlmilləşmə istiqaməti üzrə prorektor tərəfindən Xarici əlaqələr və layihələrin idarə edilməsi şöbəsinə həvalə edilmiş və onlar tərəfindən hazırlanmışdır. Strategiyanın hazırlanmasında maraqlı tərəflərin iştirakı təmin olunmamışdır. Elmi Şurada öncə hazırlanmış sənədin müzakirəsinin aparıldığı qeyd olunsa da, sahə baxışı zamanı Akkreditasiya Komissiyasına buna dair hər hansı təsdiqedici sənəd təqdim olunmamışdır. Beynəlmilləşmə strategiyası sənədi ATM-in rəsmi saytında yerləşdirilməmiş və əlçatanlığı hamı üçün təmin edilməmişdir. Strategiyada 17 məqsəd qeyd olunmuş və həmin məqsədlər SİP 2020-2023 sənədinin 4-cü Strateji istiqamətində (Beynəlxalq əlaqələrin inkişafı) qeyd olunan hədəflərin əksəriyyətinə çatmağa xidmət etmişdir. Lakin Beynəlmilləşmə Strategiyası ümumi sənəd formasında hazırlanmış, Strategiyada meyarlar müəyyən edilməmiş, izlənməsi ilə bağlı hər hansı bir fəaliyyət planının və ya mexanizmin olmadığı aşkar olunmuşdur.

Beynəlmiləlləşmə Strategiyasının ölçüləbilən meyarları özündə əks etdirən, ATM üzrə təsdiq edilmiş vahid sənəd kimi formalaşdırılması, yerinə yetirilməsinin izlənməsi mexanizmlərinin nəzərdə tutulması və əlçatanlığının təmin edilməsi tövsiyə olunur.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Beynəlmilləşmə strategiyasının aşağıda qeyd olunan bəndlərində mübadilə proqramlarının təşviqi nəzərdə tutulsa da, icrası ilə bağlı heç bir mexanizm qeyd olunmamışdır.

4.5. Beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirakı;
4.6. Beynəlxalq mübadilə proqramlarında professor müəllim heyətinin iştirakı

Qeyd olunan bəndlər SİP 2020/2023 sənədinin 4-cü Strateji istiqamətində ( Beynəlxalq Əlaqələrin İnkişafı) olan 4.2 və 4.3-cü hədəflərlə eynidir.

**Diaqram 7.1.**

**Mübadilələrdə iştirak etmiş əməkdaşların sayı**




ATM-də tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təşviq etmək və onların mövcud mexanizmlərdən istifadəsini asanlaşdırmaq üçün mütəmadi tədbirlər görülür. ATM bir çox beynəlxalq proqramların (Erasmus+ KA1 Mübadilə Proqramı, Erasmus+ KA2 Ali Təhsil Potensialının Gücləndirilməsi Layihələri, Tvinninq Layihəsi, Yerli Qrant Layihələri, Alman Akademik Mübadilə Xidməti (DAAD) və Fulbrayt da daxil və s.) imkanlarından istifadə edir. Bundan əlavə, ATM bu proqramlar çərçivəsində xarici təhsil müəssisələri ilə əməkdaşlıq edir, mübadilələr həyata keçirir.

Layihələr çərçivəsində mübadilələrdə iştirak etmiş akademik və administrativ heyətin dinamikası yuxarıdakı Diaqram 7.1-də göstərilmişdir. Göründüyü kimi, tendensiya pandemiya zamanı kəskin şəkildə azalsa da, hazırda artan dinamika müşahidə olunur. Sahə baxışı zamanı ezam olunan əməkdaşların ezamiyyə ilə bağlı sənədlərinə baxış keçirilmiş və sənədlərdə uyğunsuzluq aşkarlanmamışdır. Mübadilə proqramlarının bütün heyət üçün əlçatanlığını təmin etmək və bərabərhüquqlu seçim prosesinin həyata keçirilməsi üçün ATM tərəfindən təsdiq olunmuş mexanizm aşkar edilməmişdir. Lakin sahə baxışı zamanı qeyd olunmuşdur ki, belə bir sənədin hazırlanması nəzərdə tutulmuşdur. Mübadilə ilə bağlı məlumatlar Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsinin feysbuk səhifəsi (https://www.facebook.com/iro.beu.edu.az) və daxili email vasitəsilə çatdırılır.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi sistemində əcnəbilərin ali təhsilə cəlb edilməsi məsələsinə önəm verildiyi nəzərə alınaraq, ATM-də əcnəbi tələbələrin təhsilə

cəlb edilməsi istiqamətində çoxlu işlər aparılmışdır. Əcnəbi tələbələrin ATM-ə cəlb olunması həm Strateji inkişaf planında, həm də Beynəlmilləşmə Strategiyasında əsas istiqamətlərdən biri kimi qeyd olunmuşdur.

Aparılmış işlərin nəticəsində ATM-ə 2017/18-ci tədris ilində – 121 nəfər, 2018/19-cu tədris ilində – 98 nəfər, 2019/20-ci tədris ilində – 84 nəfər, 2020/2021-ci tədris ilində – 88 nəfər, 2021/2022-ci tədris ilində – 92 nəfər, 2022/23-cü tədris ilində isə 94 nəfər əcnəbi tələbə ATM-də təhsil almışdır.

**Diaqram 7.2.**

**İllər üzrə təhsil alan əcnəbi tələbələrin sayı**




SİP-in 4-cü Strateji istiqamətinin 6 və 7-ci bəndləri məhz əcnəbilərin cəlb olunması ilə bağlıdır.

Şöbə tərəfindən SİP-in icrası ilə bağlı göndərilən illik hesabatlarda həmin göstəricilərin izləndiyi və bir çox hallarda hədəflərin təmin olunduğu müşahidə edilmişdir.

ATM xarici tələbələr üçün özünün tələbə yataqxanalarında, kirayə evlərdə və ya şəxsi yataqxanalarda mənzil tapmaqda köməklik də daxil olmaqla yaşayış variantları təklif edir. Bu, universitetin beynəlxalq tələbələrin yaşayış şəraitinə dəstək vermək öhdəliyini nümayiş etdirir.

Əcnəbi tələbələrlə keçirilən görüş zamanı müəyyən olunmuşdur ki, Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi onların təklif və şikayətlərinin işıqlandırılmasında müstəsna rol oynayır.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-də hazırda 7 əcnəbi akademik heyət fəaliyyət göstərir və bu da ATM-in Beynəlmilləşmə siyasətinə görə zəif nəticə kimi qeyd olunmalıdır. Ötən dövr ərzində

daimi akademik heyət xaricində, xüsusən Erasmus+ KA1 proqramları çərçivəsində isə ATM-ə qonaq akademik heyət cəlb olunmuşdur.

**Cədvəl 7.1.**

**Beynəlxalq proqramlar çərçivəsində qonaqlqrın sayı**

| | **Qonaqların sayı** | **Proqram** |
|---|---|---|
| 2019 | 5 | ***Erasmus+ KA1*** |
| 2020 | 1 | ***Fulbright*** |
| 2021 | 0 | **-** |
| 2022 | 1 | ***Erasmus+ KA1*** |
| 2023 | 10 | ***Erasmus+ KA1*** |

Say dinamikasına nəzər yetirildikdə, Covid-19 pandemiyasından sonra ciddi artım müşahidə olunmuşdur.

Mübadilədə iştirak edən akademik heyət tələbələr üçün qısa müddətli ( adətən 1 həftəlik) seminarlar təşkil etmişdir. Bu barədə məlumatlar Xarici əlaqələr və layihələrin idarə edilməsi şöbəsinin feysbuk hesabında və ATM-in rəsmi veb saytında qeyd olunmuşdur. Belə məlumatlara nümunələr aşağıda verilmişdir:

Polşanın Vroclav (Wroclaw) Biznes Universitetinin əməkdaşları:

https://beu.edu.az/az/article/polsanin-vroclav-biznes-universitetinin-emekdaslari-bmu-da-olublar-1817?fbclid=IwAR1Q-sUbqQJCZvdAVcNBNmIe1OgGiypqnJ4XkdXjG7KnbevX7ZrBUUCSdAg.

Ruminiyanın Babeş Bolyai Universitetinin nümayəndəsi:

https://beu.edu.az/az/article/babes-bolyai-universitetinin-numayendesi-erasmus-ka1-proqrami-cercivesinde-bmu-nu-ziyaret-edib-1584?fbclid=IwAR1racOYKrQVjxVLC6yiR6irdbc10geo7IVF7mfMecZyoxJ84p3KQwtYEw.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

2023-cü ildə təsdiq edilmiş Beynəlmilləşmə strategiyasının 4.10-cu bəndində dünyanın aparıcı elmi-tədqiqat mərkəzlərinin və əcnəbi mütəxəssis, ekspert və professor müəllim

heyətinin elmi-tədqiqata cəlb edilməsi məqsəd kimi müəyyən edilsə də, universitet yarandığı gündən bu istiqamətdə çoxlu səylər göstərilmişdir.

İCTEA “13-cü Beynəlxalq Termal Mühəndislik konfransı: nəzəriyyə və tətbiq” mövzusunda ATM-də baş tutmuş beynəlxalq konfransa xaricdən 18 tanınmış alim plenar məruzəçi kimi dəvət olunmuşdur. Konfransın materialları Kanadanın Ryerson Universiteti kitabxana bazasına daxil edilmişdir.

https://journals.library.torontomu.ca/index.php/ictea/issue/view/111

https://journals.library.torontomu.ca/index.php/ictea/issue/view/139

"IArcSAS"2. Beynəlxalq Memarlıq Elmləri və Tətbiqlər Simpoziumu BMU-da onlayn/üz-üzə formatda keçirilmişdir. Simpoziumun gündəliyi, iştirak edən şəxslər linkdə göstərilmişdir. Təşkilat Komitəsinin əksəriyyəti xarici nümayəndələr (əsasən türklər) olmuşdur (https://www.izdas.org/mimarlik).

Beynəlxalq ekologiya və ətraf mühit konqresi ATM-də onlayn/üz-üzə formatda keçirilmişdir. Simpoziumda dünyanın 10 ölkəsindən 30-a yaxın xarici məruzəçi çıxış etmişdir (https://tr.iensci.org/ecology).

ATM-in bir çox professor-müəllim heyəti elmi tədqiqatlar aparmaq üçün xarici universitetlərin professor və müəllimləri ilə əməkdaşlıq etmişdir. Erasmus+ layihələri ilə əməkdaşlıq ATM üçün müstəsna imkanlar yaratmışdır. 8 Erasmus+ KA2 layihələrin nəticələri haqqında qısa məlumatlar aşağıda öz əksini tapmışdır:

1. “CRENG- Nəqliyyat xidmətləri üçün böhran və risklər” Erasmus+ KA 2 layihəsi çərçivəsində Varşava Texnologiya Universiteti ilə əməkdaşlıq: 2021-ci ildə BMU Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin koordinasiyası ilə Polşanın Varşava Texnologiya Universiteti ilə əməkdaşlıq etmişdir. Layihə “Nəqliyyat xidmətləri üçün böhran və risklərmövzusuna yönəldilmiş və Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir. Layihə xüsusi olaraq "Nəqliyyat xidmətləri üçün böhran və risk mühəndisliyi" mövzusuna yönəlmiş Erasmus+ KA2 proqramının bir hissəsi idi. ATM üçün layihə nəticələri qeyd olunub:
    a) CRENG Laboratoriyası: Layihə çərçivəsində BMU Mühəndislik fakültəsinin nəzdində CRENG laboratoriyası yaradılmışdır;
    b) Nəqliyyatın Modelləşdirilməsi üzrə fənlərin tədris planına əlavə edilməsi: Layihə həmçinin nəqliyyat modelləşdirməsi üzrə magistrlər üçün fənlər təklif etmişdir.

Daha ətraflı: http://iro.beu.edu.az/az/article/bmu-da-creng-laboratoriyasi-yeni-avadanliqlarla-techiz-olunub-989

2. “MAGNUS- Tərəfdaş universitetlərdə Mobil tətbiqlərin və oyun dizaynı magistr proqramının hazırlanması” Erasmus+ KA 2 adlı Avropa Komissiyası tərəfindən maliyyələşdirilən layihədə tərəfdaşlıq: 2020-ci ildən etibarən BMU layihənin tərəfdaş universitetlərindən biri olmuşdur. Bu layihə çərçivəsində universitetlərdə mobil proqramların və oyun dizaynı üzrə magistr proqramlarının hazırlanmasına yönəlmiş laboratoriya yaradılmışdır. Bu laboratoriyanın yaradılmasında əsas məqsəd informasiya texnologiyaları və əlaqəli fənlər üzrə təhsilin təmin edilməsi, həmçinin tələbələrin bilik və bacarıqlarının artırılması olmuşdur. Sahə baxışı zamanı BMU tərəfindən təqdim edilən sillabuslara əsasən, layihə əsasında 4 fənn İsveçin Linköpings Universitetinin təcrübələrinə əsasən birgə hazırlanmış və 2022-dən etibarən tələbələrə tədris olunmuşdur.

   a) Kompüter vizyonu;
   b) Mobil proqram dizaynı;
   c) Müasir verilənlər bazası sistemləri;
   d) Müasir proqramlaşdırma texnikası.

Daha ətraflı: http://iro.beu.edu.az/en/page/magnus-337

3. “ITACA- Azərbaycanda İnnovativ Tədris Mərkəzinin qurulması” Erasmus+ KA 2 layihəsi : Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən layihə çərçivəsində BMU tərəfdaş universitet olmuşdur. Layihə 2019-2023 illərini əhatə edib. Layihə kontekstində Azərbaycanda sənaye, akademik qurumlar və ali təhsil mərkəzləri arasında əməkdaşlıq magistratura pilləsini bitirmiş şəxslər üçün bir illik təlim kurslarının hazırlanması istiqamətində olmuşdur. Avropa İttifaqı universitetlərinin təcrübəsindən istifadə etməklə həyata keçirilən layihə Azərbaycanın yerli ali təhsil sistemini modernləşdirmək məqsədi daşımışdır. BMU-da tədris və inzibati vəzifələrdə çalışan şəxslər təcrübələrini öyrənmək üçün Aİ universitetlərinə səfər etmişlər. Layihənin məqsədləri çərçivəsində təhsilin şaxələndirilməsi, əlçatanlığın yaxşılaşdırılması və beynəlxalq inteqrasiyanın gücləndirilməsi üçün səylər göstərilmişdir.

   Layihədə həmçinin avadanlıqların alınması üçün büdcədən 57068 avro vəsait ayrılması nəzərdə tutulmuşdur;

   Daha ətraflı: https://www.itacaproject.eu/

4. “ECAR- Azərbaycanda Rektorlar Konfransının yaradılması” Erasmus+ KA2 layihəsi: BMU-nun tərəfdaş olduğu layihənin əsas məqsədi universitetlər və digər tərəfdaşlar arasında sıx əməkdaşlığın qurulmasına, inkişaf etdirilməsinə nail olmaqdır. ECAR təhsilin beynəlmilliləşməsinə, rəqəmsal və innovativ iqtisadiyyatda ali təhsil müəssisələrinin rolunun artırılmasına, eyni zamanda, universitetlərin beynəlxalq aləmdə təmsil olunmasına zəmin yaradılmasına, onların rəqabət qabiliyyətinin yüksəldilməsinə əsaslı dəstək verməyi hədəfləmişdir. Layihə çərçivəsində universitet

rəhbərləri, akademik heyət, tələbələr, məzunlar, əmək bazarı nümayəndələri arasında geniş tədqiqat aparılıb və bu tədqiqat nəticəsində ali təhsil müəssisələri arasında olan münasibətlər, təhsildə yaranan problemlər və digər məsələlər müəyyənləşdirmişdir. 2021-2024 illərini əhatə edən layihədə BMU heyəti bir çox səfərlərdə və daxili görüşlərdə təmsil olunmuşdur.

Daha ətraflı: https://beu.edu.az/az/article/bmu-da-ecar-layihesi-cercivesinde-polsa-isvec-ve-litvada-kecirilen-telimlerle-bagli-melumatlandirma-tedbiri-1541.

5. PAWER - Təhsildə regionlararası mobillik, keyfiyyət, uyğunluq və hər kəsə açıq sistemin qurulması" Erasmus+ KA2 layihəsi  Saytda layihə haqqında ətraflı məlumat qeyd olunmasa da, özünütəhlil hesabatında BMU-ya layihə çərçivəsində 3 notbuk/computer verildiyi qeyd olunmuşdur;

6. PROMIG - Ali təhsil müəssisələrində miqrasiya təhsilinin təşviqi" Erasmus+ KA2 layihəsi  Tbilisi Dövlət Universitetinin rəhbərliyi ilə icra olunan layihədə Xəzər Universiteti, Avropa Birliyindən Oldenburq Universiteti (Almaniya), Qraz Universiteti (Avstriya), Alikante Universiteti (İspaniya), eyni zamanda Kabul Universiteti və Tabeş Universiteti (Əfqanıstan) də iştirak etmişdir. BMU-ya layihə çərçivəsində 3 notbuk/computer verildiyi qeyd olunmuşdur;

7. STM (Slow Turism Management) - Davamlı Turizm Menecmenti" Erasmus+ KA2 layihəsi;

8. "CAMPAIGNers - Vətəndaşlar hədəf müəyyənləşdirmə şəbəkəsindən aktiv istifadə etmək vasitəsi ilə yumşaltma yolları ilə hərəkət edir" adlı HORIZON 2020 layihəsi. Layihənin məqsədi: İnsanların həyat tərzindəki dəyişiklik üçün əngəlləri aydınlaşdırmaq, yeni həyat tərzi nümunələri müəyyən edərək sınaqdan keçirmək və əldə etdiyi nəticələrin yayılması üçün planlar hazırlamaqdır.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Beynəlmilləşmə strategiyası sənəd olaraq 2023-cü ildə təsdiq olunsa da, həmin müddətə qədər SİP 2020-2023 sənədində qeyd olunan istiqamətlərdə BMU-da 7.1.6-cı meyar üzrə işlər aparılmışdır. SİP-in 4.1-ci (Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrin sayını artırılması) istiqaməti üzrə görülən işlər aşağıda qeyd olunmuşdur:

2017-ci ildən 2022-ci ilə qədər olan beş illik dövr ərzində ATM qlobal miqyasda 27 ölkədən 83 təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurmuşdur. Bu əlaqələr elm və təhsil sahələrində əməkdaşlığın gücləndirilməsinə yönəlmişdir. 27 ölkədən ilk 10-luqda olanlar Cədvəl 7.2-də göstərilmişdir.

**Cədvəl 7.2.**

**Xarici ölkələrlə əməkdaşlıq edilən müəssisələr**

| № | Ölkə | Əməkdaşlıq edilən müəssisə sayı |
|---|---|---|
| 1 | Türkiyə | 13 |
| 2 | Ukrayna | 8 |
| 3 | Belarusiya | 6 |
| 4 | Polşa | 6 |
| 5 | Rumıniya | 6 |
| 6 | Cənubi Koreya | 5 |
| 7 | Çexiya | 3 |
| 8 | Gürcüstan | 3 |
| 9 | Latviya | 3 |
| 10 | Pakistan | 3 |
| 11 | Rusiya | 3 |

Hazırda BMU Avropanın 13 universiteti ilə Erasmus+KA1 mübadilə proqramı həyata keçirir. Tələbə və akademik/administrativ heyətin mübadilələri əsasən Erasmus+ KA1 üzrə həyata keçirilir. Roma Sapienza Universiteti (İtaliya), Turin Politexnik Universiteti (İtaliya), Koblenz Tətbiqi Elmlər Universiteti (Almaniya), Şmalkalden Tətbiqi Elmlər Universiteti (Almaniya), Wroclaw Biznes Universiteti (Polşa), UTP Elm və Texnologiya Universiteti (Polşa), UTP Elm və Texnologiya Universiteti (Polşa), Jaen Universiteti (İspaniya), Qranada Universiteti (İspaniya), Braqanca Politexnik İnstitutu (Portuqaliya), Babes-Bolyai Universiteti (Rumıniya), Timişoara Universiteti (Rumıniya), Oradea Universiteti (Rumıniya) və Akdeniz Universiteti ( Türkiyə) Eramus+ KA 1 üzrə əməkdaşlıq edilən universitetlərdir.

Özünütəhlil Hesabatında əks olunan, eləcə də sahə baxışı zamanı nəzərdən keçirilən son illərə dair müqavilələr aşağıda qeyd edilmişdir.

ATM tərəfindən 2020-ci ildə əməkdaşlıq müqaviləsi imzalamış xarici universitetlər:

- Sankt-Peterburq Elektrotexniki Universiteti "LETI" (Rusiya);
- Dostoyevski Omsk dövlət universiteti (Rusiya);
- Xarkov Milli Radio-Elektron Universiteti (Ukrayna);
- Akaki Tseretelli Dövlət Universiteti (Gürcüstan);
- İnnovativ Avrasiya Universiteti (Qazaxstan);
- INHA Universiteti (Koreya).

ATM tərəfindən 2021-ci ildə əməkdaşlıq müqaviləsi imzalamış xarici universitetlər:

- Piteşti Universiteti (Rumıniya);
- Vitebsk Dövlət Texnologiya Universiteti (Belarusiya);
- Nəqliyyat və Telekomunikasiya Universiteti (Latviya);
- Şmalkalden Tətbiqi Elmlər Universiteti (Almaniya);
- Qingdao Texnoloji Universiteti (Çin).

ATM tərəfindən 2022-ci ildə əməkdaşlıq müqaviləsi imzalamış xarici universitetlər:
- Granada Universiteti (İspaniya);
- Milli Hanbat Universiteti (Cənubi Koreya);
- Vroslav Biznes Tətbiqi Elmlər Universiteti (Polşa)
- Tətbiqi Fizika Texniki Universiteti (Çex Respublikası);
- Seyfullin Universiteti (Qazaxıstan);
- Belarus Dövlət İnformatika və Radioelektronika Universiteti;
- Sivas Cumhuriyet Universiteti (Türkiyə);
- European Universiteti (Gürcüstan).

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə "Clarivate Analytics" arasında əməkdaşlıq əsasında ATM-in Web of Science®" elmi platformasına çıxışı təmin olunmuşdur. Bu barədə daha ətraflı məlumatı aşağıdakı internet ünvanından əldə etmək olar:

https://report.az/elm-ve-tehsil-xeberleri/azerbaycan-web-of-science-bazasina-daxil-olan-elmi-meqalelerin-say/

Beynəlxalq Təhsil şəbəkələri haqqında məlumat Özünütəhlil Hesabatında qeyd olunmamışdır. Sahə baxışı zamanı təkrar müraciətdən sonra əməkdaşlıq haqqında sənədlər təqdim olunmamışdır.

ATM-də strukturlararası məlumat paylaşımı, xüsusən də beynəlxalq əməkdaşlıqlar istiqamətində məlumatların əlçatanlığı daha effektiv formada təşkil edilməsi tövsiyə olunur.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

SİP 4.10.("2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramların tətbiqi ) bəndini əsas tutaraq ATM-də ikili diplom proqramlarına xüsusi önəm verilir. ATM-də ikili diplom proqramının idarə edilməsi adı altında ayrıca struktur şöbə fəaliyyət göstərir və proseslə bilavasitə onlar məşğul olurlar. Sahə baxışı zamanı ikili diplom üzrə tədris proqramları nəzərdən keçirilmiş və onların Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il 348 nömrəli qərarı ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura

səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydaları"nın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

**İNHA Universiteti ilə ikili diplom proqramı.** 2020/2021-ci tədris ilində ATM ilə Cənubi Koreyanın İNHA Universiteti arasında ikili diplom proqramına start verilmişdir. Proqrama qəbul 4 ixtisas üzrə həyata keçirilir. Bu ixtisaslara İnformasiya Texnologiyaları, İnşaat Mühəndisliyi, Elektrik Mühəndisliyi və Elektronika Mühəndisliyi daxildir. Tələbələr ATM-də üç il ingilis dilində təhsil almalı və sonra İNHA Universitetində Koreya dili kursunun son ilini başa vurmalıdırlar. İkili diplom proqramı üzrə ATM-də təhsil alan tələbələrin ümumi sayı 2020/2021-ci tədris ili qəbulu üçün (Cohort 2020) - 69 tələbə, 2021/2022-ci tədris ili qəbulu üçün (Cohort 2021) - 88 tələbə, 2022/2023-cü tədris ili qəbulu üçün (Cohort 2022) - 116 tələbə, 2023/2024-cü tədris ili qəbulu üçün (Cohort 2023) - 123 tələbə olmuşdur.

**Texas Texnologiya Universiteti ilə ikili diplom proqramı.** 2022-ci ildə magistratura səviyyəsində İnşaat mühəndisliyi ixtisası üzrə ABŞ-nin Texas Texnologiya Universiteti ilə ikili diplom proqramı haqqında müqavilə imzalanmışdır. Tələbələr təhsillərinin birinci ilini Texas Texnologiya Universitetində, ikinci ilini isə ATM-də davam etdirir. Tədris ingilis dilində aparılır. Qeyd olunan ixtisas üzrə ATM-in magistratura səviyyəsinə qəbul olan, ümumi orta müvəffəqiyyət göstəricisi 80 baldan artıq olan və beynəlxalq dil sertifikatına malik iki magistr tələbəsi birinci və ikinci semestri üzrə təhsil almaq üçünTexas Texnologiya Universitetinə göndərilir.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Özünütəhlil Hesabatında Beynəlmilləşmə Strategiyasının SİP-ə uyğun yeniləndiyi qeyd olunsa da, ilk Beynəlmilləşmə Strategiyası Elmi Şuranın 16.05.2023 tarixli, 05/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir. SİP isə 2020-2023 illəri əhatə edir. Yeni SİP hazırlanarkən Beynəlmilləşmə strategiyasının da dərhal sonra yenilənməsi, eləcə də "SMART" hədəflər, xüsusən də ölçüləbilən hədəflər çərçivəsində qoyulması tövsiyə olunur. Beynəlmilləşmə Strategiyasının yenilənməsi zamanı bütün maraqlı tərəflərin prosesə cəlb olunması yeni strategiyanın daha təkmil olmasına zəmin yaradacaqdır.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Təqdim olunan Təşkilati struktur cədvəlinə əsasən ATM-də Beynəlxalq əlaqələr üzrə prorektorluq nəzdində 2 şöbə fəaliyyət göstərir:

1)Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi;

2) İkili diplom proqramının idarə edilməsi şöbəsi.

ATM-in tələbə sayını nəzərə aldıqda şöbələrin insan resursu say olaraq kifayət qədərdir. SİP 2020/2023 sənədində 4-cü istiqamətin (Beynəlxalq əlaqələrin inkişafı) icrasının tədbirlər planında Beynəlxalq əlaqələr üzrə prorektorluq xaricində bir çox strukturlar (məs: Elmi işlər üzrə prorektorluq, Maliyyə və təsərrüfat işləri üzrə prorektorluq, Tədris şöbəsi və başqaları) icraçı kimi qeyd olunmuşdur. Bu, öz növbəsində proseslərin idarə edilməsi üzrə təşkilati strukturun mərkəzləşdirilməmiş olduğunu, birlikdə fəaliyyət nəticəsində effektivliyin artırılmasına yönəlik tədbirlər planının olduğunu göstərmişdir.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

ATM-in Strateji İnkişaf Proqramının həyata keçirilməsi üzrə Tədbirlər planında Beynəlxalq əlaqələrin inkişafı hissəsinin 4.1-4.12-ci bəndlərində bir çox struktur bölmələrin proqramın icrasına daxil olduğu görünsə də, sahə baxışı və strukturlarla görüş zamanı SİP-in icrasında monitorinqin zəif olması effektivliyi aşağı salan amil kimi qiymətləndirilmişdir. Bir çox hallarda SİP-in icrası ilə bağlı əlaqəli strukturların arasında məlumat mübadiləsinin kifayət qədər olmaması aşkar olunmuşdur.

Növbəti SİP-in hazırlanması və icrası zamanı tədbirlər planında qeyd olunan bütün icraçıların icra prosesinə cəlb olunması, onların məlumatlılığı və aralarında məlumat mübadiləsinin təşkili, icra vəziyyətinin qiymətləndirilməsi və monitorinqi üçün struktur bölmə və ya məsul şəxslərin müəyyənləşdirilməsi, hesabatlılığın təmin edilməsi tövsiyə olunur.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATM-də kreditlərin tanınması ilə bağlı təsdiq edilmiş daxili bir prosedur qaydası mövcud deyildir. Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi mübadilə proqramları barədə elan verdikdən sonra tələbələr ilkin növbədə universitet və fənlərlə tanış olurlar. Fənlərin seçimlərini etdikdən sonra cari semestr üçün hazırlanmış tədris planı kafedralarla birlikdə müzakirə olunur. Tələbə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 5/2 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar”a əsasən layihə müddəti üçün akademik məzuniyyətə göndərilir. Mübadilədən qayıtdıqdan sonra dinlədiyi və uğurlu nəticə göstərdiyi fənlərin kreditləri ATM tərəfindən tanınır.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

2017/2022-ci illərdə ATM xarici professor və müəllim heyətini tədris prosesinə fəal şəkildə cəlb etmişdir. Bu müddət ərzində ümumilikdə xarici ölkə vətəndaşı olan 6 müəllim və 2 inzibati heyət müxtəlif tədris və inzibati vəzifələrdə çalışmışdır. Bu əcnəbi şəxslər ATM daxilində müxtəlif departamentlərdə çalışaraq beynəlmilləşmə proseslərinə öz töhfələrini verirlər.

İran vətəndaşı olan 3 nəfər Avtomatika, Telekommunikasiya və Energetika kafedrasında baş müəllim, Kompüter və İnformasiya Texnologiyaları kafedrasında müəllim və İnşaat Mühəndisliyi kafedrasına müəllim olaraq işə qəbul edilmişlər. Albaniyadan olan 1 nəfər Memarlıq və Şəhərsalma kafedrasında, Rusiya Federasiyasından olan 1 nəfər Dövlət və Bələdiyyə İdarəetməsi kafedrasında dosent vəzifəsində çalışmışdır. Gürcüstandan olan 1 professor Maliyyə kafedrasında fəaliyyət göstərmişdir. Bundan əlavə, 2 nəfər Cənubi Koreya vətəndaşı "King Sejong" İnstitutunun ATM daxilində yerləşən filialında qonaq professor kimi fəaliyyət göstərmişdir.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

ATM-də Beynəlmiləlləşmə siyasətinin idarə edilməsi Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi tərəfindən həyata keçirilir. Beynəlmiləlləşmə Strategiyasında qarşıya qoyulan məqsədlərin həyata keçirilmə vəziyyəti və səmərəliliyi mütəmadi olaraq aidiyyəti instansiyalar (rəhbərlik – rektor və Beynəlxalq əlaqələr üzrə prorektor) tərəfindən mütəmadi monitorinq edilir.

Beynəlmiləlləşmə Strategiyasının ayrılıqda səmərəliliyinin monitorinqi olmasa da, beynəlmiləlləşmə istiqaməti üzrə monitorinq iki formada aparılmışdır: Əvvəla monitorinq SİP 2020/2023 sənədində qoyulan hədəflər istiqamətində aparılmışdır. SİP-in illik icrasına dair hesabatlar e-poçt vasitəsilə məsul şəxsə yönləndirilmiş və daha sonra ümumi hesabat Himayəçilər Şurasına təqdim olunmuşdur. Sahə baxışı zamanı ATM tərəfindən Şuranın protokolları Akkreditasiya Komissiyasına təqdim olunmamışdır. İkincisi, strukturlar və tərkibinə daxil olan şöbələrin illik fəaliyyət planı əsasında monitorinq aparılmışdır. İllik fəaliyyət planları rektorluq tərəfindən təsdiqlənir. İllik hesabatlar təqdim olunur və universitetin Elmi Şurasında müzakirə olunur və ehtiyac yarandığı tədqirdə müvafiq qərarlar qəbul edilir və icrasına nəzarət edilir. İllik fəaliyyət planının hesabatlılığı yalnız Elmi Şurada təqdimatlar formasında həyata keçirilmiş və Elmi Şuranın protokolunda qısa formada əksini tapmışdır. Təqdimatlar Elmi Şuranın protokollarına əlavə edilməmişdir.

Elmi Şurada aparılan hesabatlılığın daha da təkmilləşdirilməsi tövsiyə olunur. Məsələn, təqdim olunan təqdimatlar Elmi Şuranın protokoluna əlavə oluna və ya illlik fəaliyyət planı əsasında icra müddətinin sonunda İllik hesabatlar rəhbərliyə təqdim oluna bilər.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Sahə baxışı zamanı ikili diplom üzrə tədris proqramları nəzərdən keçirilmiş və onların Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il 348 nömrəli qərarı

ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydaları"nın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Beynəlmiləlləşmə siyasətində akademik heyətin mübadiləsi çox böyük önəmə malikdir. Mübadilələr daha çox Erasmus+ KA1 və Erasmus+ KA 2 layihələri üzrə həyata keçirilir. Mübadilə dinamikası barədə məlumat Diaqram 7.3 və 7.4-də əks olunmuşdur. Akademik heyətdə sayda artım müşahidə olunsa da, ATM-dən təqdim olunan məlumatlara əsasən 2021-2022 və 2022-2023 akademik ili üzrə hər il 2 nəfər olmaqla administrativ heyət mübadilə proqramlarında iştirak edib.

ATM-də mübadilə imkanları müzakirə olunarkən akademik heyətlə yanaşı inzibati heyətin də bilik və təcrübə mübadiləsinə cəlb olunması məqsədəuyğundur.

**Diaqram 7.3.**

**Akademik heyətin illər üzrə mübadilə dinamikası**




### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ATM-də seçim prosesinin hamıya əlçatan olması üçün məlumatlar sosial media hesablarında, eləcə də daxili yazışmalar vasitəsilə göndərilsə də, hər hansı daxili prosedur qaydası hazırlanmamışdır. Seçim meyarları tərəfdaş universitetlər tərəfindən qeyd olunsa da, oxşar müraciətlərin dəyərləndirilməsi ilə bağlı prosedurun olmaması

şaffaflıq prinsiplərinə ziddir. Bu məqsədlə, maraqlı tərəflərin (kafedralar, dekanlıq, tələbələr və başqaları) iştirakı ilə digər universitetlərin təcrübələri və qanunvericilik nəzərə alınmaqla, ATM daxilində prosedur qaydasının yaradılması məqsədəuyğun hesab edilir. Sahə baxışı zamanı bu istiqamətlər üzrə hazırda müzakirələrin aparıldığı qeyd olunmuşdur.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ATM tələbələri təqdim olunan məlumatlara əsasən 2017-ci ildən mübadilə proqramları vasitəsilə xaricdə qısamüddətli təhsil almaq şansı əldə edirlər. Mübadilə şərtləri barədə məlumatlar tələbələrlə sosial media şəbəkələri üzərindən və e-poçt vasitəsilə paylaşılır. Mübadilədə iştirak etmiş tələbələrin dinamikası hazırlanmışdır. Universitetin yeni yarandığını nəzərə alaraq, tendensiyanın müsbət olduğunu qeyd etmək olar. Lakin mübadiləyə gələn tələbə sayı (2020/2021-ci tədris ili üçün) sadəcə 2 nəfər olmuşdur. ATM-in beynəlmiləlləşməsinin daha da inkişaf etdiriilməsi baxımından mübadilə proqramı üzrə gələn tələbə sayını artırılması, xüsusən inkişaf etməkdə olan ölkələrlə (məsələn, Orta Asiya universitetləri ilə) mübadilə istiqamətində işlərin aparılması tövsiyə olunur.

ATM-də beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin mübadilənin həyata keçirildiyi semestr üçün fənlərinin uyğunluğu FR-033AKTS - Avropa Kredit Transferi və Yığım Sistemi Tanınma Vərəqi adlı sənədlə təsdiqlənir. Bu sənəd mübadilədən əvvəl tərəflər arasında razılaşdırılaraq imzalanır, mübadilədən sonra tələbənin müvəffəqiyyətlə başa vurduğu fənlərin kreditləri ATM tərəfindən tanınır.

ATM-in aşağıda göstərilən sayda tələbələri 2017/2023-cü illər üçün mübadilə proqramlarında iştirak etmişlər:

- 2017/18-ci tədris ili – 12 nəfər;
- 2018/19-cu tədris ili – 8 nəfər;
- 2019/20-ci tədris ili – 7 nəfər;
- 2020/21-ci tədris ili – 8 nəfər;
- 2021/22-ci tədris ili – 16 nəfər;
- 2022/23-cü tədris ili – 8 nəfər.

**Diaqram 7.4.**

**Mübadilə proqramına tələbələrin iştirak dinamikası**




### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Beynəlxalq reytinqlərini yaxşılaşdırmaq və müxtəlif reytinq cədvəllərində nəzərəçarpacaq tanınma əldə etmək üçün ATM-də xeyli işlər görülmüşdür. Belə ki, ATM QS World University Rankings və Times Higher Education (THE) World University Rankings kimi beynəlxalq universitet reytinqlərinə daxil olmaq üçün əməkdaşlıq və təşəbbüsləri fəal şəkildə davam etdirmişdir.

**Şəkil 7.1.**
**ATM-in beynəlxalq reytinqi barədə məlumat**




BMU aşağıdakı beynəlxalq reytinqlərdə yer almışdır:

**QS World University Rankings 2022:** BMU Azərbaycanın digər altı universiteti ilə birlikdə QS World University Rankings tərəfindən dərc olunan Avropa və Mərkəzi Asiyada inkişaf etməkdə olan ölkələrin 2022-ci il reytinq cədvəlinə daxil olmuş və 401-450 aralığındakı sıralamada yerləşmişdir. Bu sıralamada tədrisin keyfiyyəti, əcnəbi tələbələrin nisbəti, işəgötürənlərin reputasiyası və akademik reputasiya kimi amillər nəzərə alınmışdır.

**Times Higher Education Impact Rankings 2023**: BMU həm də Times Higher Education Impact Rankings 2023-də tanınmışdır. Bu sıralama universitetlərin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (SDG) nail olunmasına necə töhfə verdiyini qiymətləndirməyə yönəldilməsi ilə seçilir. Qiymətləndirmə 17 DİM-in hamısını əhatə edir və ali təhsil müəssisələrinin müxtəlif istiqamətlər üzrə fəaliyyətini qiymətləndirir.

BMU beynəlxalq reytinq sistemləri ilə fəal şəkildə məşğul olmuş və qlobal ali təhsil mənzərəsinin mühüm aspekti olan davamlı inkişaf məqsədlərinə sadiqliyini nümayiş etdirmişdir. Bu reytinqlər potensial tələbələrə, tədqiqatçılara və institutlara universitetlərin keyfiyyətini və qlobal miqyasda təsirini ölçməkdə kömək edə bilər.

## *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Beynəlmiləlləşmə Strategiyasının daxilində maliyyə resursları barədə məlumat qeyd olunmamışdır.

c) Erasmus+ KA1 üzrə həm akademik/inzibati, həm də tələbə mübadiləsinin xərcləri Avropa Komissiyasının qrantları hesabına maliyyələşmişdir;

d) Erasmus+ KA2 üzrə ATM-in tərəfdaş olduğu ali təhsil müəssisələrində potensialın gücləndirilməsi layihələrində ezamiyyə xərcləri, hədiyyə olunan laboratoriyalar və s. Avropa Komissiyasının qrantları hesabına maliyyələşmişdir;

e) Beynəlxalq Konfranslarda iştirak həm akademik heyətin öz hesabına, həm də ATM hesabına ödənildiyi qeyd olunsa da, sonuncu ezamiyyə xərclərini təsdiq edən məlumat təqdim olunmamışdır;

f) SİP-ə əsasən beynəlxalq təhsil sərgilərində iştirak nəzərdə tutulsa da, 3 il ərzində sərgilərdə iştirak təmin olunmayıb və ATM tərəfindən bu istiqamətdə maliyyə resursu ayrılmayıb.

Eramus+ KA2 layihələrinin əksəriyyətinin maliyyə göstəriciləri Özünütəhlil hesabatında göstərilsə də, bir neçəsi barədə məlumat qeyd olunmamışdır.

Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclərə dair ATM tərəfindən təqdim olunan məlumatlarda qrantlardan və layihələrdən 2019-2022-ci illər üzrə əldə olunan maliyyə

vəsaitləri aşağıdakı cədvəldə göstərilmişdir. Gəlirlərin bölgüsü barədə detallı məlumat ATM tərəfindən təqdim olunmamışdır.

**Cədvəl 7.3.**

**ATM-in əlavə maliyyə təminatı barədə məlumatlar**

| Maliyyə təminatı (AZN) | | | | | | |
|---|---|---|---|---|---|---|
| № | **Təhsil müəssisəsinin maliyyə təminatı** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
| 1 | Qrant və layihələrdən əldə olunan gəlirlər | 139870.11 | 124670.00 | 268618.63 | 860015.98 | 255582.76 |

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ATM-də həyata keçirilən mübadilə və qrant proqramları çərçivəsində professor-müəllim heyətinin və təhsil alanların, o cümlədən inzibati heyətin mübadiləsi, elmi-tədqiqat proqramları çərçivəsində isə tələbə və əməkdaşların qısamüddətli təcrübə keçmələri təşkil edilmişdir. Eyni zamanda beynəlmiləlləşmə siyasətinin icrası istiqamətində müxtəlif vaxtlarda əcnəbi müəllimlər ATM-də tədrisə cəlb olunmuş, ikili diplom proqramları çərçivəsində tələbələrin təhsilinin bir hissəsini (yarısını) xaricdə (tərəfdaş universitetdə) almaq imkanı əldə etmişdir.

ATM-də Beynəlmiləlləşmə siyasətinin icrasına 2017/2022-ci illər ərzində akademik və inzibati heyətdən 232 nəfər, 2017/2023-cü illər ərzində tələbə heyətindən 59 nəfər cəlb edilmişdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Beynəlmiləlləşmə Strategiyasında infrastrukturla bağlı məqamlar qeyd olunmasa da, bu öz əksini SİP 2020/2023 sənədində tapmışdır. Ümumiyyətlə, Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üçün ATM-də lazım olan infrastruktur mövcuddur. ATM-də 18 ixtisas üzrə ingilis dilində tədris aparılır. Beynəlxalq qrant layihələrində fəal iştirak etməklə, ATM-in kadr potensialının yüksəldilməsi, yeni laboratoriyaların (Kompüter və İnformasiya texnologiyaları kafedrasında, Avtomatika, telekommunikasiya və energetika kafedrasında) yaradılması, tədris proqramları və tədris materialları (dərslik, dərs vəsaitləri və s.) ilə təchiz edilməsi ilə nəticələnmişdir ki, bu da təhsilin keyfiyyətini artırmağa xidmət edən amillər kimi müəyyən edilmişdir. Layihələr və onların nəticələri barədə 7.1.5-ci bənddə ətraflı məlumat qeyd olunmuşdur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

ATM-də beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan maddi və insan resurslarının monitorinqi və qiymətləndirilməsi sistematik aparılmır. Beynəlmiləlləşmə strategiyasında və SİP 2020/2023 sənədində monitorinq ilə bağlı hər hansı prosedur yaxud fəaliyyət qeyd olunmamışdır. Bu məsələnin 2023/2024-cü tədris ilindən etibarən mütəmadi olaraq həyata keçirilməsini nəzərdə tutan mexanizmlərin yaradılması və müvafiq islahatların aparılması planlaşdırılır.

ATM-də maliyyə resurslarına monitorinq Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və Audit şöbəsi tərəfindən həyata keçirilir.

Eyni zamanda ötən tədris ilində tələbələr arasında keçirilən sorğulara əsasən demək olar ki, ATM-in Xarici Əlaqələr və Layihələrin İdarə olunması şöbəsinin fəaliyyətinin məmnunluq göstəricisi 71.26%, tələbələrin mübadilə proqramları barədə məlumatlılıq səviyyəsi 61.69% olmuşdur.

## *7.4 Beynəlmiləlləşmə performansı*

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

ATM-in beynəlmiləlləşmə prosesində hədəflərə çatmaq üçün müxtəlif struktur bölmələrinin birgə fəaliyyəti barədə məlumatlara SİP 2020-2023 sənədində rast gəlinmişdir. Hesabatlılıq və monitorinq isə Xarici Əlaqələr və Layihələrin İdarə Edilməsi şöbəsi və İkili diplom proqramının idarə edilməsi şöbəsi tərəfindən aparılmış, öncədən qeyd olunduğu kimi SİP-in hesabatlılığının bir parçası olaraq məsul şəxsə təqdim olunmuşdur. Lakin, dinamikanın nəticələrinə görə hər hansı yeni addımlar təyin olunmamışdır.

### 7.4.2 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyac əsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Respublikada ali təhsil sisteminin beynəlmiləlləşmə məsələləri aktuallaşdığı dövrdə ATM-də təhsilin beynəlxalq standart və meyarlara uyğun tədris proqramları və metodları əsasında təşkilinə, rəqabətədavamlı məzun və kadr hazırlığının aparılmasına və təkmilləşdirilməsinə xüsusi önəm verilmişdir. Beynəlxalq təcrübəyə əsaslanaraq, beynəlmiləlləşmə prosesi çərçivəsində tədqiqat işinin təşkili üçün ATM-də müvafiq infrastrukturun təkmilləşdirilməsi, beynəlxalq tədqiqat şəbəkələrinin gücləndirilməsi yolu ilə tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi, beynəlxalq mübadilə proqramlarında tələbələrin, professor-müəllim heyətinin iştirakının, akademik və inzibati heyətin beynəlxalq təlimlərdə iştirakının təmin edilməsi və s. fəalyyətlər həyata keçirilir. Bu

məsələlərdə ATM-in Xarici əlaqələr və layihələrin idarə olunması şöbəsi önəmli rol oynayır, beynəlmiləlləşmənin inkişafı üçün müəyyən olunmuş əsas fəaliyyət göstəricilərinin təkmilləşdirilməsinə, nəticələnməsinə nəzarət edir və digər struktur bölmələrin bu istiqamətdə fəaliyyətlərinə dəstək olur.

Beynəlxalq əlaqələr üzrə prorektorluğun tərkibinə daxil olan strukturlarla sahə görüşü zamanı təkmilləşdirmə fəaliyyətləri barədə fəaliyyətlərin az olduğu müşahidə olunmuşdur. Tələbələr arasında keçirilmiş sorğudan strukturun fəaliyyətinə aid hissə Özünütəhlil hesabatında da qeyd olunmuşdur.

**Şəkil 7.1.**

**Tələbələr arasında keçirilmiş sorğunun nəticələri**

| 9 | Universitetin xarici əlaqələrlə bağlı fəaliyyətlərindən məmnunam. | | | |
|---|---|---|---|---|
| 3525 cavab | Tamamilə razıyam | | 31% | 71.26% ortalama |
| | Razıyam | | 37% | |
| | Cavab verməkdə çətinlik çəkirəm | | 23% | |
| | Razı deyiləm | | 5% | |
| | Qətiyyən razı deyiləm | | 4% | |

| 10 | Universitetdəki tələbə mübadilə proqramlarından xəbərdarsınızmı? | | | |
|---|---|---|---|---|
| 3524 cavab | Bəli | | 44% | 61.69% ortalama |
| | Xeyr | | 35% | |
| | Maraqlanmıram | | 21% | |

Strukturun fəaliyyət istiqamətinin çox geniş olduğunu nəzərə alaraq təkmilləşdirmə və ölçmə fəaliyyətləri üçün bir çox sorğular və görüşlər keçirilə bilər.

1) Sahə baxışı zamanı müəyyən edilmişdir ki, mübadilədə iştirak etmiş akademik/inzibati və tələbə kontingenti arasında qayıtdıqdan sonra mübadilə barədə ümumi fikirlərini öyrənmək barədə sorğular keçirilməmişdir. Məlumatların toplanması nəticəsində qarşı tərəfə prosesin necə daha effektiv təmin olunması barədə geri dönüş edilməsi düzəldici fəaliyyət ola bilər;
2) Hesabatların təqdim olunduğu Elmi Şuradan sonra hər hansı bir məsələ ilə bağlı düzəldici fəaliyyətin hesabata rast gəlinməmişdir.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. Qısa və ortamüddətli dövrü əhatə edən SİP-in mövcudluğu və strateji məqsəd və hədəflər üzrə görüləcək tədbirlərin əks olunması;<br>2. SİP hazırlanan zaman GZİT təhlilin aparılması;<br>3. SİP-də müəyyən edilən strateji baxışın əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu;<br>4. SİP-də müəyyən edilən istiqamətlərin ATM-in qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu;<br>5. Tədqiqat və innovasiyaların prioritet olaraq göstərilməsi;<br>6. Sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi və əqli mülkiyyətin qorunması kimi məqamların SİP-də ehtiva edilməsi;<br>7. SİP-in icrasına ümumi nəzarətin Himayəçilər Şurası tərəfindən aparılması. |
| **Zəif tərəflər** | 1. SİP-in hazırlandığı dövrü və hazırlanması mərhələlərini əhatə edən sənədləşmənin olmaması;<br>2. SİP-in müvafiq prosedurlara uyğun təsdiqlənməməsi;<br>3. SİP-in hazırlanması zamanı müxtəlif ixtisas sahələri üzrə işəgötürənlərin birbaşa iştirakının təmin edilməməsi;<br>4. SİP-in hazırlanmasında maraqlı tərəflərin (struktur bölmələrinin rəhbərlərinin, tələbələrin və əməkdaşların) birbaşa iştirakının təmin edilməməsi və onların iştirakını təsdiqləyən sənədləşmənin olmaması;<br>5. SİP-in icrasına birbaşa və mütəmadi nəzarət edən strukturun olmaması və SİP-ə əlçatanlığın zamanında təmin edilməməsi;<br>6. SİP-in tədbirlər planında əksər fəaliyyətlər üzrə ölçüləbilən hədəflər qeyd olunsa da, kəmiyyət göstəricilərinin müəyyən edilməsini əsaslandıran, əvvəlki illər ilə müqayisəli təhlili əks etdirən müvafiq sənədin olmaması;<br>7. SİP-də nəzərdə tutulmuş fəaliyyətlərin icra edilməsi üçün maliyyə planlaşdırılmasının nəzərə alınmaması;<br>8. SİP-in hədəflərinin reallaşdırılması zamanı qarşılanacaq risklərin nəzərə alınmaması; |

| | |
|---|---|
| | 9. SİP-in icrası üzrə bir sıra struktur bölmələrinin fəaliyyət planlarının olmaması, kafedra və fakültələrin fəaliyyət planlarının və hesabatlarının SİP-in strateji istiqamətlərinə və hədəflərinə uyğunluğunun gözlənilən səviyyədə təmin edilməməsi;<br>10. SİP-in icrası çərçivəsində hesabatlılıq mexanizminin aydın olmaması və SİP-in istiqamətlərini nəzərə alan rəsmi hesabat formasının olmaması;<br>11. Struktur bölmələrinin SİP üzrə fəaliyyətlərinin monitorinqi mexanizmininin olmaması və monitorinqin nəticələrinə görə tədbirlərin görülməməsi. |
| **İmkanlar** | 1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası” çərçivəsində ali təhsil müəssisələrinin davamlı inkişafı və dünya standartlarına uyğunlaşdırılması üçün dövlət dəstəyinin olması;<br>2. SIP-in icrasının monitorinqi, qiymətləndirilməsi və nəzarət mexanizminin yaradılması üçün imkanların olması;<br>3. Əcnəbi ölkələrin nüfuzlu universitetləri ilə əməkdaşlıq imkanlarının olması;<br>4. Universitet-sənaye əməkdaşlığı üçün şəraitin mövcud olması;<br>5. ATM-in təhsil-tədqiqat-innovasiya mərkəzi kimi əmək bazarında təcrübəsinin olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. SİP-in fəaliyyət planlarının icrasına birbaşa nəzarət edən və əlaqədar məsələləri koordinasiya edən struktur bölməsinin olması;<br>2. Ölkənin inkişaf istiqamətlərinin, əmək bazarının və cəmiyyətin tələbləri əsasında hədəflərin daha optimal müəyyən edilməsi üçün müxtəlif ixtisaslar üzrə bütün maraqlı tərəflərin daxil olduğu işçi qrupunun yaradılması, işəgötürənlər arasında sorğunun keçirilməsi və hesabatlılığı təmin etmək üçün müvafiq sənədləşdirmənin aparılması;<br>3. SİP-in istiqamətləri üzrə maliyyə planlaşdırılmasının nəzərə alınması;<br>4. SİP-in icrası üzrə ölçüləbilən hədəflərin kəmiyyət göstəriciləri nəzərə alınmaqla fəaliyət planının hazırlanması və icrası üzrə illik hesabatların aparılması;<br>5. Struktur bölmələrinin fəaliyyət planlarının SİP-in strateji istiqamətləri və hədəflərinə uyğunlaşdırılması;<br>6. Təsdiq edilmiş rəsmi hesabat və monitorinq mexanızmı əsasında SİP üzrə fəaliyyətlərin qiymətləndirilməsi və monitorinq prosesinin sənədləşdirilməsi;<br>7. Dinamik strateji planlamanı nəzərə alaraq fəaliyyət planlarının tədris ilinin tələbləri əsasında yenilənməsi. |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | 1. KT strukturlarının mövcudluğu;<br>2. KT sistemi üzrə təlimatları özündə cəmləşdirən “Keyfiyyət əl kitabı” sənədinin mövcud olması;<br>3. Keyfiyyət mədəniyyətinin formalaşdırılması məqsədilə ATM-in əməkdaşları və təhsilanlar üçün mütəmadi təlimlərin keçirilməsi;<br>4. KT şöbəsində çalışan əməkdaşların bu sahə üzrə keçirilən tədbirlərdə, konfranslarda iştirak edərək yeni təcrübələri öyrənməsi;<br>5. ATM-də müxtəlif istiqamətlər üzrə anonim sorğuların keçirilməsi;<br>6. Əksər fəaliyyətlər üzrə vahid sənəd formalarının mövcudluğu və ATM nümayəndələri üçün EMS üzərindən əlçatanlığının təmin edilməsi;<br>7. Struktur bölmələrinin ATM-in KT siyasəti ilə tanış olması. |
| **Zəif tərəflər** | 1. ATM-in ayrıca “Keyfiyyət siyasəti” sənədinin olmaması;<br>2. ATM-də fəaliyyət göstərən KT şöbəsi və KT komissiyasının vəzifə və səlahiyyətlərinin təkrarlanması;<br>3. KT Komissiyası tərkibinə bütün maraqlı tərəflərin cəlb edilməməsi;<br>4. “Keyfiyyət əl kitabı” sənədinin universitet xaricində əlçatan olmaması;<br>5. Keyfiyyət təminatı sistemində hesabatlılığın zəif olması;<br>6. ATM-də keçirilən təhlil və ölçmə nəticəsində həyata keçirilən tədbirlərin sənədləşdirilməməsi;<br>7. ATM-in SİP-ində KT üzrə istiqamətlər və hədəflərin qoyulmaması. |
| **İmkanlar** | 1. Yeni istiqamətlər üzrə sorğuların keçirilməsi üçün EMS-in mövcudluğu;<br>2. Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi;<br>3. Mövcud insan resurslarının potensialından daha effektiv şəkildə istifadə olunması;<br>4. ATM-in mövcud maddi-texniki bazasından daha səmərəli şəkildə istifadəsi nəticəsində tədris keyfiyyətinin yüksəldilməsi;<br>5. Mövcud KT siyasəti nəticəsində ATM-in nüfuzunun yüksəldilməsi. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-in ayrıca “Keyfiyyət siyasəti” sənədinin hazırlanması, təsdiq olunması və tam (universitetdən kənar) əlçatanlığının təmin edilməsi;<br>6. KT Komissiyasının tərkibinin vaxtaşırı yenilənməsi və maraqlı tərəflərin Komissiyanın işinə cəlb edilməsi;<br>2. KT Komissiyası üçün ayrıca Əsasnamənin hazırlanması, fəaliyyət, vəzifə və öhdəliklərinin aydın şəkildə tərtib edilməsi;<br>3. “Keyfiyyət əl kitabı” sənədinin əlçatanlığının təmin olunması (ATM-in veb saytına yerləşdirilməsi) ;<br>4. Sorğuların hazırlanması və tərtibatı prosesinə müvafiq fəaliyyəti icra edən struktur bölmələrinin cəlb edilməsi;<br>5. ATM-də keçirilən sorğu nəticələrinin təhlili üçün standartların (hesabat forması) tərtib edilməsi, bütün struktur bölmələr tərəfindən müvafiq hesabatların hazırlanması və rəhbərlik tərəfindən təsdiq edilməsi. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tələbələrin dərsdənkənar müstəqil hazırlığının professor-müəllimlər tərəfindən dəstəklənməsi;<br>2. Tədris prosesinin idarə olunması və optimallaşdırılması məqsədilə EMS-in istifadəsi;<br>3. Əmək bazarının tələblərinə uyğun olaraq, həm bakalavriat, həm də magistratura səviyyəsində müasir ixtisaslar üzrə tələbə qəbulunun həyata keçirilməsi və qəbul planının ilbəil artması;<br>4. ATM-də iki xarici dil mərkəzinin fəaliyyət göstərməsi və ingilis dilində tədrisin mövcudluğu;<br>5. İkili diplom proqramlarının həyata keçirilməsi;<br>6. Tələbələrin elmi tədqiqatlara, beynəlxalq konfranslara və s. cəlb edilməsi;<br>7. Sənaye müəssisələri ilə əlaqələrin olması və onların nümayəndələrinin tədrisə cəlb edilməsi;<br>8. İxtisaslaşmış tədris laboratoriyalarının və kompüter sinflərinin mövcudluğu, bəzi tədris laboratoriyalarının müasir avadanlıqlarla təchiz olunması;<br>9. Magistratura və bakalavriat səviyyələrində təcrübələrin ixtisaslara uyğun müəssisələrdə keçirilməsi. |
| **Zəif tərəflər** | 1. Təhsil proqramlarının qiymətləndirilməsi üçün mexanizmin olmaması;<br>2. Təhsil proqramlarına uyğun təlim nəticələrinin monitorinqinin zəif olması; |

| | |
|---|---|
| | 3. Təhsil proqramları üzrə illik monitorinq və qiymətləndirmə hesabatlarının olmaması;<br>4. İnklüziv təlim-tədris prosesinin təşkilli üçün daxili qaydaların nəzərdə tutulmaması;<br>5. Kitabxananın müasir tələblərə cavab verməməsi, oxu zalının tələbə sayına nisbətinin uyğun olmaması, elektron kitabxana fondunun olmaması;<br>6. Universitetin maddi-texniki tədris bazasının təhsilalanların sayına nisbətdə uyğunluq təşkil etməməsi, ağıllı lövhələrin və proyektorların, xarici dil dərsləri üçün audio-video texnikanın yetərincə olmaması. |
| **İmkanlar** | 1. Əmək bazarının tələblərinə uyğun müasir ixtisaslar üzrə mütəxəssislərin hazırlanması;<br>2. İnkişaf etmiş ölkələrin aparıcı universitetləri ilə birgə ikili diplom proqramlarının həyata keçirilməsinin genişləndirilməsi;<br>3. Təhsil proqramlarının məzmununun müasirləşdirilməsi və təkmilləşdirilməsinə maraqlı tərəflərin (işəgötürənlərin, sənaye müəssisələrinin, digər elm və təhsil müəssisələrinin) nümayəndələrinin cəlb edilməsi;<br>4. Beynəlxalq proqramlar çərçivəsində dünyanın aparıcı universitetləri ilə mübadilə proqramlarında iştirak;<br>5. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyaların öyrənilməsi və tətbiqi;<br>6. Xarici universitetlərin mütəxəssisləri ilə birgə ən müasir texnologiyalar üzrə dərslik və dərs vəsaitinin hazırlanması;<br>7. Distant təhsil texnologiyalarının, interaktiv və aktiv tədris metodlarının öyrənilməsinə və tədris prosesində tətbiqinə yönəlmiş sistemli təlimlərin təşkil edilməsi;<br>8. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarların, differensiallaşdırılmış əmək haqqının tətbiqi;<br>9. ATM-in sənayedən sifarişlər qəbul etməsi üçün Texnoparkın imkanlarından istifadə edilməsi;<br>10. ATM-in laboratoriya bazalarının yenilənməsində və ya yaxşılaşdırılmasında öz vəsaitləri ilə yanaşı, tərəfdaş şirkət və müəssisələrin maliyə dəstəyindən istifadə olunması;<br>11. İstehsalat şirkətləri ilə birgə tədris prosesində müxtəlif layihələrin icrası. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-in maddi-texniki tədris bazasının büdcə və ya sponsorlar vasitəsi ilə müasir avadanlıqlarla təmin edilməsi və təkmilləşdirilməsi;<br>2. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün İKT vasitələrinin tələbə sayına uyğunlaşdırılması; |

| | |
|---|---|
| | 3. ATM-in laboratoriyalarının sənayedən sifarişlər qəbul etməsi üçün mexanizmlərin qurulması və bu məqsədlə Texnoparkın imkanlarından istifadə edilməsi;<br>4. Tədris laboratoriyalarında mövcud olan cihaz və avadanlıqların təlim-tədris prosesində səmərəli istifadəsi üçün mütəmadi texniki baxışdan keçirilməsi və təkmilləşdirilməsi;<br>5. Kadr hazırlığında və tədris materiallarının seçilməsində sənayedən gələn tələb və təkliflərin nəzərə alınması, sənaye-universitet əməkdaşlığının genişləndirilməsi;<br>6. Təhsil proqramlarına uyğun təlim nəticələrinin monitorinqi üçün mexanizmlərin yaradılması;<br>7. İnklüziv təlim-tədris prosesinin təşkilli üçün daxili qaydaların hazırlanması;<br>8. Professor-müəllim heyətinin və tələbələrin korporativ e-poçt ünvanları vasitəsilə elmmetrik bazalara çıxışının təmin olunması;<br>9. Kitabxananın fəaliyyətinin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, kitabxana-informasiya xidmətinin yaradılması;<br>10. Təhsil proqramlarının qiymətləndirilməsi üçün işəgötürənlərin və maraqlı tərəflərin nümayəndələri cəlb edilməklə fəaliyyət planının və strategiyanın hazırlanması;<br>11. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) təhsilalanlar tərəfindən seçilməsi imkanlarının yaradılması. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Elmi-tədqiqat infrastrukturunun mövcudluğu, bəzi tədris laboratoriyalarının elmi tədqiqatlar üçün istifadəsi;<br>2. BMU-da 6 elmi jurnalın çap olunması;<br>3. Universitet tərəfindən beynəlxalq və respublika səviyyəli elmi-praktik konfransların təşkili, digər ölkələrin universitetləri ilə birgə konfransların keçirilməsi;<br>4. ATM-də doktoranturanın fəaliyyət göstərməsi və hər il müəyyən ixtisaslar üzrə doktorantların qəbul edilməsi;<br>5. Aktiv elmi tədqiqatla məşğul olan akademik heyətin təqdiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcud olması və dərc olunan məqalələrin müsbət dinamikası; |

| | |
|---|---|
| | 6. ATM-in əməkdaşlarının elmi əsərlərinin beynəlxalq indeksli bazalara (Web of Science, Scopus və Google Scholar) daxil olan jurnallarda çap olunması, istinad indekslərinin artması;<br>7. Nüfuzlu elmi nəşrlərdə əsərləri çap edilən əməkdaşların mükafatlandırılması. |
| **Zəif tərəflər** | 1. ATM-in 2020/2023-cü il üçün SİP-i əsasında 2020/2023-cü illəri əhatə edən genişləndirilmiş elmi-tədqiqat strategiyasının, fəaliyyət planlarının və hesabatların olmaması, belə startegiyanın 2023-cü ilin sentyabr ayında hazırlanması, lakin hələ də təsdiq edilməməsi, bu strategiyada professor-müəllim heyətinin performansının, maraqlı tərəflərin iştirakının, maliyyə planlamasının nəzərə alınmaması;<br>2. Ölkədə fəaliyyət göstərən digər universitetlər və habelə xarici universitetlərlə geniş elmi-tədqiqat əlaqələrinin olmaması;<br>3. ATM-də mövcud olan laboratoriyalardan elmi-tədqiqat üçün istifadəsinin zəif olması;<br>4. Universitetin əsas elmi tədqiqat istiqamətlərinin beynəlxalq səviyyədə qəbul olunmuş müasir tendensiyalarla tam uzlaşmaması;<br>5. ATM-də tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının kifayət qədər olmaması;<br>6. Son illərdə elmlər doktoru proqramı üzrə qəbulun keçirilməməsi və elmlər doktoru proqramı üzrə elmi kadr hazırlığının aparılmaması;<br>7. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların (magistratura və doktorantura tələbələrinin) sayının çox az olması;<br>8. ATM-də mövcud olan laboratoriyalardan elmi-tədqiqat üçün istifadəsinin zəif olması;<br>9. ATM-də elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin olmaması. |
| **İmkanlar** | 1. Ölkədə fəaliyyət göstərən digər universitetlər və şirkətlərlə birlikdə müxtəlif elmi-tətqiqat və praktiki layihələrin həyata keçirilməsi;<br>2. Elmi-tədqiqat işlərinin nəticələrinin sənayedə tətbiqi və əlavə maliyyə vəsaitinin əldə edilməsi;<br>3. Mövcüd kadr potensialından, elmi-tədqiqat laboratoriyalarının və Texnoparkın imkanlarından istifadə etməklə əlavə gəlirlərin əldə edilməsi;<br>4. Mövcud elmi-tədqiqat infrastrukturunun, elmi-tədqiqat laboratoriyalarının, habelə Texnoparkın imkanlarından istifadə etməklə tədqiqatların daha da artırılması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-in genişləndirilmiş elmi-tədqiqat strategiyasının hazırlanması, bu strategiyada elmi-tədqiqat siyasətinin və məqsədlərinin daha aydın təqdim edilməsi, prioritet tədqiqat sahələrinin müəyyənləşdirilməsi;<br>2. SİP-in elmi-tədqiqat strateji istiqaməti üzrə hədəflərinin genişləndirilmiş elmi-tədqiqat strategiyasının hədəfləri ilə uyğunlaşdırılması;<br>3. Tədris prosesində iştirak edən elmlər doktorlarının və professorların sayının artırılması istiqamətində tədbirlərin görülməsi;<br>4. Elmi-tədqiqatın təşviqi üçün differensial əmək haqqı sisteminin formalaşdırılması;<br>5. Ölkədə fəaliyyət göstərən digər universitetlərlə, habelə xarici universitetlərlə elmi-tədqiqat əlaqələrinin genişləndirilməsi;<br>6. BMU-nun əsas elmi-tədqiqat istiqamətlərinin beynəlxalq səviyyədə qəbul olunmuş müasir tendensiyalara uyğunlaşdırılması;<br>7. BMU-nun profilinə uyğun elmi tədqiqatların daha məqsədyönlü aparılması üçün ən yeni ixtisaslar üzrə elmi kadr hazırlığının genişləndirilməsi;<br>8. Beynəlxalq səviyyəli alim və mütəxəssislərin birgə elmi tədqiqatlara, magistr və doktorantlar üçün elmi rəhbərlərin və elmi məsləhətçilərin cəlb edilməsi;<br>9. Alimlərin universitet hesabına xaricdə keçirilən beynəlxalq səviyyəli, nüfuzlu elmi-praktik konfranslara göndərilməsi;<br>10. Magistr və doktorantlar üçün dissertasiya mövzularının əmək bazarının tələblərinə uyğun seçilməsi. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in Himayəçilər Şurasında işəgötürənlərin nümayəndələrinin təmsil olunması;<br>2. Tələbə təşkilatlarının (Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti və s.) idarəetmə prosesində təmsil olunması;<br>3. ATM-də EMS-in yaradılması və fəaliyyət göstərməsi;<br>4. ATM-də professor-müəllim heyətinin motivasiyasını yüksəltmək məqsədilə indeksli bazalara daxil olan impakt faktorlu jurnallarda məqalələri çap olunan şəxslərin bir dəfəlik mükafatlandırılması; |

| | |
|---|---|
| | 5. Gənc, istedadlı, perspektivli və xarici ölkə universitetlərində təhsil almış şəxslərin tədris prosesinə cəlb olunması;<br>6. BMU əməkdaşlarının və müəllimlərin ixtisaslarının artırılması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə xarici ölkələrin universitetlərində təcrübə mübadiləsinin təşkil edilməsi;<br>7. İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən ATM-in sosial media hesabında və rəsmi veb saytında operativ və düzgün xəbərlərin paylaşılmasının təmin edilməsi;<br>8. ATM-də müxtəlif dövlət bayramları, əlamətdar hadisələrlə (Zəfər günü, Anım günü və s.) və tarixi günlərlə bağlı tədbirlərin və görüşlərin keçirilməsi və bu tədbirlərdə tələbələrin cəlb olunması. |
| **Zəif tərəflər** | 1. BMU-da professor-müəllim heyətinin motivasiyasının artırılması üçün differensiallaşdırılmış əmək haqqı sisteminin mövcud olmaması;<br>2. Akademik heyət arasında ştatda olanların say tərkibinin az olması, kafedralarda çox sayda müəllimlərin əvəzçiliklə və ya saat hesabı ödənilməklə tədris prosesinə cəlb edilməsi;<br>3. SİP-də nəzərdə tutulan hədəflərin icrasına nəzarətin zəifləməsi və tam icraya nail olunmaması;<br>4. BMU-da mərkəzləşdirilmiş monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma sisteminin olmaması;<br>5. ATM-in maliyyə strategiyasının onun SİP-nə uyğunlaşdırılmaması;<br>6. Maliyyə resurslarının orta müddətli dövr (3 və 5 illik) üçün planlaşdırılmaması;<br>7. Əlavə maliyyə resurslarının əldə edilməsi imkanlarının zəif olması;<br>8. Sosial media hesabları üzərindən universitetin fəaliyyətinin işıqlandırılması;<br>9. ATM-də müxtəlif dövlət bayramları, əlamətdar hadisələrlə (Zəfər günü, Anım günü və s.) və tarixi günlərlə bağlı tədbirlərdə və görüşlərdə xarici tələbələrin iştirakının təmin edilməməsi. |
| **İmkanlar** | 1. BMU-nun strateji idarəetməsində keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi;<br>2. BMU-da professor-müəllim heyətinin motivasiyasının artırılması üçün differensiallaşdırılmış əmək haqqı sisteminin hazırlanması və tətbiqi;<br>3. Maddi-texniki baza, kadr potensialı, ixtisasartırma fakültəsi və s. imkanlarından istifadə etməklə əlavə maliyyə resurslarının əldə edilməsi;<br>4. Maliyyə resurslarının orta müddətli dövr (3 və 5 illik) üçün planlaşdırılması;<br>5. Əlavə maliyyə resurslarının əldə edilməsi imkanlarının reallaşdırılması; |

| | |
|---|---|
| | 6. BMU-nun struktur bölmə rəhbərlərinin kvalifikasiya (peşəkarlıq) və kompetensiyalarının (səriştəsi) səviyyələrinin mövcud tələblərə və funksional vəzifələrinə uyğunluğunun təmin edilməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. BMU-nun Tədris hissəsi və Metodiki işlər şöbələrinin birləşdirilməsi və funksional vəzifələrinin nizamlanması;<br>2. ATM-də mərkəzləşdirilmiş monitorinq, təhlilaparma, qiymətləndirmə və proqnozlaşdırma sisteminin yaradılması;<br>3. ATM-in professor-müəllim heyətinin ixtisasartırma və stajkeçmə kurslarında iştirakının təmin edilməsi;<br>4. BMU-da əlavə maliyyə resurslarının əldə edilməsi imkanlarının təkmilləşdirməsi;<br>5. BMU-nun saytında məlumatların dəqiqliyinə diqqət yetirilməsi, universitetin akkreditasiyası, strateji inkişafı və s. ilə bağlı məlumatların çevik yerləşdirilməsinə nəzarətin artırılması;<br>6. Qısamüddətli perspektivdə saytda funksionallığı təmin etmək üçün komissiya rəylərinin nəzərə alınması, uzun müddətli perspektivdə saytın yenilənməsinin nəzərdə tutulması;<br>7. BMU-da professor-müəllim heyətinin motivasiyasının artırılması məqsədilə diferensiallaşdırılmış əmək haqqı sisteminin tətbiqi. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in kampusunun geniş ərazisinin (20 hektar) və 5 tədris korpusunun olması;<br>2. Elmi-tədqiqat işlərinin aparılmasına imkan verən bir sıra avadanlıq və cihazlarla təmin olunmuş (Respublikada yalnız BMU-da olan) Texnoparkın olması;<br>3. Ərazidə alternativ enerji mənbəyi olan günəş batareyalarının və yardımçı tikilinin mövcudluğu;<br>4. Hər korpusun özünün ayrıca qazanxanasının olması;<br>5. ATM-də müxtəlif tədris laboratoriyalarının və emalatxanaların mövcudluğu;<br>6. Bakı şəhəri ilə universitet arasında 2 xətt üzrə fəaliyyət göstərən iri tutumlu ictimai nəqliyyat vasitəsinin mövcudluğu;<br>7. ATM-in müxtəlif bölmələri tərəfindən hazırlanmış məlumatları əhatə edən və mərkəzləşdirən "AZUMİS" Elektron Məlumat Sisteminin olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. ATM-in Bakı şəhərindən uzaq məsafədə yerləşməsinin təhsilalanların, akademik və inzibati heyətin cəlb olunmasına təsir göstərməsi;<br>2. Tədris laboratoriyalarının maddi-texniki bazasını təşkil edən avadanlıqların, dəzgahların, stendlərin, əyani tədris vəsaitləriin, kompüterlərin və s. köhnəlməsi.<br>3. Kitabxanada vahid oxu zalının mövcud olmaması.<br>4. ATM-də inklüzivliyin nəzərə alınmaması.<br>5. ATM əməkdaşlarının daşınması üçün servis xidmətinin olmaması;<br>6. Oğlanlar yataqxanasının yarısının tədris üçün istifadə olunması;<br>7. Yataqxanalarda ilkin tibbi yardım xidmətinin olmaması;<br>8. Qapalı idman zalının olmaması və açıq idman meydançalarında şəraitin qənaətbəxş olmaması. |
| **İmkanlar** | 1. Kampusun ərazisində yeni tədris korpuslarının tikilməsinin mümkünlüyü;<br>2. Əlavə gəlirlər əldə etmək məqsədi ilə Texnoparkdan istifadə imkanları;<br>3. Alternativ enerji mənbələrindən istifadə imkanları. |
| **Komissiyanın tövsiyəsi** | 1. Bakı şəhərinin müəyyən nöqtələrindən əməkdaşların universitetə daşınmasını həyata keçirən servis xidmətinin təşkil olunması;<br>2. Ərazidə quraşdırılmış alternativ enerji mənbəyinin fəaliyyətinin təmin olunması üçün çatışmayan avadanlıqları quraşdırmaqla elektrik enerjisinə çəkilən xərclərin azaldılması;<br>3. Texnoparkın və digər laboratoriyaların avadanlıqlarını işlək vəziyyətə gətirməklə kənardan sifarişlərin qəbul edilməsi və ATM üçün əlavə gəlir mənbələrinin yaradılması;<br>4. Kitabxanada vahid oxu zalının yaradılması;<br>5. ATM-də inklüzivliyin təşkil edilməsi;<br>6. Yataqxanalarda ilkin tibbi yardım xidmətinin təşkil edilməsi;<br>7. Oğlanlar yataqxanasında tədris fəaliyyətinin dayandırılması;<br>8. Qapalı idman zalının təşkil edilməsi və açıq idman meydançalarının şəraitinin yaxşılaşdırılması. |

## 7. Beynəlmiləlləşmə

| | |
|---|---|
| **Güclü tərəflər** | 1. Beynəlxalq əlaqələr üzrə təşkilati strukturun və infrastrukturun mövcudluğu, effektiv iş bölgüsünün olması;<br>2. Akademik heyətin beynəlxalq səviyyəli elmi-tədqiqat yönümlü konfrans, seminar və görüşlərdə fəal iştirakı;<br>3. ATM-in məlumatlarının reytinq cədvəllərində effektiv işlənməsi və monitorinqi;<br>4. Erasmus+ layihələri çərçivəsində qısa müddət ərzində güclü tərəfdaşlıq münasibətlərinin qurulması (həm Erasmus KA+1, həm Erasmus KA+2 layihə proqramları çərçivəsində);<br>5. İkili diplom proqramlarının təşkili və effektiv idarə edilməsi. |
| **Zəif tərəflər** | 1. Beynəlmiləlləşmə Strategiyasının əhatəli olmaması, indikatorların və Strategiyanın müddətinin müəyyən olunmaması, izlənmə mexanizminin olmaması;<br>2. Universitet daxilində hesabatlılığın zəif olması və bunun beynəlxalq əlaqələr istiqamətində özünü göstərməsi;<br>3. Görüşlərin nəticələri haqqında, verilən qərarlar haqqında təsdiqedici sənədlərin (protokolların) olmaması;<br>4. SİP-də Beynəlxalq əlaqələrin inkişafı istiqamətində bir neçə hədəflə bağlı işlərin görülməməsi ( hədəflərin düzgün prioritetləşdirilməməsi). |
| **İmkanlar** | 1. Əlverişli infrastruktur olmasını nəzərə alaraq, Mərkəzi və Şərqi Asiya universitetləri ilə əməkdaşlıq və mübadilə imkanlarının yaradılması;<br>2. ATM-in struktur bölmələrinin əməkdaşlarının geniş təcrübəsinin olmasını nəzərə alaraq, universitet daxilində layihələrin yazılması ilə bağlı təlimlərin keçirilməsi;<br>3. Beynəlxalq və respublika səviyyəli yerli qrant layihələrində ATM-in iştirakının təmin edilməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Beynəlmiləlləşmə istiqamətində olan hesabatlılığın (SİP 2020-2023 sənədi və İllik iş planı əsasında) effektiv formada təşkil edilməsi, hesabatlılıq əsasında düzəldici fəaliyyətlərin işlənməsi və izlənilməsi;<br>2. Akademik/inzibati heyətin və tələbələrin mübadiləsi prosesinin şəffaf və hamıya əlçatanlığını təmin etmək məqsədilə daxili prosedurun hazırlanması və təsdiq edilməsi;<br>3. İnzibati heyətin səriştələrinin artırılması məqsədilə onlara qrant əsaslı mübadilə proqramlarında iştirak etməsi üçün universitetlərlə əməkdaşlığın qurulması; |

| | |
|---|---|
| | 4. BMU-ya tələbə mübadiləsini təmin etmək üçün universitetlərlə (xüsusən də inkişaf etməkdə olan ölkələrin universitetləri ilə) əməkdalığın daha da genişləndirilməsi;<br>5. Beynəlmiləlləşmə istiqamətində maliyyə resursları barədə məlumatlılığın təmin edilməsi, öncədən proqnozlaşdırılması və bunların yeni Strategiyada nəzərə alınması;<br>6. Sorğularda və digər tədbirlərdə xarici tələbələrin də iştirakını nəzərə alaraq, müvafiq sənədləşmələrin ingilis dilində də aparılması;<br>7. Mübadilədə iştirak etmiş şəxslər ( akademik/ administrativ və tələbə) arasında sorğuların keçirilməsi və universitetlərlə cari əməkdaşlıqların təkmilləşdirməsi;<br>8. Yeni Beynəlmiləlləşmə Strategiyası hazırlanan zaman qısamüddətli və ortamüddətli hədəflər qoyularaq prosesin daha operativ ölçülməsinin təmin edilməsi, bütün maraqlı tərəflərin beynəlmiləlləşmə strategiyasının formalaşdırılmasına cəlb olunması. |

### Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

BMU-nun fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq, müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Akkreditasiya Komissiyası tərəfindən hər bir istiqamət üzrə müəyyən tövsiyələr (Strateji inkişaf istiqaməti üzrə - 9; Keyfiyyət təminatı istiqaməti üzrə - 5; Təlim və tədris istiqaməti üzrə - 11; Elmi tədqiqat istiqaməti üzrə - 6; İdarəetmə sistemi istiqaməti üzrə - 6; İnfrastruktur istiqaməti üzrə - 8; Beynəlmiləlləşmə istiqaməti üzrə - 8 tövsiyə olmaqla, ümumilikdə - 53 tövsiyə) təqdim edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin BMU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarətin təmin edilməsi məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

Qeyd olunanlardan əlavə Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair aşağıdakı tövsiyələri vardır:

- ATM-lərdə hər bir fənn üzrə tələbələrə verilən sərbəst tapşırıqların AR TN 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”də müəyyən edilən sayına yenidən baxılması (Belə ki, əsasnamədə sərbəst tapşırıqların sayı 10 müəyyən edilsə də, ATM-lərdə 1, 2, 5, 10 və s. sayda sərbəst tapşırıq verilir. Ona görə də sərbəst tapşırıqların sayının ATM tərəfindən və fənnin məzmunindan asılı olaraq müəllim tərəfindən müəyyən edilməsi nəzərdə tutula bilər).

### Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

ATM-in institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyasının yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, BMU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətləri qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilir;

- BMU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.